Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Siyasi–Hüquqi Tədqiqatlar İnstitutu

ELMİ ƏSƏRLƏR

elmi-nəzəri jurnal

№ 2-3(13)

Jurnalın bu sayı görkəmli filosof, akademik Heydər Hüseynovun 100 illiyinə həsr olunur

BAKI-2008

REDAKSİYA HEYƏTİ:

Baş redaktor:

İlham MƏMMƏDZADƏ
Fəlsəfə elmləri doktoru

Baş redaktor müavini:

Bəhram ZAHİDOV
Hüquq elmləri doktoru

Məsul katib:

Həbib HÜSEYNOV

Redaksiya heyətinin üzvləri:

Səlahəddin XƏLİLOV
AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor

Əlikram TAĞIYEV
Fəlsəfə elmləri doktoru, professor

Əbülhəsən ABBASOV
Fəlsəfə elmləri doktoru

Adil ƏSƏDOV
Fəlsəfə elmləri doktoru

Elmira ZAMANOVA
Fəlsəfə elmləri doktoru

Mayis ƏLİYEV
Hüquq elmləri doktoru

Həsən ƏLİBƏYLİ
Tarix elmləri doktoru, professor

Solmaz RZAQULUZADƏ
Fəlsəfə elmləri namizədi

Tahirə ALLAHYAROVA
Fəlsəfə elmləri namizədi

Redaksiya heyətinin ünvanı:
Azərbaycan Respublikası, Bakı şəhəri,
Hüseyn Cavid pr.31, AMEA-nın əsas binası, IX mərtəbə.
Tel.: 403-15-11; Faks: (99412) 439-34-61; e-mail: west-east @ lan.ab.az
ISBN 9952 428-03-0
AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 4. 16.04.2008)

Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 1704. 17.02.06
Azərbaycan Respublikası AAK-nın 22.IX.2006 il tarixli qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.

İÇİNDƏKİLƏR

Yusif RÜSTƏMOV
Heydər Hüseynov-100 7

I FƏLSƏFƏ BÖLMƏSİ

Nizami MƏMMƏDOV
Ətraf mühit etikası və davamlı inkişaf: Şərqi Avropa aspekti……...14

Таир MAXAMATOB
Через просвещение к развитию национального самосознания……..20

Əbülhəsən ABBASOV, Zülfüqar İBRAHIMLI
Müasir elmdə intellektual kapital anlayışı 25

Dilqəm İSMAYILOV
Konservatizm struktur fenomen kimi 31

Ариз ГЕЗАЛОВ
Философское осмысление глобальных проблем.....37

Nicat MƏMMƏDOV
Azərbaycan Maarifçiliyinin spesifik xüsusiyyətlərinin ölkənin ictimai inkişafının problemlərində əksi.....42

Фарида МИР-БАГИРЗАДЕ
Эволюционное развитие символа 38

Əliyar ORUCOV
Həsən Bəy Zərdabi yaradıcılığında milli mənlik və milli özünüdərk haqqında 44

Şəhla MUSAYEVA
Qloballaşmanın Azərbaycan məkanında əxlaqi-etik problemlərə təsiri 50

Fuad ABBASOV
Praqmatizmdə həqiqət konsepsiyası.....56

Fatma KƏRİMOVA
Qloballaşma prosesinin sosial-fəlsəfi mahiyyəti və nəzəri-metodoloji əsasları 60

Samir MƏCİDOV
Maraq, mənafe və tələbatların qarşılıqlı əlaqəsi 66

Adil HÜSEYNOV
Fəlsəfə fikir tarixində insan probleminin bəzi məsələləri 71

II SOSİAL-SİYASİ BÖLMƏ

Abdusalam A.HÜSEYNOV
Tolerantlıq və sivilizasiyaların dialoqu……..

Rövşən HACIYEV
Mustyedən Üst paleolitə keçid problemi 75

İlham MİRZƏYEV
Qarabağ münaqişəsinin nizamlanmasının sosial-psixoloji məsələləri 81

Мятляб МАЩМУДОВ
Müasir dövrdə idarəetmə elminin inkişaf meylləri 85

Yaqut PAŞAYEVA
Azərbaycan musiqi mədəniyyətimiz xarici mətbuatda 92

Yadigar TÜRKEL
Erməni siyasətçilərinin XX yüzillikdə Qarabağın dağlıq yerlərini ələ keçirməyə çalışmaları haqqında 100

Habil HƏMİDOV
TRASEKA-ya üzv Azərbaycanın Pakistanla beynəlxalq əlaqələri 106

Ramilə DADAŞOVA
Beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində BMT TŞ-nın rolu 114

Гяриб АЛЛАЩВЕРДИЙЕВ
Azadlıq və sosial ədalət 121

Güldanə BABAYEVA
Türkdilli dövlətlərin siyasi əlaqələrinin inkişafı və iri dövlətlərin maraqları 127

Abbas ORUCƏLİYEV
Hərbi müdafiə strategiyası 132

Ağasəlim HƏSƏNOV
Azərbaycançılıq ideyası və mənəvi dəyərlər 136

Əhədi Hadibeglu Əsğər Əlisahib oğlu
İran cəmiyyətində ictimai təbəqələşmə və müharibə əlillərinin ictimaiyyətdə mövqeyi .. 140

Mikayıl ƏKBƏROV
Diaspor mədəniyyət daşıyıcısıdır 147

Джавад АХУНД-ЗАДЕ
О международно-геополитическом значение Каспийского региона на современном этапе 153

Musa QULUZADƏ
İkinci Dünya müharibəsindən sonra dinə qarşı mübarizənin yeni mərhələsinin başlanması....159

Təhminə AĞAKİŞİYEVA
Müasir ekoloji problem ekoloji reallığın məhsuludur.....164

Elmira TƏHMƏZOVA
Nizami Gəncəvinin əxlaqi görüşləri 171

Şahnaz QULİYEVA
Мцасир дюврдя эянъ гыз шяхсийятинин формалашмасынын психоложи мясяляляри.....178

Fərid HACIYEV
Kipr türkləri və yunanları arasında mövcud olan psixoloji, tarixi və siyasi baryerlər Kipr münaqişəsi kontekstində.....183

Мубариз АХМЕДОВ
Коммуникации, журналистская этика и становление демократии 189

Радмир МАГЕРРАМОВ
Китайско-Российское взаимодействие и построенионовой модели международных отношений 194

Anar ƏLİYEV
Qarabağ probleminin həllində BMT-nin rolu 198

Рафиг МИРЗЯЙЕВ
İrəvan diyarının siyasi tarixinə dair 203

Çingiz QURBANOV
Evtanaziya və onun ətarafında yaranan etik problemlər 207

Adilə NƏZƏROVA
Müəllim mənəvi dəyərlərimizin daşıyıcısıdır.....214

HÜQUQ BÖLMƏSİ

Aqşin QULİYEV
«Siyasi və hüquqi təlimlər tarixi»nin öyrənilməsi və tədqiqinin bəzi məsələləri.....217

Əli RZAYEV
Hakimiyyətlərin bölgüsü: klassik nəzəriyyəsi onun konstitusiya mexanizmində realizəsi və dövlət qulluğunun təşkilində rolu.....223

Miraferim СЕЙИДОВ

XI–XII əsrlərdə Azərbaycanda dünyəvi qanunvericiliyin inkişafı məsələləri 230

Закир ГАСЫМОВ
Понятие закона и его структура 237

Рауф КАРАЕВ
Проблема повышения эффективности принципа территориальной целостности государств в международном праве. Статья 1. Эффективность принципа территориальной целостности государств в системе международно-правового регулирования 241

Anar Məhərrəmov, Daşqın Qənbərov
Beynəlxalq ekoloji standartların pozulmasına görə hüquqi məsuliyyət 249

Qabil ZAMANOV
Beynəlxalq cinayətlərlə (sülh və insanliq əleyhinə olan cinayətlərlə) mübarizədə beynəlxalq hüquqi əməkdaşliq 255

Фарид ХАТАМ-ЗАДЕ
Понятие транзитного прохода и его правовой режим 262

Камиля ГЕЗАЛОВА
Свойства оправдательного приговора 265

Мирбашир АЛИЕВ, Яхья АЛИЕВ
Конституционно-правовые основы деятельности органов прокуратуры в странах Европы и США..... 271

Şəfahət İMRANOV
Cinayət təqibinin həyata keçirilməsində cinayət prosesinin prinsiplərinin əhəmiyyəti ... 278

ЩЕЙДЯР ЩЦСЕЙНОВ-100

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin elm xadimlərinə göstərdiyi xüsusi qayğı sayəsində müstəqil respublikamızda xalqın mənəvi irsinə münasibət diqqət mərkəzindədir. Məhz buna görə də Heydər Hüseynovun 100 illiyi dövlət səviyyəsində qeyd olunur və onun «Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən» kitabı işıq üzü görür.

H.Hüseynov böyük alim, dərin təfəkkürlü filosof kimi Azərbaycanda ictimai və humanitar elmlərin, xüsusən fəlsəfənin inkişafında müstəsna xidmətləri olan görkəmli şəxsiyyətdir.

Bu məqalədə biz alimin həyat yolu haqqında oxucuya qısa məlumat verməyi də məqsədəuyğun sayırıq.

H.Hüseynov 1908-ci ildə Yerevan şəhərində anadan olmuşdur.O, 1931-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmiş, Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspirantı (1931-1932) olmuşdur. H.Hüseynov SSRİ Elmlər Akademiyası Azərbaycan filialının Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru (1936-1940), SSRİ Elmlər Akademiyası Azərbaycan filialının sədr müavini (1939-1945), Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti və başqa vəzifələrdə çalışmışdır. O, faktiki olaraq Azərbaycan EA-ın əsas yaradıcılarından biri olmuşdur. H.Hüseynov EA-ın Fəlsəfə İnstitutunun və Azərbaycan Dövlət Universitetinin fəlsəfə kafedrasının və fəlsəfə bölməsinin yaradıcısıdır, deməli, Respublikada fəlsəfə elminin tədqiqi və tədrisi işinin təşkilatçısı və rəhbəri olmuşdur.

H.Hüseynovun elmi fəaliyyət dairəsi olduqca genişdir. O, marksizm nəzəriyyəsi ilə yanaşı, Azərbaycan və rus ictimai və fəlsəfi fikrinin, Azərbaycan ədəbiyyatının tədqiqi ilə məşğul olmuşdur. H.Hüseynov «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi»nin (c.I-II, 1943-1944) redaktorlarından biri, «Rusca-azərbaycanca lüğət»in (c.I-IV, 1940-1946), «Azərbaycanca-rusca lüğət»in (1939) redaktoru idi.

H.Hüseynovun İkinci Dünya müharibəsi dövründə «Faşizmin irq nəzəriyyəsi» (1941), «Faşizmin məhvi labüddür» (1942), «Faşist cəlladlarının «fəlsəfəsi» (1941), «Faşizm elmin düşmənidir» (1941), «Ə.Şıxlinski» (1944-1945) və başqa elmi-kütləvi kitabça və məqalələri çap olunmuşdur. Bununla yanaşı həmin dövrdə sırf elmi tədqiqatla da məşğul olmuşdur.

H.Hüseynovun ədəbiyyatşünaslığa dair əsərləri var. O, «Ədəbi qeydlər», «Vətənpərvər şair Səməd Vurğun» kitabçalarının, C.Cabarlı, S.Rüstəm və başqaları haqqında məqalələrin müəllifidir.

H.Hüseynov Azərbaycan mədəniyyətinin böyük nümayəndələrinin fəlsəfi irsini öyrənmişdir. 1939-cu ildən başlayaraq Bəhmənyar, Nizami Gəncəvi, Füzuli, A.Bakıxanov, Mirzə Kazım bəy, H.Zərdabi və başqaları haqqında tədqiqat aparmışdır.

H.Hüseynov Azərbaycanda ilk fəlsəfə elmləri doktoru (1944), professor, Azərbaycan Elmlər Akademiyasının ilk həqiqi üzvlərindən biridir.

Alimin həyat və yaradıcılığı haqqında qısaca məlumat verməkdə məqsədimiz onun olduqca az müddətdə nə qədər çox işlər gördüyü haqqında oxucuda təsəvvür yaratmaqdır. O, cəmi 42 il (1908-1950) yaşadı. Belə qısa zaman kəsiyində bu qədər çətin işin öhdəsindən yalnız böyük istedad sahibi gələ bilər.

H.Hüseynovun şah əsəri «Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən» monoqrafiyasıdır. Bu əsər onun axırıncı kitabı oldu. İndi isə bu kitabın məzmunu haqqında qısa elmi icmal vermək istəyirik.

Müəllif əsərinin giriş hissəsində əsaslandırmağa çalışır ki, XIX əsr Azərbaycan mədəniyyətini keçmişlə varislik əlaqəsində tədqiq etmək zəruridir. Ona görə də əsərin əvvəlində o, ən ümumi şəkildə oxucunu Azərbaycan mədəniyyətinin qədim dövr və orta əsr tarixinin əsas məqamları ilə tanış edir. O, Məzdək təlimi haqqında qısa məlumat verir, bir sıra mütəfəkkirlərin adını çəkir, «Kitabı-Dədə Qorqud» eposunun əhəmiyyətini xüsusi vurğulayır. O, böyük Azərbaycan filosofu Bəhmənyarın fəlsəfəsi haqqında ətraflı yazır.

H.Hüseynov orta əsr Azərbaycan şairləri, xüsusən Nizami Gəncəvinin ictimai və fəlsəfi fikirlərini məharətlə araşdırır. Onun Mahmud Şəbüstəri haqqında dedikləri də müasir oxucuda böyük maraq doğurur. Nəimi, Nəsimi, Xətai və başqa Azərbaycan şairlərinin ictimai-siyasi və fəlsəfi görüşlərinin qısa icmalını verir. H.Hüseynov XVI yüzillikdə Azərbaycanın fəlsəfi fikrinin inkişafı tarixində Məhəmməd Füzulinin xüsusi yer tutduğunu vurğulayır.

Beləliklə, H.Hüseynov XIX əsr Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrinin köklərini ilk növbədə xalqımızın özünün keçmiş mədəni irsində axtarır və aşkar edir, haqlı olaraq belə varislik əlaqəsinin zəruri olduğunu sübut edir. O, eyni zamanda XIX əsr Azərbaycan mədəniyyətinin inkişafına mütərəqqi rus ictimai və fəlsəfi fikrinin səmərəli təsirini xüsusi qeyd edir. Belə təsir, əlbəttə, olmuşdur. Lakin bu təsiri mütləqləşdirmək o dövrün siyasi rejiminin əsas tələblərindən biri idi.

H.Hüseynovun kitabı altı fəsildən ibarətdir. Müəllif çox məharətlə həmin fəsillərdə tədqiq etdiyi mövzular arasında məntiqi ardıcıllıq yarada bilmişdir.

H.Hüseynov bilavasitə ictimai və fəlsəfi fikrin təhlilinə keçməzdən əvvəl, XIX əsrdə Azərbaycanda sosial-iqtisadi vəziyyəti, siyasi və mədəni mühitin ümumi mənzərəsini verir, sonrakı fəsillərin mövzularını məhz bu kontekstdə araşdırır.

Sovet dövründəki hakim ideologiyanın tələblərinə uyğun olaraq H.Hüseynov da Azərbaycanın İran və Türkiyə ilə deyil, Rusiya ilə birləşməsini daha məqbul saymışdır. Bunu deklarativ şəkildə bəyan etsə də, alim dövrün iqtisadi, sosial, mədəni, siyasi mənzərəsini əsasən düzgün qiymətləndirir, çar Rusiyasının Qafqazda müstəmləkəçilik siyasətini tənqid edir. O, eyni zamanda Rusiyanın mütərəqqi mədəniyyətinin Azərbaycan ziyalılarına müsbət təsirindən danışır, oradakı universitetlərin böyük rolunu qeyd edir. Bundan başqa, H.Hüseynov haqlı olaraq göstərir ki, Azərbaycanın Rusiyaya birləşməsi Rusiya ilə daha sıx əlaqə yaratmağı və onun vasitəsilə gələcəkdə təsərrüfat məhdudluğu çərçivəsindən çıxaraq dünya bazarına qoşulmağa və qismən də olsa kapitalizmin inkişaf dairəsinə daxil olmağa imkan yaratdı. O da qeyd olunur ki, Azərbaycanın elm və mədəniyyət xadimləri Rusiya vasitəsilə Avropa ilə tanış olurdular. Kifayət qədər çox konkret misallar çəkən H.Hüseynov eyni zamanda dəfələrlə çarizmin müstəmləkəçilik siyasətini xüsusi vurğulayır, rus üsul-idarəsinə qarşı baş vermiş kəndli üsyanlarının xarakterini düzgün qiymətləndirir. O, xüsusi olaraq qeyd edir ki, çar hökumətinin keçirdiyi kəndli islahatları Rusiyadakı kimi Azərbaycanda da kəndlilərin həyat şəraitini yaxşılaşdırmadı.

XIX əsrin 70-ci illərində Bakıda neft sənayesinin inkişafı burada kapitalizmin bərqərar olmasına səbəb oldu. H.Hüseynov haqlı olaraq deyir ki, Bakı sənayesində xarici kapital hakim mövqe tuturdu. Lakin bununla yanaşı, Bakıda kapitalizmin inkişafı şəhərin mədəni həyatına müsbət təsir göstərdi. Bakıda teatr açıldı, qəzet nəşr olundu, kitablar çap olundu, yeni tipli məktəblər açıldı, qabaqcıl ziyalılar meydana gəldi. Həmin dövrdə Mirzə Cəfər Topçubaşov Peterburq universitetinin, Mirzə Kazım bəy Qazan, sonralar isə Peterburq universitetinin professoru olmuşlar. Azərbaycanda az da olsa savadlı insanların sayı artdı.

Belə qısa, lakin zəruri olan icmaldan sonra H.Hüseynov bilavasitə özünün tədqiqat obyektinə keçir, XIX əsrdə yaşayıb yaratmış böyük elm və mədəniyyət xadimlərinin - Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov

və Həsən bəy Zərdabinin ictimai-siyasi və fəlsəfi fikrinin təhlilinə keçir, onların hər birinin yaradıcılığına ayrıca fəsil həsr edir.

Kitabın ikinci fəsli tamamilə A.Bakıxanovun elmi yaradıcılığına həsr edilibdir. H.Hüseynov Azərbaycan fəlsəfi fikir tarixində ilk dəfə olaraq mütəfəkkirin çoxsahəli elmi yaradıcılığının fəlsəfi təhlilini verir, onun sosial-siyasi görüşlərini ətraflı təhlil edir, onu maarifçi və ensiklopedik biliyə malik olduğunu qeyd edir. O, haqlı olaraq göstərir ki, A.Bakıxanov rus mədəniyyəti və onun vasitəsilə Avropa ilə tanış olan ilk azərbaycanlı mütəfəkkirlərdən biri olmuşdur. A.Bakıxanovun yaradıcılığını hərtərəfli təhlil edən H.Hüseynov, onun «Gülüstani-İrəm» əsərinin şərhinə daha çox yer ayırır. A.Bakıxanovun ədəbiyyat və dilə, dinə, əxlaqa, təbiətşünaslığa həsr olunmuş əsərləri də alimin diqqət mərkəzindədir. Burada bir məsələni xüsusi qeyd etməyi lazım bilirik. H.Hüseynov A.Bakıxanovun etik görüşlərini başqa mövzulara nisbətən daha ətraflı təhlil edir, ideoloji təzyiqi nəzərə almadan mütəfəkkirin əxlaq haqqında fikirlərini obyektiv, olduğu kimi araşdırır. Sonrakı fəsillərdə də belə hala tez-tez rast gəlirik.

Məlumdur ki, A.Bakıxanov rus ordusunun polkovniki olmuş və Tiflisdə rəsmi dövlət qulluğunda olmuşdur. Ona görə də onun siyasi görüşlərinə bu vəziyyətin təsiri olmuşdur. Lakin H.Hüseynov bunu xüsusi qabartmır, A.Bakıxanovun zülmə, ədalətsizliyə qarşı çıxmasını önə çəkir, onun humanizmini vurğulayır. A.Bakıxanov monarxiyanın əleyhinə olmamış, lakin monarxın şəxsiyyəti haqqında danışarkən mütəfəkkir hesab edirdi ki, o, ən yüksək insani ləyaqətlərə sahib olmalıdır; yəni padşah qorxmaz igid, İradəli, ağıllı, ədalətli, yüksək savadlı, elmə və sənətə himayəçi olan, eyni zamanda zülmün, cəhalətin əleyhinə çıxan adam olmalıdır.

Bildiyimiz kimi, A.Bakıxanov dindar insan olmuş, Məkkə ziyarətinə getmiş və orada vəfat etmişdir. Ateizmin hökmran olduğu bir dövrdə H.Hüseynov A.Bakıxanovun dini görüşlərinin ətraflı təhlilini verməmişdi, yəqin ki, bunu şüurlu olaraq etmişdir.

Rusiya Azərbaycanı işğal edəndən sonra ölkənin sosial-siyasi və mənəvi həyatında baş verən hadisələr bədii ədəbiyyatda da öz əksini tapır. A.Bakıxanovun, İsmayıl bəy Qutqaşenlinin, Mirzə Şəfi Vazehin, Qasım bəy Zakirin, M.F.Axundovun bədii yaradıcılığı Azərbaycan xalqının mənəvi mədəniyyətinin sonrakı inkişafından xəbər verir; onlar ölkədə zadağan maarifçiliyinin əsasını qoymuşlar. H.Hüseynov onlardan üçünün yaradıcılığını fəlsəfi baxımdan daha əhəmiyyətli hesab etmiş və xüsusi tədqiq etmişdir: A.Bakıxanov, M.Ş.Vazeh və M.F.Axundov.

Mirzə Şəfi Vazehin fəlsəfi ideyalarla zəngin şerləri H.Hüseynovun diqqətini cəlb etmişdir. O, M.Şəfinin həyatı haqqında qısa məlumat verir və onun nə üçün ruhani olmaqdan imtina etməsinin səbəbini göstərir. H.Hüseynov şairin aşağıdakı fikirlərini ön plana çəkir: ruhanilərə, mövhumata, istibdada qarşı çıxış, qadın azadlığı ideyaları. O, M.Şəfini real, obyektiv dünyanın insan şüurundan asılı olmayaraq mövcud olmasını qəbul edən materialist və ateist kimi təsvir edir. Belə fikir o qədər də inandırıcı deyil. Mirzə Şəfinin etik fikirlərini araşdırarkən, H.Hüseynov tamamilə obyektiv mövqedən çıxış edir, şairin əxlaq haqqında dediklərini qruplaşdırır və hər birini ayrılıqda təhlil edir. O, deyir ki, Mirzə Şəfinin poeziyası xalq ilə sıx bağlıdır; o xalqın əzab və iztirablarını, onun arzu və istəklərini əks etdirir.

H.Hüseynov əsərinin əhəmiyyətli bir hissəsini Mirzə Kazım bəyə həsr etmişdir. Onun Qazan və Peterburq universitetlərinin professoru haqqında bu tədqiqatı Azərbaycanda şərqşünas həmyerlimizə həsr olunan ilk samballı elmi işdir. H.Hüseynov Mirzə Kazım bəy haqqında xüsusi rəğbətlə yazır, onun nəinki təkcə Rusiya, hətta dünya şərqşünaslıq elminin ən böyük təmsilçilərindən biri olduğunu sübut edir. O, Kazım bəyin tərcümeyi-halının əsas məqamlarını ətraflı göstərir, onun elmi fəaliyyətini geniş işıqlandırır. H.Hüseynov M.Kazım bəyi Azərbaycan dilinin Rusiyada ilk tədqiqatçısı kimi

dəyərləndirərək onun ümumiyyətlə dil haqqında «xalqın dili onunla birlikdə böyüyür, onun təfəkkürü ilə birlikdə inkişaf edir» sözlərini xüsusi vurğulayır. M.Kazım bəy rus dilinin zənginliyi və özünəməxsusluğu haqqında da dəfələrlə demişdir.

H.Hüseynov M.Kazım bəyin ictimai və fəlsəfi fikrini təhlil etməzdən əvvəl onun dərin mənalı aşağıdakı fikrini epiqraf kimi göstərir: «İmkan daxilində biliyə marağını təmin etmək üçün ağıl ondan asılı olan bütün vasitələrə əl atır: o predmet və hadisələri əvvəlcə ayrılıqda nəzərdən keçirir, onlar haqqında anlayışlar yaradır və sonra bu anlayışların öz aralarındakı münasibətlərinə görə və bu münasibətlərin nəticələrinə görə mühakimə yürüdür».

H.Hüseynov M.Kazım bəyin mifologiya haqqında dediklərini uğurla qruplaşdırır, onların insan həyatında, cəmiyyətdə və mədəniyyətdə rolunu təhlil edir, professorun əsərlərindən çoxlu misallar gətirir, onun təfəkkürün yaranma səbəbini idealistcəsinə izah etməsi ilə razılaşmır, materialist izahın yeganə doğru fikir olduğunu təsdiq edir.

M.Kazımbəyin «Müridizm və Şamil» əsəri, H.Hüseynovun haqlı olaraq dediyi kimi, «Şamilin başçılığı altında dağlıların xalq-azadlıq hərəkatına həsr edilmiş» və onun yaradıcılığında mühüm yer tutur. Belə fikrə görə Azərbaycanın o dövrdəki lideri M.C.Bağırov onun tənqid etmiş və Şamilin başçılıq etdiyi hərəkatın milli azadlıq müharibəsi deyil, mürtəce xarakter daşıyan dini-siyasi cərəyan olduğunu demişdir. H.Hüseynovun özü də M.Kazım bəyi «müridizmin sosial-sinfi köklərini» açа bilmədiyi üçün tənqid edirdi.

M.Kazım bəyin sosial-fəlsəfi məsələlərə həsr olunmuş əsərləri arasında «Bab və babilər» tədqiqatı da öz aktuallığı ilə seçilmişdir. H.Hüseynov sübut etməyə çalışır ki, M.Kazım bəy bu əsərinə cəhalət, gerilik əleyhinə, fanatizm və mövhumata qarşı əsl maarifçi kimi çıxış etmişdir. Burada da akademik qətiyyətlə deyir ki, M.Kazım bəy təbiət hadisələrini izah edərkən materialist mövqedə durmuşdur. Belə birtərəfli yanaşma sovet dövrünün ümumi bəlası idi. M.Kazım bəy materialist olmamışdır.

H.Hüseynov eyni zamanda haqlı olaraq qeyd edir ki, M.Kazımbəyin «Bab və babilər» əsəri onlar haqqında düzgün təsəvvür yaradan ilk qiymətli tədqiqat işidir. Əlavə edək ki, bu əsər indi də aktuallığını itirməyibdir.

Mirzə Kazım bəyə həsr olunmuş dördüncü fəsli H.Hüseynov belə yekunlaşdırır: «Maarifçi və alim olan Mirzə Kazım bəy özünün filologiya, fəlsəfə və tarix məsələlərinə dair tədqiqatları ilə Azərbaycanda XIX əsr ictimai fikrinin inkişafında görkəmli yer tutur. Professor Mirzə Kazım bəy həmçinin Azərbaycan dilinin elmi qrammatikasının hamı tərəfindən qəbul edilmiş banisidir».

H.Hüseynovun təqdim edilən əsərinin həm həcminə, həm də məzmununa görə ən böyük V fəsli Mirzə Fətəli Axundovun elmi yaradıcılığına həsr olunmuşdur. O, M.F.Axundovu «Azərbaycanın XIX əsr mütərəqqi ictimai və fəlsəfi fikrinin ən görkəmli nümayəndəsi» adlandırır. Bu həhiqətən belədir.

M.F.Axundov əsərlərində öz sosial idealının həyata keçirilməsində insan ağlına böyük ümid bəsləyir və göstərirdi ki, elm, maarif tərəqqinin əsas amilidir, «insan növünün tərəqqisi ağıl ilədir». Ona görə də «cəmiyyət öz fərdlərinə fikir azadlığını verməlidir». Mütəfəkkir sənayenin inkişafı nəticəsində o vaxt Avropa ölkələrinin xeyli tərəqqi etdiyini nümunə göstərir, sənayenin inkişafını tərəqqinin mühüm amili kimi qeyd edirdi. M.F.Axundov materialist kimi dini tənqid edir və onu tərəqqi yolunda ən böyük maneə hesab edirdi. O, tərəqqi üçün maarifi əsas amil sayırdı. Bütün bunları H.Hüseynov ətraflı təhlil edir və M.F.Axundov haqqında olduqca yüksək fikirdə olduğunu göstərir.

H.Hüseynov M.F.Axundovun tərcümeyi-halı haqqında geniş məlumat verir, onun dünyagörüşünün formalaşmasının yollarını göstərir, çoxlu misallar gətirir.

Kitabın bu hissəsində H.Hüseynov M.F.Axundovun bədii yaradıcılığını təhlil edir, onun orijinal komediyaları və «Aldanmış kəvakib» povesti haqqında danışır. Lakin

«Kamalüdövlə məktubları»nı onun yaradıcılığının zirvəsi hesab edir. O, M.F.Axundovun öz əsəri haqqında belə bir fikrini vurğulayır: bu əsəri oxuyan adam islam dünyasının tərəqqisinin yalnız maariflənmə yolu ilə ola biləcəyinə, islam dininin isə bu tərəqqiyə mane olduğunu başa düşər.

H.Hüseynov M.F.Axundovun dünyagörüşünün qaynaqlarından danışarkən deyirdi ki, mütəfəkkir rus inqilabçı demokratlarının – V.Q.Belinski, A.İ.Qertsen, N.Q.Çernışyevski və N.A.Dobrolyubovun, həmçinin Spinoza, Monteskyö, Volter, Lametri, Didro, Helvetsi, Holbax, Melye və başqalarının fəlsəfi baxışlarını alqışlamış və təbliğ etmişdir və bununla yanaşı öz yeni ideyalarını, orijinal fəlsəfi fikirlərini irəli sürmüşdür.

H.Hüseynovun fikrincə, M.F.Axundov çar hökumətinin idarəetmə metodlarını, qanun və qaydalarını yaxşı bildiyi üçün çar dövlət məmurlarının çirkin əməllərini tənqid edirdi. O, qətiyyətlə deyirdi ki, M.F.Axundov mütərəqqi demokratik ideyalar irəli sürür və onların həyata keçirilməsi uğrunda mübarizə aparırdı, köhnə dünyanın kökündən dəyişməsini istəyirdi. Beləliklə. dövrün tələblərinə uyğun olaraq H.Hüseynov M.F.Axundovun fikirlərində daha çox demokratiya, hətta inqilabçılığa meyl axtarır, onları «tapır» və xeyli şişirdirdi.

1850-ci illərdə M.F.Axundov maarifpərvər, ədalətli hökmdara ümid bağlayırdı. «Aldanmış kəvakib» povestində hətta sadə xalq içərisindən çıxmış ağıllı hökmdar surəti yaradaraq, onun cəsarətli tədbirlərini, islahat fikirlərini tərifləyirdi. O, həm də göstərirdi ki, şah nə qədər ağıllı olsa da, nə qədər yaxşı işlər görsə də, əgər xalq onu başa düşmürsə, bu cəhdlərin heç bir xeyri ola bilməz. Odur ki, «qara kütlə» 15 gündən sonra xalq içərisindən hakimiyyətə gəlmiş Yusif Sərracı devirir.

1860-cı illərdə isə M.F.Axundov konstitusiyalı monarxiya fikrini, dövlətin idarə edilməsində xalqın iştirakı məsələsini irəli sürür.

H.Hüseynov M.F.Axundovun dünyagörüşündə materialist, ateist, demokratik cəhətləri daim ön plana çəkir, məhz bu cəhətləri onun aparıcı, həlledici və dəyişməz tərkib hissəsi hesab edir və deyir ki, M.F.Axundov «barışmaz ateist və materialist» kimi heç bir zaman öz əqidəsindən dönmürdü. Bizim fikrimizcə, M.F.Axundovun maarifçiliyi ön plana çəkilməlidir. Elə H.Hüseynov da bir qədər sonra M.F.Axundovu maarifçi və humanist kimi səciyyələndirir, lakin yenə də onun ateizm və materializmini xüsusi dəyərləndirir və məhz onların köhnə dünyanı dəyişdirəcəyini xüsusi vurğulayır. H.Hüseynov göstərir ki, M.F.Axundov yorulmadan elm və incəsənətin inkişafına mane olan ruhaniləri ifşa edirdi, islam və ümumiyyətlə bütün dinlərdən bəhs edərkən, onları əfsanə adlandırırdı.

H.Hüseynov M.F.Axundovun materialist və ateist fikirlərini yüksək dəyərləndirir və eyni zamanda onun idealizmi tənqidinin çatışmayan cəhətini marksizm mövqeyindən araşdırır. Onun fikrincə, M.F.Axundov idealizmin qnoseoloji köklərini düzgün qiymətləndirə bilmir, çünki onun materializmi mexaniki xarakter daşıyır, ona görə də dinin sosial qaynaqlarını da görmür. M.F.Axundov təbiət hadisələrini izah edərkən materialist, cəmiyyəti izah edərkən marksaqədərki bütün materialistlər kimi idealist mövqedə dayanır. Tarixə materialist baxış isə yalnız marksizmə aiddir.

H.Hüseynov M.F.Axundovun materiya və şüur, idrak, zaman və məkan, səbəb və nəticə və başqa fəlsəfi kateqoriyalar haqqında fikirlərini olduqca ətraflı təhlil edir. O, eyni zamanda mütəfəkkirin ictimai-siyasi görüşlərini də diqqətlə araşdırır, azadlıq və bərabərlik, ədalət və humanizm haqqında danışarkən o, M.F.Axundovun formal, mücərrəd bərabərlik və azadlıqdan deyil, real, həqiqi azadlıq və bərabərliyi nəzərdə tutduğunu göstərir, azadlığın insan mahiyyətindən doğduğunu irəli sürür, despotizmi insan azadlığının düşməni hesab edirdi.

H.Hüseynov M.F.Axundovun estetika və ədəbiyyatşünaslıq haqqında fikirlərinə böyük qiymət verir və göstərir ki, o, Azərbaycan ictimai və fəlsəfi fikir tarixində ilk dəfə olaraq estetika və ədəbi tənqid haqqında təlim yaradıbdır.

H.Hüseynov haqlı olaraq təsdiq edirdi ki, Azərbaycanın ictimai fikir tarixində ümumiyyətlə din əleyhinə belə kəskinliklə çıxış edən mütəfəkkir olmamışdır. M.F.Axundov yalnız materialist fəlsəfəni qəbul edir, dindar adamın alim olmasına şübhə edirdi, dini uydurma və mənasız sayırdı. H.Hüseynov dinə belə münasibəti təqdir edir. M.F.Axundov hesab edirdi ki, dini fanatizmi aradan qaldırmağın yeganə yolu elm və marifin inkişaf etdirilməsidir. H.Hüseynov bu fikri dəfələrlə təkrar edir və o dövr üçün mütərəqqi ideya hesab edir. Onun fikrincə, elm və bilik yalnız insanın maddi həyatının təmin olunması vasitəsi deyil, həm də onun həyat tərzinin, cəmiyyətdəki davranışının nizamlanması, bir sözlə, mənəvi-əxlaqi keyfiyyətlərin formalaşması üçün zəruridir.

H.Hüseynov dini və ruhaniləri qətiyyətlə tənqid edən M.F.Axundovun aşağıdakı sözlərini epiqraf kimi göstərir: «…Bizim ruhanilərimizin ruhların bədəndən ayrıldıqdan sonra xüsusi yerlərdə öz-özlərinə zərfsiz və qəlbsiz yaşamaları haqqındakı təsəvvürləri, fikirləri və əqidələri heç bir tənqid qarşısında dayana bilməz». Beləliklə, M.F.Axundov axirət dünyasının mövcudluğunu rədd edir və bu nəticəyə gəlir ki, dünyada mövcud olan hər şey materiyadır. Onun fikrincə, maddi aləm heç bir xarici qüvvəyə möhtac deyil.

H.Hüseynov M.F.Axundovun «Babilik əqidələri» məqaləsində irəli sürdüyü fikirləri də yüksək qiymətləndirir. Burada M.F.Axundov babilər hərəkatını o zamankı İran dövlətində islahat tələb edən sosial-siyasi cərəyan hesab edir, onu islam ehkamları əleyhinə çıxış edən azadfikirli dini-fəlsəfi hərəkat kimi səciyyələndirir.

Barışmaz ateist və materialist mövqeyinə baxmayaraq H.Hüseynov M.F.Axundovun Azərbaycanın sosial-siyasi və fəlsəfi fikir tarixində rolunu olduqca yüksək qiymətləndirir. O, haqlı olaraq yazır: «M.F.Axundov xalqı qəlbən sevmiş və öz vətəninin alovlu müdafiəçisi olmuşdur. Azərbaycan xalqının o zamanın mütərəqqi ideyalarının daşıyıcısı olan bu görkəmli oğlu öz əsərləri ilə Azərbaycanda ictimai və fəlsəfi fikrin inkişafı tarixində bütöv bir dövr yaratmışdır».

H.Hüseynov kitabının böyük bir hissəsini təşkil edən axırıncı VI fəslini M.F.Axundovun dostu və davamçısı Həsən bəy Zərdabinin həyat və yaradıcılığına həsr etmişdir. Göstərmək lazımdır ki, o vaxta qədər H.Zərdabinin dünyagörüşünə həsr edilmiş ilk böyük və hərtərəfli tədqiqat H.Hüseynovun məhz bu kitabıdır. O, H.Zərdabini demokrat-publisist, təbiətşünas, Rusiyada Azərbaycan dilində ilk qəzet olan «Əkinçi»nin yaradıcısı və redaktoru, Azərbaycan teatrının banisi, görkəmli ictimai xadim adlandırır.

Azərbaycan dilində qəzetin zəruriliyindən danışarkən H.Zərdabinin dediyi sözləri H.Hüseynov epiqraf kimi verir və mətndə onların əhəmiyyəti haqqında ətraflı yazır. H.Zərdabi deyirdi: «…Qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq nikü bədindən xəbərdar olub onun əlacının dalıncan olsun». İstedadlı publisist kimi H.Zərdabi dövri mətbuatın rolunu yüksək qiymətləndirirdi: o, hesab edirdi ki, geriliyə və irticaya qarşı mübarizədə, elm və maarifin təbliğində, vətənpərvərlik ideyasının yayılması işində qəzetin müstəsna rolu var. Məhz qəzet vasitəsilə Zərdabi çar hakimiyyət orqanlarının bürokratizmini, rüşvətxorluğunu, müstəmləkəçilik siyasətini kəskin tənqid edirdi.

H.Hüseynov H.Zərdabinin tarixin inkişafını yüksələn xətt üzrə hərəkət hesab etməsini xüsusi qiymətləndirir. H.Zərdabiyə görə, elmin, maarifin, əkinçiliyin, sənayenin nailiyyətləri tarixi inkişafı şərtləndirir. O, göstərirdi ki, bəşəriyyət təbii və qanunauyğun olaraq irəliyə doğru tərəqqi edir.

«Əkinçi» qəzeti, adından da göründüyü kimi, ilk növbədə Azərbaycan əhalisinin mütləq əksəriyyətini təşkil edən kəndlilərin mənafeyini müdafiə edirdi. Bunu nəzərə alan

H.Hüseynov H.Zərdabinin bu istiqamətdəki fəaliyyətini xüsusi qeyd edir. Çünki H.Zərdabi təhkimçilik hüququnu kəskin tənqid edir, onu cəmiyyətə zidd hadisə hesab edirdi. O, xırda kənd təsərrüfat birliklərinin yaradılmasını təklif edirdi.

H.Hüseynov haqlı olaraq H.Zərdabinin maarifçilik fəaliyyətini ön plana çəkir, onun yaradıcılığında məhz maarifçiliyin aparıcı ideya olduğunu xüsusi vurğulayır. Həqiqətən də, ictimai tərəqqinin, təsərrüfatın inkişafının, xalqın maddi və mənəvi rifahının yaxşılaşmasının əsas mənbəyini H.Zərdabi elm və maarifdə görürdü. Müsəlman xalqlarının geri qalmasının əsas səbəbini o, cəhalət, savadsızlıq ilə bağlayırdı. H.Zərdabi maarifçi kimi dünyəvi təhsil və tərbiyə ocaqlarının çox az olmasını, xalqın müasir elmi bilikdən xəbərsiz olmasını sosial-iqtisadi və mənəvi geriliyin səbəbi hesab edirdi.

Bir daha xüsusi olaraq qeyd etmək lazımdır ki, Heydər Hüseynov böyük alim, dərin təfəkkürlü filosof kimi XIX əsrdə yaşayıb yaratmış görkəmli Azərbaycan mütəfəkkirləri Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Mirzə Kazım bəy, Həsən bəy Zərdabinin dünyagörüşünü məharətlə təhlil etmiş, ümumiyyətlə Azərbaycan fəlsəfə tarixinin sistemli tədqiqinin elmi əsasını qoymuşdur. Onun Qədim dövrdən başlayaraq XIX əsrə qədər Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixi haqqında qısa icmalı da böyük maraq doğurur.

Qeyd etmək istəyirik ki, kitab yazılan vaxt yuxarıda adları çəkilən Azərbaycan mütəfəkkirlərinin əsərlərinin külliyyatı hələ çap olunmamışdır, müəllif çox hallarda bilavasitə arxiv materiallarına müraciət etmək məcburiyyətində olurdu. Onun tez-tez müraciət etdiyi Marks, Engels, Lenin və Stalinin əsərlərinin əksəriyyəti Azərbaycan dilinə tərcümə edilməmişdir.

Ona görə də tərcüməçilər bir sıra problemlərlə üzləşdilər. Bəzən müəllif iqtibasın mənbəyini göstərməyəndə tərcüməçilər onu özləri ruscadan tərcümə etmişlər. Kitabda gətirilən iktibasların əksəriyyəti isə Azərbaycan mütəfəkkirlərinin sonralar nəşr edilmiş əsərləri ilə tutuşdurulmuş və dəqiqləşdirilmişdir.

Tərcüməçilər və redaktor H.Hüseynovun dil üslubunu saxlamağa çalışmış, onun fikirlərini olduğu kimi, təhrif etmədən vermək üçün çox ciddi cəhd göstərmişlər.

Biz hesab edirik ki, görkəmli filosof, akademik Heydər Hüseynovun təqdim edilən əsəri filosofların, geniş oxucu dairəsinin, xüsusən gənc tədqiqatçıların diqqətini cəlb edəcəkdir.

Yusif RÜSTƏMOV
Fəlsəfə elmləri doktoru, professor

I FƏLSƏFƏ BÖLMƏSİ

Nizami MƏMMƏDOV
Professor

ƏTRAF MÜHİT ETİKASI VƏ DAVAMLI İNKİŞAF: ŞƏRQİ AVROPA ASPEKTİ

Şərqi Avropa ölkələri və Müstəqil Dövlətlər Birliyiində (MDB) ətraf mühit etikası **öncə** 1990-cı illərin əvvəlinə kimi bu ərazidə hökm sürmüş rus elmi, mədəniyyəti və marksist ideologiyasının güclü təsiri altında formalaşmışdı. Coğrafi, tarixi və siyasi şəraitə görə Rusiya son günlərə qədər Avrasiyada **dominant** intellektual mərkəzi olub. Hətta indi Şərqi Avropa ölkələri və MDB rus "mənəvi iqlimi" təsirinin sferasında qalır və **bu,** yalnız rus dilinin yaylması, rus ədəbiyyatı və fəlsəfəsinin populyarlığından deyil, həmdə SSRİ-də nəzəri elmi **fikrin** misli görünməmiş **inkişafı ilə bağlıdır.** Rusiyanın Elmlər Akademiyası və ya aparıcı universitetləri bu ölkələrin hamısında hələ də az ya çox uğurla fəaliyyət göstərirlər.

Ekologiyanın inkişafına da fundamental töhvələr vermiş rus elmin klassikləri iyirminci **əsrdə** işləmişlər: İ.Vernadskiy, Nikita N. Moiseyev, Vladimir N.Sukaçev, Nikolay V.Timofeyev-Resovskiy, Aleksandr. L.Yanşin və başqaları. Ona görə Albert Şveytser və **Aurelio Peçeyinin** ətraf mühit etikası idealları SSRİ-nin elmi **dairələri** tərəfindən tam anlaşma ilə qəbul edilmişdir.

Eyni zamanda sovet dövrünün ekoloji ədəbiyyatı ətraf mühitin vəziyyətini təhlil edərkən üzə çıxan ekoloji problemlərin dərk edilib həlli üçün əsas hesab edilən sosio-siyasi **amillərin** roluna xüsusi diqqət **verirdilər**. Fikirləşirdilər ki, ekoloji təhlükənin fəlakətli pisləşməsi yalnız **kapitalizmdə** mümkündür.

Sosalizm şəraitində insanlar və təbiət arasında qarşılıqlı təsir haqqında dialektik-materialist konsepsiyası təbiətin izahının fəlsəfi əsası idi. Bu konsepsiyaya görə, insanlar və təbiət arasında qarşılıqlı təsir təbii tarixi bir prosesdir ki, onun konkret məzmunu və hərəkəti istehsal qüvvələrinin inkişaf səviyyəsindən və istehsal münasibətlərinin xarakterindən asılıdır. Başqa sözlə, təbiətlə insan arasındakı əlaqə daimi və təbii deyil, sosial amilərlə müəyyən edilmiş sosial-təbii əlaqə olmuşdur. Təbiətlə insanın birliyi ətraf mühit fəaliyyətin, maddi istehsalın inkişafının gedişatında özünü göstərən bir fenomen kimi ifadə olunur. Və bu birlik təbiətin mücərrəd müşahidəsində deyil, ətraf mühit prosesində, obyektiv və ətraf mühit fəaliyyətində aktuallaşır.

Bütün sosial-iqtisadi formasiyalar cəmiyyət və onun təbii ətraf mühit arasındakı öz-özünə törəyən qarşılıqlı təsirlə xarakterizə olunmuşdur. Lakin sosializm şəraitində cəmiyyət təbiətin gələcəyinə görə bütün məsuliyyəti öz üzərinə götürməli və onunla **şüursuz** qarşılıqlı təsirdən şüurlu surətdə idarə olunan qarşılıqlı təsirə keçməlidir. Təklif olunmuşdur ki, cəmiyyət və təbiət arasındakı qarşılıqlı təsirinin idarə edilməsi yalnız istehsal vasitələrinin ictimai mülkiyyəti, sosial-siyasi birliyi, doğruluqla humanist sosial münasibətləri ilə mümkündür.

Əvvəlcədən, yuxarıda sadalanan fəlsəfi və metodoloji mülahizələrə əsaslanaraq, sovet sosioloji adəbiyyatı hətta sosializm şəraitində iqtisadiyyatın **planlaşdırılmış inkişafına** görə ekoloji böhranın qeyri-reallığını əsaslandırmağa cəhd edirdi. Lakin SSRi və digər sosialist

ölkələri rəhbərlərinin başa düşmədikləri **praktiki, sosial-iqtisadi, hüququ tənzimləyici mexanizmlərin işlənməsinə, cəmiiyət və təbiət arasında qarşılıqlı təsirin ahəngləşdırılməsinə ehtiyac var idi**. Sosializmin atributiv üstünlüklərinə olan ümidlərə gəldikdə isə, onlar texnolji proqresin gedişatıtında artan təbiətlə **cəmiyyət** arasında qarşılıqlı ziddiyyətləri həll edə bilmirdi.

Qərb ölkələri ətraf mühit sahəsindəki manelərini kifayyət qədər tez keçdi. Burada ətraf mühit haqqında qanunların qəbulu ilə nəticələnmiş şəffaflıq, ətraf mühit haqqında məlumatların hamı üçün əlyetənliyi, kütləvi ətraf mühit hərəkatların yaranması və ekoloji orientasiyalı parlament partiyalarının məqsədyönlü fəaliyyəti kimi vətəndaş cəmiyyətinin xarakteristikaları öz rolunu oynamışdır. Nəticədə, ətraf mühit **problemləri sosializmdən daha** səmərəli qaydada həll olunmağa başladı (**zəruri** qanunların qəbulunun sürəti və onlara məcburi riayyət edilməsinə görə).

Cəmiyyətin sosio-iqtisadi strukturundan asılı olmayan təbiətlə cəmiyyət arasındakı qarşılıqlı əlaqələrində olan ziddiyyətlərin labüdlüyünü sübuta yetirən ciddi nəzəri əsərlər Sovet dövrünün sosio-ekoloji ədəbiyyatına daxildir. Bu arqumentasiya materiyanın (maddə və enerji) dağılmaması qanunların mövqeyindən sosio-təbii sistemin ("cəmiyyət-təbiət" sistemi) təhlilinə əsaslanırdı. Belə nəticə çıxarılmışdı ki, ziddiyyətlər hər bir sosio-təbii **sistem** üçün labüddür, çünki cəmiyyət bəzi təbii ehtiyatlardan istifadə etmədən inkişaf edə bilmir və bu gec ya tez xüsusi ekoloji çarpışmalara aparır. Belə əsərlərə görə elmi ədəbiyyat Şərq mədəniyyətlərini ideallaşdırmırdı və təbiətdə qədim cəmiyyətlərin məhvi, bəşər tarixində biogen erası qarşısında baş əymirdi.

Sovet fəlsəfi ədəbiyatındakı ətraf mühit etikası belə bir fakta yer **ayırmışdı** ki, təbiətə olan bəşər münasibətinin aşağıdakı *qarşılıqlı əlaqələndirilmiş* formaları təxminən səciyyələndirmək **olar**: nəzəri, praktiki, estetik və etik (Tuqarnov, 1978). Hasab edilirdi ki, **təbiətə praktiki münasibət və yeni istehsalı təmin edən proseslərlə bağlıdır və bunun əsasında nəzəri münasibət formalışır.**

Təbiətə qarşı estetik münasibəti təbii hadisələrin, ayrı-ayrı mənzərələrin, müşahidəli formaların, məkanın, işığın və s.-lərin bədii əkslərin gözəlliyini müşahidəsinə olan insan ehtiyacında görünür. Təbii amillər təsviri vasitələri, reallığın bədii tədqiqat metodlarını zənginləşdirir. Öz növbəsində, təbiətə qarşı estetik münasibət kütləvi şüurda təbiətə ağıllı yanaşmanın formalaşmasına öz töhvəsini verir.

Iyirminci əsrin ikinci yarısında təbiətə etik münasibətin vacibliyi **əhəmiyyətli** dərəcədə artmışdı. Bitki və heyvan aləmlərinin qorunub saxlanması problemi, təbiətə məhəbbət ruhunda təhsil vermə mənəvi təhsilin ən mühüm vəzifələrindən biri olmuşdu. Söhbət animalist hisslərin dirçəltməsindən deyil, ətrafdakı flora və faunanın insanlara (həm fiziki mövcudluğu, həm də mənəvi zənginləşməsi üçün) lazım olduğundan və ondan gedir ki, təbiətin transformasiyasına qarşı bəzi həddlər olmalıdır. Təbiətlə bağlı etik laqeydlik, **təbiətin dağıdılması əxlaqsızlıqdır**. Getdikcə daha çox insanlar başa düşür ki, bəşər təbiəti həyatın, gözəlliyin və yaxşılığın məmbəyidir. Adi **həqiqətdir** ki, "insan-təbiət" **münasibətlərinin** bəzi aspektləri ənənəvi surətdə nəzərə alınan "insan-insan" və "insan-cəmiyyət" münasibətləri ilə birlikdə mənəvi münasibətlər sferasına daxil edilməlidir.

Hesab edilirdi ki, insanın təbiətə olan münasibətinin yuxarıda qeyd olunmuş formaların xüsusiyyətləri və xarakteri **mövcud** tarixi vəziyyətdə yaranmış hər bir cəmiyyətin sosioiqtisadi strukturundan, müxtəlif sosial münasibətlərindən **asılıdır**. Və sosial əlaqələr sistemi vasitəsilə ətraf mühit müxtəlif ehtiyaclarını: sadə fiziki mənəvi ehtiyaclaradək ödəyən insanlar üçün universal mənaya malikdir.

Rusiya, Şərqi Avropa ölkələri və MDB də ətraf mühit etikası aşağıdakı anlayış və reallıqlar kontekstində nəzərdən keçirilir: ətraf mühit şüurun formalaşması, davamlı ətraf mühit **təhsili** və marifçiliyə əsaslanmış ətraf mühit mədəniyyəti. Şübhə yoxdur ki, 1992-ci ildə **BMT**-nin Ətraf Mühit və İnkişad üzrə Konfransında (Rio de Janeyro) qəbul edilmiş davamlı inkişaf konsepsiyası bu **istiqamətlərə** yeni bir impuls vermişdir.

Rusiyada düşünürlər ki, əldə olan Davamlı inkişaf konsepsiyası planetimizdə sosial, iqtisadi və ekoloji problemlərin artmasını, əks **etdirir** və, digər tərəfdən, müasir **sivilizasiyanın** intellektual səviyyəsini, bəşəriyyətin təbii və sosial reallığı elmi və nəzəri anlama səviyyəsini xarakterizə edir. Bu, təbii elmlərdə və riyaziyyatda bir **sıra** fəlsəfi və sosioloji təlimlərin, nəzəriyyələrin ən mahiyyətlisi olduğu görünür.

Bəşəriyətin sağ qalması və biosferanın qorunub-**saxlanılması** davamlı inkişafa keçidin mənasıdır. İnsan fəaliyyətinin bütün sahələrinin biosferaya təzyiqin azalması istiqamətində dəyişməyi **zərurı** hesab edilir. Şübhə yoxdur ki, davamlı inkişaf, biosferaya antropogen təsirinin ümumi ixtisar olması ilə birlikdə iqtisadi **səmərə**, biosfera ilə uyğunluğu ilə və sosial ədalətlə səciyyələnir.

Ekoloji problemlərin və davamlı **inkişafın dərk edilməsi** rus yanaşmasının leytmotivi Akademik Vernadskinin təklif etdiyi biosfera və noosfera haqqında təlimlə bağlıdır.

Fransız alimləri **Eduard** Leroy, Pyer **Teyar** de **Şardenın** müzakirə etdikləri və Akademik Vernadskinin n*oosfera* anlayışları əhəmiyyətli dərəcədə fərqlidir. Bəzi ümumi məqamlara: ağlın **gücünə**, həddsiz yaradıcı bacarıqlarına inam – malik olduqlarına baxmayaraq. *Noosfera* mərhələsi, Vernadskiyə görə, aşağıdakı əsas cizgilərlə səciyyələnəcəkdir:

- bəşəriyyət bütün planetdə məskənləşir; xalqlar və ölkələr arası **bağlantılar** intensivləşir;
- bəşər fəaliyyətinin geoloji rolu biosferada baş verən təbii geoloji prosesləri üstələyir;
- biosferanın sahələri genişlənir; bəşəriyyət Kosmosa daxil olur;
- təzə enerji mənbələri tapılır;
- bütün **irqlər** və **dinlər** bərabərdir;
- daxili və xarici siyasət **problemlərinin** həllində kütlələrin rolu böyüyür;
- müharibələr social həyatdan **uzaqlaşdırılır**;
- zəhmətkeşlərin rifahı **artır**. Aclığın, kasıblığın və xəstəliklərin ləğv edilməsi üçün əsl imkan yaranır;
- elmi firkin və tıdqiqatın **dini və siyasi təziqdən** azad edilməsi və bu azadlıq üçün əlverişli olan social şəraitin yaradılması.

Vernadskinin təlimi və Davamlı inkişaf konsepsiyası arasındakı əlaqə valeh edicidir. Məsələn, davamlı inkişaf konsepsiyası başqa şeylərdən savayı bəşəriyyətin cəmiyyətlə təbiətin harmonic qarşılıqlı təsirinin təmin olduğu yerə hərəkətini bildirir.

Bununla bağlı son illərin axırı maraqlıdır – davamlı inkişaf konsepsiyasını ümumiləşdirlir. Davamlı inkişaf sadəcə olaraq iqtisadi cəhətdən təmin edilmiş inkişaf kimi yox, həmdə insan hüquqlarına, demokratik prinsiplərə, qanun hökmünə, beynəlxalq qanunun normalarına, hörmətə əsaslanmalı olan sosial həyatın sosial və siyasi sferalarında stabillik kimi başa düşülür. Bu halda davamlı inkişaf konsepsiyası ətraf mühit, iqtisadi və sosiosiyasi telləri və münasibətləri bir sistemdə birləşdirir. Üstəlik, o, ağıl və mənəviyyat arasında qarşılıqlı əlaqənin lazımlığını diktə edir. **Zəkanın** nailiyyətləri mənəvi elementlərdən qoparıldığı halda, tarixən bəzən dağıdıcı və anti-bəşər xarakter alırdı. Ənənəvi ideyalara və dəyərlərə, **psixolojı** stereotiplərə əsaslanaraq keçidə nail olmaq mümkün deyil. O, yalnız

müasir reallığa deyil, həm də üçüncü minillikdə inkişafln perspektivlərinə uyğun olan yeni elmi və fəlsəfi yanaşmaların işlənməsini tələb edir.

Davamlı inkişaf konsepsiyası işığında təbiətin öz dəyəri və ona qarşı münasibətin xüsusiyyətləri **vacibidir**. Davamlı inkişaf konsepsiyasına uyğun olaraq, yalnıq iqtisadi inkişaf yönümlü keçmiş strategialar insana mərkəzləndirilmiş bir strategiya ilə əvəz edilməlidir. Əvvəlki mərhələdə formalaşmış modern həyat tərzi, dəyərlər kəskin dəyişikliklərə məruz qalır.

Sovet və post-Sovet kültüroloji **ədəbiyyatda** ətraf mühit mədəniyyəti **əsasən** təbiətlə insanları birləşdirən, təbiətin başa düşülməsi və dərk edilməsinə əsaslanmış tanınması kimu şərh edilir. Təbiətlə insanlar arasında qarşılıqlı təsirin mahiyyəti, dərinliyi, miqyasını dərk etmə yolu ilə ətraf mühit təfəkkürün formalaşmasında, insan **həyatının** bütün sahələrinin ekoloji problemlərin həllinə yenidən istiqamətləndirilməsində əhəmiyyətli rol oynamalıdır. İnsanların Yer üzündə sadəcə özləri üçün yaşamadıqlarını, onların xüsusi biosferik funksiyasını aparmalı olduqlarını başa düşmək ətraf mühit görüşünün əsas paradiqması və ətraf mühit mədəniyyətinin əsas məhvəridir. Sadə antroposentrizmin inkar edilməsi və biosfersentrizm üzərində qurulmuş inamlar sisteminə keçid ətraf mühit mədəniyyətının ən mühüm xaralteristikasıdır.

Ətraf mühit etikası ətraf mühit mədəniyyətinin konseptual bazasıdır. Biosferanın problemlərində diqqətini mərkəzləşdirərək o, bəşəri və təbii varlığın saxlanması və inkişafına yönəlmiş tədbirlər üçün zəminlər yaradır.

Ətraf mühit etikası üçün tipik olan əsas keyfiyyəti odur ki, gələcək nəsillərinin mövcudluğunun təbii şəraitlərinə qayğının göstərilməsi onun üçün başlıca vəzifədir. İndiki vaxt üçün qayğının göstərilməsini də güman edən gələcəyə doğru oriyentasiya ətraf mühit etikasını etikadakı ənənəvi cərəyanlardan səciyələndirir.

Əgər davamlı **inkişaf** altında biz elə **inkişaf** başa düşürüksə ki, o indiki zamanın ehtiyaclarını təmin edir, lakin gələcək nəsillərinin öz ehtiyaclarını təmin etmək qabiliyyətinə təhlükə yaratmır, onda bunu təbii ətraf mühitlə insanlar arasında qarşılıqlı təsirin əsas etik tənzimləyici hesab etmək olar. Antropsentrizmin yerinə biosfersentrizm mövqesindən çıxış edən yeni bir yanaşma meydana gəlir. Biosfer yanaşması, şərlə xeyrin ənənəvi dixotomiyasına, bəşəriyyətin mənəvi təcrübəsinə prisipcə hansısa yeni bir yenilik gətirir. **Vernadskinin etikaya biosferik yanaşma olmalıdır sözləri öz təsdiqini tapir** (Vernadskii 1988).

Ətraf mühit etikasının müddəaları aşağıdakı tələbləri müəyyən etməyə imkan verir: gələcək nəsillərin yaşamaq bacarıqlarını sarsıda bilən tədbirlərdən imtina etmək; ətraf **mühitin vəziyyətinə** aid qərarlar çıxararkən sonrakı nəsillər qarşısında məsuliyyət səviyyəsi başlıca məsələ olmalıdır; bu gün yaşayan insanların maraqları naminə gələcək nəsillərin maraqlarına zərər vurmaq dözülməzdir.

Ətraf mühitə dair Post-sovet ədəbiyyatında belə fikir irəli **sürülür** ki, davamlı inkişaf yalnız ətraf mühit mədəniyyət şəraitində mümkündür, baxmayaraq ki, ətraf mühit mədəniyyəti yalnız davamlı inkişaf vasitəsilə yenidən düzələ bilər. Beləliklə, *ətraf mühit mədəniyyəti* və *davamlı inkişaf* anlayışları eyni prosesin sosiotəbii münasibətlərinin harmoniyalaşdırılmasının – müxtəlif aspektlərini əks edir.

Eyni zamanda son illərin ətraf mühitlə bağlı işlər diqqətini qloballaşma **məsələlərinə artırır**. Bəşəriyyət əsas məzmunu, böyük dərəcədə, qlobal ideyaları olduğu yeni dünya görüşünün, yeni düşünmə tərzinin formalaşması erasında yaşayır. Bu kompleks bir sıra amillərlə, o cümlədən, ən azı, aşağıdakılarla təyin edilir: bəşəriyyəti iqtisadi və siyasi sahələrdə birləşdirən inteqrativ istiqamətlər; reallığın inteqrativ şəklini yaradan təbiət elmləri

və humanitar elmlərinin sintezi; dünyaya baxışla birlikdə insan həyat tərzini dəyişdirmiş informasiya, kommunitasiya **texnologiyalarının** inkişafı.

Yaranmaqda olan qlobal ətraf mühit təhlükəsi əsas sosial dəyər sisteminin (etik normalar, təbiətə münasibət, istehsalın və tələblərin xarakteri və s.) bütün sisteminə yenidən baxmaq zəruriliyini təyin edibdir.

Davamlı inkişaf prinsiplərin əsasında qloballaşma prosesinin idarə edilməsinin həyati problemlə əlaqədar qlobal şüurun məqsədyönlü formalaşması zəminlərin və şəraitlərin məsələsinin qaldırılması çox aktual olur. Görünür ki, qlobal şüurun məzmunu ya həcmi və məzmununlarının genişləndirilməsi yolu ilə ənənəvi kateqoriyalarda və anlayışlarda yaxud prinsipcə yeni kateqorial strukturların formalaşması yolu ilə yaranmaqda olan inteqrativ qlobal ideyarın əsasında bərkidilə bilər.

Hər erada bəşəriyyət, müxtəlif sahələrdə hazırki biliklərə əsaslanaraq bu və ya digər dərəcədə təbii ətraf mühitlə öz qarşılıqlı münasibətləri tənzimləyirdi.

Ancaq indi şişirtmədən deyə bilərik ki, təbii ətraf mühitlə sosioiqtisadi sahəsinin qarşılıqlı əlaqəli inkişaf vəzifələrinin həll edilməsi müxtəlif sahələrdəki insan fəaliyyətinə, onun məzmununa mühüm təsiri olacaq. Biz insan həyati fəaliyyətində yaranan ətraf mühit inqilabı haqqında, insan həyat tərzinin ətraf mühitləşdirilməsi barəsində danışırıq.

Sosial şüurun müvafiq transformasiyası olmadan, hər bir fərd tərəfindən yaxınlaşan dəyişikliklərin mahiyyətləmənasını başa düşməsi olmadan bunun hamısı təssəvür olunmur. Ona görə də gənc nəslin sosiallaşması, davamlı inkişaf mövqelərindən təhsil sistemlərinin həm milli, həm də qlobal cəhətdən oriyentasiyasının və məzmununun dəyişməsi problemləri ön plana çıxır. Ətraf mühit bilik və imperativlərin təhsil strukturların müxtəlif səviyyələrinə salınma forma və üsulların axtarışı, onların ətraf mühitləşdirilməsi bütün bu transformasiyaların leytmotividir.

Rusiya, Şərqi Avropa ölkələri və MDB də hamı tərəfindən qəbul edilir ki, idealda, məktəbə qədər, ibtidai, orta və ali təhsilin, **hazırlığ kurslarının** bütün elementlərini əhatə edən ətraf mühit təhsilinin, elmi biliklərin təbliğatı və populyarlaşdırılması şüurun "ətraf mühitləşdirilməsinin" və ətraf mühit məsuliyyətinin əsas mexanizmi olmalıdır

Rusiyada ətraf mühit təhsili prinsipal prioritetlərdən olmalıdır, çünki burada maddi və mənəvi mədəniyyətin təbii amillərdən, sərt iqlimdən, sonsuz məkamdan, adamların mentalitetindən güclü **asılılığını** hiss etmək mümkündür. Rusiya yalnız ən böyük və ən zəngin yanacaq resursları olan ölkə deyil. O həmçinin dünyanın ən soyuq ölkəsidir, **burada əbədi donuşluq**" ərazisinin yarıdan çoxusunu əhatə edir, **müstəsna** ekoloji ətraf mühit hökm sürür, **burada artım** sürəti qeyri-stabil və son illər faciəli surətdə aşağı düşür.

Davamlı inkişaf **konsepsiyası** işığında ətraf mühit təhsili bütövlükdə təhsilin inteqrativ amil **statusunu** əldə edir, onun strateji məqsədini və aparıcı istiqamətlərini təyin edir. Ümumiyyətlə, davamlı inkişaf üçün təhsil çox **vacibdir**, o, bir sıra başqa sualların həllinə istiqamətlənib və buna görə yalnız ətraf mühit təhsilinə çevrilə bilməz. Lakin aydındır ki, davamlı inkişaf üçün təhsilin strukturu ətraf mühit təhsili **səviyyəsinə** qaldırılmalıdır.

İstifadə olunmuş ədəbiyyat

1. Attfield, Robin. 2003. *Environmental Ethics: An Overview for the Twenty-First Century*. Cambridge: Polity Press; Malden, MA: Blackwell.

2. Chumakov, Alexander N. 2004. *Globalizatzia: kontury tzelostnogo mira* [Globalization: the outline of the holistic world]. Moscow.

3. Chumakov, Alexander N. 2006. *Metafizika globalizatzii: kulturno-tzivilizatzionnyi kontekst* [Metaphysics of globalization: Cultural and civilizational context]. Moscow: «CANON+».

4. Des Jardins, Joseph R. 2000. *Environmental Ethics: An Introduction to Environmental Philosophy.* Belmont, California: Wadsworth Publishing/Thomson Learning.

5. Light, Andrew and Holmes Rolston, III, eds. 2003. *Environmental Ethics: An Anthology.* Oxford: Blackwell Publishing Ltd.

6. Mamedov, Nizami M. 2003. *Osnovy sotzialnoi ekologii* [The foundations of social ecology]. Moscow.

7. Mamedov, Nizami M., ed. 2002. *Vvedenie v teoriu ustoichivogo razvitia* [Introduction into the theory of sustainable development]. Moscow.

8. Pojman, Louis P. and Paul Pojman, eds. 2008. *Environmental Ethics: Readings in Theory and Application* . Belmont, CA: Thomson Wadsworth.

9. Tugarinov, Vasilii P. 1978. *Priroda, tzivilizatzia, chelovek* [Nature, civilization, person]. Leningrad.

В немецкой классической философии сформировались два направления в понимании символа. К первому направлению относятся Шиллер и традиция романтиков /прежде всего Шлегель и Шеллинг/, ко второму Гёте и Гегель. Обратимся к общей характеристике этих направлений немецкой классической философии в интерпретации символа. Последователь учения Канта Шиллер развил и продолжил ряд аспектов понимания символа. Понимание символа Шиллер высказывает, исходя из главной идеи своей эстетической концепции. "Эстетическое, или красота, - это принцип двух ***противоположных*** состояний человека-"состояние ощущения и мышления". Оба представляемых ощущением и мышлением, или чувством и духом, состояния находят своё соединение и примирение в эстетическом, красоте" (Шиллер Ф. Статьи по эстетике. М., Л., 1935, с.449). В концепции Шиллера основное внимание обращено на объективную, природную сторону символа.

По Гёте идея в символе воплощается в форме образа. "Символика превращает явление в идею, идею в образ и притом так, что идея остаётся в образе бесконечно непостижимой. Даже выраженная на всех языках, она осталась всё-таки невыразимой" (Гёте И.В. Избр.философск.произведения. М.,1964, с.352)

Эволюция романтизма связана с развитием центральной для него идеи-идеи активности человеческого познания. Эта идея и легла в основание новой тенденции понимания символического как инструмента исторической самопознающей интерпретации. В этом аспекте романтики продолжили открытую Шиллером тенденцию экспрессивной выразительной трактовки символа как "символизирующего воображения". Субстанциональной основой символа, согласно Шлегелю, является идея бесконечного... Идея бесконечного - это источник божественного, природного и человеческого бытия. Идеи, подчёркивает мыслитель, могут быть высказаны только символически. "Символ-это

средство, благодаря которому видимость конечного везде соединяется с истиной вечного и тем самым растворяется в ней" (Шлегель Ф. Эстетика. Философия. Критика. М., 1983, т.1, с.359).

С помощью символов "на место иллюзии становится значение, единственно реальное в существовании, ибо только смысл, дух существования возникает и исходит из того, что возвышается над всякой иллюзией и всяким существованием" (Шлегель Ф. Эстетика. Философия. Критика. М., 1983, т.1, с.428-429).

Для Шлегеля символ как образ бесконечной субстанции. Все чувственные явления окружающего нас мира - минералы, растения, животные, математические фигуры и тому подобное - это "буквы", которыми "пишет" бесконечное. Однако самым совершеенным и законченным символом-образом единого бесконечного - является произведение искусства. Провозглашение произведения искусства наиболее законченным символом бесконечного означало утверждение искусства как высшей ценности, а художника в качестве высшего типа. Так Шлегель пишет: "Все священные игры искусства - это только далёкие воспроизведения бесконечной игры мира, вечно формирующегося художественного произведения". Шлегель добавляет ещё: "Чтобы служить символом бесконечного - образом невыразимо высшего, произведение искусства непременно должно быть "всеединством", то есть самостоятельно завершённым и гармонически целостным, иными словами, должно быть высшим образцом или произведением из произведений" (Шлегель Ф. Эстетика. Философия. Критика. М., 1983, т.1, с.394).

Наиболее ёмкую трактовку романтического начинания символа, его тенденции мы обнаруживаем у Шеллинга. Шеллингу принадлежит первая диалектическая дефиниция символа, а также определение его места в общей системе категорий познания или способов воображения. Символ - это центральное и сущностное понятие всей системы философии Шеллинга. Субстанциональной основой символа является абсолютное тождество идеального и реального. Наиболее сущностным и глубоким воспроизведением абсолютного в человеческой культуре, считает Шеллинг, является искусство. Воспроизведение первообразов или идей бесконечного в искусстве и составляет суть символического. Символ, таким образом, есть не что иное, как реально воспроизведённая идея.

Диалектику символа как единства общего и особенного, конечного и бесконечного Шеллинг выявляет через соотнесение его с другими способами изображения бесконечного - схемой и аллегорией. Определяя искусство как наиболее полное и глубокое воспроизведение сущности мира, Шеллинг сравнивает его с мифологией: "Всякий великий поэт призван превратить в нечто целое открывшуюся ему часть мира и из материала создать собственную мифологию" (Шлегель Ф. Эстетика. Философия. Критика. М., 1983, т.1, с.394).

Рассуждая на примере символа в мифологии, философ устанавливает ещё одну его характерную особенность, а именно его независимое, завершённое в себе бытиё. Утверждение за символом его независимого и самодостаточного бытия, по мнению Шеллинга ведёт ещё к одному его отличительному свойству - символ, как осмысленная образность всегда должен быть оригинальным или выдающимся художественным творением. Такова концепция Шеллинга в понимании символа. Дальнейшую разРаботку этого понятия мы находим у Гегеля.

Гегель развил и углубил диалектику анализа, категории "символ", рассмотрев его как специфическую форму борьбы составляющих его противоположных сторон - абстрактного и чувственного, общего и особенного. Обратимся подробнее к характер-

ным особенностям гегелевского понимания символического. По Гегелю, существует три основных формы постижения абсолютной идеи - искусство, религия и философия.

Искусство-это первая и самая незавершённая форма постижения и самораскрытия идеи. Основной целью искусства является чувственное представление или изображение объективно существующей идеи. Символическое искусство, согласно представлениям Гегеля, - это низшая стадия развития искусства, которую он нередко характеризует в качестве предискусства. "В символе - пишет Гегель, - должны различаться две стороны: во-первых, смысл, и, во-вторых, выражение смысла. Первый есть представление или... предмет, безразлично какого содержания, а второе есть чувственное существование или образ какого-либо рода" (Гегель Г.В.Ф. Эстетика. М., 1968, т.1).

Символ, отмечает Гегель, можно рассматривать, как знак, или простое изображение, в котором связь между смыслом и его выражением произвольна. Чтобы стать символом в искусстве, знак должен превратиться в образ. "То, что теперь становится наглядным в качестве символического образа, - пишет Гегель,- представляет собой созданное искусством произведение, которое, с одной стороны, должно представлять само себя с присущим ему своеобразием, но, с другой стороны, должно выявлять не только этот единичный предмет, но и дальнейший всеобщий смысл; последний должен быть приведён в связь с этим предметом и познан в' нём, так что эти образы предстанут нам как задачи, требующие, чтобы мы угадали вложенный в них внутренний смысл" (Гегель Г.Ф.В. -14, Эстетика. М., т.I, с.13, 1968.) По Гегелю ещё одной отличительной характеристикой символический образности является её двусмысленность. Двусмысленность понимается только путём установления контекста её применения или "условного круга" представления, в котором данный символический образ обретает своё существование. Гегель, исходя из принципа историзма, рассматривает ещё существеннейшие для его понимания символической образности стороны - процесс зарождения, становления и заката символической формы искусства. Первая стадия развития символа - это период его становления/символика бессознательного в терминологии Гегеля/, вторая-период его расцвета /"символика возвышенного" в терминологии Гегеля/, третья-период его заката /"сознательная символика сравнивающей формы искусства"/. Последняя существенная черта трактовки символа Гегелем - непосредственная связь символической формы с идеалом. Идея, как действительность, получившая соответствующую своему понятию форму, есть идеал. Идеал - это не любая действительность, а "действительность в высшей своей истине" (Гегель Г.Ф.В. Эстетика. М., 1968, т.4, с.154).

Появление новых символов связано с целым рядом тесно друг с другом взаимосвязанных причин, важнейшими среди которых будут следующие: во-первых, исторически меняющийся коллективный опыт видения мира, когда одни и те же предметы и явления неожиданно воспринимаются с новых точек зрения, выявляясь и проявляясь тем самым не только в новых своих качествах, но и в новых структурно-функциональных связях и отношениях. Во-вторых, социально-культурные сдвиги, позволяющие по-новому интерпретировать и осмыслять окружающую реальностью следовательно, и отражать её в новых, не свойственных предшествующей традиции символических формах.

Список использованной литературы

1. Аристотель. Соч. в 4 тт., М., 1983, т.4.
2. Шлегель Ф. Эстетика. Философия. Критика. М., 1983, т.1.
3. Гегель Г.В.Ф. Энциклопедия философских наук. М., 1977, т.3.
4. Гегель Г.В.Ф. Эстетика. М., 1968, т.1.

5. Кант И. Соч. в 6 тт., М., 1966.
6. Шиллер Ф.Статьи по эстетике. М., Л., 1935.
7. Гёте И.В. Избр.философск.произведения. М., 1964.

Fəridə MIR-BAĞIRZADƏ

RƏMZİN TƏDRİCİ İNKİŞAFI

Xülasə

"Rəmz" anlayışı fəlsəfi fikir inkişafının bütün tarixı zamanlarında bir çox müxtəlif və təzadlı yozmalarla səslənmişdir.Qeyd etmək istərdim ki, antik ənənədə nə Platon, nə Aristotelin zamanında rəmz anlayışının açıqlaması olmamışdır. Neoplatonizm dövründə rəmz kateqoriyası fəlsəfənin bütün sistemində əsas mərkəzi anlama çevrilir. Bunun nümayəndəsi Prokl olur. Prokla görə əkslərin uyğunlaşdırılması yolu ilə onların dərindən öyrənilməsi və açıqlaması hesabına əsl mahiyyət anlanılır.

"Rəmz" kateqoriyasının yeni dövr anlayışı Renessans dövrü ilə başlamış Avropa mədəniyyətinin inkişafı ilə əlaqədardır. Klassik alman fəlsəfəsində "rəmz" problemi ilk dəfə İ.Kant tərəfindən irəli sürülmüşdür. Kanta görə, rəmz ideyalar düşüncəsini hiss edən və duyan üsuldur. Şillerin konsepsiyasında əsas fikir rəmzin obyektiv və təbii tərəfinə diqqət yetirilib.Rəmzin yeni dövr dərk edilməsi Romantizmin inkişafı ilə əlaqədardır. Şlegelin fikrinə əsaslanaraq rəmzin əsl mahiyyəti ideyanin sonsuzluğudur. Rəmzə aid sonrakı işləmələrə biz Gegeldə rast gəlirik. Gegelə görə anlanılan tam ideyaların üç əsas : incəsənət, din və fəlsəfə formaları mövcuddur.

Farida MIR-BAGIRZADEH

EVOLUTIONARY DEVELOPMENT OF A SYMBOL

Summary

The concept "symbol" during all history of development of philosophical idea cansed set of every possible and inconsistent interpretation.It is necessaryto note, that in days of antique tradition, neither at Platon, nor at Aristotel there is no advanced concept of a symbol. During the period neoplatonizm the category of a symbol becomes the central concept of all system of philosophy which representative was Prokl. On Prokl, only by overlapping contasts, their profound studying and solwing the original fundamental principle real is opened. The new stage of judgement of a category "symbol" is connected to development of the Evropean culture, begin Renaissance.The first who has put a problem of a symbol in classical German philosohy was I.Kant.On the Edging a symbol-it a sensual way of reprresentation of ideas of the reason,consisting in their indirect in which in organic integrity the general merge and especial, the whole and a part. In Schiller's concept the basic attention is inwerted on the objective, natural party of a symbole. The new period of jidgement of concept of a symbol is substansional a basis of a symbol, it agreese Shlegel, the idea infinite is.We find the further development at Qeqel.On Qeqel, there is basic forms of comprehension absolute an idea-art, religion and philosophy.

Əliyar ORUCOV
AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun elmi işçisi

HƏSƏN BƏY ZƏRDABİ YARADICILIĞINDA MİLLİ MƏNLİK VƏ MİLLİ ÖZÜNÜDƏRK HAQQINDA*

XIX əsrin sonlarında Azərbaycanda maarifçiliyin mühüm bir xüsusiyyətini onun təbiətşünaslıq ilə sıx əlaqəliliyi təşkil edirdi. Bu münasibətdə görkəmli maarifçi, təbiətşünas, mədəniyyət xadimi, pedaqoq, istedadlı publisist *Həsən bəy Zərdabinin* yaradıcılığı səciyyəvidir. Onun dünyagörüşü XIX əsrin ortalarındakı rus və Avropa təbiətşünaslğının ən yaxşı ənənələri əsasında formalaşmışdır. O, Azərbaycanda demokratik mətbuatın banisi sayılır. Azərbaycan dilində ilk qəzetin «Əkinçi» qəzetinin 22 iyul 1875-ci ildə nəşri məhz onun adı ilə bağlıdır və bu qəzet 1875-1877-ci illər arasında nəşr olunmuşdur.

H.B.Zərdabi 1896-cı ildən ömrünün sonuna qədər Bakıda yaşamış, şəhər Dumasının üzvü seçilmiş, maarif və mədəniyyətin tərəqqisinə çalışmışdır. Onun yaradıcılığında maarifçilik və təbiətşünaslığa dair fikirləri aşağıdakı əsərlərində əks olunmuşdur: «Torpaq, su və hava», «Barama qurdunun saxlanması», «Gigiyena haqqında», «Ayın fazalarının yerdə üzvü həyata təsiri», «Bədəni səlamət saxlamaq düsturüləməlidir». Bunlardan əlavə onun «Əkinçi» qəzetində nəşr etdirdiyi məqalələri də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Mütəfəkkir «Rusiyada əvvəlimci türk qəzeti» adlı məqaləsində yazır: «Bizim qubernator general Staroselski, doğrudur, xalis rus idi, amma övrəti gürcü qızı idi. Ona görə Qafqazın yerli əhlini artıq özünə dost tuturdu. Mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını «Əkinçi» qoyun ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğu qəbul eləsin. Bu tövr ərizə verib izn aldım». [1, 229]

H.B.Zərdabi dil və din haqqında yazır: «Bu axır zamanacan biz Rusiyaya tabe olan müsəlmanların işi çox yaman idi. Bir tərəfdən zindəganlıq davası ilbəil ki, şiddət edirdi və bir tərəfdən də elm təhsil etmək yolu bağlanmış idi. Çünki bizim öz milləti məktəbxanalarımız yox idi ki, orada öz dilimizdə, öz məzhəbimizdə elm təhsil etmək olaydı və dövlət tərəfindən açılan məktəblərdə rus keşişlərindən misyonerlik edənlərin məsləhəti ilə bizim dilimizi və adabi-şəriəti oxutmağı qadağan etmişdilər». [1, 237]

O, dil haqqında fikrini davam etdirərək yazır: «Dil bir şeydir ki, onu öz halında saxlamaq mümkün deyil. Elə ki, qaranlıq otağın qapısı açıldı, qeyri-tayfalar ilə gediş-gəliş artdı, artıq şeylər əmələ gəldi və adətlər dəyişildi, təzə sözlərin qədəri günü-gündən artacaqdır, belə sözlərin artmağının dilə zərəri yoxdur, xeyri var. Çünki o sözlər tərəqqi etməyə səbəb olurlar». [1, 243]

O, Azərbaycan ictimai-fəlsəfi fikri tarixində elmi materialist təbiətşünaslığın carçısı, Darvinin bioloji ideyalarının güclü təbliğatçısı kimi böyük mövqe tutur.

H.B.Zərdabi «Yeni kəşflərin təbliği» adlı məqaləsində ətraf mühiti dərk etməsi sayəsində insan idrakının hüdudsuz olmasını dönə-dönə qeyd edərək yazır: «Hər bir yeni kəşf təbiətin öyrənilməsi yolunda irəliyə doğru yeni addımlardan biridir. Hər bir yeni kəşf, təbiətin öyrənilməsi, onun fəthini asanlaşdırır. Materiya bizim hiss orqanlarımıza təsir edən dünyanı əks etdirən duyğuları yaradır». [2, 578]

Ona görə şüur maddi orqanın – beyinin məhsuludur. H.B.Zərdabi «Əkinçi» qəzetində yazdığı məqalələrində şüur probleminə xüsusi yer verir və şüurun beyinlə bağlı olduğunu təsdiq etmişdir. O, sonralar yazdığı «Beyin» adlı məqaləsində isə qeyd edirdi ki,

* Məqalə fəlsəfə elmləri doktoru Z.Quluzadə tərəfindən çapa məsləhət bilinib.

«insanın əqli fəaliyyəti tamamilə onun beynindən asılıdır. Beyin isə insanın fəaliyyətini nizamlayan mərkəzdir. H.B.Zərdabi xalqın, gənc nəslin tərbiyə edilib maariflənməsi işində xeyriyyə cəmiyyətləri ilə yanaşı teatr kimi digər vasitələrə də fikir vermişdir. Eyni zamanda H.B. Zərdabi tərbiyəvi, sosial fəlsəfi fikirləri ilə də diqqəti cəlb edir. O, xalqının tərəqqi və xoşbəxtliyini elmdə, maarifləşmədə, təhsilin inkişafında görürdü. Onun tərbiyəvi baxışlarında humanizm, vətənpərvərlik, doğruluq kimi keyfiyyətlər əsas yer tuturdu. O, köhnə və yeni dövrün mütərəqqi ənənələri ruhunda tərbiyə almış, xalqın sosial və siyasi azadlığı uğrunda yorulmadan mübarizə aparmışdır.

Görkəmli alim Heydər Hüseynov H.B.Zərdabi haqqında yazır: «Zərdabi bir maarifçi kimi bütün ömrü boyu xalq təhsili uğrunda mübarizə apardı. O, xalqın rifahı naminə elm və maarifi təbliğ etdi. O, dəfələrlə qeyd etmişdir ki, elm və maarif xalqın çiçəklənməsinə və milli xüsusiyyətlərinin saxlanılmasına xidmət edir». [3, 410]

H.B.Zərdabi cəmiyyətə baxışlarında maarifçi demokrat kimi çıxış etməklə yanaşı, eyni zamanda ziddiyyətli mövqeyi ilə seçilirdi. H.B.Zərdabi həm şəhər, həm kənd əhalisinin, yəni millətin bütövlükdə ideoloqu olmuşdur. Vətənpərvər, humanist və demokratik fikirli qabaqcıl ziyalı kimi şöhrət qazanmış mütəfəkkir zəhmətkeş kütlələrin xoşbəxtliyini və tərəqqisini elmi biliklərlə əlaqələndirmişdir. «Elə bu məqsədlə o, ictimai fəaliyyət göstərmiş, N.Nərimanov və başqaları ilə birlikdə 1906-cı ildə Azərbaycan müəllimlərinin Bakıda keçirilən birinci qurultayında yaxından iştirak etmişdir». [4]

Həsən Bəy Zərdabi cəmiyyətdəki sosial ədalətsizlikləri, zülmü və s. haqsızlıqları tənqid etsə də, ictimai dəyişikliklər, inqilabi hərəkatlar haqqında maraqlı fikirlər söyləsə də, bütövlükdə cəmiyyətə baxışlarında idealist mövqedə olmuşdur. O, inqilabi dəyişikliklərlə bərabər, maarifin, elmin yayılması yolu ilə yeni cəmiyyətin qurulmasında təbliğat roluna daha yüksək qiymət vermişdir.

Görkəmli alim İzzət Rüstəmov «Həsən Bəy Zərdabi» kitabında yazır: «Zərdabi «Dil dəvası» adlı bir məqaləsində yazıçıları sadə xalq dilində yazmağa dəvət edərək göstərirdi: «Ay… yazıçılarımız, tənkiri insaf edib gözlərinizi açıb cəmaətə bir təmaşə edin, siz onların çobanı hesab olursunuz, siz də onların dalıncan getmədiniz eyn-səlahdır, siz cəmaətdən aralanıb dil dəvası etməyinizdən bir şey olmaz, cəmaət ki, olmadı, siz də yox hesabındasınız». [5, 183-184]

H.B.Zərdabi yaşadığı feodal burjua quruluşunu kəskin tənqid etmiş və bu cəmiyyətdə insanların, dünyanın və həyatın əvəzolunmaz neməti olan azadlıqdan məhrum olduqlarını xüsusi olaraq vurğulamışdır.

Həsən Bəy Zərdabi millətin kəndli zümrəsinin xüsusi acınacaqlı vəziyyətini müşahidə edərək, bu zümrənin ideoloqu kimi çıxış edir və yaradıcılığında kəndlilərin ağır həyat şəraitinin təsvirinə, onların istismar və zülm zəncirlərindən azad etmək yollarının araşdırılmasına geniş yer vermiş, mülkədarları və onları müdafiə edən ruhanilərin acgözlüyünü təsvir etmişdir.

Əhməd Baxış oğlu «Azərbaycan türkləri 1905-ci il inqilabında» adlı kitabında yazır: «Azərbaycan türklərinin mədəni dirçəlişinin başlanğıcı Həsən Bəy Məlikov - Zərdabinin fəaliyyəti ilə bağlıdır, hansı ki, birinci xalqçı olaraq yorulmadan Azərbaycan türklərinin milli oyanışında əsas rol oynamışdır». [6, 90]

Buna görə də H.B.Zərdabi XIX əsrin 60-70-ci illərində çar hökumətinin bəylərin bəzi hüquqlarının əllərindən almasını alqışlamışdır. Bütün bunlara baxmayaraq istismar aradan qalxmamış, bəylərin ağalığına vərdiş edən xalq nominal olaraq azad edilmiş və faktiki olaraq yenə də bəylərin tam asılılığı altına düşmüşdür. Filosof aydın şəkildə başa düşmüşdür ki, «bəxş edilən azadlıq kəndliləri asılılıqdan xilas etməmişdir. Sadəcə olaraq həmin asılılıq digər formanı qəbul etmişdir. Yəni dünənə qədər bəylərdən asılı olanlar, indidə «yoldan ötənlərin» aslılığına məruz qalmışdır. Bu «yoldan ötənlər», «əclaflar»

dedikdə isə marifçi-demokrat mülkədarları, şeyxləri və digər imtiyazlı təbəqələrin nümayəndələrini başa düşürdü». [2, 579]

H.B.Zərdabi eyni zamanda Azərbaycanda kapitalist münasibətlərinin yaranması və inkişafının şahidi olmuşdur. Ona görə kapitalizmin inkişafı zəhmətkeşlərin amansız istismarı, kəndlilərin yoxsullaşması ilə müşaiyyət olunmuşdur. Böyük mütəfəkkir bir tərəfdən maşın texnikası və sənayenin inkişafını alqışlamış, digər tərəfdən isə bütün bunların zəhmətkeşlərin vəziyyətini yaxşılaşdırmadığını görüb kədərlənmişdir. Həmçinin o, bütün istismar formalarının aradan qaldırılmasını, demokratik azadlıqların bərqərar edilməsini tələb etmiş və zorakılıqla deyil, dinc yollarla islahatların tərəfdarı olmuşdur. Lakin sonralar o, inqilabi çıxışların tərəfdarı olmuşdur.

Beləliklə də, «XIX əsrin ikinci yarısında Azərbaycanda ictimai, fəlsəfi və elmi fikrin görkəmli nümayəndələrindən biri olan Zərdabi Azərbaycan ziyalılarının bütöv bir nəslini yetişdirmişdir. Təsadüfi deyildir ki, müasirləri onu Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası adlandırmışlar». [1, 7]

Belə ki, H.B.Zərdabinin 1880-1906-cı illərdə yazdığı əsərlərin müqayisəli təhlili onun ictimai-siyasi və fəlsəfi görüşlərinin təkamülü barədə qənaətə gəlməyə əsas verir. O, həmçinin bildirirdi ki, müsəlman xalqlarının geriliyi hər şeydən əvvəl cəhalət və savadsızlıqda, elmə yiyələnməkdən uzaq olması ilə bağlıdır.

Mütəfəkkir ölkənin sosial, iqtisadi-təsərrüfat həyatının və mədəniyyətinin inkişafının başlıca mənbəyini maariflənməkdə görürdü. Böyük mütəfəkkir alim cəhalətə, geriliyə qarşı mübarizədə mətbuatın roluna böyük əhəmiyyət verirdi və qəzet vasitəsilə mütləqiyyət quruluşunu, ona xas olan süründürməçiliyi, rüşvətxorluğu ifşa edirdi.

H.B.Zərdabinin ictimai-siyasi görüşlərində çarizmin, onun yerli orqanlarının və məmurlarının müstəmləkəçi siyasətinin tənqidi mühüm yer tutur. Onun bütün əsərlərində insanın istismar edilməsinin olmadığı, zülmün və milli hüquq bərabərsizliyinin ləğv edildiyi, demokratik özünüidarənin qərarlaşdığı cəmiyyət haqqında ideyalar nəzərə çarpır. O, öz ideyalarının həyata keçirilməsini islahatlar yolu ilə bərabər, həmçinin maariflənmə vasitəsilə əlaqələndirirdi və inamla qeyd edirdi ki, xalqı dini fanatizmdən, bəylərdən və digər istismarçılardan yalnız maariflənmə xilas edə bilər, maariflənmə həm də xalqın öz mənafeyini dərk etməsinə imkan yaradır. Onun cəmiyyətin sosial-siyasi strukturuna dair maraqlı və real mülahizələri olmuşdur. O, yaşadığı cəmiyyətdəki zümrələri iki qütbə ayırırdı: birinci qütbə bəylər, qolçomaqlar və ruhanilər, ikinci qütbə isə sadə əmək adamları – xalq, kəndlilər və fəhlələr daxil idi.

«H.B.Zərdabinin insan hüquqlarına dair fikir və düşüncələri, siyasi və milli tələblərlə çıxış etməsi o dövrdə Azərbaycan xalqının siyasi və milli şüurunun oyanmasında və inkişafında mühüm rol oynamışdır». [7, 109]

H.B.Zərdabiyə görə cəmiyyətdə mülkiyyətin, sərvətin təzahürü məhz əməklə şərtlənir. Görkəmli mütəfəkkir varlılarla yoxsulların vəziyyətinin və münasibətinin real mənzərəsini təsvir edərək yazır: «Yoxsulların cahilliyini istəyən varlılar onları cəhalətdə və gerilikdə saxlayırlar ki, onların özlərindən asılılığını möhkəmləndirsinlər. Ona görə də ağıllı və ləyaqətli adamların əksəriyyəti öz imkanlarından məhrum olur və heyvan kimi həyat sürür. Lakin heyvan həmişə öz ovu uğrunda mübarizə aparır. İnsan isə öz cahilliyi üzündən alın təri ilə özü üçün qazandığını öz əlləri ilə varlılara verir, bununla da onun daha da varlanmasına kömək edir». [8, 438]

Onun fikrincə varlılar yoxsullara zülm etməklə, yoxsulları istismara məruz qoymaqla yalnız öz mənafeyi barədə düşünürlər. H.B.Zərdabi cəmiyyətdə ağalıq və tabelik münasibətlərinə və bu münasibətlər sistemində siniflərin yeri və rolu məsələsinə xüsusi diqqət yetirmiş və özünəməxsus şəkildə həmin məsələnin sosial-fəlsəfi mahiyyətinə nüfuz edə bilmişdir. Həmçinin görkəmli mütəfəkkir xalqa düşməncəsinə münasibət bəsləyən

imtiyazlı-varlı sinifə nifrət edərək hər şeydən əvvəl, kəndlilərin bəy və ağalardan feodal asılılığına son qoyulmasına çağırırdı. Beləliklə də, görkəmli alim dövrünün və yaşadığı cəmiyyətin qabaqçıl, tərəqqipərvər ziyalıları kimi öz xalqının xoşbəxtliyi və gözəl gələcəyi uğrunda fəal mübarizə aparırdı. H.B.Zərdabi «Kaspi» və «Əkinçi» qəzetlərində dərc etdirdiyi bir sıra məqalələrində ölkədə mövcud olan sosial ədalətsizliyi, özbaşınalığı kəskin tənqid edərək kütlələrin-yeni kəndlilərin güzəranının yaxşılaşdırılması arzusu və tələbi ilə çıxış edirdi.

Mütəfəkkir cəmiyyətin mütərəqqi inkişafı nəzəriyyəsinin tərəfdarı idi. Ona görə bəşəriyyətin irəliyə doğru mütərəqqi inkişafı daimidir, lakin bu proses cəmiyyətin yenisilə əvəz olunması yolu ilə baş verir. Görkəmli mütəfəkkir insan cəmiyyətinin inkişafını üç dövrə ayırır: antik dövr, orta əsrlər dövrü və yeni dövr. O həmin dövrləri xronoloji ardıcıllıqla tarixi-məntiqi planda araşdırır və antik dövrün mahiyyətini kölə əməyi ilə səciyyələndirir. Xanlar və bəylərin hakim vəziyyətdə olduğu orta əsrlər dövrünü mütəfəkkir özbaşınalıq və istibdad dövrü adlandırmışdır. Onun fikrincə yeni dövr antik və orta əsrlər dövründən bununla fərqlənir ki, bu dövrdə kölelləik və feodal soyğunçuluğu mövcud deyildir. Mütəfəkkir yeni dövr Qərbi Avropada təzahür edir, indi artıq pul və əmək dövrüdür deyirdi.

Belə ki, H.B.Zərdabi Azərbaycan şəraitində imtiyazlı təbəqələrin, yəni bəylərin və xanların hökmranlığının sonunu başa çatdığını hiss etmiş və yeni eranın, başqa sözlə, kApitalizmin və pulun hakimiyyəti dövrünün başlandığını görə bilmişdi. Onun sosial-fəlsəfi görüşlərinin mühüm istiqamətlərindən biri də bundan ibarətdir ki, o, yeni kapitalizm cəmiyyətinin təşəkkülünü və vaxtı keçmiş feodal ictimai münasibətləri, patriarxal feodal quruluşu ilə müqayisədə onun əhəmiyyətini dərk edə bilmişdi. Həmçinin onun dəyərli sosial-siyasi xidmətlərindən biri də odur ki, o çarizmin Azərbaycanda xalqı istismara, milli zülmə düçar etmək, milli mədəniyyəti tapdalamaq siyasətini cəsarətlə açıb göstərmiş və qətiyyətlə ifşa etmişdir. O, əmin idi ki, «Azərbaycan xalqı bir millət kimi daha çox siyasi hüquqlara malik olmalıdır. Buna nail olmağın yeganə yolunu o, bütün xalqın milli mənlik şüurunun inkişafında görürdü». [7, 78]

H.B.Zərdabi xalqın hüquq və azadlıqlarının kobudcasına pozulmasını ifadə edən səbəblərdən birini məhkəmə işlərinin ana dilində aparılmamasında görürdü və çarizmin müstəmləkəçilik siyasətini əks etdirən belə qadağanı ədalətə, humanizmə, xalqın milli mədəniyyətinə mənfur münasibət kimi qiymətləndirirdi.

Mütəfəkkir yalnız mənsub olduğu xalqın deyil, eləcə də bütün müsəlman aləminin hüquq və azadlıqlarının müdafiəçisi, mədəniyyətinin tərəfdarı kimi nüfuz qazanmışdı.

H.B.Zərdabi Şərq xalqlarının, o cümlədən, öz xalqının gələcəyinə böyük ümid bəsləyirdi. «O, gənclərə məsləhət görürdü ki, xalqın gözünü örtən qara pərdəni qaldırmaq, həmvətənlərini işıqlı dünyaya çıxarmaq üçün heç şeydən çəkinmədən, kafir adlandırılmaqdan qorxmayaraq ciddi-cəhdlə elmlərə yiyələnsinlər, Azərbaycanın şəhər və kəndlərində elmi, mədəniyyəti, yeni adətləri, xalqlar və millətlərin dostluğu ideyalarını həvəslə yaysınlar». [9, 83]

Onun fikrincə, insanın elmi, biliyi nə qədər artıq olarsa, onun heyvandan ayrılmaq, fərqlənmək dərəcəsi də bir o qədər artıq olar. Ona görə eqoizm insanı heyvana nə qədər çox yaxınlaşdırırsa, ədalət, vicdan da ondan bir o qədər uzaqlaşdırır. Xalqın səadəti, vətənin tərəqqisi uğrunda mübarizəni mütəfəkkir, həmişə əxlaqın meyarı kimi qiymətləndirmişdir. O xalqın mənafeyinin əleyhinə hərəkət edənləri, öz xoşbəxtliyini minlərcə adamların əzab və iztirabları hesabına var-dövlət yığan bəyləri, xanları, mollaları, şeyxləri ciddi surətdə tənqid etmişdir. Mütəfəkkir, gənclərə etdiyi müraciətində onlar vətənin, xalqın səadəti uğrunda mübarizədə heç bir şeydən qorxmamağa, xalqın səadəti üçün hər cür çətinliyə sinə gərməyə çağıraraq yazmışdı: «Ey elm təhsil edən cavanlarımız! Doğru-

dur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir. Siz danışdığınızı onlar başa düşməyib, əfalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər. Amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti - qardaşlarımızı atıb onları kor və sərkərdan qoyasınız. Bəs ləzzəti-dünyaya tamah etməyib öz qardaşlarınızı əməli-xeyrə vadar edin, qoy şairlər sizi həcv etsin, mollalar lənət oxusun, əvamünnas daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və bişək gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq». [9, 157]

H.B.Zərdabinin özü zülmət və cəhalət içərisində boğulan bir xalq arasında maarifçilik işi apararkən heç bir çətinlik, mərhumiyyət onu qorxutmamışdır. Ruhanilərin, bəylərin feylinə uymuş avam adamlar çox vaxt onu başa düşmürdülər və hətta ona həqarətlə baxırdılar. H.B.Zərdabi azərbaycanlı müəllimlərə yazdığı «Açıq məktub»da elmin, maarifin geniş yayılmasının son dərəcədə zəruriliyini bir daha qeyd edərək «elmin bütün dərdlərin əlacı» kimi qiymətləndirmişdir. Buna görə də o, tək-tək adamların deyil, bütün xalqın elmə yiyələnməsini arzu edərək yazmışdı: «Damcı-damcı ilə yaramız sağalan deyil. İndi sel vaxtıdır. Elm gərək sel kimi axsın ki, hər istəyən ondan içib doya bilsin. Belə yanğı vaxtında hər milləti istəyənin borcudur ki, birə-beş artıq işləsin və bir də bizim oxuyanımız az olduğuna biz gərək nəinki işi müftə və bitəmənna millət üçün eləyək, hətta lazım olsa xərcini də bəqədr-məqdur özümüz gərək verək. Belədə iş irəli gedə bilər. Gözlərimizi dövlətlilərin əlinə tikib, onların qara sandıqlarına ümid olmaq, nahaqdır… təvəqqə edirəm yaddan çıxarmamaq ki, biz hamımız müsəlman balasıyıq, müsəlman südü ilə böyümüşük, müsəlmanların içində oluruq. Heç insafdırmı ki, artıq qalan vaxtımızı onlardan müzayiqə edək». [9, 157] Eyni zamanda görkəmli mütəfəkkirin «Kaspi» qəzetində dərc etdirdiyi məqalələrin birində o, elmi həqiqətləri mütəxəssislərin dar çərçivəsindən çıxarıb, onları bütün kütlələrin malı etməyi alimlərin ən vacib mənəvi borcu hesab edirdi. H.B.Zərdabi «vətənimiz Azərbaycanı, onun şəhər və kəndlərini, o cümlədən «küləklər və qumlar şəhəri Bakını» başdan-başa meşələrlə, bağlarla, yaşıllıqlarla örtülmüş bir gülüstana çevirməyi, onun bərəkətli torpağını daha da münbitləşdirməyi, yollarını abadlaşdırmağı, şəhər və kəndələrini sağlamlıq ocaqlarına çevirməyi qızğın arzu etmiş və on illər ərzində bu uğurda mübarizə aparmışdır». [9, 157]

Azərbaycan maarifçilərinin vətənpərvərliyi səmimi və son dərəcədə təsirli, fəal bir vətənpərvərlik idi. Onlar həmçinin ömürlərinin sonuna qədər vətəni və xalqı böyük bir məhəbbətlə sevmişlər.

Beləliklə də, XIX əsrin sonlarında Azərbaycan sosial-fəlsəfi fikir tarixində milli mənlik şüuru və milli özünüdərketmə ideyalarının inkişafında mühüm xidməti olan H.B.Zərdabiyə görə elm, maarif və milli mətbuatın inkişafı xalqımızın milli oyanışına və özünüdərkinə gətirib çıxaracaqdır.

H.B.Zərdabi Azərbaycan mədəniyyət tarixi ilə yaxından tanış idi, mütəfəkkir Bəhmənyardan tutmuş M.F.Axundova qədərki Azərbaycan mütəfəkkirləri ilə ideya əlaqəsində olmuşdur. Lakin H.B.Zərdabinin bir mütəfəkkir kimi yetişməsində Azərbaycan mədəniyyətinin XIX əsrdə yaşayıb yaratmış görkəmli nümayəndələri Abbasqulu Ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov diqqəti daha çox cəlb edirlər. A.A.Bakıxanovun və M.Ş.Vazehin maarifçilik ideyaları, M.F.Axundovun dinə münasibəti H.B. Zərdabinin görkəmli bir alim və maarifçi kimi yetişməsinə və onun dünyagörüşünün formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Akademik Heydər Hüseynov «XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» kitabında yazır: «Elmə və mədəniyyətə qarşı düşmənlərinin kinli çıxışları müqabilində isə Zərdabi özünəməxsus nikbinliklə xalqa inanır və deyirdi: «Xalq, nəhayət, başa düşər ki, mən onun dostuyam. Məktəbin, teatrın xeyrini dərk edər – əgər xalqa bir qəzet də verə bilsək, onun dünyagörüşünü biz büsbütün dəyişərdik». [3, 101] Beləliklə də

müəfəkkir bütün qəlbilə xalqına bağlı idi və öz vətəninin, xalqının alovlu vətənpərvəri idi. O, mütərəqqi ideyaların daşıyıcısı kimi, öz fəlsəfi məzmunlu əsərləri ilə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində xalqımızın milli özünüdərketməsində və milli mənlik şüurunun oyanmasında müstəsna rol oynamışdır.

İstifadə olunmuş ədəbiyyat

1. Zərdabi H.B. Əsərləri, Bakı: Azərbaycan Dövlət nəş., 1960, 476 s.
2. Şükürov A.M. Şərq fəlsəfəsi və filosofları. Bakı: 2005, 664 s.
3. Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: «Zəkioğlu», 2006, 544 s.
4. http://www.elchin.com/az/yazi/nerimanov.htm -Elçin. Nəriman Nərimanov: Şəxsiyyəti və fəaliyyəti.
5. Rüstəmov İ.Ə. Həsənbəy Zərdabi, Bakı: Gənclik, 1969, 187 s.
6. Ахмедов А.Б. Азербайджанские тюрки в революции 1905 года. Баку: ИПО «Азербайджан илли енсиклопедийасы» 2002 , 332 с.
7. Behbudov Q. Həsənbəy Zərdabinin siyasi-hüquqi görüşləri, Bakı: Elm, 2000, 116 s.
8. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi, Bakı: BDU nəş. 2002, 611s.
9. Göyüşov Z. Azərbaycan maarifçilərinin etik görüşləri (XIX əsrin ikinci yarısı). - Bakı: Azərbaycan EA nəşriyyatı, 1960, 212 s.

Алияр ОРУДЖЕВ

О ПРОБЛЕМЕ НАЦИОНАЛЬНОГО «Я» И НАЦИОНАЛЬНОГО САМОПОЗНАНИЯ В ТВОРЧЕСТВЕ ГАСАН БЕЯ ЗАРДАБИ

Резюме

В конце XIX, в начале XX вв. развитие идеи национального сознания и самопознания в общественно-политической и философской мысли Азербайджана связано с творчеством Гасан бея Зардаби.

Гасан бей Зардаби своим научно-философским творчеством способствовал социокультурному развитию, а также пробуждению национального самосознания. Основным источником социального, хозяйственно-экономического развития страны мыслитель считал просвещение.

Наряду с этим Гасан бей уделял огромную важность прессе в деле борьбы против отсталости и невежества.

Aliyar ORUJOV

ABOUT THE OF NATİONAL SELF-CONSCİOUSNESS AND DİGNİTY İN HASAN BEY ZARDABİ'C LİTERARY ACTİVİTİES

Summary

Hasan bey Zardabi i sof the personalities who played an important role in the development of national self-consciouness and dignity in the history of social-political and philosorhical thought in Azerbaijan at the end of the 19th and at the beginning of the 20th centuries. During the saame centuries Hasan bey Zardabi did his best to awaken national dignity and to contribute to the social and cultural development. The thinker regarded the enlightment as a major source of developing culture and economical-agricultural life in the country. At the saame he atteched great importance to the role of press in the struggle against ignorance.

Şəhla MUSAYEVA
*AMEA, FSHT «Aksiologiya
və fəlsəfi antropologiya» şöbəsi*

QLOBALLAŞMANIN AZƏRBAYCAN MƏKANINDA ƏXLAQİ-ETİK PROBLEMLƏRƏ TƏSİRİ*

Müasir dövrü artıq bütün sahələri əhatə edən qloballaşma dövrü kimi səciyyələndirirlər. Qloballaşmanın tam əhatəli və ədalətli xarakter kəsb etməsinin yalnız özünəməxsusluğunu qoruyub saxlayan bəşəriyyətə ümumi mənsubluğa əsaslanan ümumi gələcəyin geniş miqyaslı və qəti səylərlə formalaşması vasitəsilə mümkünlüyünü qeyd edirlər.

Qloballaşma prosesi müasir dünyada filosoflar, siyasətçilər arasında müxtəlif rəylər doğurmuşdur. Buna görə də müasir sosial-siyasi, fəlsəfi-etik ədəbiyyatda və ictimai həyatda qloballaşma və antiqloballaşma tərəfdarları meydana gəlmişlər.

Qloballaşma tərəfdarları bu prosesə dünya miqyasında siyasi, iqtisadi, sosio-mədəni həyatın ümumi inteqrasiyasının dərinləşməsi kimi baxdıqları halda, antiqloballaşma tərəfdarları qloballaşmanı milli-mənəvi dəyərlər, milli özünəməxsusluq üçün ciddi təhlükə kimi qiymətləndirirlər.

H.Holm və G.Corensenə görə qloballaşma sərhədlər üzərindən iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin intensivləşməsidir (1, s.1).

«Qloballaşma» terminini ilk dəfə 1983-cü ildə Roland Robertson işlətmişdir. Robertson qloballaşmanı mədəniyyət və insan şüuru sahələrinə aid edirdi (2).

Postsovet məkanında, o cümlədən Azərbaycanda da qloballaşma ideyası reallaşmaqdadır. Azərbaycan filosofu Ramiz Mehdiyev Qərbdə meydana gələn qloballaşmanın postsovet məkanına təsirinin bir neçə səbəbini göstərir: «Birincisi, Qərb dynyası 70-80-ci illərin ağır sınaqlarından çıxaraq dünya iqtisadiyyatında öz liderlik rolunu təsdiq etdi. İkincisi, informasiya-kommunikasiya inqilabı planetimizin bütün guşələrini bir-birilə əlaqələndirməyə imkan yaratdı. Üçüncüsü, kommunizmin iflası liberal dəyərlərin dünya miqyasında irəliləməsinə təkan verdi. Dördüncüsü, dünya ölkələri arasında kütlənin mədəni mübadilə ciddi əhəmiyyət kəsb etdi».

Qloballaşmanın əleyhdarları qloballlaşmaya mənfi bir proses kimi, qərğin iqtisadi və mədəni maraqlarının bütün dünya üzərində üstünlüyü kimi qiymətləndirirlər.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlər həqiqətən böyük təhlükələrlə üzləşir, və milli-fəlsəfi fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən, və milli-sosial özünü qoruma şüuru formalaşdırmadan bu təhlükədən xilas olmaq çox çətindir (3, s.269).

Qloballaşma əleyhdarları «qlobal təhlükədən» danışırlar. Qloballaşmaya müxtəlif yanaşmalar mövcuddur:

1. Qlobal iqtisadi yüksəliş dövrü. Dünyada yeni yaranmış dövr. Qərbin bir çox görkəmli alim və siyasətçiləri R.Darendorf, F.Nuşeler, O.Zafonşen, B.Klinşen, B.Qeyms optimistcəsinə iddia edirlər ki, qloballaşma iqtisadi inkişafla yanaşı cəmiyyətin bütün sahələrinə müsbət təsir edir. Onlar qloballaşmanın bəşəriyyətin əvvəllər edə bilmədiyi və arzuladığı imkanlar yaratdığını qeyd edirlər.

2. Qlobal multikultoroloji cəmiyyət dövrü. Qloballaşma mədəniyyətlərarası və siyasi münasibətlərdə xüsusi keyfiyyəti özündə əks etdirir. Qloballaşma min illərlə bərqərar olmuş mədəni sərhədləri silir, identivliyi dağıdır. Bu yanaşmaya görə qloballaşma dünya-

---

* Məqalə redaksiya heyətinin üzvü, fəlsəfə elmləri doktoru İ.Məmmədzadə tərəfindən çapa məsləhət bilinib.

da münaqişələrin artması deməkdir.

3. Qloballaşma sosiumun transformasiyası sistemi kimi. Bu yanaşma nöqteyi-nəzərdən qloballaşma dövlət suverenliyi və milli-mədəni inteqrasiya prinsiplərinə əsaslanan ənənəvi sosial-siyasi qaydaların dağılmasıdır.

4. Qloballaşma mədəniyyət və ənənələrinin dağılması kimi. Bu nöqteyi-nəzər tərəfdarları qloballaşmanın qəti əleyharlarıdırlar.

Beləliklə, Qloballaşma anlayışında vətəndaş-hüquqi vəziyyətin universallığı haqqında təsəvvürlər öz əksini tapmışdır.

XX əsrdə dövlətlər arasında çoxtərəfli əməkdaşlıq həm qlobal tənzimləyici təşkilatların, həm də dövlətlərin maraqlarını həyata keçirmək cəhdlərini əks etdirir. Müstəqilliklərini saxlamaq üçün dövlətlər daxili maraqlarını təmin etməlidirlər. Milli və transmilli maraqlar arasında əlaqələrə danışıqlar və ümumi maraqlar axtarışı daxildir. Lakin fərdi maraqlar və ümumi maraqlar arasında münaqişə baş verir. Burada qarşılıqlı asılılıq əsas amil kimi çıxış edir. Xarici maraqlar dövlətin yardımından, dövlət təsisasçıları isə kənar vasitələrdən asılıdır.

Qloballaşmanın mənəviyyata mümkün mənfi təsir imkanlarını aradan qaldırmaq yolları belə qruplaşdırılır: 1. Mümkün mənfi nəticələri qabaqcadan nəzərə almaq. 2. İnformatizasiya və texnikalaşmanın zəruri mənfi nəticələrini başqa vasitələrlə (din, əxlaq, incəsənət və s.) kompensasiya etmək. 3. Mənəvi tərbiyənin yeni, müasir intensiv metodlarını hazırlamaq və onun kütləviliyini artırmaq (3, s.274).

Qloballaşma şəraitində insana mənəvi tərəqqisində təkcə milli maraqların deyil, ümumbəşəri maraqların da nəzərə alınması ilə bağlı yeni keyfiyyətli cəhətlər meydana çıxır. Qloballaşma şəraitində insanla təbiətin qarşılıqlı təsirində elə ziddiyyətlər ortaya çıxır ki, onların həlli ümumbəşəri mənəvi məsuliyyətlə cilovlanan ciddi münasibət tələb edir. Əxlaq bir daha insan - insan münasibətləri çərçivəsindən kənara çıxır, insan ilə təbiət arasındakı münasibətin qlobal miqyas alması qarşıya yeni əxlaqi problemlər qoyur.

Müasir dövrdə qloballaşma əleyhdarları ABŞ-ın yeritdiyi mənəvi qloballaşma siyasətini «şeytanın hakimiyyətinin bərpası» kimi qəbul edirlər.

Qloballaşma mənəviyyatına qarşı ənənəvi, milli etikanın yeni növlərini - biznes etikası, ekoloji etikanı özünə birləşdirən əxlaq fəlsəfəsini qoyurlar.

Müasir dövrün etikasının bir çox istiqamətləri mövcuddur. Bunlara qlobal etikanı, ədalət və insan haqları etikası (liberal etika) və bioetikanı (məsuliyyət etikasını) aid edirlər.

Qlobal etikanın nümayəndələri – K.Ö.Apel, Q.Kyunt, Y.Xabermas və başqaları özlərinin müxtəlif variantlarında dünyada müxtəlif eyniliyin mövcudluğu ideyasını irəli sürərək göstərirlər ki, mütləq əxlaq həmişə özünü xüsusi əxlaqi motiv və davranış kimi təzahür etdirir. Mütləq etikaya görə, dünyadakı sülh və insandakı sülh bir-birilə qarşılıqlı asılıdır və mütləq dəyər əxlaqi imperativdir. Mütləq etika digər fayda və ağılla bağlı olan xüsusi əxlaqi motivlərlə yanaşı durmur. Mütləq əxlaq fövqəlmotiv rolunda çıxış edir. Müasir şəraitdə dünyanın yaşayıb qalması üçün bütün eyniləşmənin bir bəşər birliyində birləşməsi zəruridir. Bu zaman mütləq əxlaq kimi hamı üçün fövqəlmotiv irəli sürülür.

Etiraf etmək lazımdır ki, mütləqin mövcudluğunda xristian və müsəlman əxlaqı da iştirak edir (4, s.136-117).

Müsəlman əxlaqı da, xristian əxlaqı da vahid deyil. Xristian əxlaqı Qərbin şüuruna nəzarət etmir. Dini mütləqdə də, dünyəvi mütləqdə də zəiflik problemi özünü göstərir. Bu zəifliyin əlamətlərini İ.Məmmədzadə düzgün izah edir. O, mütləq əxlaqın Allahdan və yalnız ağıldan gəlmədiyini göstərir. Bunu müsəlman və xristian allahlarının vahid mütləqdə birləşmədiyi və insanların dil, maraq, ənənə, qrup əxlaqı, konkret davranışa görə bir-birlərindən fərqlənmələrilə izah edir. Azərbaycan alimi qlobal etikanın ölkəmizdə

utopik göründüyünü də düzgün izah edir: «Bunun səbəbi odur ki, mütləq etika və ya qlobal etika Qafşazda regionun vahid taleyini anlamaqdan irəli gəlməlidir. Qlobal etika Azərbaycanda o zaman meydana gələ bilər ki, biz Qafqazda başqa xalqların da yaşadığını və onlarla əməkdaşlığın zəruriliyini dərk edə bilək. Buna görə də qlobal etika çoxpilləli olmalı, o, mütləq dəyərlərdən bu və ya digər region və mədəniyyətin konkret həyatına, mədəniyyətlərin müxtəlifliyinə həqiqi loyallıq (hörmət) kəsb edərək daxil olmalı, dünyada real həyatın faktına çevrilməlidir» (5, s.138).

Bəzi tədqiqatçılar isə mütləq dəyərlərə, qlobal etikaya xüsusi, milli şəxsiyyət üzərində qloballaşmanın diktəsi kimi baxır. Belə düşünürlər ki, qlobal etika xüsusinin, millinin sərhədlərini aradan qaldırılması, birləşməsi, onların qlobal çərçivədə saxlanmasına doğru gedir.

Qlobal etikanın əsas dəyərlərinin formalaşmasında İ.Məmmədzadə 1948-ci ildə qəbul edilmiş «İnsan haqlarının ən ümumi Bəyannaməsi»nin və 1993-cü ildə qəbul edilmiş «Qlobal etika haqqında Bəyannamə»nin xüsusi rol oynadığını qeyd edir.

Bu bəyannamələr qlobal etikanın əsas, insan haqlarının qrup dəyərləri və əxlaq qarşısında üstünlüyünü sübut edir.

Qlobal etikanın bu ilkin prinsipi öz növbəsində aşağıdakı qaydalar ilə – zorakılıq mədəniyyətindən uzaqlaşma, həyata hörmət, həmrəylik mədəniyyəti və ədalətli iqtisadi qayda, dözümlülük, həqiqətpərəstlik, kişilər və qadınlar arasında bərabər hüquq və əməkdaşlıq qaydaları ilə şərtlənir. Bu prinsiplər mənəvi qüvvələrin və ümidin mənbəyi kimi zəka və reallıqdan irəli gəlir» (4, s.142).

Qloballaşmanın müsbət təsirilə yanaşı onun bir çox mənfi problemlərini, beynəlxalq cinayətkarlıq, ekstremizm, millətçilik, bir çox ölkə və regionlarda sosial sistem və strukturlarında tənəzzülün yaranmasına səbəb olduğunu da göstərirlər.

Strateji-sistemli rasionallığın diskursiv nəzəriyyədə kommunikativ rasionallığın başlanğıcına tabe olması isə qanun deyil, ancaq praktiki-etik zəka üçün imperativdir.

Diskursiv etika qlobal iqtisadiyyatda təşəkkül tapmış mənafeyi, meylləri dəyişdirməyə və maraqlı ölkələri şəraiti fəal dərk etməyə, öz maraqlarını siyasi yolla qorumağa çağırır.

Bu mənada Azərbaycan qlobal iqtisadi, siyasi və mədəni dəyərləri qəbul etməklə yanaşı öz maraqlarını qorumaq, milli-mənəvi dəyərlərini ümumbəşəri dəyərlərlə birləşdirmək əzmindədir.

Qloballaşma prosesində diskursiv etika, qlobal etika, bioetika və ekoloji etika birgə səylərlə etik problemləri dərk edib araşdırmalı, qloballaşmanın əxlaqi-mənəvi aspektindəki mənfi və müsbət cəhətləri obyektiv üzə çıxarmalıdır.

Müasir Azərbaycanda qloballaşma şəraitində yaranan əxlaq mədəniyyəti onun təşəkkülü, yeni vəzifələri və yanaşmaları haqqında yalnız Azərbaycan MEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqtlar İnstitutun əməkdaşları – professor Yusif Rüstəmov, fəlsəfə elmləri doktoru İ.Məmmədzadə, fəlsəfə elmləri namizədləri D.Müslimzadə, S.Allahverdova, S.Həsənova və başqalarının əsərlərində toxunulmuşdur.

Qloballaşmanın etik və ya ideoloji aspektindən danışılarkən qlobalizm ideologiya kimi səciyyələşir.

Qloballaşmanın etik təhlili göstərir ki, bu proses şüurların dialoqudur. Qlobalizm qlobal prosesin müsbət tərəflərilə bağlıdır. Bazar iqtisadiyyatı və transmilli korporasiyalar ənənəvi mədəniyyəti dağıdır. Ənənəvi şüuru, hakim olduğu ənənəvi mədəniyyət inkişafa mane olan amil kimi göstərilir. «Qloballaşma mədəniyyətinin informasiya kontenksinin siyasi və digər kontestlər üzərində üstünlüyü kimi başa düşülür» (4, s.66).

Müasir dövrü dünya səviyyəsində «Qlobal demokratiyaya keçid» dövrü kimi də səciyyələndirilir. Bu dövrdə baş verən qlobal yeniliklər bəşəriyyətdə mədəni şok yaradıb.

Mədəni şok prosesi üç mərhələdə davam edir:

1. İnkultirasiya (doğma mədəniyyətin ənənə, adət, dəyər və normalarının qəbul edilməsi və qorunub saxlanması);

2. Akkultirasiya (yad mədəniyyətin ənənələri və dəyərlərinin bir hissəli qəbulu);

3. Assimilyasiya (yad mədəniyyətin tam qəbul edilməsi və doğma mədəniyyətin yad mədəniyyət tərəfindən udulması). (Dirçəliş – XXI əsr, 2003, № 65, s.142).

Bu proses cəmiyyət və şəxsiyyət səviyyəsində baş verir. Qloballaşma prosesində Azərbaycan cəmiyyətində mədəni şok prosesinin müxtəlif səviyyəsini yaşayan insanlar mövcuddur. Ənənəvi mədəniyyət və şüurla yaşayanlara, Qərb mədəniyyətinin bir hissəli qəbul edib ənənəvi mədəniyyətlə yaşayanlara və tam qərbləşənlərə təsadüf etmək olur.

Mədəni şok zamanı bir-birilə əks ideologiyalar və dünyagörüşlər toqqu ur, mübarizə aparır. Qapalı cəmiyyətdən açıq cəmiyyətə, qlobal demokratiyaya keçid zamanı yeni ideya, norma və dəyərlərin qəbulu zamanı psixoloji gərginlik, ağlasığmaz çaşqınlıq, qeyri-normal vəziyyət yaranır.

Postsovet ölkələri kimi Azərbaycan da ikili keçid mərhələsi yaşayır: lokal və qlobal demokratiyaya keçid. Lokal keçid – müstəqilliyin əldə olunması yerli vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna, yeni bazar iqtisadiyyatına keçiddir. Qlobal demokRatiyaya keçid isə – dünya mədəniyyətinə ümumbəşəri dəyər və normalarına inteqrasiya olunmaqdır.

Postsovet adamlarını P.Ştompkan «Hoto Soveticus» adlandırırdı. Lodzu Mizalkam postsosialist ölkələrində mədəni zədənin 5 əlamətini göstərir:

1. İnamsızlıq sindromu
2. Gələcəyə pessimist baxış;
3. Keçmiş zamanların həsrəti (nostalgiya);
4. Siyasi apatiya;
5. Kollektiv yaddaşın postkommunist zədələri.

Azərbaycan cəmiyyətində qeyri-normal vəziyyət, ümumbəşəri bəla hesab olunan mənfi dəyərlər – cinayətkarlıq, insan alveri və s. bəlalar şəxsiyyətin özgələşməsi, əxlaqsızlıq, tənhalıq, narkomaniya, alkoqolizm, intihar və s. şəxsiyyətin və cəmiyyətin böhRanın təzahür formaları özünü göstərir.

Qloballaşma prosesində Azərbaycan cəmiyyəti Qərbin həm müsbət, həm də mənfi dəyərlərini mənimsəyir. Azərbaycanın müharibə vəziyyətində olması vəziyyəti daha da çətinləşdirir.

Müasir qloballaşma dövründə Azərbaycanda dəyərlərə aşağıdakı münasibətlər özünü göstərir. Bir tərəfdən sürətli qərbləşmə, digər tərəfdən islami dəyərlərə fanatik qayıdış, üçüncü tərəfdən milli mənəvi dəyərlər arxaikcəsinə təbliğ olunur. Əslində ümumbəşəri mənəvi dəyərlərin dərk və əxz olunmasında bu münasibətlərin sintezindən istifadə olunmalıdır. «Tənqidi radikal zəka yalnız olduqca qiymətli bəşəri dəyərlər olan məhəbbət və həyatla vəhdətdə qiymətli olur. Ümumi və əbədi dəyərlər – gözəllik, xeyirxahlıq, məhəbbət, qadın və kişinin yüksək mənəvi keyfiyyətləri və s. Bütün bəşəriyyət tərəfindən eyni cür qəbul və dərk edilir.

Qloballaşma yalnız qərbləşmə deyil, mədəni-mənəvi plüralizmə gətirən prosesdir. Qlobal demokratiya keçid mərhələsini yaşayan Azərbaycanda dövlət və siyasi hakimiyyət cəmiyyəti nizamlamağa, kütlə psixologiyasını, mənəvi-əxlaqi sahədəki dəyişiklikləri tənzimləməyə çalışır.

Beləliklə, bəşəriyyətin həyatında baş verən XX – XXI əsrlərin ən ciddi, ən böyük hadisəsi olan qloballaşma insanların mənəvi, fərdi həyatlarvna mürəkkəb, ziddiyyətli bir proses kimi daxil olmaqdadır. Bəşəriyyət bir vəhdət kimi inteqrasiya olunur. Lakin bu inteqrasiya gedişində müsbət dəyərlər sisteminin təşəkkülü ilə yanaşı, ağrılı problemlər də

aşkar olunur. Qloballaşma bütün sahələrdə olduğu kimi mənəvi həyatda da yeni keyfiyyətlər kəsb edir, bir çox mövcud əxlaqi normaları dağıdır, mənəviyyatda da öz şərtlərini diktə edir.

Qloballaşma müasir cəmiyyətin aşağıdakı sahələrinə təsir edir:

1) İqtisadi həyat; 2) Siyasi həyat; 3) Mədəni həyat; 4) Ekoloji və 5) Mənəvi həyat.

Postsovet məkanında o cümlədən, Azərbaycanda indi təşəkkül etməkdə davam edən hüquqi dövlət, dövlət və cəmiyyətin differensiallaşması prinsipləri universal dəyərlərin ayrılmaz tərkib hissəsidir. Qloballaşma zamanı yeni universal mənəvi dəyərlər sistemi və köhnə dəyərlər arasında ziddiyyətlər yaranır. Qloballaşma standartlarının tələblərinə cavab verə bilən mənəvi dəyərlər üstünlük qazanır, ümummilli, ümumbəşəri sərvətə çevrilir, cəmiyyətdə, fərdin mənəviyyatında özünə yer tutur və daha da möhkəmlənir.

İstifadə olunmuş ədəbiyyat

1. Huntington S. The Glash civilization. 1993.
2. Robertson R. Globalization. London, 1992.
3. Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2004.
4. Мамедзаде И.Р. Введение в этику. Баку: «Муаллим», 2004.
5. Мамедзаде И.Р. Гражданское общество в Азербайджане: проблемы и перспективы //Политическая этика и некоторые проблемы переходного периода. Баку, «Тафаккур», 1988.

Шахла МУСАЕВА

ВОЗДЕЙСТВИЕ ГЛОБАЛИЗАЦИИ НА НРАВСТВЕННО-ЭТИЧЕСКИЕ ПРОБЛЕМЫ В АЗЕРБАЙДЖАНСКОМ ПРОСТРАНСТВЕ

Резюме

В статье рассматриваются процессы глобализации и роль этических ценностей в современном мире и в Азербайджане. Автор анализирует позитивные и негативные черты глобализации, обосновывает своё мнение, исследовав научную позицию зарубежных и азербайджанских ученых. Анализируются мнения противников глобализации, а также их мнения о якобы рассматривание имперской политики глобализации США. Говорится о современных направлениях этики, т.е. – глобальной этики, этики справедливости и человеческих прав и биоэтики. Раскрывается воздействие глобализации на такие области современного общества как экономическая, политическая, культурная, экологическая и нравственная жизнь.

Shahla MUSAYEVA

INFLUENCE OF GLOBALIZATION ON AND ETHIC PROBLEMS IN AZERBAIJAN

Summary

In the article globalization processes and a part of ethic values in contemporary world and Azerbaijan are considered. The author analyzes the positive and negative features of globalization, grounds his view having studied scientific positions of foreign and Azerbaijan scientists. An analysis is made of the opponents of globalization as well their opinions of supposedly expending imperial policy of globalization of USA. There is stated on modern trends of ethics, i.e. global ethics, ethics of justice and human rights and bioethics. The impact of globalization on such spheres of modern society as political, cultural, ecological and moral life is brought to light.

Fuad ABBASOV
BDU, aspirant

PRAQMATİZMDƏ HƏQİQƏT KONSEPSİYASI*

Həyat və bizi əhatə edən gerçəklik heç də həmişə birmənalı anlam daşımır. İnsan düşünən varlıq olduğuna görə təbii olaraq, onu əhatə edən mühiti dərk etməyə çalışır. Gerçəkliyin adi müşahidə vasitəsilə öyrənilməsi heç də həmişə lazımi idrakı tələbatları ödəmir. İnsan gerçəkliyi adi şüur və eyni mənada intellektual şüur səviyyəsində dərk edə bilər. Gerçəkliyin dərkinə olan mühüm idraki tələbatları təbiidir ki, yalnız intellektual təfəkkür səviyyəsində öyrənmək mümkündür. İntellektual əsaslara malik olan rasional təfəkkür özünün nəzəri tədqiqatları vasitəsilə obyektiv gerçəkliyi dərk edərək onun ümumi, fərqli və eləcə də səciyyəvi əlamətlərini ümumiləşdirir. İdrak prosesində bizim qarşıya qoyduğumuz əsas məqsəd idrakın doğruluğuna nail olmaqdır. Gerçəkliyin dərki nə dərəcədə məqsədəuyğundursa, idrakın həqiqiliyi daha artıq dərəcədə zəruridir. Fəaliyyətimizin əsasında dayanan bilik tam, bitkin və müfəssəl olmalıdır. Həqiqət kimi nəzərdən keçirdiyimiz bilik məhz bu keyfiyyətləri özündə əks etdirməlidir. Lakin biz, biliyin həqiqiliyinə hansı meyarlar vasitəsilə nail oluruq və həqiqi biliyin qarşısında qoyduğumuz tələblər hansılardır? Bu kontekstdə, həqiqət kimi qəbul etdiyimiz biliyin meyarı haqqında müxtəlif mülahizələr meydana gəlir. Bilik yaxud həqiqətin meyarı haqqında meydana gələn bu fikirlər bir-birindən kifayət qədər fərqli və eyni zamanda əks qütblü yanaşmalar kimi formalaşmışdır. Hər bir konsepsiyanın həqiqətin meyarı probleminə münasibətdə öz nöqteyi-nəzəri və bu nöqteyi-nəzəri əsaslandıran prinsip və dəlilləri mövcuddur.

Praqmatizm konsepsiyası tədqiq etdiyi problemlər baxımından səciyyəvi həqiqət konsepsiyasıdır. Bununla yanaşı o, qeyri-ənənəvi həqiqət konsepsiyasıdır. Bəllidir ki, ənənəvi həqiqət nəzəriyyələrində həqiqət, anlayışın ifadə etdiyi predmetə uyğunluğu kimi təqdim olunur. Anlayış predmetin məzmunundan irəli gəlir, predmetin məzmununu əks etdirir. Həqiqət kimi təyin edilən anlayış predmeti öz məzmununa görə əhatə etməlidir. Bununla da, yuxarıda qeyd etdiyimiz fikir özünü doğruldur ki, həqiqət predmet haqqında tam, bitkin, müfəssəl bilikdir.

Ənənəvi həqiqət nəzəriyyələrindən fərqli olaraq qeyri-ənənəvi həqiqət nəzəriyyələrində problemin həlli heç də anlayışın predmetin məzmununa uyğunluğunda deyil. Məhz bu nöqteyi-nəzərdən A.Pap öz təsnifatında praqmatizmi birmənalı olaraq qeyri-ənənəvi həqiqət nəzəriyyələrinə aid edir (5, s.48). Praqmatik həqiqət nəzəriyyəsinin tərəfdarları təsdiq edirlər ki, həqiqətin meyarı uğurdur, müvəffəqiyyətdir (1, s.907). Həqiqət faydalı olandır. Həqiqətin meyarı bizim fəaliyyətimizin uğuru, müvəffəqiyyəti ilə ölçülməlidir. Bu baxımdan, praqmatizmin görkəmli nümayəndəsi U.Cemsin idrak nəzəriyyəsində mühüm əhəmiyət daşıyan təcrübə anlayışı özünəməxsus şəkildə dəyərləndirilir. U.Cems praktika anlayışı ilə təcrübə anlayışını bir-birindən fərqləndirir (8, 43). U.Cemsin izahında təcrübə anlayışının məzmunu bizim adi mənada işlətdiyimiz «müəyyən bir sahədə uzunmüddətli fəaliyyət və iş nəticəsində qazanılan təcrübə» anlayışının məzmununa uyğun gəlir. Biz öz fəaliyyətimizdə müxtəlif predmet və hadisələrlə təmasda oluruq və onları canlı, əyani müşahidə yolu ilə görür və hiss edirik. Lakin bütün bu hadisə və proseslərin heç də hamısı bizim yaddaşımızda qalmır. Bizim yaddaşımıza köçən yalnız bir qisim hadisə və predmetlərdir ki, onlarla mütəmadi şəkildə təmasda oluruq. Bu predmetlərlə təmasda insan müəyyən biliklər və vərdişlər qazanır. Həmin biliklər və vərdişlər müəyyən

* Məqalə akademik F.Qasımzadə tərəfindən çapa məsləhət bilinib

«təcrübədən» doğur və «xalis təcrübə»in məzmunu da məhz bundadır. Təcrübə hadisəsi o zaman baş verir ki, o, insanda müəyyən vərdişə çevrilir. Yaddaş aktının özu də həmin vərdişin bir hissəsidir.

İnsan öz fəaliyyətində müxtəlif predmet və əşyalarla əhatə olunmuşdur. Bu isə fəaliyyətin əşyalaşmasını şərtləndirir. Praktika məhz fəaliyyətin əşyalaşmasıdır. U.Cemsin təcrübə və praktika anlayışlarını, ayrı-ayrılıqda şərh edərək prinsipial fərqlərlə müəyyən etməsi ciddi elmi əsaslara malikdir. Bu təriflər, bizim təcrübə və praktika anlayışları haqqında təsəvvürlərimizə uyğun gəlməklə yanaşı, bu anlayışları daha da dəqiqləşdirir. Bununla yanaşı, bizim elmdə istifadə etdiyimiz praktika və təcrübə anlayışları və onların məzmunca təyini U.Cemsin həmin anlayışlara verdiyi təriflə üst-üstə düşür. U.Cemsin izahında diqqəti cəlb edən əsas məqam ondan ibarətdir ki, o, təcrübəni yalnız bizim bilavasitə müşahidə etdiyimiz gerçəkliklə və əyani təmasda olduğumuz predmetlərlə əlaqələndirir. Məsələn, yağış yağır və onu gözlərimiz qarşısında görür və hiss edirik. Əgər, eyni hadisə başqa bir məkanda baş verirsə bu təcrübə anlayışına müncər edilə bilməz, çünki bizim həmin hadisə ilə birbaşa təmasımız yoxdur. Məhz buna görə də U.Cemsin konsepsiyası fəlsəfədə radikal empirizm adlandırılır. Təcrübə anlayışına empirik əsaslarla yanaşdığına və təcrübədə empirik müşahidəni müəyyənedici prinsip kimi qəbul etdiyinə görə konsepsiya bu cür adlandırılmışdır. U.Cemsin radikal empirizm doktrinası ilk dəfə olaraq onun 1904-cü ildə nəşr olunmuş «Şüur mövcuddurmu» əsərində irəli sürülmüşdür. Doktrinada subyekt-obyekt münasibətləri əsas prinsip olaraq inkar edilir. Ənənəvi qnoseologiyada isə belə hesab olunurdu ki, idrak prosesi subyekt və obyekt münasibətlərinin qarşılıqlı təsirində baş verir. Əgər hər hansı bir obyektin dərkindən söhbət gedirsə, burada obyektiv mövcud olan predmetin subyektdəki müəyyən obrazı başa düşülür. U.Cemsə görə isə subyekt funksiyası daşıyan şüur öz-özlüyündə mövcud deyildir, ümumiyyələ, prinsip etibarilə, o heç bir xüsusi mahiyyət ifadə etmir. Buna görə də şüurun mənbəyi ideya deyil, predmet və əşyalardır. Şüur öz-özlüyündə bir mahiyyət deyil, yalnız funksiyadır (7, s.331).

U.Cemsə görə, hər hansı bir ideya yalnız o zaman həqiqəti ifadə edir ki, həmin ideya bizim fəaliyyətimizin müxtəlif sahələrində təcrübəyə münasibətdə özünü doğrultmuş olsun. (7, s.332). «İdeya» və «həqiqət» anlayışları yalnız bizim inamımız zəminində dəyərləndirilməlidir, çünki, hər hansı bir ideya yalnız biz onun doğruluğuna inandığımız təqdirdə həqiqət hesab oluna bilər. Digər tərəfdən, həmin ideya praktikada özünü təsdiq etməlidir. İdeya, praktikada öz təsdiqini tapdıqdan və doğruluğuna olan inamı təmin etdikdən sonra həqiqət kimi qəbul oluna bilər. Göründüyü kimi, praqmatizmdə həqiqətin meyarı təcrübədə təsdiq olunan və doğruluğuna inamı təmin edən bilikdir. Praqmatizmdə həqiqətin meyarının bu müəyyənliyi onun faydalılıq meyarının istisna etmir, çünki istənilən bilik təcrübədə öyrənilərək və doğruluğunu təsdiq edərək faydalılıq məqsədi ilə qəbul edilə bilər.

Həqiqətə olan inam U.Cemsin konsepsiyasında mühüm əhəmiyyət daşıyır. Bu izah həqiqəti ayrıca kateqoriya kimi qəbul etmir. Həqiqət inamın bir formasıdır və buna görə də qnoseoloji məzmundan daha çox etik məzmun daşıyır. Əxlaq kodeksi insandan iki şey tələb edir: «həqiqətə inanmaq» və «yanlışlıqlardan qaçmaq». U.Cems təsdiq edir ki, skeptiklər həqiqətin meyarına münasibətdə birinci yanaşmanı deyil, ikinci yanaşmanı əsas götürürdülər. Ona görə də skeptiklər müxtəlif həqiqətlərə inanmaq əvəzinə ikinciyə, səhvlərdən və yanlışlıqlardan qaçmağa üstünlük verirlər. Digər tərəfdən, hər hansı bir ideya həqiqət kimi qəbul edilirsə, onun həqiqiliyi təcrübi olaraq təmin edilməlidir. Əgər ideyanın həqiqiliyi təsdiq olunmursa, o, özünə inamı təmin etmir.

Həqiqətə intellektual münasibət ondan ibarətdir ki, həqiqət kimi götürülən anlayış gerçəkliyi düzgün əks etdirməlidir. Bu, doğru və məqsədəuyğun fəaliyyətin müqəddəm

əsasıdır. İnsanın nəzəri və praktiki fəaliyyətində bu əsasın nəzərə alınması onun fəaliyyətinin adekvatlığını şərtləndirir. Gerçəkliyin bizim şüurumuzdakı düzgün obrazı fəaliyyətimizin adekvatlığını təmin edir, bizi səhvlərdən və yanlışlıqlardan qoruyur. Həqiqətin müəyyən olunması bizi, düzgün, dürüst olanı seçməyə və məqsədəuyğun fəaliyyət göstərməyə sövq edir.

B.Rassel özünün «Qərb fəlsəfəsinin tarixi» əsərində U.Cemsin praqmatizmini təhlil edərək maraqlı mühakimələr yürüdür. «U.Cems təsdiq edir ki, həqiqət odur ki, onun gerçək nəticələri faydalıdır. Əgər doğrudan da praqmatistlər hesab edirlər ki, bu müəyyənlik doğrudur, onda aynılaşdırmaq lazımdır: a) faydalı olan nədir, b) hansı nəticələri biz bu və ya digər inam əsasında təsdiq edərək həqiqət kimi müəyyən etməliyik» (1, s.907). B.Rassel göstərir ki, faydalı olanın həqiqiliyinə inanmaq və onu həqiqət kimi qəbul etmək istər qnoseoloji baxımdan, istərsə də etik baxımdan müəyyən çətinliklər doğurur (1, s.908).

Hər hansı bir nəticə həqiqi faktlara söykənmədən də faydalı ola bilər. Bu halda biz faydalı olanı həqiqət kimi qəbul etdikdə faktiki olaraq səhvə yol veririk, çünki burada faydalı olan həqiqəti deyil, yalanı əks etdirir. Deməli, faydalılıq baxımından biz nəinki həqiqəti, hətta yalanı əsas götürə bilərik, çünki praqmatizmdə hər hansı bir fakt faydalılıq baxımından həqiqət kimi qəbul olunur.

Bütün yuxarıda qeyd edilənləri yekunlaşdıraraq qeyd etmək istərdik ki, praqmatizmdə həqiqətin meyarına aid edilən prinsip – faydalılıq prinsipi qnoseoloji aspektdən tamamilə yanlış bir prinsipdir. İnsan fəaliyyətinin hər hansı bir sahəsində bu prinsip konkret şərtlər çərçivəsində məqbul hesab edilə bilər, lakin həqiqət kontekstində bütün insan fəaliyyətini əhatə edə bilməz. Bir çox filosoflar da təsdiq edirlər ki, həqiqət bir qnoseoloji kateqoriya kimi mühüm fəlsəfi əhəmiyyət daşıyır və bununla da ümumbəşəri dəyər kimi formalaşmışdır. Onun dini, elmi, sosial, sosial-mədəni, etik və s. aspektləri vardır. Praqmatizmin faydalılıq prinsipində həqiqət obyektiv məzmundan daha çox subyektiv səciyyə daşıyır. Bu prinsip isə həqiqət və yalanın sərhədlərinin müəyyən olunmasında çətinlik yaradır. Praqmatizmin «həqiqətini təsdiq etmək üçün mütləq onun mülahizələri konkret şərtlər çərçivəsində götürülməlidir.

Faydalılıq nöqteyi-nəzərindən həqiqətin izahı heç də bütün hallarda düzgün nəticələrə gətirib çıxarmır. İnsan fəaliyyətinə münasibətdə faydalılıq kifayət qədər geniş məzmun daşıyır. Problemə faydalılıq prinsipindən yanaşdıqda bir sıra ziddiyyətli məqamlar meydana çıxır. Faydalılıq baxımından həqiqət konkret bir fərdə, yaxud cəmiyyətə aid ola bilər. Lakin həqiqəti praqmatizm prinsiplərindən işıqlandırsaq, o zaman bu nəticəyə gəlmək olar ki, konkret bir fərdə aid olan «həqiqət»lə cəmiyyətə aid olan həqiqətlər birbirini inkar etdikdə belə məqbuldur. Əsas məsələ, bunların müəyyən şərtlər çərçivəsində faydalılığıdır. Təbii ki, praqmatistlər deyə bilər ki, şəxsiyyət və cəmiyyətin ziddiyyəti praktik baxımdan heç bir fayda vermir. Lakin şəxsiyyətlə cəmiyyətin qarşılıqlı münasibətində belə məqamlar tapmaq o qədər də çətin deyil. Digər tərəfdən, həqiqət yalnız ictimai məzmun daşıdıqda konkret müəyyənlik alır. Bununla yanaşı, həqiqət heç də yalnız cəmiyyətin konkret vəziyyəti ilə məhdudlaşmayıb tarixi köklərə malikdir. Lakin bütün bunlarla yanaşı, həqiqət hazır məhsul deyil, o istənilən halda metodoloji tədqiqat tələb edir.

İstifadə olunmuş ədəbiyyat

1. Рассел Б. История Западной философии. Ростов на-Дону, 2002.
2. Хилл Т.И. Современные теории познания. М., 1965.
3. Жбанкова И.И. Философские принципы в научном познании. М., 1974.

4. Швырев В.С. Неопозитивизм и проблемы эмпирического обоснования науки. М., 1966.
5. Pap A. Analitische Erkenntnislehre. Wien, 1955.
6. W.H.Newton-Swith. A Companion to the Philosophy of Science. Blackwell Publishers Ltd. 2000. Oxford. Massachusetts.
7. Robert L. Arrington. A Companion to the Philosophers. Blackwell Publishers Ltd. 2000. Oxford. Massachusetts.

Фуад АББАСОВ

КОНЦЕПЦИЯ ИСТИНЫ В ПРАГМАТИЗМЕ

Резюме

Данная статья посвящена анализу прагматической точке-зрения в отношении проблемы истины. Исследованы мировоззренческие концепции прагматизма, как связующая теория истины. Её специфические черты и сходные аспекты изложены с точки-зрения истины. В статье рассмотрены гносеологическое изложение истины в контексте прагматической концепции. Изложены критерии истины в прагматической концепции и подчеркнуты ее критические аспекты. Заключенные пункты в философском направлении выявилось в различных других направлениях. Также обоснованы нравственные стороны концепции и ее отношение к проблеме практики и познания.

Fuad ABBASOV

THE TRUTH CONCEPTION IN PRAGMATISM

Summary

The article is about pragmatist worldview in approaching criteria of truth. In article researched conceptual sides of pragmatism as related theory with criteria of truth. The main grounds of worldview and its specifically features are learned. In the same time the gynecological and methodological aspect of philosophical orientation in the face of pragmatism are commented. Defined the problem criteria of truth in the conception and given its critical sides. The closed moments of the philosophical school are distinguished with other conception. Also, the theoretical grounds and its principally definition of conception are commented. The theoretical and practical context of pragmatist conception in approaching criteria of truth are developed.

Фатма КЯРИМОВА
Диссертант

ГЛОБАЛЛАШМА ПРОСЕСИНИН СОСИАЛ-ФЯЛСЯФИ МАЩИЙЙЯТИ ВЯ НЯЗЯРИ-МЕТОДОЛОЪИ ЯСАСЛАРЫ*

Глобаллашма 90-жы иллярин яввялляриндя щяля бир проблем кими сяжиййяляндирилмирдися, 90-жы иллярин сонуна йахын бу мювзу сосиал елмдя вя ижтимаи дискуссиийаларда юзцня лайигли йер тутмушдур. Лакин глобаллашма просесляриня олан бахышлар бир-бириндян фярглянир, она верилян гиймятляр ися бязян щятта бир-бирини истисна едир. Щал-щазырда онун мцсбят вя йа мянфи щадися олмасына, мащиййятиня даир фикир ейнилийи йохдур. Щямряйлик йалныз бир шейдя мцшащидя олунур – глобаллашма гаршысыалынмаздыр, цмумдцнйа просесидир.

Глобаллашма щаггында ядябиййат ахыны фонунда жидди елми тящлили олан фялсяфи-нязяри тядгигатларын гытлыьы да эюзя чарпыр. Латын Америкалы мцяллиф Ф.Щинкеламертин дедийи кими, «мювжуд игтисади вя сосиал нязяриййяляр глобаллашма просесини тящлил етмир, онлар ону шиширдир»[1]

Ядалят наминя гейд етмяк лазымдыр ки, фялсяфи сащядян фяргли олараг, игтисади вя сосиолоъи елмдя арашдырдыьымыз щадися иля баьлы бир чох жидди тядгигатлар апарылмагдадыр.[2] Игтисади елм юз диггятини 5 ясас истигамятдя жямляшдирмишдир: малиййя глобаллашмасы, глобал трансмилли корпорасийаларын тяшяккцлц вя мющкямлянмяси; игтисадиййатын реэионаллашмасы; дцнйа тижарятинин интенсивляшмяси вя конверэенсийа мейлляри. Гейд едяк ки, игтисади сащядя глобаллашма «образлары» постсянайе вя информасийа жямиййятинин цмуми идейалары цзяриндя гурулур.

Тарихщцнаслар глобаллашманы бяшяр сивилизасийасынын инкишаф мярщяляриндян бири кими нязярдян кечирир. Онлар беля бир фикир иряли сцрцрляр ки, дцнйа сивилизасийасынын инкишафы яввялжядян ващид бяшяриййятин тяшяккцл тапмасына йюнялмишдир.

Сосиологлар юз диггятини мядяниййятин универсаллашмасы иля баьлы мцхтялиф юлкя вя реэионларда инсанларын щяйат тярзинин йахшылашмасындан хябяр верян фактларын цзя чыхарылмасына йюнялтмишляр. Онларын шярщляриндя глобаллашма дцнйа мигйасында структур, мядяниййят вя субйектлярин чохтяряфли гаршылыглы шяртлянмяси просеси, сосиал мцнасибятлярин интенсивляшмяси кими тясвир олунур.

Философлар да глобаллашма щадисяляриня биэаня галмайараг инсани дяйярлярин универсаллашмасы проблеми, дцнйа сивилизасийасынын йаранмасы вя инкишаф мясяляларинин мцзакирясиня гошулмуш, Кантын дцнйа щюкцмяти вя ябяди сцлщ идейаларынын тящлилиня гайытмышлар.[3] Щал-щазырда глобаллашма, демяк олар ки, бцтцн ижтимаи елмлярин тядгигат обйектиня чеврилмишдир. Хцсуси категорийалар вя анлайышлардан истифадя етмякля, бу елмляр щяля ки, глобаллашма феномени щаггында щамы тяряфиндян гябул едиля биляжяк бир мювге тута билмяМишляр вя бу сащядя тядгигатлары консептуал бахымдан цстцн сайылан мцяллифи эюстярмяк чятиндир. Глобаллашма анлайышынын тярифи иля баьлы нязяри ядябиййатда эедян дискуссийалар, бу дискуссийаларын консептуал апаратынын кифайят гядяр ясасландырылмамасы бир чох мцасир алимлярин мяшьул олдуьу тятбиги тядгигатларда анлашылмазлыглар йарадыр. Ону да гейд едяк ки, глобаллашманын мащиййятиня олан

---

* Məqalə fəlsəfə elmləri doktoru, professor A.Şükürov tərəfindən çapa məsləhət bilinib.

йанашмаларын мцхтялифлийи вя зиддиййятлилийинин сябябляри субйектив амилляр, мцтяхяссис вя тядгигатчыларын елми дяряжяси иля дейил, бяшяриййятя хошбяхтлик йа фялакятляр эятиря биляжяк бу феноменин чохшахялилийи иля баьлыдыр.

Адятян, глобаллашма анлайышы алтында капиталын айрыжа дювлятин чярчивяляриндян кянара чыхараг ващид цмумдцнйа игтисадиййатынын формалашмасына эятириб чыхаран артмасы вя жямляшмяси просеси баша дцшцлцр. Доьрудан да, глобаллашма дейилян просеслярля сых баьлыдыр вя бир чох щалларда онларла шяртлянир. Лакин беля йанашмада проблемин йалныз игтисади тяряфи нязяря алыныр, глобаллашманын даща фундаментал ясаслары ися кюлэядя галыр. Мясялян, W. Михейев йазыр: «Мян игтисади глобаллашмайа вурьу едирям, чцнки бу эцн мящз игтисади сащядя юлкяляр арасында ялагяляр сахланылыр, гаршылыглы асылылыг эцжлянир, чохтяряфли координасийайа тяляб артыр»[4]

Тядгигатчылар арасында беля бир фикир щюкм сцрцр ки, глобаллашма щадисялярин кор-кораня инкишафы просеси олмайыб коллектив сийаси ирадя иля идаря олунур. Йени дцнйа гуружулуьунун щансы формалары алмасы мясялясинин мцзакиряси бу дискуссийалары фактики сащядян фялсяфяйя аид олан норматив сащяйя ютцрцр. Она эюря дя глобаллашма иля баьлы игтисади, сийаси, сосиолоъи фикирлярин ящямиййятли щиссяси сосиал-етик тябиятя маликдир, чцнки глобаллашма просеслярини арашдыраркян етик мясялялярдян кянар олмаг мцмкцн дейил.

Дейилянлярля баьлы философларын гаршысында глобаллашма щаггында дискуссийалар цчцн нязяри бцнюврянин йарадылмасы кими мцщцм бир мясяля дурур. Глобаллашма просесляри емпирик сяжиййя дашыса да, бу просеслярин фялсяфи-консептуал бахымдан дярк едилмясиня чох бюйцк ещтийаж дуйулур. Шцбщясиз, глобаллашма жямиййятин фундаментал нязяриййяляриня бязи дяйишикликляр эятирир. Бязи щалларда ися щятта онларын йенидян бахылмасына сябяб ола билир.[5] Фялсяфянин ясас мясяляляриндян бири ися, артыг йухарыда гейд етдийимиз кими, мцвафиг елми йанашмалара етик, норматив юлчцлярин эятирилмясидир.

Глобаллашманын глобалистика призмасындан нязярдян кечирилмяси мясялясини мцзакиря едяркян М.А.Чешков 2 мцщцм мцддяаны гейд едир: биринжиси, глобалистика йарандыьы 20 ил мцддятиндя юз предметинин контурларыны мцяййян едя билмямиш вя 2 якс тенденсийа – биликлярин фрагментляшдирилмяси (глобаллашманын мцхтялиф образларынын ишлянмяси) вя щяддиндян артыг эенишляндирилмяси (глобаллашманын бяшяр тарихи иля ейниляшдирилмяси) арасында галмышдыр; икинжиси, беля вязиййятдя олан глобалистика глобаллашма просесиндя мейдана чыхан проблемляря адекват жаваб веря билмир. О йазыр: «Мясялян, глобаллашма нядир – алтернатив вя вариантлары олан йохса бирмяналы, биристигамятли, императив просесдир? Бу просес дцнйанын бцтювлцйцня, тамлыьынамы эятирир йохса юзцндя бяшяриййятин мцхтялифлийини ещтива едир? Вя, нящайят, бу просес истещсал, информатика, мядяниййятдя баш верян йениликляринми нятижясидир йохса онун юзцнцн тарихи кюкляри вар? Бу кими суаллара жавабларын олмамасы глобалистиканын нязяри жящятдян йетишмямяси иля баьлыдыр»[5]

Бу параграфда биз йухарыда эятирилян бязи суаллара жаваб вермяйя чалышажаьыг.

Елми ядябиййатда глобаллашма щаггында илк дяфя сющбят ачан Америка алимляринин олдуьу билдирилир. Бу терминин мцяллифи ися 1983-жц илдя «Щарвард бизнес ревйу»да мягаля дярж етмиш Т.Левитт сайылыр. О глобаллашманы нящянэ чохмилли корпорасийаларын истещсал етдийи айры-айры мящсул базарларынын говушмасы

феномени кими сяжиййяляндирир. Бу терминя даща эениш мязмун 1990-жы илдя «Мир без границ» китабыны дярж етмиш йапон, Щарвард бизнес мяктябинин мяслящятчиси Кеничи Омайе тяряфиндян верилмишдир. Омайенин беля гяти мювгейи иля чохлары разылашмаса да, мящз онун консепсийасы глобаллашманын елми ядябиййат сящифяляриндя зяфярли аддымларынын чыхыш нюгтяси, ХХ ясрин сонунун ян эянж вя мцщцм фялсяфи-сосиолоъи доктринасы статусуну алмасынын башланыьыжы олмушдур.

Щал-щазырда ися глобаллашмайа аид чохсайлы емпирик мцшащидялярля йанашы онун системли юйрянилмясиня бир нечя методолоъи йанашмалар формалашмышдыр. Онларын щяр бири бу просеся мцяййян фялсяфи гиймят верир.

Биринжи йанашмада глобаллашма дцнйада игтисади мцнасибятлярин йени кейфиййятинин нятижяси кими баша дцшцлцр. Бу ясасян никбин йанашма баш верян дяйишикликлярин мцсбят гиймятляндирилмяси иля сяжиййялянмякля бир сыра габагжыл алим вя сийасятчиляр тяряфиндян иряли сцрцлмцшдцр (Дарендорф Р., Нушелер Ф., Лафонтен О., Клинтон Б., Эейтс Б.вя б.). Онларын фикринжя, глобаллашма игтисади инкишафын жямиййятин бцтцн башга сащяляриня тясир эюстярян интенсивляшмяси вя чичяклянмясинин йени мярщялясидир. «Ингилабчы щипер-глобалистляр» адланан бу мювгенин фикринжя, глобаллашма бяшяриййятин бейнялхалг мцнагишялярин сайыны азалтмаг, инкишаф етмякдя олан юлкяляри технолоъи инкишаф просесиня гошмаг, йохсуллуьа галиб эялмяк кими яввялляр гаршысыалынмаз эюрцнян проблемлярини арадан галдырмаг имканы верир». Бунун цчцн онлар неолиберал игтисадиййатын йолундакы бцтцн манеялярин арадан галдырылмасыны зярури щесаб едирляр. Беля «сярщядсиз» бир игтисадиййатда милли щюкцмятляр трансмилли компаниийаларын гябул едяжякляри мцщцм гярарларын ютцрцжц механизминя чеврилир. Бу мювгени даща парлаг шякилдя вахтиля Б.Клинтон ифадя етмишдир: «Щяр эцн бир нечя санийя ярзиндя планетин мцхтялиф нюгтяляриня идейа, ямтяя вя пуллары эюндярмяк цчцн инсанлар портатив компцтерляр, модемляр, СД-ромлар вя пейклярдян истифадя едирляр. Биз шяраит йаратмалыйыг ки, онларын йолунда манеяляр олмасын».[6]

Глобаллашма мювзусуна щяср едилмиш няшрляря эюря дцнйада лидер сайылан АБШ-ын елми ядябиййатында якс олунмуш ЫЫ йанашмада глобаллашма просесляри биринжи нювбядя мцасир дцнйанын модернляшмясинин ясас вектору олан вестернляшмя феномени иля ялагяляндирилир. Хатырладаг ки, «модерн» (франсызжа «modern» – мцасир) сюзц илк дяфя В ясрдя рясми статус алмыш христианлыг мцасирлийини Рома кечмишиндян фяргляндирмяк цчцн истифадя олунмушдур. Истянилян дюврцн «модерн» мядяниййяти щямишя антик дювря дюнцб бахмыш, ону тянгид ется дя, ондан тамамиля имтина етмямишди. ХЫХ ясрин орталарындан башлайараг ися модерн юзцнц цмумиййятля тарих вя яняняйя гаршы гоймаг, тарихи ялагяни гырмаг тенденсийасыны алмаьа башлайыр. «Йенини» ифадя едян ня варса, модерн щесаб олунур. Модернляшмянин бир вектору кими вестернляшмя гейри гярб сивилизасийасы халгларынын гярб мядяниййятинин дяйярляринин алмасы просесидир. Вестернляшмя иля баьлы 2 фикир формалашмышдыр.

Биринжи нюгтейи-нязярдя глобаллашма вестернляшмядян эениш баша дцшцляряк практики олараг модернляшмя просеси иля ейниляшдирилир. Бу мювге даща парлаг шякилдя А.Эидденс, Р.Робертсон, Ч.Каннолинин ясярляриндя ифадя олунмушдур. Эюстярилян мцяллифлярин фикринжя, Шярги Асийа юлкяляри модернляшмянин реал олдуьуну артыг инандырыжы шякилдя сцбут етмишляр. ЫЫ фикирдя глобаллашма эениш вестернляшмя, гярб капитализми вя гярб институтларынын йайылмасы кими баша дцшцлцр. Мясялян, Н.Глейзер йазыр: «Глобаллашма цмумдцнйа мигйасында

Гярбин тянзимлядийи информасийа вя яйлянжя васитяляринин йайылмасы демякдир. Дахил олдуьу бцтцн йерлярин дяйярляриня бу васитяляр мцвафиг тясир эюстярир»[7]. Гейд едяк ки, «модернляшмя» вя «вестернляшмя» анлайышларынын бир-бириндян фярг-ляндирилмяси чох бюйцк ящямиййятя маликдир, чцнки Гярб кцтляви шцурда бу тер-минлярин синонимляря чеврилмяси цчцн ялиндян эяляни едир вя истянилян жямиййятдя истянилян ислащатларын уьуруну юзцнцн модели иля ялагяляндирмяйя чалышыр.

Нювбяти, ЫЫЫ йанашмада, глобаллашма мядяниййятлярарасы вя эеосийаси мцнасибятлярин хцсуси кейфиййяти кими сяжиййяляндирилир. Бу йанашманын ян парлаг нцмайяндяси С.Хантингтондур. Онун фикринжя, тарихин йени мярщяляси олан глобаллашма минлярля ил ярзиндя йарадылмыш мядяни сярщядляри позур, дцнйада мц-нагишялилийи артырыр. Дцнйа даща кичик системлярин – мядяни-етник сивилизасийаларын мцнагишяси сящнясиня чеврилир (Хантингтон 8 беля сивилизасийа эюстярир). Хантингтон игтисади инкишафын эеосийаси хяритяни дяйишдирмяси нятижясиндя йени мцнагишяляр, хцсусян дя гярб вя гейри-гярб сивилизасийалары арасында мцнагишялярин мейдана чыхажаьыны билдирир [140, 26]. Хантингтонун йанашмасында гытлыг шяраитиндя ресурсларын пайлашдырылмасы проблеми, сивилизасийалар мцнагишяси вя йени сийаси гайда анлайышларынын тящлили хцсуси йер тутур. Лакин бурада глобаллашманын реал нятижяляри излянся дя, онун мянбяляриня аз тохунулур. Проблеми арашдыраркян яняняви категорийалар апаратына истинад едилмяси бу консепсийанын прогностик имканларыны ящямиййятли дяряжядя ашаьы салыр. Ейниля бу йанашма да биртяряфлийи вя консервативлийи иля фярглянир.

ЫВ йанашмада глобаллашма дювлят суверенлийи вя милли-мядяни интеграсийа принсипляриня архаланан яняняви систем – сийаси гайданын даьылмасы кими характе-ризя едилир. Сийаси щакимиййятин яняняви алятляринин дурмадан зяифлямяси вя щаки-миййят вакуумунун йаранмасы нятижясиндя дцнйа юзбашына инкишаф етмяйя баш-лайыр, ону расионал шякилдя низама салмаг вя истигамятляндирмяк жящдляри ися боша чыхыр. Алманийанын танынмыш сосиологу У.Бек юзцнцн «риск жямиййяти» адлан-дырдыьы консепсийасында глобаллашманы сийасятсизляшдирмя просеси кими сяжиййя-ляндирир. Яняняви сийаси мяканын даьылдыьы шяраитдя щакимиййяти мараг вя фяалиййяти ижтимаи нязарят алтына алына билмяйяжяк трансмилли корпорасийалар, бейнялхалг вя гейри-щюкцмят тяшкилатлары кими тамамиля йени тарихи актйорлар щяйата кечирир. Гярб сивилизасийасынын ясас наилиййятляриндян олан «сосиал дювлят», «фираванлыг жямиййяти» йох олур. У.Бек, демяк олар ки, глобаллашманы «милли игтисадиййата глобал малиййя базарлары вя ТМК-рын» эетдикжя артан «тясири» кими шярщ едян Ж.Соросун нюгтейи-нязярини бюлцшдцрцр.

Нювбяти, В йанашма глобаллашманы тамамиля негатив аспектдя ишыгландырараг даща чох онун гяти ялейщдарлары олан екстремист ящвал-рущиййяли даирялярин нцмайяндяляри тяряфиндян иряли сцрцлцр. Гейд едяк ки, антиглобалист щярякаты ясасян бу мянбядян гидаланыр. Глобаллашма просесляри ня аз, ня чох – илащи гайдалары даьыдан ял кими гиймятляндирилир. Баш верян дяйишикликляр – эцж вя ещтийатларын йенидян пайланмасы, йад мядяниййятля цзляшмя вя с. дцнйада шяр гцввялярин мцдахиляси кими гавранылыр. Она эюря дя бу гцввялярля мцбаризядя терроризм дя дахил олмагла истянилян васитянин истифадя едилмясинин мцмкцнлцйц билдирилир.

ВЫ йанашмада (ясасян Русийа алимляри тяряфиндян иряли сцрцлцр) глобаллашма «дцнйанын йени гайдасынын» йарадылмасынын ян сямяряли аляти кими гиймятлян-дирилир. Бу фикир даща парлаг формада В.П.Иноземтсев, А.С.Глазйев, А.С.Панаринин ясярляриндя юз ифадясини тапмышдыр. Бу йанашмада «йени гайдалы дцнйада» ирадя

диктя етмяк щцгугунун йалныз «глобал клубун» цзвляриня мяхсус олажаьы вурьуланыр.

Глобаллашма бир чох дювлятлярин «фауст сивилизасийасындан» тамамиля йени инкишаф мярщялясиня кечмясинин нятижяси кими малиййя-банк сферасында, гиймятли каьызлар базарында, сянайе, мядяниййят, тящсил, елм, щцгуг сащяляриндя сон 10 иллярдя баш верян бцтцн просесляр комплексидир. Стандарт бир тяриф кими Бремен Университетинин тядгигат лайищясинин нятижялярини эюстярмяк олар. Бурада глобаллашма «игтисади трансаксийалар, мядяни вя гейри-формал мцбадилялярдян башлайараг ятраф мцщити чиркляндирян материалларын дювриййясинядяк мцбадиля вя интераксийа мцнасибятляринин интенсивлийинин артмасы» кими баша дцшцлцр.

Бу тярифи рящбяр тутараг глобаллашманын мязмунуну ашаьыдакы 9 ясас тенденсийа вя щадисялярин мцхтялиф бирляшмяляриндян ибарят олдуьуну билдиririk.

1) дювлятлярарасы сярщядлярин арадан галдырылмасы просесинин обйектив эцжлянмяси (биз буну «игтисади вятяндашлыг» феномени адландырырыг);

2) капитал, информасийа, хидмятляр вя инсан ресурсларынын трансмилли, трансдювлят ахынларынын щяжми, сцряти вя интенсивлийинин кяскин дяряжядя артмасы, дцнйанын бейнялхалг малиййя базарларынын «габыьы» иля юртцлмяси;

3) гярб истещлак, мяишят вя дцнйаны вя юзцнцдяркетмя стандартларынын планетин бцтцн диэяр щиссяляриня кцтляви шякилдя йайылмасы;

4) дцнйа игтисадиййаты вя бейнялхалг мцнасибятлярин дювлятдянкянар, трансдювлят вя нящайят, гейри-дювлят тянзимляйижиляринин ролунун артмасы, сийасятин «игтисадиляшмяси» [85], игтисади просеслярин глобал мигйас алмасы вя нятижядя биринжини икинжийя табе етмякля дахили вя харижи сийасят арасында сярщядин позулмасы, игтисадиййатын реал идаряетмя механизмляринин ясасян бейнялхалг тяшкилатларын ялиндя жямляшмяси;

5) демократик дювлят гуружулуьунун бу вя йа башга моделинин ихражы вя мцхтялиф юлкялярин сийаси тохумаларына йеридилмяси;

6) шяхсиййятин сосиаллашмасы имканларыны ящямиййятли дяряжядя артыран електрон- коммуникасийа цнсиййятинин виртуал мяканынын формалашмасы. Компцтер технолоэийасынын, интернетин, мултмедиа вя глобал рабитя васитяляринин мцхтялиф типляринин сцрятли експансийасы анлайыш вя виртуал мякан образларына ясасланан инсан фяалиййятинин принсипжя йени нювляринин мейдана эялмясиня эятириб чыхарыр: йени информасион игтисадиййат, коммуникавистика, виртуал жоьрафийа вя с.

Тамамиля йени бир анлайыш мейдана эялиб – виртуал реаллыг. Бу компцтер цсуллары иля йарадылан еля сцни сферадыр ки, дахилдян дяйишяряк, трансформасийасыны мцшащидя едяряк орайа дахил олмаг олар вя бу щалда реал дуйьуну щисс етмяк олар. Аудиовизуал реаллыьын беля йени типиня дахил оларкян, няинки башга инсанлар иля, щятта сцни персонаъларла контакта эирмяк олар.

«Виртуал дцнйа» анлайышы икили мянанын юзцндя бирляшдирир: бир тяряфдян хяйали, уйдурма, эюрцнцш, диэяр тяряфдян ися щягигят. Компцтер – виртуал дцнйанын характер хцсусиййятляриня ашаьыдакылары аид етмяк олар: 1) виртуал реаллыг онун юзц тяряфиндян дейил, она мцнасибятдя харижи обйект тяряфиндян йарадылыр; 2) виртуал юзцнямяхсус мяканы, фярди заманы, мювжудлуг ганунлары вар; 3) виртуал реаллыг башга системляр иля, о жцмлядян ону йарадан иля сых вя фяал рабитядя олур.

Беляликля, виртуал реаллыг эерчякликдян айрылыбдыр вя яслиндя мювжуд олмайаны якс етдирир, еля бу мянада хяйали (гейри-мадди) характер дашыйыр. Виртуал реаллыг игтисадиййат сащясини дя ящатя едир. Игтисадиййат информасион технолоэийадан истифадя едяндя виртуал адланыр. Информасион технолоэийанын

сцрятли инкишафы виртуал дювлят вя виртуал игтисадиййатын йаранмасына сябяб олубдур. Виртуал дювлятя сямяряли фяалиййят эюстярмяк цчцн зярури олараг ян йени информасион вя башга технолоэийалары мянимсямиш йцксяк ихтисаслы мцтяхяссисляр лазымдыр. Она эюря дя тящсил системинин даща да тякмилляшдирилмясинин щялледижи ящямиййяти вар. Йапонийанын, Жянуби Корейанын, Тайванын вя Жянуби Шярги Асийа юлкяляринин бязиляринин тяжрцбяляринин тяжрцбяси буну бир даща сцбут едир. Бу мцддяанын ян азы 3 елементини гейд етмяк истярдик:

6.1. Милли сярщядляри олмайан вятяндаш жямиййятиндя дювлятин милли информасийа мяканыны сямяряли нязарят алтында сахламаг имканларынын зяифлямяси;

6.2. Йени информасийа технолоэийаларынын милли сийасятя мцдахиля етмяси, айры-айры юлкялярин сийаси, коммерсийа, тящсил, мяняви сащяляриндя ижтимаи ряйин ачыг-айдын алдадылмасы;

6.3. Интернет дя дахил олмагла мцасир КИВ-ин щям бейнялхалг ижтимаиййятин, щям дя билаваситя вя йа долайы йолла юлкя ижтимаиййятинин ряйини формалашдырмасы;

7) Дцнйанын гаршылыглы асылылыьынын артмасы, информасийанын истянилян мясафяйя бир андажа чатдырылмасы имканларынын щесабына локал оланын цмумдцнйа олана, цмумдцнйа оланын локал олана чеврилмяси, цмумпланетар мякан-заман инфраструктурунун тямин олунмасы. Шярг вя Гярбин, Шимал вя Жянубун нязярдян кечирилян контекстдя бир-бириня мяканжа йахынлашмасы санки Ейнштейнин нисбилик нязяриййясиня «чаьырыш» эюндярир.

8) Глобал информасийа сащясиндя щамынын вя айрылыгда щяр бир фярдин башгасынын талейиня эюря мясулиййяти образынын йаранмасы;

9) «Глобаллашма идеолоэийасынын» йаранмасы. Онун мцддяалары ашаьыдакылардыр:

9.1. Инсанларын бцтцн йерли мараг, норма вя янянялярдян ардыжыл шякилдя узаглашдырылмасы;

9.2. Бюйцк модерн дюврцнцн бир чох наилиййятляриндян ачыг вя йа эизли шякилдя имтина едилмяси: игтисадиййатда бу, рягабят-истещсал принсипиндян спекулйатив игтисади мцнасибятляря кечиддя, сийасятдя – демократийадан глобал игтисади вя сийаси тясир мяркязляриндян асылы олан щакимиййят системляриня цз тутмагда, мядяниййятдя тарихи тяжрцбяйя зидд олан униформалашдырма мейлляриндя тязащцр едир. А.Д. Богатуров йазыр: «глобаллашма тякжя щягигятян мювжуд олан щяр шей йох, щям дя инсанлара дцшцнмяк цчцн тяклиф олунан щяр шейдир». Бязян глобаллашма идеолоэийасы мондиализм идейалары кими чыхыш едир. Мцасир глобаллашма нязяриййясиндян яввял мейдана эялян мондиализм глобаллашма иля сых ялагядя олан сийаси фикир жяряйаныдыр. Онларын ялагялилийи ян азы бундан иряли эялир ки, роман дилляриндя мондиализм вя глобаллашма сюзляри синонимдирляр.

Елми ядябиййатда тез-тез «дцнйа игтисадиййаты» вя «Глобал игтисадиййат» анлайышларына раст эялмяк олар. Бязи мцяллифляр бу анлайышлары ейниляшдирирляр. Лакин буна тамамиля якс олан фикир дя вар. Мясялян, М.Кастелсин фикринжя «дцнйа игтисадиййаты» дейяндя еля систем нязярдя тутулур ки, орада капитал йыьымы просеси бцтцн дцнйада баш верир вя о гярбдя ян азы ХВЫ ясрдян мювжуддур. Глобал игтисадиййат ня ися башга бир шейдир: бу игтисадиййат дцнйа мигйасында реал вахт реъиминдя ващид систем кими ишлямяк габилиййятиндядир».

Истифадя олунмуш ядябиййат

1. Global Modernities /Ed. By M. Featherston, S. Lash, R. Robertson. L., New Dehli.

1995, p.186.

2. Deepak Nayyar “Existing System and Missing Institution” in Deepak (ed): Coverning Globalization. Issues and Institutions (Oxford University Press, 2002); Jozeph Stiglitz: Globalization and its Discontents (Лондон, изд-во Allan Lane; 2002).

3. Altvater E. Mahnkopf B. Qrenzen der Qlobalisierung. Munster, 1996: Rodrik D. Qrenzen der Qlobalisierung. Okonomische Integration und soziale Desintegration. Fr. am Main/N.Y.2000.

4. Сорокин П. Социальный прогресс и принцип счастья //О России и русской философской культуре. М., 1990, с.36.

5. Кутырев В.А. Культурологический смысл глобализма. М., 2001, с.61.

Фатма КЕРИМОВА

МЕТОДОЛОГИЧЕСКИЕ И ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ФИЛОСОФСКИХ ИССЛЕДОВАНИЙ ГЛОБАЛИЗАЦИИ

Резюме

В статье Ф.М.Керимовой «Методологические и теоретические основы философских исследований глобализации» основное внимание уделено понятиям «глобальные проблемы» и «глобальные процессы, выявлены их сходство и различие.

В статье рассматривается этимологические понятия «проблема» и «процесс», обоснована взаимосвязь глобальных проблем.

Fatma KERIMOVA

SOCIAL PHILOSOPHICAL ESSENCE AND THEORETICAL-METHODOLOGICAL PRINCIPLES OF GLOBALIZATION

Summary

In the article of Fatma Kerimova written on the subject of “Social philosophical essence and theoretical-methodological principles of globalization” the conseptions of global problems and global processes was the focus of attention, and identities and differences of these conceptions were elucidated. The lexical meaning of the concepts of “problem” and “process” and mutual relations of global problems was broadly explained in the article.

Samir MƏCİDOV
AMEA, dissertant

MARAQ, MƏNAFE VƏ TƏLABATLARIN QARŞILIQLI ƏLAQƏSİ*

Cəmiyyətdə maraq, mənafe və tələbat daim bir-biri ilə sıx bağlı olub qarşılıqlı əlaqədədir."Latın sözündən ("interest") tərcümədə "maraq" sözü "əhəmiyyət kəsb etmək", "mühümdür" və s. deməkdir. Mahiyyət etibarı ilə maraq fərdlərin, sosial qrupların və cəmiyyətin müxtəlif təbəqələrinin bilavasitə istəkləri - motivləri, məqsədləri, ideyaları və s. arxasında duran bütün əməllərin, hadisələrin, olayların real səbəbidir (2, 213). Müxtəlif əsrlərin mütəfəkkirləri öz əsərlərində maraq problemini nəzərdən keçiriblər. Lakin ilk dəfə olaraq sistem halında və elmi olaraq bu problemi eyni vaxtda yaşamış və yaratmış fransız maarifçiləri K.Helvesi (1715-1771), P.A.Holbax (1723-1789) və D.Didro (1713-1784) araşdırmağa çalışmışlar. Fransız maarifçiliyi epoxasının böyük mütəfəkkirləri öz əsərlərində "maraq" kateqoriyasının köməyi ilə ictimai həyatı nəzərdən keçirməyə təşəbbüs göstərmişlər. Onların fikrinə görə ictimai mühit mahiyyət etibarı ilə cəmiyyətdə hökmran olan ideyalarla-faydalı, ziyanlı, biganə və laqeyd ideyalarla müəyyən olunan fəaliyyətdə olan qanunvericilik tərəfindən formalaşdırılır. Mənəvi aləm də həmçinin maraq qanununa tabedir. Fransız maarifçilərinin fikrinə görə insanlar təbiətləri etibarı ilə eqoistdirlər, lakin ictimai maraqlarla hesablaşmaq, dövlətin və xalqın maraqları istiqamətində hərəkət etmək elə onların özlərinin mənafeyi üçün xeyirlidir. İnsanların maraqlarını onlar ilahi öncədən müəyyən etməyə, eyni zamanda tarixi prosesin təsadüfi hadisələrinə qarşı qoyurlar. Maraqlarda onlar əxlaqın, siyəsətin, bütövlükdə ictimai quruluşun real əsaslarını görürlər. K.A.Helvesi maraqların bu xarakteristikasını xüsusi qeyd edərək yazmışdı: "Əgər fiziki dünya hərəkət qanununa tabedirsə, mənəvi dünya ondan da az olmayaraq maraq qanununa tabedir. Yer üzündə maraq hər şeyə qadir olan, məxluqların gözlərində hər bir predmetin görkəmini dəyişən cadugərdir" (3, 34). Lakin fransız maarifçilərinin baxışlarında fikrimizcə səhv cəhət bu idi ki, onlar ictimai xarakterli maraqları fərdi maraqların adi məcmusu hesab edirdilər. Bizim fikrimizcə fərdi maraqlar bütöv bir tam halında "cəmləşərək fərdi maraqların sadə (mexaniki–konqlomerativ) məcmusunu əmələ gətirməyib, ontoloji piramidanın daha yüksək pillələrində duran, keyfiyyətcə yeni fenomen yaradırlar. Yeri gəlmişkən, "marağın" və "ideyanın" qarşılıqlı əlaqəsi haqqında fransız maarifçilərinin baxışlarından sonralar "marağın" və "ideologiya"nın qarşılıqlı asılılığının müəyyənləşdirilməsi prosesində istifadə edilmişdir. Məsələn, marksist filosoflar belə hesab edirdilər ki, "ideya" "maraqdan" aralanan kimi özünü rüsvay etmişdir və "insanlar nə qədər ki, hər bir əxlaqi, dini, siyasi, sosial ifadələrin, bəyanatların, vədlərin arxasında bu və ya digər siniflərin maraqlarını axtarıb tapmağı öyrənməyiblər, aldanmanın və özünüaldatmanın qurbanı olmuşlar və olacaqlar"

Siniflərin marağı və yaxud adətən belə adlandırmaq qəbul olunduğu kimi, sinfi maraq, mənafe öz təbii vəzifəsinə görə siyasidir; onun siyasiliyi (İ.A.İlyinə görə – "partiyalılığı") marksistlər tərəfindən xüsusi olaraq qeyd olunmuşdur və həmişə diqqət mərkəzində durmuşdur. "Partiyalılığı" marksistlər başlıca olaraq siyasi partiyaya mənsubluq kimi başa düşürmüşlər, subyektin sosial mövqeyinin müəyyənliyi kimi başa düşmüşlər. Buna görə də onları bir çox mütəfəkkirlər xüsusi olaraq tənqid etmişlər. Yalan və böhtan, aldatma və yanılma partiyalılığın, deməli, həmçinin partiya mənafelərinin, siyasi maraqların ayrılmaz atributu və mühüm elementi kimi təqdim edilmişdir. "Məqsəd vasitələrə haqq qazandırır və yaxud "çox dəfələrlə təkrar olunan yalan, axır nəhayət, həqiqətə çevrilir"

* Məqalə fəlsəfə elmləri doktoru, professor İ.Rüstəmov tərəfindən çapa məsləhət bilinib.

şuar – prinsiplərinə rus mütəfəkkiri, bolşevizmin ideya əleyhdarı N.A.Berdyayev belə cavab verirdi ki, "sinfi mənafelər, maraqlar yalan doğura bilər, lakin heç bir zaman həqiqəti doğura bilməz". Lakin eyni zamanda da Berdyayev təəssüflə qeyd edirdi ki, "həqiqətdə isə dünya həqiqətdən daha çox sosial cəhətdən faydalı elan olunmuş, dünyanı idarə edən yalan üzərində qurulur"(5, 450).

Maraqlar öz məzmununa, məqsədlərinə və təmin olunması vasitələrinə görə iqtisadi və siyasi, sosial və ictimai maraqlara bölünürlər. Eyni zamanda da maraqlar subyektiv mənsubiyyətlərinə və ümumilik dərəcəsinə görə xüsusi və ümumi maraqlara ayrılırlar (ailə maraqları qrup, kollektiv, milli, dövlət maraqları və ümumxalq maraqları).

Adi şüur baxımından xüsusi maraqlar müəyyən tələbatların yerinə yetirilməsinə yönəldilmiş fəaliyyət üçün stimul təşkil edirlər. Bu anlayışda xüsusi maraq insanın nə barədə düşündüyünü və nəyə səy göstərdiyini ifadə edən kateqoriyadır. İnsanın maraqları hansılardır sualına müxtəlif cavablar və variantlar vardır. Bunların böyük hissəsi sövqedici motivlərlə bağlıdır.

Yuxarıda deyilənlərə əsaslanaraq bu nəticəyə gəlmək olar ki, insanın maraqları onun şüur səviyyəsilə və bütövlükdə insanın təhsili, tərbiyəsi və həyat təcrübəsi ilə müəyyən edilir. Həqiqətən, insanın ümumi inkişaf səviyyəsi onun maraqlarının məzmununu və onun maraq səviyyəsini şərtləndirir. Eyni zamanda da qeyd etmək lazımdır ki, cəmiyyətin özü həmçinin maraqların fomalaşmasına müəyyən, hardasa, əhəmiyyətli təsir göstərir. Lakin təbiidir ki, belə ehtimalı əsas tutmaqla cəmiyyətin təsirini mütləqləşdirmək və təbii əsasları, qaynaqları inkar etmək olmaz. İnsan başlıca olaraq ona görə müxtəlif maraqların daşıyıcısı və ifadəçisi kimi çıxış edir ki, o məhz təbiət tərəfindən əsası qoyulmuş və qabaqcadan proqramlaşdırılmış müəyyən gen potensialına malikdir. Aydındır ki, bu maraqlar sosiallaşma prosesində formalaşır və təzahür edir.

Burada xüsusi olaraq diqqəti belə bir fikir üzərində cəmləşdirmək istərdik ki, maraqlar (məsələn, milli və yaxud iqtisadi maraqlar) subyektin müvafiq olaraq millətin və yaxud iqtisadi subyektin müvafiq formada öz tələbatlarını başa düşməsi, dərk etməsidir. Lakin problem bundadır ki, tələbatların bu cür dərk edilməsi dərhal baş vermir. Sovet politoloqu V.İ.Pripisnov bu mühüm məqamı nəzərə alaraq qeyd edir ki, "cəmiyyət yeni sosial tələbatları dərhal dərk etmir" və "bu tələbatlar nə qədər ki, dərk olunmamışlar, onlar hələ insanların fəaliyyətini stimullaşdırmırlar, onların hərəkətlərinə təsir göstərmirlər"(4, 93). İqtisadi tələbatların dərk edilməsi prosesi insanların iqtisadi maraqlarının formalaşması prosesidir. Əgər iqtisadı tələbat tələbatın hər hansı digər bir növü kimi obyektiv surətdə mövcuddursa, iqtisadi maraq obyektiv surətdə mövcud olan tələbatların subyektivləşdirilmiş ifadəsidir. İqtisadi fəaliyyətin stimulu sadəcə olaraq iqtisadi tələbat deyildir, dərk edilmiş iqtisadi tələbatdır, yəni cəmiyyətin həyat fəaliyyətinin iqtisadi sferasının subyektlərinin iqtisadi marağı kimi formalaşmış tələbatdır.

"İctimai maraq" anlayışı "ictimai maraqların qorunması", "ictimai maraqların irəli sürülməsi kampaniyası", "maraqlar qrupu" və "lobbiçilik" kimi praktik anlayışlarla sıx bağlıdır. Məlumdur ki, XX əsrin ikinci yarısı, xüsusilə 80-ci illərin sonu və 90-cı illərin əvvələri demokratik əhval-ruhiyyələrin ekstensiv inkişafı ilə və demokratik islahatlarda vətəndaşların fəal iştirakı ilə səciyyələnirdi. Antisosialist xarakterli kütləvi nümayişlər və manifestasiyalar, "məxməri inqilablar", antikommunist və antiqlobalist əhval-ruhiyyələrin coşğun dalğaları və bir çox digər ictimai-siyasi dəyişikliklər dünyada təşəkkül tapmış ikiqütblü quruluşun əsaslarını yerindən tərpətmişdi.

Müxtəlif maraqlar qruplarının fəaliyyəti totalitar və avtoritar idarəçilik rejimləri olan ölkələr üçün əhəmiyyətli idi, ona görə ki, məhz bu ölkələrdə birinci növbədə demokratikləşmə məsələləri daha aktual idi. Daha artıq önəm təşkil edirdi ki, vətəndaşların hüquq və azadlıqları səmərəli şəkildə müdafiə edilsin. Aydındır ki, müxtəlif maraqlar

qruplarının aktiv fəaliyyət göstərməsi həmçinin demokratik ölkələr üçün əhəmiyyətlidir, çunki bu maraqlar da hakimiyyətin ayrı-ayrı hökümət məmurlarının əlində cəmləşdirilməsi meyllərindən azad deyillər. Demokratik ölkələrdə avtoritar meyl və gizli niyyətlərə "məhz çoxsaylı maraqlar qruplarının mövcudluğu qarşı durur" (2, 298). Britaniya sosioloqu E.Giddensin fikrincə müxtəlif qruplar və fraksiyalar arasında rəqabətin mövcudluğu demokratiyanın mühüm həyati şərtidir, belə ki, bu halda hakimiyyət qruplar arasında bölünüb, hər hansı bir qrupa və yaxud sinfə müstəsna nüfuz əldə etməyə imkan vermir(2, 298).· Keçmiş sosializm cəbhəsi ölkələrində, xüsusilə Sovet İttifaqında maraqların müxtəlif qruplarının və yaxud təzyiq qruplarının fəaliyyəti boğulmuşdu; xalq kütlələrinin nümayəndələrinin fəaliyyət göstərən müxtəlif qrupları bir növ maraqların saxta qrupları idilər. SSRİ – də siyasi sistemin bəzi tədqiqatçıları belə güman edirdilər ki, bu ölkədə qərarlar qəbul edilməsi prosedurunun həddən artıq mərkəzləşdirilməsi sayasində maraqlar qrupları öz fikirlərini, yüksək səviyyəyə kifayət qədər səmərəli şəkildə qaldıra bilirdilər. Buna onların nə dərəcədə nail ola bilmələri hər şeydən əvvəl Sovet liderinin şəxsiyyətindən və tutduğu postdan asılı idi. İ.V.Stalinin dövründə maraqların qrupları əməli olaraq təsirə malik deyildi, ölkəyə L.İ.Brejnevin və M.S.Qorbaçovun rəhbərlik etdikləri dövrdə isə bu kimi qeyri partiya fraksiyaları güclənməyə başlamışdı. Məhz M.S.Qorbaçovun hakimiyyəti dövründə müxtəlif Sovet respublikalarında çoxsaylı maraqlar qrupları formalaşmağa başlamışdı ki, bunlar da demokratik dəyişikliklərin həyata keçirilməsində hakimiyyətə təsir göstərirdilər. Elə bu maraqlar qrupları sonralar kütləvi xalq hərəkatlarına çevrildilər. Bu hərəkatlar isə əvvəlcə sosial-iqtisadi sonra isə siyasi xarakterli tələblər irəli sürürdülər. Bunlar isə digər obyektiv və subyektiv amillərlə eyni bərabərdə Sovet İttifaqının dağılmasına gətirib çıxardı. Keçmiş Sovet Azərbaycanında da belə olmuşdur. Burada ziyalılar sırasında bir qrup insanların təşəbbüsü ilə ölkəni xalq narazılıqları bürüdü. Həmin narazılıqlar Mərkəzin Dağlıq Qarabağla əlaqədar ədalətsiz və birtərəfli siyasəti ucbatından baş vermişdi. Sonralar bu xalq narazılıqları böyüyüb, milli-azadlıq hərəkatına çevrildi. Bu nümunə əsasında biz milli marağın təkamül yolu ilə inkişafını izləyə bilərik; ölkənin taleyi üçün narahat olan bir qrup insanların nə vaxtsa müəyyən dairəsini rahatsız edən maraq müəyyən zaman mərhələsində yeni ümummilli determinantlarla zənginləşdi və böyüyərək milli marağa çevrildi. Bu marağın təmin edilməsi üçün isə ölkənin bütün maddi-mənəvi, intellektual, həmçinin ictimai və siyasi potensialını səfərbər etmək lazım idi. Həmin zərurət bu günə qədər özünün başlıca mövqelərini saxlamaqdadır, çünki Dağlıq Qarabağla əlaqədar milli məsələ hələ həll edilməmişdir.

Maraq kateqoriyasını cəmiyyətin iqtisadi, siyasi və ictimai sferalarının müxtəlif elemenləri ilə sıx əlaqədə öyrənərkən milli maraqların xüsusi və ictimai aspektlərini nəzərdən keçirdik. Milli maraqlar isə cəmiyyətin tək-tək aspektlərindən fərqlidir. Təkcə isə milli maraqlar kontekstində bu tipdən olan maraqların zaman və məkan çərçivəsində götürülmüş maraqların nisbi əlahiddəliyini, diskretliyini, məhdudluğunu ifadə edən fəlsəfi kateqoriyadır. Milli maraqlara konkret götürülmüş millətin təkrar olunmayan spesifik xüsusiyyətləri, bu millətin çoxəsrlik etnogenez nəticəsində yaranmış nadir keyfiyyət və kəmiyyət determinasiyasını təşkil edən xüsusiyyətlər xasdır. Mövcud kontekstdə əlahiddəyə nümunə olaraq nəinki ayrıca götürülmüş milli marağı, eyni zamanda da milli maraqların bütöv bir sinfini misal göstərmək olar, çünki başqa bir müstəvidə milli maraq müəyyən ölçü daxilində mövcud olan nə isə vahid, müstəqil bir şey kimi götürülə bilər. Məsələn, Türk dünyasının yaradılması ideyası (yəni müəyyən coğrafi ölçü hüdudunda mövcud olan) bir sıra konseptual məqamlar kəsb etməyə başlamışdır. Bunların içərisində də vahid türk milli marağı ideyası heç də axrıncı yeri tutmur. Bununla yanaşı türk milli

marağının özü də öz növbəsində ayrı-ayrı və müxtəlif türk etnoslarının maraqları kimi çıxış edən milli maraqların müəyyən çoxluğudur.

Milli maraqların əlahiddə aspekti öz mövcudluğunun konkret, hazır forması ilə daxilində əmələ gəldiyi, qanunauyğun şəkildə təşəkkül tapmış etnomilli əlaqələr sisteminə borcludur. Bu o deməkdir ki, milli marağın əlahiddə aspekti mahiyyət etibarı ilə sistemdən kənarda mövcud deyildir, belə ki, bu aspekt digər elementlərlə - qruplarla, sosial bir etnosun hüdudlarından və yaxud subetnosun daxilində müxtəlif qruplarla, cəmiyyətin müxtəlif sferaları (siyasi, iqtisadi və sosial və s. sferaları) ilə sıx əlaqədə olur, ümumiliyə daxil olur, bununla da vahid bir tam təşkil edir. Bu planda milli maraqların ümumi aspekti onun əlahiddə aspekti ilə qırılmaz əlaqədədir. "Təkcə ümuminin dialektik əksliyidir və özünün əlahidliyində təkcə təkcəsiz ümumi boş abstraksiya olduğu kimi boş abstraksiyadır" fəlsəfi deyim milli maraqlar kontekstində bilavasitə öz təsdiqini tapır. Hamı tərəfindən qəbul olunmuşdur ki, metodoloji yanaşma hadisədə spesifik olanın axtarılmasına, bu spesifik olanın keyfiyyət özünəməxsusluğunun aşkara çıxarılmasına istiqamətləndirir. Buna görə də milli maraqların öyrənilməsi məsələsində idrak əlahiddə hadisələrin öyrənilməsindən onlarda xüsusi olanın, sonra isə ümuminin, qanunauyğun olanın aşkara çıxarılmasına doğru gedir. Milli maraqların ümumi aspektlərinin əsasları əlahiddə də, təkcədə qoyulmuşdur, eyni zamanda da ümumi təkcədə onun mahiyyəti kimi özünə yer edib, kök salmışdır və anlayışda yalnız təkcənin və xüsusinin inikası vasitəsi ilə aşkara çıxır.

Milli maraqların təmin edilməsi prosesi mahiyyət etibarı ilə bütün suverenliyin və onun dörd mühüm "hissəsi"nin (şəxsiyyətin suverenliyi, xalqın suverenliyi, milli suverenlik; dövlət suverenliyi) reallaşması, həyata keçirilməsi prosesidir. Bu isə o deməkdir ki, milli tələbatlar, maraqlar və məqsədlər milli suverenlik prinsipinin ilkin, müqəddəm şərtləridir. A.F.Abbasovun fikrinə görə bu prinsip milli-dövlət ideologiyasının həyati əhəmiyyətli tərkib hissələrindən biridir. İstənilən imtiyazlı şəxsiyyətin və yaxud qrupun, sosial qrupun və yaxud siyasi qüvvənin maraqları isə milli maraq kimi təqdim oluna və deməli, milli-dövlət ideologiyasının bütün mahiyyətini təşkil edə bilməz(1, 8).

Milli maraqların anlayış çərçivələri millətin təbiəti ilə determinasiya olunur, şərtlənir. Şəraitin dəyişməsindən və zamanın gedişindən asılı olmayan milli maraqlar həmişə millətin, dövlətin və vətəndaş cəmiyyətinin birgə və məqsədyönlü fəaliyyətinin əsasıdır. Zaman keçdiksə tarixi təcrübənin tədricən toplanması ilə milli maraqlar anlayışı ontoloji cəhətdən məzmun-mahiyyət tələbinə uyğun olaraq zənginləşir, keyfiyyətcə yeni səviyyədə «yetişir» və inkişaf edir. Eyni zamanda da milli maraqlar anlayışı bütün millətin praktikasının məqsədyönlü hərəkətinin və rasionallaşdırılmasının anlayış mahiyyətinin verballaşdırılması hesabına inkişaf edir. Milli maraqlar anlayışının həcmi ayrılıqda hər bir millətin, bütövlükdə isə bütün bəşəriyyətin tarixi təkamülü prosesində məqsədyönlü fəaliyyətin, başqa cür deyilsə, milli siyası-hüquqi tarixi forması kimi təqdim olunan sferanın kəmiyyət-keyfiyyət faktlarının toplanılması və genişlənməsi hesabına artır.

Hamı tərəfindən qəbul edilmişdir ki, istənilən millətin maraqlarının formalaşması prosesində aparıcı rollar sosial-iqtisadi, mədəni, dini və geosiyası amillərə xasdır. Bütün bunlar millətin formalaşması və mövcudluğu üçün lazımdır. Sözsüz, bunlardan birinin kifayət qədər yetkin olmaması milli maraqların reallaşdırılmasını çətinləşdirir və millətin özünün sağlam və normal mövcudluğunu sual altında qoyur.

İstifadə olunmuş ədəbiyyat

1. Abbasov Ə.F. Milli dövlətçilik ideologiyamız. Sərtlər, Prinsiplər, Cəmiyyət, İdeologiya, Təfəkkür. Bakı, «Bakı Universiteti», 2004, s.8.
2. Гидденс Э. Социология, М., Эдиториал УРСС, 1999, с.298.
3. Маркс К., Энгельс Ф. Сочинения, т.3, с.146.
4. Приписнов В.И. Механизм действия социальных законов и субьективный фактор. Душанбе, 1971, с.93.
5. Бердяев. Философия свободного духа. М., Республика. 1994, с.450.
6. Философский энциклопедический словарь. М., «Советская Энциклопедия», 1983, с.213.
7. Гельвеций К.А. Об уме. М., «Политиздат», 1983, с.34.

Самир МЕДЖИДОВ

ИНТЕРЕС, ВЫГОДА, ПОТРЕБНОСТИ И ИХ ВЗАИМОСВЯЗЬ

Резюме

Рассматривая интерес, выгоду и потребности как философскую проблему, автор статьи попытался проанализировать их взаимосвязь. Автор отмечает, что великие мыслители эпохи французского просвещения, в своих трудах с помощью категории «интерес», старались изучить социальную жизнь. В интересах они видели реальные основы этики, политики и социального строя в целом. Социальный интерес имеет особенное значение, и поэтому в статье этот вопрос не остался вне поля обозрения. По мнению автора в формировании национального интереса любой нации ведущие роли принадлежат социально-экономическим, культурным, религиозным и геополитическим факторам.

Samir MAJIDOV

INTEREST, BENEFIT, REQUIREMENTS AND THEIR INTERRELATION

Summary

Considering interest, benefit and requirements as a philosophical problem, the author of article has tried to analyse their interrelation. The author notices that great thinkers of an epoch of the French education, in the works by means of a category "interest", tried to study a social life. In interests they saw real bases of ethics, a policy and a social system as a whole. Social interest has especial value and consequently in article this question did not remain out of a review field. According to the author in formation of national interest of any nation the leading parts belong to socio-economic, cultural, religious and geopolitical factors.

Adil HÜSEYNOV
Astara pedaqoji texnikumu

FƏLSƏFƏ FİKİR TARİXİNDƏ İNSAN PROBLEMİNİN BƏZİ MƏSƏLƏLƏRİ*

XXI əsrin insanını qiymətləndirmək, onun hansı dəyər sahibi olmasını və onda sosiallığın, biolojiliyin və ekolojiliyin vəhdətdə təzahür etməsi fəlsəfi fikir tarixində daim diqqət mərkəzində olmuşdur.

Qeyd edilməlidir ki, bu problem həmişə mübahisələr, geniş diskussiyalar doğurmuş, nəticədə fəlsəfi fikirdə bu məsələ ilə əlaqədar yekdillik olmamışdır. Bunu da onunla izah etməyə çalışmışlar ki, insan çox mürəkkəb və sirli varlıqdır.

Min illərdir ki, insanı öyrənmək üçün cəhdlər edilir, araşdırmalar və geniş tədqiqatlar aparılır.

Bu illər ərzində onun təbiəti və mahiyyəti haqqında alimlər çoxlu faktlar toplamış və lazımi məlumatlar əldə etmişlər.

Aparılan tədqiqatlar insanın tam öyrənilməsinə gətirib çıxartmamış, əksinə sualların miqdarı xeyli artmışdır. Bu da ondan irəli gəlmişdir ki, yığılmış məlumatlar, irəli sürülən nəzəriyyələr alimləri qane edən vahid insan konsepsiyasına gətirib çıxartmamışdır.

«Lap uzaq gələcəkdə belə, elm nə qədər çox inkişaf edirsə etsin, insan heç vaxt özünü axıra qədər, tam şəikldə dərk edə bilməyəcəkdir, insanda yenə də öyrəniləsi, dərk olunası çox şey qalacaqdır».[1]

Fəlsəfi fikir tarixində insan haqqında söylənilən fikirlər fərqli olsa belə, onlarda yekdil rəylər də olmuşdur:

«İnsan kainatın təkrar olunmaz məhsuludur».[2]

İstər Şərq, istərsə də qərb filosofları insanı müxtəlif aspektlərdə araşdırmış, onların hər biri haqqında yeni fikirlər söyləmiş və yaşadıqları dövr və zəmanəsinə uyğun insan haqqında konsepsiyalar yaratmağa çalışmışlar.

Fəlsəfə elmləri doktoru, professor A.Şükürovun qeyd etdiyi kimi: «Əgər fəlsəfi fikir tarixinə müraciət etsək, görərik ki, bir problem haqqında müxtəlif zamanlarda, müxtəlif yanaşma, məsələnin müxtəlif şəikldə qoyuluşu və həlli yolları irəli sürülmüşdür».

Fəlsəfənin tarixi tiplərində - antik, orta əsr, intibah, yeni dövr, klassik alman və müasir fəlsəfədə zəmanəsindən asılı olmayaraq, fəlsəfi fikirdə insan problemi ilə əlaqədar müxtəlif baxışlara, dəyərli müddəalara rast gəlinir və müxtəlif mövqelərdən bu problem araşdırılmışdır.

Q.Abbasova və Z.Hacıyevin qeyd etdikləri kimi: «Fəlsəfə tarixində fikir müxtəlifliyi sübut edir ki, insan mürəkkəb sistemdir, müxtəlif səviyyələri olduğuna görə insanı bir neçə elm öyrənir».

Beləliklə, müxtəlif elmlər insanda öz «fəaliyyət sahəsini», öz fikir kontekstində özünəməxsus aspektini tapır, onda məlum olmayan nəyi isə açır və insanın nədən ibarət olduğunu müəyyənləşdirməyə ciddi səy göstərilmişdir.

İnsan o qədər rəngarəng və unikaldır ki, müxtəlif elmlər onunla bağlı müxtəlif ziddiyyətli xassələr üzə çıxarmış və əsasən bu xassələr üzərində diqqətini cəmləmişdir. Bütün bunlar göstərir ki, insan, əgər iqtisadiyyatçılar üçün rasional fikir yürüdən varlıqdırsa, psixoloqlar üçün əsasən irrasionaldır. Tarixçilər onu müəyyən tarixi hadisələrin subyekti kimi nəzərdən keçirirlərsə, pedaqoqolar üçün isə qayğı və kömək obyekti kimi qiymətləndirirlər. Əgər sosioluqlar üçün o davranışa və qavrayışa mailk olan varlıq kimi diqqəti

---

* Məqalə fəlsəfə elmləri doktoru, professor A.Şükürov tərəfindən çapa məsləhət bilinib.

cəlb edirsə, genetiklər üçün proqramlaşdırılmış üniversal robortdur, kimyaçılar üçün müəyyən kimyəvi birləşmələrin toplusu, bioloqlar üçün isə ali sinir fəaliyyətinə malik varlıqdır.

İnsana hansı konteksdən yanaşmağından asılı olmayaraq, onu öyrənmə və tədqiq obyektlərinin variantları sonsuz olaraq çoxalmaqla, onlar daim zənginləşir. Bütün yığılmış faktlar və məlumatlar bir daha qeyd etməyə əsas verir ki, insan çox mürəkkəb, tükənməz və sirli idrak predmetidir, onun bütünlüklə öyrəniləmsi çətin proses olduğundan bu gün də problem olaraq qalır.

Professor A.Şükürovun qeyd etdiyi kimi: «İnsan bir sirr kimi mövcuddur. Əsrlər boyu böyük dühalar bu sirri açmağa, isnanı anlamağa çalışmışlar».

Düzdür, XX əsrin fəlsəfi problemləri içərisində insan, onun təbiəti və mahiyyətinin öyrənilməsində yeni və əsaslı fikirlər və konsepsiyalar irəli sürülmüşdür, lakin bunlar kifayət qədər olmamışdır.

Professor Z.Hacıyev yazır: «İnsanı kompleks və hərtərəfli öyrənməyə tələbat və ehtiyac yaranır. Bu vəzifə isə fəlsəfənin öhdəsinə düşür».

Filosflar apardıqları tədqiqatların nəticələrinə görə belə qənaətə gəlmişlər ki, insanın başlıca xüsusiyyətlərini onun özündə, təbii və sosial, obyektiv və subyektiv aləmini dialektik birləşməsində və onun dünya ilə vəhdətində bu problemi, aradan qaldırmaq mümkündür.

Fəlsəfi ədəbiyyatda qeyd edilir ki, «İnsanın özündə heç bir sirr gizlənmir». Onun başqa varlıqlardan rahat ayırmaq mümkündür. Sadəcə o özü də bilmir ki, o, nəyə qadirdir.

Akademik T.Oyzerman qeyd edir ki, «Amma nə qədər ki, insanlıq mövcuddur, isnan problemi öz aktuallığını saxlayacaqdır və onun hər bir həlli insanlığın tarixi kimi natamam olaraq qalacaqdır».

İspan filosofu X.Orteqa-i-Qasset (1883-1955) isə yazır: «Fəlsəfə ona görə bəraət qazanır ki, o aşkarlığın hüdudlarından kənara çıxır. İnsanın tədqiqində də hüdudlardan çıxmaqla onu öyrənmək mümkündür».

Böyük alman filosofu İ.Kant (1724-1804) ölümünə az qalmış yazdığı «Məntiq» əsərində göstərir ik, nədir insan?- sualı fəlsəfənin əsas məsələsi, insanın özü isə dünyada başlıca predmetidir qənaətinə gəlimşdir.

İnsan əsil həqiqətdə tapmacadır, «sirri xudadır» deyirlər.

Bu problemin özündə insanın özü üçün də çoxlu sirr və müəmmallar mövcuddur.

Bu problemlə məşğul olan filosoflar apardıqları tədqiqatlarının yekununu belə qiymətləndirmişlər. Böyük rus yazıçısı F.M.Dostoyevski (1821-81) yazırdı: «İnsan sirrdir, mən bu sirr ilə məşğulam, çünki insan olmaq istəyirəm».

Alman klassik fəlsəfəsinin görkəmli nümayəndəsi G.Hegel (1770-1831) insanın sirrini onun düşüncəsində görürdü. Onun insan təlimi rasionalizmlə əsaslanırdı. Ona görə də insan yalnız özünün ümumi və azad olduğunu dərk etdikdə şəxsiyyətə çevrildiyini göstərirdi. Başqa alman filosofu L.Fyerbax (1804-72) insan sirrini onun qəlbində axtarırdı. Onun yaratdığı antropoloji materializm təlimindən mücərrəd şəkildə götürülən materiya deyil, psixofiziki vahid, ruh və bədənin vəhdəti dururdu.

Beləliklə qeyd edilməlidir ki, iki əsr yarım bundan qabaq İ.Kant tərəfindən «Nədir insan?» sualı bu gündə öz aktuallığını itirməmişdir.

Professor Y.Rüstəmov yazır ki, «insan haqqında hər cəhətdən yetkin, bütöv fəlsəfi təlimi yaratmaq prinsip etibarilə insanın özünü dərk etməsi yolunda bitməmiş prosesdir, çünki insan mahiyyətinin təzahürü hədsiz dərəcədə müxtəlifdir. Nə müasir elm, nə fəlsəfə insan varlığının sirrini axıra qədər aça bilməz».

İndiki halda bu problemi insanda sosiallıq, biojilik və ekojiliyin vəhdəti nisbətində formalaşdırmaq apardığımız tədqiqatın əsasını təşkil edir.

İnsan subyekt kimi çox qeyri-adidir. Bu da onun dərki və anlamını çətinləşdirir. İnsan haqqında müxtəlif əsrlərdə toplanmış informasiya bu gün bir tam kimi birləşdirilə bilməz. Çünki müxtəlif dövrlərdə insanlar müxtəlif cür olublar. Necə ki, hər insan öz ömrünü yaşayır.

Burada Franız filosofu D.Didronun (1713-84) sözlərini nəzərə almamaq olmaz: «İnsan elə bir tək nöqtədir ki, hər şey ondan çıxış etməli və ona qayıtmalıdır».

İnsanın formalaşması problematikasının və bu prosesin fəlsəfi fikirdə mövcud reallıqlarda nəzərə alıb təhlil edilməsi, onda sosiallıq, biojilik və ekolojiliyin vəhdətdə təzahür etməsinə varmadan onu izah etmək mümkün olmasını fikirləşmək yalnız fikir olardı.

Bütün deyilənlər ardıcıllıqla qəbul edilsə, qeyd etmək olar ki, insan mahiyyətinin çox ölçülüyünün o, həm sosial, həm bioloji, həm də ekoloji varlıq kimi mövcud olduğundan eyni vaxtda həm sosial, həm bioloji, həm də ekoloji sisteminin qanunları çərçivəsipndə fəaliyyəti onun mövcudluğunun ömürünü uzadır.

Akademik İ.T.Frolov 1983-cü ildə nəşr «İnsanın perspektivləri» əsərində yazır: «Əslində insan sosial mahiyyətlidir, lakin onun mövcudluğu təkcə bununla müəyyən olunmur».

Deməli insan tədqiq olunduqda ona sosiallıq, biojilik və ekojilik vəhdətdə göstərilməlidir.

İstifadə olunmuş ədəbiyyat

1. H.Əlizadə. İnsan fəlsəfəsi, B., 2003.
2. Z.Hacıyev. Fəlsəfə, B., 2001.
3. A.Şükürov. Fəlsəfə, B., 2002.
4. Q.Abbasova, Z.Hacıyev. Sosial fəlsəfə, B., 2001.
5. Y.Rüstəmov. Fəlsəfə, B., 2004.
6. M.Fərhadoğlu. Fəlsəfənin əsasları, B., 2002.
7. A.K.Hüseynov, M.Ə.Ağayeva. Müasir fəlsəfədə insan problemi //Ekologiya. Fəlsəfə. Mədəniyyət - elmi məqalələr məcmuəsi, № 36, B., 2004.
8. Ананьев Б.Г. О проблеме современного человековедения. М., 1977.
9. Бердяев Н.А. О назначении человека. М., 1993.
10. Ойзерман Т.И. Проблемы историко-философской науки. 2-ое изд. М., 1982.
11. Х.Ортега-и-Гассет. Что такое философия? М., 1991.
12. Философия. Ростов на Дону, 2002.
13. Фролов И.Т. Перспективы человека. М., 1983.
14. Бубер М.Я. Проблема человека. Пер. с немецкого К., 1998.
15. Проблема человека в современной философии. М., 1969.

Адил ГУСЕЙНОВ

НЕКОТОРЫЕ ВОПРОСЫ ПРОБЛЕМЫ ЧЕЛОВЕКА В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ

Резюме

В статье подчеркивается, что XX век был периодом расцвета в исследовании проблемы человека. Это в свою очередь требовало рассмотрения постановки и решения проблемы в истории философской мысли. Сущность человеческой природы, его место и

миссия в мире до сих пор является самой горячо обсуждаемой темой философской антропологии.

Автор анализирует разные подходы к проблеме человека, существующие в истории философской мысли. Подчеркивается, что проблема социального в природе человека недостаточно анализирована в литературе, посвященной проблеме человека в истории философии. Исследователи философской антропологии должны исходить из единства социального, биологического и экологического в природе человека.

Adil HUSEYNOV

SOME QUESTION OF MAN PROBLEM IN HISTORY OF PHILOSOPHICAL THOUGHT

Summary

In the article it is underlined, that the XX century was a period of flourishing in the investigation of a man problem. It demanded consideration of putting and solving this problem in history of philosophy. Essence of human being, his place and mission in the world has been the object of discuss the hottest of philosophical anthropology yet. Author analyses the different approaches to problem in history of philosophical thought.

It is emphasized that the problem of the social in human nature has not been analyzed quite enough in literature dedicated to the problem of a man in history of philosophy. The researchers of philosophical anthropology should procced from the unit of the social, biological and ecological in human nature.

II SOSİAL-SİYASİ BÖLMƏ

ABDUSALAM A.HÜSEYNOV
Rusiya Elmlər Akademiyası
Fəlsəfə İnstitutunun direktoru

TOLERANTLIQ VƏ SIVILIZASIYALARIN DIALOQU

Sivilizasiyaların qarşılıqlı təsirindən danışanda biz "sivilizasiya" anlayışından onun sanki bir empiric obyekt olduğu kimi istifadə edirik. Əslində, sivilizasiya müstəqil işləyən və sanki təşkil olunmuş fəaliyyətin spesifik bir hədəfin çərçivəsində yerləşmiş, bir sözlə, işarə edə bildiyiniz kimi bir şey kimi mövcud deyil. Reallıqda o, bir növ şərti, ideal surətdə işarələnmiş bir nəticədir. Onda söruşmaq istərdim ki, bəs sivilizasiyaların görüşü harada və nə vaxt baş verir, sivilizasiyalar harada bir birilə üzləşir? Faktiki olaraq onlar heç bir yerdə görüşmürlər və heç kəs belə bir yeri müəyyən etməyə qadir deyildir. Etnoqraflar aşkar ediblər ki, qonşu olan arxaik qəbilələr arasında onların heç birinə məxsus olmayan ərazilər olmuşdur. Bu ərazilər neytral, heç kəsə məxsus olmayan torpaqlar olduğundan, müxtəlif qəbilələrin üzvləri burada bir birilə əlaqə yaradır və öz qəbilələrin daxilində qadağan olunmuş davranış modellərini tətbiq ediblər. Bizim dövrdə sivilizasiyalar qədim qəbilələrə oxşar səkildə fəaliyyət göstərmir - onların arasında heç bir neytral ərazi mövcud deyil. Onlar o qədər mürəkkəb və dərin yollarla bir biri ilə bağlıdır ki, aralarında ayırıcı xəttlər çəkmək mümkün deyil.

Beləliklə qeyd etmək istədiyim odur ki, qarşılıqlı təsir edən sivilizasiyalar deyil, insanlardır (fərdlər, millətlər, dövlətlər). Bundan başqa, bir qayda olaraq, onları birlikdə narahat edən və həllinə çalışdıqları xüsusi problemlərə görə qarşılıqlı əlaqələr yaradırlar. Yuxarıda deyilənləri nəzərə alaraq, biz metafizik surət və məntiqi disturlar səviyyəsində üzə çıxan bir çox problem və çətinlikləri aradan qaldıra bilərdik.

Sivilizasiyalar (mədəniyyətlər) öz empiric reallığında bir çox insan, onların icma və birlikləri ilə təmsil olunur. Nəticə etibarilə, bir sual yaranır: aralarında elələri varmı ki, sivilizasiyanı özünə məxsus yolla təcəssüm etdirə, onu təmsil etməyə, adından danışmağa ən azı müstəsna hüququ ola? Belə şəxsiyyətlər yoxdur, nə ayrı-ayrı fərdlər, nə də ki qruplar vardır. Belə fərdlər mövcud deyil ona görə ki, sivilizasiya yalnız böyük sayda insanlarla yox, həm də çox **müxtəlif** adamlarla təmsil olunur. Onlar hətta öz sivilizasiyaların və maraqların tərkində belə fərqlidirlər.

Təbii ki, iddia etmək olar ki, hər bir insan, nə qədər ki o bu və ya digər sivilizasiyaya məxsus olduğuna inanırsa, onun dəyərlərini daşımağa davam edir və buna görə də onun adından danışmaq hüququna malikdir. Lakin bu o deməkdir ki, heç kimin buna müstəsna hüququ yoxdur. Bundan başqa, sivilizasiya (mədəni) oxşarlığı fərdlərin ümumi xarakteristikasının növüdür; onların müəyyən, şəxsi xarakteristikalarından ayrılıqda o mövcud deyil. Buna görə də, bir şəxsin öz sivilizasiyası adından danışmaq hüququ başqaların bu deyilənləri artıq dərəcədə ciddi qəbul etməmək hüququnu istisna etmir.

Sivilizasiyalar yalnız fərqli insanlarla təmsil olunmur, onlar həmdə çox səpkili problemlərlə səciyyəvidir. Sivilizasiyanın xüsusisiyyətlərinin xalis təcəssümü olan problemləri göstərmək müşküldür. Əslində, hər bir problemin özünə məxsus təbiəti var və, buna uyğun olaraq, həll etmənin xüsusi yanaşma və metodları tələb olunur. Miqrasiya və ya

kütləvi qırğın silahları, yaxud enerji təchizatı və istehlak problemləri oxşar olmayan vasitələrlə həll olunmalıdır. Və bu növ mövcud problemlemlərin heç biri hansısa bir sivilizasiyanın xüsusi cəhəti ilə bağlı deyil. Bu səbəbdən, xüsusi probıemlərin həll proseslərinə qatılmış xüsusi sivilizasiyasının (mədəniyyətlər, dinlər, etnik qruplar) təmsilçiləri arasında baş verən toqquşmaları sivilizasiyalar arasındakı fərqləri kimi müəyyən etmək, bu toqquşmaları sivilizasiyalar arasında qarşıdurma səviyyəsinə qaldırmaq tamamilə səhvdir. Bu növ tipik misal Əl-Qaidə və oxşar terrorist təşkilatların fəaliyyətini Islamla əlaqələndirmək, qəddarlığın xüsusi növündə İslamı günahlandırmaqdır. Bu cür fikirləşmək məntiqi cəhətdən səhvdir; çünki aydındır ki, müsəlmanlar hökmən terrorçular deyil və terrorçular yalnız müsəlmanlar deyil. Belə təssəvvür sosial cəhətdən dağıdıcıdır, çünki o, terrorçuluğun əsl səbəblərini gizlədir və beləliklə onun səmərəli həllinə mane olur. Terrorçular İslama muraciət edəndə onlar bu dindən sui-istifadə edir, onlar öz cinayətkar əməllərinə haqq qazanmaq üçün ondan istifadə edirlər. Və terrorçuluqla mübarizə aparan insanlar eyni tərzdə fikirləşəndə, onlar həmin məntiqi yenidən canlandırırlar.

Sivilizasiya fərqi "prizma"sından nəzərdən keçirilmiş real kommunikativ vəziyyətlərin müxtəlifliyi ən azı iki (yaxud yalnız iki) vəziyyətdə təqdim edilir, hansılar ki, bu fərqlərə aiddir və onlar tərəfindən əsaslı dərəcədə müəyyən edilir. Onların ənənəvi surətdə müəyyən sivilizasiya ilə əlaqələndirilən bəzi mədəni rəmzlərlə əlaqəsi var. Birinci, adlar, obyektlər, yerlər var ki, onlar müqəddəs dəyərə malikdir və xüsusi bir mədəniyyət daxilində təmsilçiləri tərəfindən ilahi hesab edilir. İkinci, fərdlərin sivilizasiya və mədəni oxşarlığı ifadə edən gündəlik həyatla birlikdə davranışın zahiri formaları var. Son vaxtlar geniş məlum olan bu vəziyyətlər birinci halda karikatura qalmaqalı nümunəsi əsasında göstərilə bilər və baş örtüyü misalında - ikinci halda. Bu elə vəziyyətlərdir ki, adamlar onları dəqiqliklə müəyyən sivilizasiyaların, mədəniyyətlərin təmsilçiləri kimi qarşılayır və əgər tərəflər üçün məqbul olan heç bir həll etmə variantı yoxdursa belə halda sivilizasiya və ya mədəniyyət ziddiyyətləri haqqında danışmaq olar. demək olar. Sözün əsl mənasında, onların həlli var – bu, bir qədər səy, güzəşt, təhsil, dialoq, mədəniyyət və dözümlülük tələb edir. Müqəddəs rəmzlərə aid münaqişələr bütün adamlar üçün mədəni və sivilizasiya oxşarlığından asılı olmayaraq məqbul olan insanlararası münasıbətlərin mükəmməl şəkildə qurulmuş etika çərçivəsində həll edilir.

Sivilizasiya öxşarlığı fərdin mahiyyətinin bir hissəsidir. O, şəxsiyyətin ən vacib elementlərinin biridir. Sivilizasiya öxşarlığının dini, mədəni, etno-milli rəmzləri şəxsi "Eqo" ilə elə qovuşurlar ki, bu ikili əlaqəni bir birindən ayırmaq mümkün deyil.

Sivilizasiya fərqlərinin səthində yaranan problemlər, məhrumiyyətlər, toqquşmalar müvəffəqiyyətlə həll oluna bilərdi. Amma bir şərtlə - əgər biz onları əsasən və ilk növbədə insanın mənəvi ləyaqəti aspektdinən nəzərdən keçirsəydik. Bununla belə, ilk növbədə nəzərə almaq lazımdır ki, bəzi insanlar öz şəxsi ləyaqəti bu rəmzlərlə əlaqələndirir və onlarla ünsiyyətdə olduqda ehtiram və hörmətin ən yüksək dərəcəni göstərmək lazımdır.

Sivilizasiyalara bağlı və zahiri davranış formaları ilə əlaqəli olan toqquşmalar bir qədər fərqli yolla həll olunur. Bu həllin mahiyyəti müasir demokratik cəmiyyətdə şəxsi və ictimai həyatın aspektlərinin, sərhədlərin müəyyənləşdirilmsindədir. Belə sərhədin çəkilməsi bir çox səbəbdən əvvəlkindən bu gün daha çətindir. Və əgər şəxsi və ictimai məsələlərdəki fərqlər anlanırsa, bu əhəmiyyətlidir. İnsan, kişi ya qadın, *müvafiq ətraf mühitdə* uyğun və nəyin məqbul olduğunu hesab etdiyi kimi hər hansı bir allaha sitayiş edə bilər, lakin dünyəvi bir məkanda vətəndaş qurumları qeyri-konfessional olmalıdır. Şəxsi sferalər bizim yaşadığımız sahələrdir, çünki biz fərqliyik. İctimai məkan isə ümumi olduğundan daxil olduğumuz bir sahədir.

Görkəm, tərz və bəzək-düzəklərə aid hazırki ictimai davranış getdikcə daha çox dəyişkən, fərdiləşən olur. Demokratik bir cəmiyyıtin təbəqə-əsaslı cəmiyyətlərdə nə vaxtsa və indi olduğu kimi nəyin əxlaqlı və məqbul hesab olunduğunu tənzimləmək üçün heç bir sərt çərçivəsi yoxdur. Belələliklə, qarşılıqlı hörmətin daxili mexanizmləri daha vacibdir və ən vacibi başqa fikir və baxışlarda olan insanlara qarşı olan tolerantlıqdır.

Dözümlülük əsasən və hətta bütövlüklə başqa baxışlara tolerantlıq kimi, başqa birisini anlamaq arzusu kimi çox vaxt şərh edilir. Əlbəttə ki, belə yanaşma mahiyyəti əks etdirir. Lakin, bu, dözümlülüyümüzün nə qədər uzağa gedə bilməsi və onun, dözümlülüyün özünü belə inkar edən bir vəziyyətlə üzləşdiyi hallarda nə etməli bir sualdan asılı olmuşdur. Bu sualın, başa düşə bildiyim qədər, cavabı yoxdur, ən azı, ümumən qəbul olunmuş qayda, ümumi formula səviyyəsində cavab yoxdur. Nə vaxtsa olması inanılmazdır. Belə yaranan çətinlikdən qurtulmaq üçün, dözümlülüyün "başqalarda olan fərqli baxışlara (rəylərə, inanmlara) dözümlü ol" müsbət disturundan "başqalara öz baxışlarınızı (rəyinizi, inamlarınızı) zorla qəbul etdirməyin" mənfi disturuna keçmək lazımdır. Belə yanaşma daxilində dözümlü olmağın hüdudları nədir məsələsi aradan qalxır çünki o, dözümlülüyü ictimai davranışın kateqorik (absolut) prinsipi kimi qəbul etməyə imkan verir. Bu o deməkdir ki, rəy, inam mənim öz (şəxsi, özəl) işimdir. Onları başqalara zorla qəbul etdirmirəm. Və mən bizi birləşdirən məsələlər üzrə başqaları ilə ictimai əlaqələrə girirəm. Beləliklə, başqasının öz fikir və inama malik olmaq hüququnu qəbul edirəm, o cümlədən, mənim üçün qəbul edilməz səhv fikirləri. Mən o vaxt bu məsələlərdən narahat olmalıyam ki, basqasi (kişi ya qadın) öz fikir və inamlarını öz "ev'indən" (konfessiomal, etnik ətraf mühitdən və s.) ətrafa elə çıxarır ki, onlar mənimlə ona ümumi küçələrlə gəzməyə, eyni dövlətin vətəndaşları olmağa, planetdə yaşamağa mane olurlar.

Mədəniyyətlərin qarşılıqlı təsirini dialoq daxilində inkişaf etdirmək üçün, ilk növbədə, aralarındakı qarşıdurma yolları qapanmalıdır. Burada aydın və şərtsiz, kateqorik məna kəsb edən, bir birilə əlaqəli üç qadağanı adlandırmaq olar.

Mədəni qarşıdurmanın qarşısını kəsən birinci qadağa gərək mədəniyyətə əsaslanan qarşıdurma ideyasının özü rədd edilsin. Yəni, mədəni xüsusiyyətlər və sivilizasiyaların fərqləri hər hansı zorakılıq əməllərə haqq qazandıran əsas ola bilməz.

Bundan sonra, mədəni bərabərlik ehtimalına əsaslanaraq dialoq miqyası aşmağa, dəyər meyarlara əsaslanmış mədəniyyətlərin hər hansı müqayisələri ictimai mübahisələrdən çıxarmaq lazımdır. Hər hansı bir mədəniyyətdə təhqir kimi anlana biləcək söz və əməllər yaxud hər hansı başqa rəmzi təzahürlər qadağan edilməlidir. Dialoqun gündəliyinə bir mövzu daxil etmək onu problemə çevirmək, onu şübhə və ya sual altına salmaq deməkdir. Israr etməliyik ki, mədəniyyətlərin dialoqu dünyaya baxış və milli dəyərlər mövzuları istisna olmaqla, başqa bütün mövzuları əhatə edə bilir.

Nəhayyət, başqa bir qəti qadağa mədəniyyətlərin dialoquna yaşıl işıq verən lazımi bir şərt – bu, öz mədəniyyətini digər mədəniyyətlərlə müqayisədə daha adekvat, yaxud tam olmasını elan etməkdən, imtinadır. Mədəniyyət – fərd kimi – təvazökar olmalıdır.

Öz humanist mahiyyəti ilə seçilən və ümumən qəbul edilmiş qadağalar sivilizasiyaların dialoqu üçün bəzi şərtlər yaradırlar. Onlar sadəcə olaraq müxtəlif sivilizasiya və mədəniyyətlərin məhsuldar ünsiyyəti üçun ümumi çərçivəni müəyyənləşdirir.

Rövşən HACIYEV
Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu,
fəl.e.n.,"Sosial fəlsəfə" şöbəsinin elmi işçisi

MUSTYEDƏN ÜST PALEOLITƏ KEÇID PROBLEMI*

Homo sapiensin, yəni neoantropun meydana gəlməsi məsələsi, mütəxəssislərin ümumi rəyinə görə, antropogenezin mürəkkəb və həlli ziddiyyətlərlə səciyyələnən problemlərindən birincisidir. Eyni zamanda bu problem böyük əhəmiyyət daşıyır; sadəcə ona görə ki, söhbət mənsub olduğumuz bioloji növün necə yaranmasından gedir. Məqalənin yazılmasında məqsəd, qaldırılan problemin həllinə həsr olunmuş mövcud baxışların və konsepsiyaların fəlsəfi analizini həyata keçirməkdir. Tədqiqata başlamazdan öncə qeyd etmək yerinə düşər ki, mövzunun müəyyən konseptual aspektləri müəllifin "Homo sapiensin təşəkkülünə dair" məqaləsində (10) işıqlandırılmışdır.

Mövcud baxışların analizinə keçməzdən əvvəl bu problemə dair irəli sürülmüş fikirlərin və üzə çıxarılmış faktların şərhini vermək məqsədəuyğun olardı. Öncə qeyd edək ki, Üst paleolitə keçid problemi ilə bağlı ilk sanballı tədqiqat əsərini (nəinki postsovet məkanında, eləcə də dünyada) Q.P.Qriqoryev (6) yazmışdır. 60-cı illərin sonunda yazılan tədqiqat işində ilk dəfə olaraq yalnız konkret bir bölgənin arxeoloji qazıntılarının şərhi deyil, Üst paleolit texnikasının aşkar edildiyi bütün regionlardakı vəziyyət (xüsusən Yaxın Şərq, Şimali-Şərqi Afrika və buzlaqətrafı Avropa, yəni erkən Üst paleolit mədəniyyətinin aşkar edildiyi ərazilər) elmi faktlar əsasında təhlil edilmişdir. Monoqrafiyada belə bir mühüm müddəa irəli sürülür və əsaslandırılır ki, Üst paleolit texnikası heç cür Yaxın Şərqdən Avropaya miqrasiya vasitəsilə gətirilə bilməzdi, çünki, hər iki regionda erkən Orinyakın formalaşması prosesi eyni vaxtda baş vermişdir (6, s.34). Məsələyə bir qədər aydınlıq gətirək. Klassik neandertalların morfoloji cəhətdən Homo sapiensdən fərqlənməsi amili, onların intellektual baxımdan neoantropdan xeyli aşağı olması ilə bağlı fikirlər xüsusən Qərb mütəxəssislərini belə bir qənaətə gəlməyə vadar etmişdi ki, Üst paleolit mədəniyyəti heç cür yerli əsaslarda meydana gələ bilməz; başqa sözlə, paleoantropun kromanyonluya transformasiya olunması və bunun da nəticəsində yeni istehsal texnikasının ortaya çıxması qeyri mümkündür. Əslində bu mövqe sovet alimlərinin antropogenez nəzəriyyəsinə zidd gələn bir məqamdır. Məlumdur ki, sovet alimləri əsasən neoantropun neandertal insanlardan yaranması mövqeyindən çıxış etmişlər (7, s.5-124). Bu məsələ ilə bağlı Qərb mütəxəssislərinin mövqeyi birmənalı olmamışdır. Qriqoryev isə göstərə bildi ki, ən azı Qərbi Avropada Üst paleolit istehsal üsulu məhz yerli Mustye mədəniyyətinin əsasında formalaşmışdır. Q.P.Qriqoryevin monoqrafiyasından keçən 35 il ərzində bu mövzu ilə bağlı elə bir fundamental tədqiqat əsəri üzə çıxmadı. Nəhayət, L.B.Vişnyatskinin uzunmüddətli tədqiqatları sayəsində 2006-cı ildə məhz keçid problemi ilə bağlı doktorluq dissertasiyası başa çatdırıldı və müdafiə olundu (5). Yeri gəlmişkən qeyd edək ki, hazırkı tədqiqatın əsasında adı şəkilən dissertasiya işində əldə edilən nəticələr dayanır.

Əvvəlki məqalədə göstərildi ki, qaldırılan məsələnin həllinə əsasən iki fərqli konsepsiyadan yanaşılır: monosentrizm və polisentrizm. Hal-hazırda hər iki mövqenin dayaqları kifayət qədər möhkəmdir. Monosentrizm tərəfdarlarının mövqeyi xüsusən sümük qalıqlarının genetik analizindən (söhbət mitoxondrial DNT-dən gedir) əldə edilən nəticələr hesabına tutarlı görsənir. Genetik analizlərdən alınan nəticələr isə göstərir ki, Homo sapiensin neandertallardan törəməsi mümkün deyil (yeri gəlmişkən qeyd edək ki, genetik analizlərin doğruluğuna şübhə ilə

* Məqalə redaksiya heyətinin üzvü, fəlsəfə elmləri doktoru Ə.Abbasov tərəfindən çapa məsləhət bilinib.

yanaşanlar da vardır /8/). Digər tərəfdən, əvvəlki məqalədə qeyd edildiyi kimi, Homo sapiensin erkən nümayəndələrinin Afrikada tapılan qalıqları göstərir ki, neoantrop bir bioloji növ kimi heç də 40 min il bundan öncə meydana gəlməmişdir və onun tarixi demək olar ki 200 min ilə yaxındır. Lakin polisentrizm tərəfdarlarının da tutarlı arqumentləri vardır və bu faktlar arxeoloji materiallardan əldə edilən nəticələr əsasında müəyyənləşmişdir. Arxeoloji axtarışlar isə göstərir ki, Üst paleolit mədəniyyəti məhz yerli Mustye mədəniyyətinin əsasında formalaşmışdır, yəni yeni istehsal üsulunun və təfəkkür qabiliyyətinin meydana gəlməsində paleoantropların da xidməti olmuşdur. Digər tərəfdən, arxeoloji tədqiqatlar bir də onu göstərir ki, Üst paleolit mədəniyyəti əsasən neandertalların məskunlaşdıqları bölgələrdə meydana gəlmişdir (3, s.263-264). Deməli, problemin nə qədər ziddiyyətli və qəliz olmasını təsəvvür etmək elə də çətin deyil. Elə isə, məsələlərə müəyyən qədər aydınlıq gətirilməsinə cəhd edək.

Məlumdur ki, erkən Homo sapiensin Afrikada tapılan sümük qalıqları ilə yanaşı onun işlətdiyi əmək alətləri də aşkar edilir. Maraqlısı isə odur ki, bu alətlərin texniki göstəriciləri son Aşel mədəniyyətinin imkanları çərçivəsindən kənara çıxmır. Başqa sözlə, klassik neandertalların (hansıları ki əvvəllər bir sıra Qərb mütəxəssisləri primitiv təfəkkürlü hominid kimi qəbul etmişlər) istehsal etdiyi alətlər texniki baxımdan erkən Homo sapiensin düzəltdiyi daş məmulatlardan daha yüksək səviyyədə dayanır. Digər tərəfdən, ölülərin basdırılması faktı da yalnız klassik neandertalların (qeyd edək ki, Mustye mədəniyyətinin daşıyıcıları məhz onlardır) adı ilə bağlıdır. Eyni zamanda, neandertal insanların sümük qalıqları ilə yanaşı onlara məxsus müəyyən təsviri sənət nümunələrinin nişanələrinə, yəni daş və sümük üzərində işlənilmiş simvollara da təsadüf edilir. Bütün bu kimi faktlar erkən Homo sapienslərin arxeoloji tapıntılarında aşkar edilməyib. Elə isə ortaya belə bir sual çıxır – görəsən primitiv istehsal üsuluna malik və demək olar ki təsviri incəsənətdən uzaq olan erkən Homo sapienslər 40-35 min illər bundan əvvəl meydana gələn Üst paleolit mədəniyyətinə harada və nə vaxt yiyələniblər? Bu sualın hələ də cavabsız qalması monosentrizm konsepsiyasının ən problemli məqamı kimi dəyərləndirilə bilər. Daha bir müəmmalı məqam onunla bağlıdır ki, 80-45 min illər arası demək olar ki (Yaxın Şərqi çıxmaq şərti ilə) erkən Homo sapiensin qalıqlarına təsadüf edilmir (3, s.263-264). Başqa sözlə, bu dövr ərzində aşkar edilən arxeoloji tapıntılar bir qayda olaraq neandertallara aid olur. Bu fikri vurğulayan Semyonov bildirir ki, əslində burada təəccüblü bir şey yoxdur, çünki, arxeoloqların erkən Homo sapiens adlandırdıqları hominidlər elə erkən neandertallarların (erkən neandertallar 250-100 min illər bundan öncə yaşamışlar və onları klassik neandertallar əvəz etmişlər. Erkən neandertallar morfoloji baxımdan erkən Homo sapiensə yaxın olmuşlar) özləridir (8). Semyonov öz müsahibəsində həm də onu qeyd edir ki, faktiki olaraq, Üst paleolit texnikası və müasir insan tipi məhz 40 min il bundan öncə meydana gəlmişdir (məlumdur ki, bu rəqəm sovet və əksər Qərb alimlərinin mövqeyinə müvafiqdir). Qeyd edək ki, monosentrizm konsepsiyasının nümayəndələri və bu istiqamətin müasir davamı kimi çıxış edən miqrasiya və akkulturasiya modelinin tərəfdarları belə bir mövqe ilə razılaşmırlar (1). Hələ keçən əsrin 80-ci illərində onlar hesab edirdilər ki, erkən Homo sapiensin 100 min il bundan öncə Afrikadan başlayan və yaxın Şərqdən keçən miqrasiyısı hesabına Avrasiya materikinin müxtəlif regionları gəlmələr tərəfindən zəbt edilmiş, nəticədə, buradakı neandertallar öz yerlərindən sıxışdırılmış və, beləliklə də, tədricən məhv olub getmişlər. Lakin 90-cı illərdə bu mövqe bir qədər yumşaldılmış və qərara alınmışdır ki, gəlmələr yerli neandertalları assimilyasiya etdirmiş və öz mədəniyyətlərini məskunlaşdıqları ərazilərdə yaymağa müvəffəq olmuşlar. Belə mövqenin formalaşması ondan irəli gəlirdi ki, 40-35 min illəklərə aid (yəni erkən Orinyak mədəniyyəti) arxeoloji abidələrdə aşkar edilən insan qalıqları sırasında tez-tez neandertalların da sümüklərinə təsadüf edilir. Miqrasiya və akkulturasiya nəzəriyyəsinin əsas tərəfdarlarından t.e.d. M.V.

Anikoviç özü də vurğulayır ki, "indiki dövrdə tam əminliklə demək olar ki, erkən Üst paleolit mədəniyyətinin daşıyıcılıları həm də neandertallar olmuşlar"(1, s.73).

İndi isə keçək əsas məsələyə, yəni baxaq görək doğrudanmı 40 min il bundan öncə "paleolit inqilabı" deyilən bir hadisə (yəni keyfiyyətcə yeni istehsal üsulunun ortaya çıxması) baş vermişdir, yoxsa Üst paleolit mədəniyyətinin meydana gəlməsi tədrici keyfiyyət dəyişikliklərinin əsasında mümkün olmuşdur? Dissertasiyasının 4-cü fəslində Orta paleolitin ən çox yayıldığı üç regionu (Cənubi Afrika, Yaxın Şərq və Qərbi Avropa) tədqiq edən L.B.Vişnyatski belə nəticəyə gəlir ki, tədrici keyfiyyət dəyişikliyindən danışmaq üçün elə bir ciddi bir əsas yoxdur, yəni 45-35 min illiklər arasında baş verən keçid prosesi doğrudanda qısa zaman kəsiyində keyfiyyətcə yeni hadisələrin təzahürü ilə səciyyələnir (5, s.34). Bu hadisələrin arxeoloji baxımdan üç əsas səciyyəvi cəhətini qeyd etmək olar: 1. daşın emalı sahəsində − prizmatik nukleusdan (xüsusi hazırlanmış daş parçasıdan) kütləvi şəkildə plastinlərin hazırlanması (bu plastinlərdən ov və məişət alətlərinin taxılma başlıqları kimi müxtəlif məqsədlər üçün istifadə edilmişdir); 2. sümükdən hazırlanan əşyalar sahəsində − sümüyün kəsilməsi, cilalanması və deşilməsi, yəni elə metodlardan istifadə ki, Mustye dövründə bu cür üsullara ya təsadüfü hallarda əl atılıb, ya da onlardan ümumiyyətlə istifadə edilməyib; 3. Üst paleolit incəsənətinin meydana gəlməsi – mağara divarları və daş üzərində təsviri sənətin yaradılması (3. s.245). Deməli, 40 min il bundan öncə həqiqətən də inqilabi proses baş vermişdir deməyə tam əsas vardır. Əslində dünyanın heç bir mütəxəssisi bu faktın mövcudluğuna şübhə ilə yanaşmır. Bu o deməkdir ki, bəşəriyyətin əsas etibarilə morfoloji baxımdan deyil, məhz intellektual baxımdan formalaşmasının başa çatması prosesi təqribən 43-39 min illər bundan əvvəl mümkün olmuşdur. Ortaya çıxan əsas problem isə, bu prosesin necə baş verməsini anlamaq və onu izah etməkdir. Məhz bu məsələ ilə bağlı tədqiqatçılar arasında ciddi fikir müxtəlifliyi mövcuddur və artıq deyildiyi kimi, bütün mövqeləri əsasən monosentrizm və polisentrizm istiqamətində qruplaşdırmaq mümkündür. Mən, əvvəlki məqaləmdə (10) polisentrizmin tərəfdarı olduğumu bildirdim və bu mövqe L.B.Vişnyatskinin gəldəyi qənaətlə üst-üstə düşür (3, s.265-266). Dünyada Mustyedən Üst paleolitə keçid dövrü ilə bağlı olan bütün mövcud arxeoloji materialları analiz edən Vişnyatski belə nəticəyə gəlir ki, baş verən hadisələrin ssenarisinə daha çox polisentrizm nəzəriyyəsi müvafiqdir.

Hal-hazırda mütəxəssislər keçid prosesini iki mərhələyə ayırırlar – başlanğıc və erkən dövrlər; Vişnyatski isə, konkret olaraq, keçid prosesində birinci və ikinci mərhələləri fərqləndirir. Başlanğıc və ya birinci mərhələ təqribən 45-39 min illikləri əhatə edir; erkən və ya ikinci mərhələ isə 39-dan 30 min illərə uzanan bir dövrü əhatə edir (3, s.263-264). Indi isə keçid problemi ilə bağlı Vişnyatskinin əldə etdiyi əsas nəticələrə diqqət yetrirək: 1. daşın emalında özünü göstərən yeni keyfiyyət dəyişikliyi Afrika, Asiya və Avropanın müxtəlif bölgələrində eyni vaxtda baş verib. 43-38 min illiklər arasında, yəni birinci mərhələdə, əsasən yerli Mustye mədəniyyəti üzərində formalaşan "Ater" və "Dabban" (Şimali Afrika), "Emiran" (Yaxın Şərq), "Şatelperron" (Qərbi Avropa), "Selet" və "Bohunisyen" (Mərkəzi Avropa), "Qara Bom" (Cənubi Sibirdə), "Baço-kiryen" (Balkanda) kimi yeni istehsal texnikası bir-birindən asılı olmadan meydana gəlmişdir; 2. yeni mədəniyyətin daşıyıcıları əsasən iki növ hominidlər olmuşlar − neandertallar və erkən Homo sapiens. Məs., Şimali Afrikada (ater) yeni istehsal üsulu erkən və ya arxaik Homo sapienslə bağlı idisə, Qərbi Avropada şatelperron mədəniyyətinin daşıyıcıları neandertallar olmuşlar; 3. ikinci mərhələnin məzmunu geniş ərazilərdə Üst paleolit mədəniyyətinin (əsasən Orinyakın) bərqərar olması amili ilə bağlıdır. 39 min il bundan əvvəl "Baradost" (Ön Asiya) və "Ahmarian" (Yaxın Şərq) mədəniyyətlərinin ortaya çıxması ilə başlayan bu mərhələ bəzi regionlarda (məs., Krımda) 30 min il bundan əvvələ qədər davam etmişdir. L.B.Vişnyatski qeyd edir ki, əgər birinci mərhələdəki proseslər sinxron şəkildə baş

vermişdisə, ikinci üçün bunu demək artıq çətindir, yəni əgər başlanğıc mərhələdəki hadisələr müxtəlif yerlərdə parallel şəkildə təzahür etmişdirsə, ikinci proses müxtəlif bölgələrdə, lakin müxtəlif zamanlarda cərəyan etmiş və, nəticədə, tədricən Üst paleolit mədəniyyəti bərqərar olmuşdur. Özü də xronologi baxımdan Avropada Orinyakın yayılması Şimaldan cənuba doğru istiqamətlənmişdir ki, bu da yeni istehsal üsulunun Yaxın Şərqdən Avropaya akkulturasiya vasitəsilə gətirilməsini mümkünsüz edir. Digər tərəfdən, mütəxəssislərin ümumi rəyinə görə, ən azı Avropada Üst paleolit mədəniyyətinin formalaşması neandertalların adı ilə bağlıdır. Bütün arxeoloji tədqiqatlar isə yuxarıdakı mühakimənin doğruluğunu göstərir və bu məsələdə həm monosentristlər, həm də polisentristlər eyni mövqedən çıxış edirlər.

Keçid probleminin özünəməxsus cəhətlərini şərh etdikdən sonra onun hansı səbəbdən baş verməsi məsələsini analiz etməyə çalışaq. Ən yayılmış hipotezlərdən biri Üst paleolit mədəniyyətinin yaranmasının ekoloji səbəblə izah edilməsidir. Lakin arxeoloji tədqiqatlar göstərdi ki, neandertal insanlar yalnız Avropada deyil, yəni buzlaqətrafı bölgələrdə deyil, isti regionlarda da məskunlaşmışlar (məs. Orta Asiyada, Yaxın Şərqdə). Digər tərəfdən, Sovet dövründə işlənilmiş və indi də dərsliklərdə öz əksini tapan nəzəriyyəyə görə, Orta paleoliti əvəzləyən Üst paleolitin 40 min il bundan əvvəl meydana gəlməsi morfoloji baxımdan yeni insan tipinin yaranması ilə bağlıdır. Artıq arxeoloji axtarışlar göstərdi ki, Homo sapiensin ən erkən formaları hələ 200 min il bundan öncə mövcud olmuşdur. Göstərilən əsas səbəblərdən biri də demoqrafik amillə bağlıdır. L.B.Vişnyatski məhz bu amildən çıxış edir və əsaslandırmağa çalışır ki, təqribən 80 min il bundan öncə başlayan demoqrafik artım prosesi insanları maddi tələbatlarının ödənilməsi istiqamətində yeni istehsal üsullarının axtarışına istiqamətləndirmişdir ki, nəticədə, özünü bəsit formada və təsadüfü hallarda büruzə verən Üst paleolit elementləri artıq ehtiyac ucbatından insanları yeni alətlərin hazırlanmasına vadar etmişdir (3. s.272). Eyni zamanda, məqaləsinin sonunda Vişnyatski etiraf edir ki, bu səbəbin ən zəif yeri onun yoxlanıla bilməməsi ilə bağlıdır. Lakin, məncə, bu amilin daha bir zəif məqamı da vardır. Əgər alimin dediyi kimi, artan əhali sayı 40 min il bundan öncə, demək olar ki, dünyanın bütün regionlarını məskunlaşdırmış erkən Homo sapiensi resurslar uğrunda gərgin mübarizəyə sürükləmişsə, o halda incəsənət əsərlərinin yaradılmasına nə lüzum var idi? Məlumdur ki, incəsənət nümunələrinin ilk rüşeymlərinə hələ keçid dövrünün birinci mərhələsində təsadüf edilmişdir ki, tam şəkildə bu proses özünü məhz Üst paleolitdə göstərmişdir. Məncə, təbiətşünaslıq elminin nümayəndəsi kimi Vişnyatskinin məhz təbii səbəblərdən çıxış etməsi, intellekt fenomeninə göstəriləcək diqqəti bir növ kölgədə qoyur (demək olar ki, bu çatışmazlıq, yəni ruhi fenomenlərə, intellekt amilinə əhəmiyyət verilməməsi təbiətşünas alimlərin əksəriyyətinə aiddir). Halbuki, Üst paleolit mədəniyyətinin əsas cəhətlərindən biri məhz incəsənətin meydana gəlməsi ilə bağlıdır ki, bu da artıq yeni insan təfəkkürünün formalaşmasından xəbər verir. Daha bir səbəb haqqında, akkulturasiya barədə artıq məlumat vermiş və göstərmişdim ki, araşdırılan məsələ prizmasından bu hipoteza da özünü doğrultmur (əvvəlki məqalədə). Nəhayət, əsas səbəblərdən biri kimi Y.İ.Semyonovun irəli sürdüyü sosioloji amili qeyd edək ki, burada söhbət, on min illər ərzində qapalı həyat tərzinə üstünlük verən və ona görə də inbridinqə (icmanın öz daxilində reproduksiyası) məhkum olan neandertal insanların tədricən dual icmalar yarada bilməsi hesabına hibridizasiya proseslərinə yol açılması və, nəticədə, klassik neandertalların transformasiyasından yeni fiziki insan tipinin yaranması və buna müvafiq Üst paleolit mədəniyyətinin ortaya çıxmasından gedir. Lakin son elmi araşdırmalar göstərir ki, transformasiya vasitəsilə neandertallardan müasir insanın yaranması ən azı bioloji baxımdan mümkün deyil. Deməli, bu variant da yetərli sayıla bilməz.

İndi isə gəlin bizə məlum olan faktları yada salaq və ümumiləşdirək: 1. Üst paleolit mədəniyyəti yalnız o halda yarana bilər ki, bu prosesdə neandertallar iştirak etsinlər (neander-

talların yaşamadığı bölgələrdə, məs. Avstraliyada, haraya ki son məlumatlara görə erkən Homo sapiens hələ 50 min il bundan öncə miqrasiya etmişdir, Üst pealeolit mədəniyyəti çox gec yaranmışdır); 2. Üst paleolitə keçid dövrü sinxron şəkildə baş vermişdir; 3. Üst paleolit mədəniyyətinin daşıyıcıları müasir insanlar olmuşlar. Zənnimcə, bu üç məqamı özündə ehtiva edib Üst paleolit mədəniyyətinin meydana gəlməsini şərtləndirən daha bir səbəbi də göstərmək olar. Mütəxəssislərin çoxu adətən bu varianta bir o qədər üstünlük vermirlər (məs. Semyonov). Söhbət çarpazlaşmadan və ya cütləşmədən gedir. Məsələ burasındadır ki, klassik neandertallar o dərəcədə konservativ (yəni özündə arxaik cizgilərin daşınması) görkəmdə olmuşlar ki, mütəxəssislərin çoxu onların keçid prosesində iştirakını mümkünsüz saymışlar. Üstəlik, mtDNT-a əsaslanan analizlər də Homo sapienslə neandertalların cütləşməsini genetik baxımdan qeyri-mümkün hesab etmişdir. Lakin son zamanların arxeoloji tapıntıları faktiki olaraq sübut edir ki, çarpazlaşma mümkündür. Konkret olaraq, tanınmış mütəxəssislər − amerikalı E.Trinkausun və portuqaliyalı professor J.Zilaunun Rumıniyadakı tədqiqatları nəticəsində özündə çarpazlaşmanın əlamətlərini daşıyan Homo sapiensin kəllə sümüyü əldə edilib (bu axtarışlar 2002-ci ildə aparılıb). Bu sümüyün yaşı 40 min ilə bərabərdir və tapıntının hələ ki Avropada analoqu yoxdur (9). Bu vaxta qədər Avropada aşkar edilən sümük qalıqları həm xronoloji baxımından daha cavan olmuşdur, həm də kəllə sümüyünün yalnız fraqmentləri halında aşkar edilmişdir. Məlumdur ki, bu hadisədən xeyli öncə həm Avropada, həm də məşhur Sxul məntəqəsində (Yaxış Şərq) hər iki növün əlamətlərini daşıyan insan qalıqları tapılmışdır. Demək, çarpazlaşmadan danışmağa faktoloji əsas var. Elə isə keçidin ssenarisini hipotetik şəkildə qurmağa çalışaq. Afrikada baş verən demoqrafik "partlayış" (təqribən 100-50 min illiklərdə) buradakı erkən Homoların dünyaya miqrasiyasını mümkün etmişdir (3, s.271-272). Erkən Homo sapiens nəinki neandertalların heç vaxt yaşamadıqları bölgələri, hətta onların məskunlaşdıqları əraziləri belə tədricən ələ keçirməyə müvəffəq olmuşdur. Ehtimal ki, ilk vaxtlarda erkən Homolar neandertallarla yaxın əlaqələr qura bilməmişlər (qeyd etdik ki, neandertallar lokal yaşayışa üstünlük vermişlər). Lakin əhalinin sıxlığı baxımından ərazilərdə getdikcə gərginliyin artması və təbii resursların tükənməsi hər iki növü bir-birilə kontakta girməyə vadar etmişdir (yəqin ki, bu prosesin ssenarisi müxtəlif olmuşdur, yəni bir tərəfdən qarşılıqlı məhv edilmə, digər tərəfdən isə sosio-mədəni ilişgilər baş vermiş və ehtimal ki, məhz ikinci variant neoantropun meydana gəlməsini şərtləndirmişdir). Çox güman ki, keçidin birinci mərhələsinin müxtəlif regionlarda eyni vaxtda cərəyan etməsi dünyada əhali sıxlığının müəyyən kritik həddə çatması ilə əlaqədardır ki, nəticədə iki növ arasında cütləşmə proseslərinə imkan açılmışdır. Çarpazlaşmadan meydana gələn yeni hominid isə artıq bizim mənsub olduğumuz yeni insan növü, yəni neoantropdur (özündə təbii, bioloji və sosial amilləri ehtiva edən bu inqilabi prosesin təfərrüatlarını məqalənin formatı çərçivəsində şərh etmək imkan xaricindədir). Bu proses kəllə sümüyündə baş verən transformasiya prosesində də özünü büruzə verir. Görkəmli rus alimi V.P.Alekseyevin akademik məqaləsində verilən cədvəldə göstərilir ki, müasir insanın üz sümüyü keçid dövründə yaşayan erkən Homo sapiensdən böyük, neandertal adamın üz sümüyündən isə kiçik olmuşdur (7, s.37). Deməli, dəstəklədiyimiz hipotezi yalnız arxeoloji faktlar deyil, həm də morfoloji dəlillər təsdiqləyir. Q.Broyerin irəli sürdüyü bu ssenarinin üstünlüyü bir də ondadır ki, həm monosentrizmin, həm də polisentrizmin uzlaşmayan məqamlarını orqanik şəkildə özündə birləşdirir. Beləliklə, ehtimal etmək olar ki, təqribən 45 min il bundan əvvəl başlayıb 39 min il bundan əvvəl başa çatan çarpazlaşma prosesi mahiyyəti baxımından eyni (yəni sinxron şəkildə, müxtəlif ərazilərdə və özündə müasir irqlərin əlamətlərini daşıyan yeni bioloji növün − neoantropun meydana gəlməsi), forması baxımından fərqli və yaranması baxımından polisentrik (görkəmli alimlər F.Bord

və S.N.Zamyatninin başa düşdükləri kimi /2/) səciyyə daşıyan Üst paleolit mədəniyyətlərinin meydana çıxması hadisəsini şərtləndirmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. Аникович М.В. О миграциях в палеолите, Jurnal «STRATUM plus», № 1, 1999, с.72-82.

2. Васильев С.А. Проблема критериев выделения крупных историко-культурных областей позднего палеолита, http://x.archaeology.nsc.ru

3. Вишняцкий Л.Б. Верхнепалеолитическая революция: география, хронология, причины, Jurnal «STRATUM plus», № 1, 2000, с.245-272

4. Вишняцкий Л.Б. История одной случайности, или происхождение человека, Jurnal «STRATUM plus», № 1, 1999, с.10-51.

5. Вишняцкий Л.Б. Культурная динамика в середине позднего плейстоцена и переход к верхнему палеолиту, Автореферат диссертации на соискание ученой степени доктора исторических наук, Санкт-Петербург, 2006.

6. Григорьев Г.П. Начало верхнего палеолита и происхождение Homo sapiens, Ленинград, «Наука», 1968, 175 с.

7. История первобытного общества. Эпоха первобытной родовой общины. (Институт Этнографии АН СССР), Москва, «Наука», 1986, 574 с.

8. О происхождении человека, неандертальской проблеме и анализе ДНК http://www.vif2ne.ru/nvz/forum/archive/119/119067.htm

9. http://grani.ru Люди скрещивались с неандертальцами? //Новости палеонтологии.

10. Hacıyev R.S. Homo sapiensin təşəkkülünə dair, AMEA, FSHTİ, Fəlsəfə,elmi-nəzəri jurnal, № 1, 2008.

Ровшан ГАДЖИЕВ

ПРОБЛЕМА ПЕРЕХОДА ОТ МУСТЬЕ К ВЕРХНЕМУ ПАЛЕОЛИТУ

Резюме

В статье исследуется важнейшая проблема антропогенеза – переходный процесс от Мустье к верхнему палеолиту. Рассматриваются взгляды известных специалистов по изучаемой проблеме. Анализируются причины переходного процесса и, по этому поводу, излагается позиция автора. В качестве одного из вариантов решения проблемы поддерживается версия касательно метизации неандертальцев с ранними Homo sapiens.

Rovshan HACIYEV

THE PROBLEM OF THE TRANSITION FROM MOUSTERIAN TO THE UPPER PALEOLITHIC

Summary

The main problem of the anthropogenesis – the transitional process from mousterian to the upper paleolithic is investigated in this article. The views on the investigating problem of the famous specialists are considered there in the article. The reasons of the transitional process are analyzing end for this point the position of the author is expressed. In the capacity of one of the variants of this problem, the version concerning the neanderthal men's cross-breeding with the early "homo sapience" is supported.

İlham MİRZƏYEV
Azərbaycan Milli Elmlər Akademiyasının
Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun
«Sosiologiya və sosial psixologiya» şöbəsinin böyük
elmi işçisi, psixologiya elmləri namizədi

QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASININ SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏRİ*

Prezident İlham Əliyevin uğurlu fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq nüfuzu getdikcə artır. Bu sırada Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prioritet məsələ kimi ortaya çıxır.

Dövlət başçısı dəfələrlə vurğulayıb ki, Azərbaycan üçün Dağlıq Qarabağ münaqişəsinin həlli prioritet məsələdir: «Beynəlxalq etiraz bizə lazımdır. Məqsəd həm danışıqlar prosesində, həm də ki, danışıqların kənarında məsələnin həlli üçün yolların axtarılmasıdır. Xalqın da dəstəklədiyi bu mövqe Azərbaycanın ərazi bütövlüyünə və Ermənistanın işğal altında saxladığı ərazilərin azad olunmasına yönəldilib. Ermənistana isə düşünmək qalır.»

Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusuna çevrilməməli və işğal altında qalan torpaqlarımız, nəyin bahasına olursa-olsun, tezliklə azad edilməlidir. Yurd-yuvasından didərgin salınmış 1 milyondan artıq qaçqın və məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalıdır. Azərbaycanın günü-gündən artan iqtisadi-siyasi nüfuzu imkan verir ki, xalqımız öz ərazi bütövlüyünü təmin etsin.

Dövlətimiz Dağlıq Qarabağ münaqişəsinin həllində öz prinsipial mövqeyini qoruyub saxlamaqdadır. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ərazi bütövlüyümüzün müzakirə obyektinə çvrilməsinə heç vaxt yol verilməyəcək və işğal olunmuş rayonların qeyd-şərtsiz olaraq boşaldılmalıdır: «Azərbaycanın günü-gündən artan iqtisadi-siyasi nüfüzu imkan verir ki, işğal olunmuş torpaqlarımızı hansı yolla olursa-olsun azad edək. Beynəlxalq sülh prinsiplərinə daima hörmətlə yanaşaraq, regionda sülhün və təhlükəsizliyin qarantı kimi Azərbaycan istəyir ki, işğal olunmuş ərazilərini danışıqlar yolu ilə geri qaytarsın. Lakin bunun da son variant olmadığını və xalqımızın səbr kasasının da müəyyən həddi olduğu hər kəsə bəllidir.»

Бястякарларымызын ян йахшы, эюзял ясярляринин вала кючцрцлмяси мядяни щяйатымызда ящямиййятли, мцщцм щадися кими мцтямади олараг, юз тяъяссцмцнц хариъи мятбуатда тапмасы тягдирялайигдир. Ясяря олан бястякарын бу мараьы ондан бир чох конкрет бядии-естетик мясялялярин щялл едилмясини тяляб едирди. Бу ясярин мусиги дилиндя бястякар мящз мялум олан ъябяблярдян еля сяс бирляшмяляриня, ритмик хцсусиййятляря, интонасийа бойаларына, тембр рянэарянэлийиня биляркдян мцраъият едир ки, онлар (бцтцн мусиги материалларынын цмуми рущуна, характериня эюря) парлаг, зянэин испан милли мусигисиня йахын олараг, испан халгынын рущуна, мянявииййатына мцвафиг олараг, ассосиасийа доьура билсин. Бу бахымдан ясас етибариля дащи Сервантесин романын цмуми мязмунундан ируяли эялян щямин бу бядии ифадя васитяляринин яслиндя испан щяйатындан вя тябиятиндян, о ъцмлядян дя инсанларындан цряк долусу данышмаьа имкан йаратмасы тягдирялайигдир. Бу ясярдя рус мусигисинин, ясас етибариля М.И.Глинканын симфоник цвертцрляринин («Арагон хотасы», «Мадриддя эеъя») мцтярягги яняняляринин мцсбят тясиринин щисс едилмяси бюйцк мараг доьурур.

Адлары чякдийимиз ясярлярдя испан халгынын щяйаты, мяишяти, психолоэийасы, темпераменти, азадсевярлийи образлы тярздя юз тяъяссцмцнц тапмасы тясадцфи дейилдир.

Гейд етмяк зяруридир ки, диэяр халгын мняви мядянииййятиня мцраъият етмяси – ясас етибариля хариъи тядгигатлара – щярдян бу янянянин сяняткары милли мусиги мядянииййятинин кюкляриндян, халг мусигисинин естетик принсипляриндян узаглашдырылмасы кими эюрцня билмяси тяяссцрат йарада биляр. Бунун яксиня олараг, щямин эюстярилян мейл яслиндя тамамиля мцтярягги олараг, юзцнц доьрулда билмишдир. Дцнйа мусиги мядянииййятинин тяърцбяси, еляъя дя М.И.Глинканын йухарыда гейд етдийимиз ясярляри щямин бу дцшцнъя вя фикирлярин щеч бир елми ъящятдян ясассыз олдуьуну бир даща сцбут етди. Бу дцшцнъя вя фикирлярля баьлы олан мясяля щаггында эюркямли йазычымыз Мещди Щцсейнин сюзлярини мисал эятирмяк дцзэцн оларды. Г.Гарайевин зянэин вя чохшахяли йарадыъылыг фяалииййятини йцксяк гиймятляндирян Мещди Щцсейн йазырды: «Ясл истедад вя ясл сяняткар цчцн эюзял ясярляр йаратмагдан ютрц мцяййян дар чярчивяйя гапаныб галмаг щеч дя шярт дейил. Яксиня, мян дейярдим ки, совет адамларынын щягиги

бейнялмилялчилийи щяр сащядя, о ъцмлядян дя инъясянят сащясиндя мцяййян шякиллярдя юз яксини тапмалыдыр. Бу бахымдан Г.Гарайевин йцксяк мядянииййятли бир сяняткар кими башга халгларын мусиги стихийасына асанлыгла дахил ола билмяси хцсуси вя гиймятли бир мязиййятдир ки, буну тякзиб дейил, тягдир етмяк лазымдыр. Бу, цмидли вя сямяряли йоллардан биридир»[11].

Беля бир мцтярягги мейл цмумиййятля демяк олар ки, бцтцн эюркямли бястякарларымыза хас олан ъящятлярдяндир. Бу бир фактдыр ки, щятта сырф милли мювзулара мцраъият едяркян беля онлар юз ясярляриндя даим цмумбяшяри, бейнялмилял сявиййяйя йцксялмяйя ъящд эюстярир вя чалышырлар. Ф.Ямировун симфоник ясярляринин ялдя етдийи мцвяффягиййятляри дярк етмяк якс тягдирдя гейри-мцмкцн оларды.

Гейд етмялийик ки, милли зяминдя олан «мющкям вя айрылмаз вящдятин бир адят олараг, буржуа естетикасында тянгид атяшиня тутулмасы, яксиня олараг, инъясянятдя халг йарадыъылыьы иля щеч бир ялагядя олмайан мцртяъе естетик ъяряйанын вя мейллярин тяблиь едилмяси тяяссцф доьурмайа билмяз. Беля ки, мусигидя антиреалист ъяряйанлар щесаб едилян конкрет мусиги, атонал мусиги, сонористика, алеаторика, коллаж вя с. мцасир мусигинин инкишаф перспективляриля ялагяляндирилмяси щеч дя дцзэцн дейилдир. Лакин, щалбуки онлар милли мелосун естетик тябиятиня тамамиля уйьун олмадыьы щалда, мусигинин еля ясас елементляриндян (мелодийа, щармонийа, лад, ритм вя с.) имтина едир ки, онларсыз да мусигини бир сянят нювц кими щеч тясяввцр етмяк мцмкцн дейилдир.

Ясярин бейнялмилял, цмумбяшяри мяна кясб етмяси Алман мусигшцнасынын бу фикриндян бир даща щисс олунур. Ф.Штатсерин Барток йарадыъылыьы иля аналогийалар ахтармасы тясадцфи дейилдир. Гейд етмялийик ки, башга мусигичиляр дя бу кими йарадыъылыг бянзярлийини нязярдян гачырмамышлар. Ф.Ямировун тцрк дирижору Сабащяддин Гяляндяри тяряфиндян ифа олунан «Низами» симфоник поемасы щаггында юз тяяссцратларыны билдирян мусигишцнас Фяруг Кцвенч «Улус» (1968, феврал) гязетинин сящифяляриндя Фикрят Ямировун «Низами» симфоник поемасынын валещедиъи гцввясини, гцдрятини Бартокдан сонра бястякар Ф.Ямировун симли алятлярдян истифадя едяряк, бу алятлярин кюмяклийи васитясиля щисс вя щяйяъанын, цмумбяшярлилийин, цлвилийин ифадяси кими надир бястякарлар сырасына дахил етмяси тягдирялайигдир.

24 феврал 1968-ъи ил тарихли «Миллиет» гязетиндя Фяруг Кцвенч «Низами» симфоник поемасы щаггында дяръ едилмиш диэяр мягалясиндя бюйцк щюрмят вя щявясля данышыр, щямин ясярин мусиги дилини тядгиг вя тящлил едяряк, бястякарын йарадыъылыг цслубунун мящз Вагнер вя Чайковскийя йахын олдуьуну сцбут едир. Беля ки, бястякарын йарадыъылыг фяалиййятинин хариъи юлкялярдя йцксяк гиймятляндирилмяси щаггында чох ятрафлы сурятдя, йорулмаг билмядян бящс етмяк олар. Мящз бу мянада болгар гязети «За советскио родини» (17 март, 1956), франсыз мусиги журналы «Диск» (1951-ъи илин йай нюмряси), Лондон гязетляри «Ивнинг нйуз» (7 май,1956-ъы ил) вя «Таймс» (7 май, 1965-ъи ил), Иран гязети «Кейщан» (16 ферал, 1970-ъи ил) вя с. садаламаг кифайят дейилдир. Эюстярдийимиз арды-арасы тцкянмяйян мисалларда эюркямли Азярбайъан бястякары Ф.Ямировун ады дюврцмцзцн ян истедадлы, зянэин йарадыъылыг цслубуна малик олан бястякарларла йанашы чякилмяси юнямлидир.

---

[11] «Коммунист» гязети, 18 май, 1967-ъи ил.

Бу балетин тамашайа гойулмасы щаггында «Нйу-Йорк Таймс» гязетинин илк дяфя мялумат вермяси нязяр-диггяти ъялб едир (24 март 1961-ъи ил), Йугослав гязети «Политика» (15 май 1965-ъи ил), чех гязети «Любдова демократийа» (29 сентйабр 1965-ъи ил), фин гязети «Илта-Сонамен» (26 феврал 1966-ъы ил), болгар гязети «Роботническое дело» (28 йанвар 1971-ъи ил) вя башгалары балетин премйерасы барясиндя ятрафлы шякилдя йазмышлар. Адлары чякилян бу вя диэяр гязетлярдя гейд едилмиш ресензийаларда балетин мусигисинин драматурэийасынын йцксяк гиймятляндирилмяси иля бярабяр оркестр сяслянмясинин профессионализми, мусигинин шярг колорити иля сечилмяси, бястякар тяряфиндян кечмишин реалист янняняляря садиг галмасы юз тяъяссцмцнц тапыр.

Цмумийййятля, хариъи мятбуат сящифяляриндя щеч дя тякъя профессионал бястякарларымызын бядии тяърцбясинин юз яксини тапмасыны китабын мцяллифи гейд етмяйи йаддан чыхармамышдыр. О, эюстярир ки, «Дцнйанын бир сыра юлкяляриндя дяръ олунан гязет вя журналларда мусиги мядянийййятимизин диэяр сащяляри барясиндя дя эениш охуъу кцтляси цчцн мараг доьуран йазылар, мягаляляр няшр едилир. Профессионал, о ъцмлядян халг мусигимизин йайылмасы вя тяблиьи ишиндя ифачыларын ролунун бюйцк ящямийййятя малик олдуьуну да хцсусиля гейд етмяк зяруридир.

Нийазинин дирижорлуг фяалийййяти мялум олдуьу кими хариъдя дя эениш вцсят алмыш вя йцксяк гиймятляндирилмишдир. Нийази щаггында эюркямли дирижор кими бир сыра танынмыш мядянийййят хадимляри, еляъя дя Д.Шостакович, Т.Хренников, Г.Коган, Ф.Ямиров вя башгалары йцксяк, дяйярли фикир сюйлямиш вя бунунла бярабяр онун дирижорлуг фяалийййятинин ейни заманда хариъи юлкялярдя дя эениш вцсят алараг, лайигинъя гймятляндирмяси эюз юнцндядир.

«Rude pravo» qəzetinin səhifələrində Niyazinin dirijorluq fəaliyyəti barəsində Praqada Beynəlxalq musiqi festivalına həsr edilmiş broşürada digər görkəmli musiqiçilər də hərtərəfli yazıları ilə çıxış etmişlər.

İstifadə olunmuş ədəbiyyat

1. «Азербайджан за рубежом». Реферативный сборник, Баку, 1975. вып.3.210-211.
2. «Азербайджан за рубежом». Реферативный сборник. Баку, 1975, вып. 3, с.211.
3. «Азербайджан за рубежом». Реферативный сборник. Баку, 1975, вып. 3, с.213.
4. «Азербайджан за рубежом». Баку, 1972, с.186.
5. «Азярбайъан инъясяняти – тярифляр, тящрифляр. Бабяк Гурбанов. Бакы, 2001, с.136.
6. «Азербайджан за рубежом». Баку, 1972, с.189.
7. «Азербайджан за рубежом». Баку, 1972, с.194.
8. «Азербайджан за рубежом». Реферативный сборник, Баку, Елм, 1972, с.187.
9. Boris Schwars. Music and musical life in Soviet Russia. Indiana University Press. 1983. Тяхминян щямин мейли Америка культурологу Б.Сварсын 1983-ъц илдя чапдан чыхмыш ясяриндя дя излямяк мцмкцндцр.
10. Э. Ганслик. О музыкально-прекрасном М.1910. с.55.
11. Яфрасийаб Бядялбяйли. Гурбан Примов. Бакы. «Азярняшр», 1955, с.24-29.
12. Я.Бядялбяйли «Мусиги лцьяти».
13. Ф.Кочарли. Ответ клеветнику. «Бакинский рабочий» гязети. 22 март, 1974-ъц ил.

14. Хатырладаг ки, 1985-ъи илдя Лос-Анъелосун мцстягил мцтярягги радио стансийасы иля Ц.Щаъыбяйовун йарадыъылыьына щяср едилмиш дюрд саатлыг верилиш бюйцк мараьа сябяб олмушдур. «Ядябиййат вя инъясянят» гязети, 25 октйабр, 1985-ъи ил.

15. «Илта-Сонамен» гязети, 26 феврал 1966-ъы ил

16. Журнал «Music in der Schoол», Berlin. 1975. Heft 4, s.152.

17. «Коммунист» гязети, 18 май, 1967-ъи ил.

18. Mary Grance Swift. The art of the Dance the USSR. University Notre Dance, Indiana, 1968.

19. Новая зарубежная литература по общественным наукам». Сборник аннотации, Баку, 1973, № 1-2, стр.79.

20. «Политика» гязети. 15 март, 1965-ъи ил.

21. РСИЛ (Филология и искусствоведение), Б., 1974, № 2, с.134-135.

22.РСИЛ (Филология и искусствоведение), Баку, 1974, № 2, с.138.

23. РСИЛ (Филология и искусствоведение), Баку, 1974, № 2, с.137.

24. С. Керимов. «Художник удивительного таланта». «Азгосиздат». Баку, 1972.

25. С.С.Прокофьев. Материалы, документы, воспоминания. М., 1961, с.107.

26. Stenlи Dayl Krebs. “Soviet Composere and the Development of Soviet music, New-York, 1970.

27. Stenlи Dayl Krebs. Истифадя едилмиш ясяри, с.74

28. Slavik Roviев. September. 1971. p.p.699-700.

29. Ц.Щаъыбяйов. «Азярбайъан халг мусигисинин ясаслары». Б., 1958-ъи ил, с.19.

30. Ц.Щаъыбяйовун мусигиси АБШ ефириндя. «Ядябиййат вя инъясянят гязети, 25 октйабр. 1985.

Ягут ПАШАЕВА

АЗЕРБАЙДЖАНСКАЯ МУЗЫКАЛЬНАЯ КУЛЬТУРА ЗА РУБЕЖОМ

Резюме

Созданные у нас в стране благоприятные социально-политические и экономические предпосылки способствуют культурному росту, всестороннему расцвету творческого таланта нашего народа. Не случайно поэтому азербайджанский народ, наряду с другими братскими народами нашей республики за короткий исторический отрезок времени добился блестящих результатов в различных областях общественно-политической жизни, науке, технике и культуре.

В настоящее время в художественной культуре нашей страны трудно назвать область, где азербайджанские деятели искусств не проявили бы себя достойным образом. В области музыкальной культуры стояли свои насущные задачи, в частности, необходимо было всемерно развивать профессиональную музыкальную культуру, уровень который в то время был еще низким.

Изучение, осознание, развитие прогрессивных традиций русской профессиональной композиторской школы, обладавшей богатейшей творческой практикой, соединение их с национальной основой азербайджанской народной музыки было в то время единственно правильным путем развития.

Р.М.Глиэр сыграл немалую роль и в развитии музыкального образования в Азербайджане, в собирании и творческом использовании азербайджанских народных песен. Так, в опере «Шахсенем», созданной на основе народного дастана «Ашиг Гариб», композитор использовал более 30 песен, применив их в соответствии с художественными возможностями оперного жанра.

Музыкальные отрывки из этой оперы, испольненные с большим вдохновением и мастерством Бюль-Бюлем и Шовкет Мамедовой, вошли в золотой фонд исполнительской профессиональной музыкальной культуры нашего народа.

В данной работе мы стремимся дать представление о том, как за рубежом печать освещает различные области музыкальной культуры Азербайджана, будь то профессиональная музыка, народное творчество, или испольнительское искусство.

Yaqut PASHAYEVA

AZERBAIJAN MUSICAL CULTURE ABROAD

Summary

The favourable sosio-politikal and economic preconditions established in the country promote cultural advance, all-round flowering of creative talent of Azerbaijan people. Therefore, it is not accidental that for the brief historical period the Azerbaijan people side by side with other brotherly peoples of our republic has achicved the wonderful results in the various fields of socio-political life, science, technics and culture.

At present it is rather difficult to name a field in creative culture of our country where the Azerbaijan men of art would not display with dignity their worth.

It should be noted that the vital task were to be solved in a field of musical culture. It was necessery to develop all-round professional musical culture, the level of which at that time was low yet.

Study, comprehension and advancement of the progressive traditions of Russian professional composers school possessing the reachest creative experience, combining it with national grounds of Azerbaijan folk music was the only true way of development.

R.M.Gliyer had played a great role in development of musical education in Azerbaijan, compiling and creative application of Azerbaijan folk songs. So, in the opera “Shakhsenem” created on the basis of the folk dastan “Ashug Gerib” the composer used more than 300 songs in conformity with the artistic possibilities of operatic genre.

The musical fragments from this opera performed with a great inspiration and skill by Biyl-Biyl and Shovket Mamedova entered the golden fund of performance professional musical culture of our people.

In the present work we tried to give a noton of that how the press abroad elucidates the different fields of musical culture of Azerbaijan either professional musics, folk art or performance mastery.

YADİGAR TÜRKEL
AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, a.e.i

ERMƏNİ SİYASƏTÇİLƏRİNİN XX YÜZİLLİKDƏ QARABAĞIN DAĞLIQ YERLƏRİNİ ƏLƏ KEÇİRMƏYƏ ÇALIŞMALARI HAQQINDA*

Bolşeviklər Azərbaycan Cumhuriyyətini devirdikdən sonra ermənilər qabaqcadan hazırlanıb razılaşdırılmış planı həyata keçirməyə başladılar.

Azərbaycanda Sovet hökuməti qurulandan sonra RK(b)P Qafqaz Bürosu 1921-ci il iyulun 4-də plenumda büro üzvləri S.M.Kirov, F.İ.Maxaradze, A.F.Myasnikov (yan), A.A.Nazaretyan, N.N.Nərimanov, İ.D.Oraxelaşvili, Q.K.Orconikidze, Y.P.Fiqatnerin iştirakı ilə səsvermə keçirib, Dağlıq Qarabağı Ermənistan SSR-ə verildi.

Plenumda səs hüqüqu olmayan İ.V.Stalinlə, Azərbaycanın xarici işlər komissarı Mirzə Davud Hüseynov da iştirak edirdi. **Nəriman Nərimanov** səsvermədən sonra rus-erməni-gürcü-mason bolşeviklərin qurduğu «seçki oyunu»na kəskin etiraz etdi. Ertəsi gün məsələyə yenidən baxılaraq, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı. Bu Nəriman Nərimanovun Azərbaycana, millətə etdiyi böyük xidmətdir.

Erməni bolşevikləri Azərbaycan Mərkəzi İcraiyyə Komitəsini 1923-cü il iyulun 7-də Azərbaycanda Xankəndi mərkəz olmaqla DQMV adlı qurum yaratmağa məcbur edildi.

Problem XVIII yüzilliyin başlanğıcında Qafqazı, İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarını tutan Rusiya imperiyası bölgədə xristianların sayını artırmaq məqsədilə ermənilər Qacarlar dövləti və Osmanlı imperatorluğundan «Tarixi-coğrafi Azərbaycan»ın quzey bölgələrinə köçürməklə yaradılıb. Rusiya imperiyası dağılandan sonra Qarabağın dağlıq yerləri Azərbaycan Cümhuriyyətində (1918-1920) olub.

II dünya savaşı SSRİ-nin qələbəsilə başa çatan kimi, ermənilər DQMV-i ələ keçirməyə yenidən girişdilər. Onlar Bakıya ÜİK(b)P MK-nın katibi Malenkovun adından belə bir məktub göndərdilər:

«Moskva. 28.XI-1945-ci il. *Azərbaycan* KP(b) MK-nın katibi yol. Bağırova.

Ermənistan K(b)P MK-nın katibi yol. Harutyunov ÜİK(b)P MK qarşısında indi Azərbaycan SSR-in tərkibində olan Dağlıq Qarabağ Vilayətinin Ermənistan SSR-ə verilməsi barədə məsələ qaldırmışdır.

Yol. Harutyunov məktubunda bu məsələ ilə bağlı aşağıdakıları yazır: «Ermənistan ərazisinə bitişik Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-in tərkibindədir. Vilayətin əsasən ermənilərdən ibarət 153 minlik əhalisinin 137 mini ermənidir. Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq bölümündəkilə eynidir. Dağlıq Qarabağın Ermənistana verilməsi onun inkişafına səbəb olub, təsərrüfatın idarə edilməsini də yaxşılaşdırardı. Əhaliyə mədəni-kütləvi və siyasi xidmətin Ermənistan respublikası orqanlarının rəhbərliyilə doğma dildə aparılması onu daha da yaxşılaşdıra bilərdi.

Dağlıq Qarabağ Vilayətinin Ermənistana verilməsi yerli kadrlara ali təhsillərini Ermənistanın ali məktəblərində doğma dildə davam etdirmək imkanı verər, Ermənistan SSR isə Dağlıq Qarabağ Vilayətindən yeni kadrlar alardı.

Göstərilənləri və Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alan Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti ÜİK(b)P MK və İttifaq hökuməti qarşısında Azərbyacan SSR-in Dağlıq Qarabağ Vilayətinin Qarabağ vilayəti adı ilə Ermənistan SSR-in tərkibinə verilməsi məsələsini qaldırırlar.

---

* Məqalə redaksiya heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

Məsələ müsbət həll edilərsə, Ermənistan MK və Xalq Komissarları Soveti Qarabağda sovet hakimiyyəti qurulmazdan qabaq dağıdılmış, Qarabağın qədim mərkəzi Şuşa şəhərinin bərpa edilməsi təklifilə hökumətə müraciət edəcəklər.

Ermənistan KP(b) MK-nın təklifinə münasibətinizi bildirin.

NR 17. ÜİK(b)P-nin katibi Malenkov».

Azərbaycan K(b)P MK-nın katibi **Mir Cəfər Bağırov** «böyük oyunlar»ın parçası olan «məktub-teleqram»a belə cavab vermişdir:

«ÜİK(b)P MK. yol. Malenkova.

Sizin Ermənistan K(b)P MK-nın katibi yoldaş Harutyunovun Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə verilməsi təklifi yazılmış teleqramınıza cavab olaraq bildirirəm:

Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan mərkəzi 1747-ci ildə Pənah xan Qarabağlının qala kimi tikdirdiyi Pənahabad şəhəri olan Qarabağ xanlığında olmuşdur.

Qarabağ 1826-cı ildə çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının içində olmuşdur.

Müsavatçıların Azərbaycanda, daşnakların Ermənistanda 1918-20-ci illərdəki hakimiyyəti dövründə müsavat hökuməti Qarabağın bütün ərazisində mərkəzi Şuşa (keç. Pənahabad) olmaqla Qarabağ general-qubernatorluğu yaratmışdı. Müsavatçı və daşnakların törətdiyi millətlərarası qırğınlar nəticəsində Şuşa, eləcə də Azərbaycanla Ermənistanın başqa çoxlu şəhərləri dağıdılıb xarabalığa çevrildi.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik ilk dövrdə vahid vilayət inqilab komitəsindən edilirdi.

1923-cü ildə Qarabağın ermənilərin çoxluqda olduğu dağlıq bölümünün Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Amma bu ərazinin Ermənistan SSR-lə ümumi sınırı olmadığından, ondan əhalisi ancaq azərbaycanlılar olan Qubadlı, Laçın, Kəlbəcər, Dəstəfur rayonları ilə ayrıldığından, partiya orqanlarının göstərişi əsasında, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretilə, 1923-cü il iyulun 7-də mərkəzi kiçik yaşayış yeri Xankəndi, indiki Stepanakert şəhəri olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazicə Ermənistan SSR-ə heç vaxt bitişik olmayıb və bitişik də deyildir.

Azərbaycanda sovet hakimiyyəti dövründə Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı üçün çox böyük işlər görülmüşdür. Buna ən yaxşı örnəklərdən biri DQMV-in indiki mərkəzi – dağılmış, boşalmış kənddən gözəl, baxımlı, mədəni şəhərə çevrilmiş Stepanakert şəhəridir, həm də təkcə Azərbaycanda yox.

Azərbaycan SSR-in bütün ali məktəb və texnikumları tələbələrinin 20,5%-i, çoxu da Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilərdir.

Dağlıq Qarabağdan olan çoxlu yoldaşlar respublika partiya, sovet, təsərrüfat kadrları arasındadır; Azərbaycan MK və K(b)P BK katiblərinin müavinləri, xalq komissarları, xalq komissarlarının müavini və b.

Buna baxmayaraq biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə verilməsinə etiraz etmirik. Amma Dağlıq Qarabağ Muxtar Vilayəti tərkibində olmasına baxmayaraq, əhalisi bu gün də əsasən azərbaycanlılardan ibarət Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik.

Şuşa şəhəri yarandığı andan Qarabağın inzibati-siyasi, mədəni mərkəzi olmaqdan başqa, Azərbaycan xalqının fars işğalçılarına qarşı müstəqillik mübarizəsində müstəsna rol oynamışdır. Azərbaycanlılar ən zalım işğalçılardan biri, Zaqafqaziya xalqlarının cəlladı, İran şahı Ağa Məhəmməd Şah-Qacarı Şuşada öldürmüşlər.

Bu şəhərdə Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti formalaşmışdır, onunla İbrahim xan, Vaqif, Natəvan və başqa görkəmli siyasi və mədəni şəxsiyyətlərin adı bağlıdır.

Eyni zamanda DQMV-in Ermənistan SSR-in tərkibinə verilməsi məsələsi müzakirə olunanda Ermənistan SSR-in Azərbaycan respublikasına bitişik və daha çox azərbaycanlılardan ibarət Əzizbəyov, Vedi, Qarabağlar rayonlarının Azərbaycan SSR-ə verilməsi məsələsinə baxılmasını da ÜİK(b)P MK-nın nəzərinə çatdırmağı vacib bilirik. Bu rayonların mədəni və iqtisadi baxımdan çox geri qaldığını nəzərə alanda, onların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitinin yaxşılaşdırılmasına və ona mədəni-siyasi xidmət edilməsinə imkan verər.

Yuxarıda yazılanlardan başqa ÜİK(b)P MK-dan aşağıdakı məsələlərə də baxmağı xahiş edirik:

Gürcüstandan olan yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-ə verilməsi məsələsini qaldırırlar.

Göstərilən rayonlardakı 79.000 nəfər əhalinin 9.000-in gürcü-ingiloy olmasına baxmayaraq, biz bu məsələnin müzakirə olunmasına qarşı deyilik, amma Gürcüstan SSR-in, əhalisi demək olar ancaq azərbaycanlılardan ibarət, Azərbaycan SSR-ə bitişik Borçalı rayonunun Azərbaycan SSR-ə verilməsi məsələsinin də eyni vaxtda müzakirə edilməsi şərtilə.

Və sonda, biz Azərbaycan SSR-ə bitişik, keçmişdə Azərbyacanın bir parçası olub və Bakı quberniyasında olan Dağıstan ASSR-in Dərbənd və Qasımkənd rayonlarının Azərbaycan SSR-ə verilməsi məsələsinin də müzakirə edilməsini xahş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, onların yarıdan çoxu heyvandarlıqla uğraşır və ilin 9 ayını Azərbaycan ərazisində keçirirlər.

Qaldırılan bütün məsələlər barədə təkliflər hazırlamaq üçün ÜİK(b)P MK-nın komissiyasını yaradıb onun tərkibinə bütün maraqlı respublikalardan nümayəndə salınmasını məqsədəuyğun sayardıq.

Azərbaycan K(b)P MK-nın katibi (M.C.Bağırov)
10 dekabr 1945.
№330.
Bakı şəh.

Mir Cəfər Bağırovun rus-erməni-gürcü-mason «bolşefaşizm»inin milyonlarla insanı dəyirmantək üyütdüyü bir dönəmdə etdiyi bu hərəkət Azərbaycan, millət qarşısında edilmiş qorxmazlıq, igidlikdir.

Gürcülər Azərbaycan SSR başçısının tarixi milli haqlarından doğan bu cavabından çəkinib sussalar da, ermənilər sonrakı dönəmdə başqa gövlətlərdə yaşayan ermənilərin Ermənistan SSR-ə gəlmələrini bəhanə etdirib, SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinin 1947-ci il dekabrın 23-də verdiyi 4083 №-li: «Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülmıəsi haqqında» qərarı ilə 1948-1950-ci illərdə Ermənistan SSR-dən – ata-baba yurdundan Azərbaycan SSR-in Kür-Araz ovalığına 100 min nəfərdən çox Azərbaycan türkünü köçürə bildilər.

Ermənilər 1964-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Anastas Mikoyanın dəstəyilə Naxçıvanla Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsi məsələsini müzakirəyə çıxardılar. Amma onların bu istəyi də rədd edildi.

Ermənilərin Azərbaycana ərazi iddiaları və yaratdıqları separatçılıq hərəkəti yenidən SSRİ prezidenti Mixail Qorbaçovun iqtisadi məsələlərdən məsləhətçisi Abel Ağanbekyanın 1987-ci il noyabrın 18-də Fransanın «Humanite» qəzetinə verdiyi Azərbaycan

SSR-in DQMV-in Ermənistan SSR-ə verilməsinin məqsədəuyğunluğu haqqında müsahibədən sonra qızışdı.

Haylar 1988-ci il fevralın 8-də DQMV-in paytaxtı Stepanakertdə (1923-cü ilin sentyabrına kimi Xankəndi – Y.T.) Azərbaycandan ayrılıb Ermənistan SSR-ə birləşmək üçün kiçik toplantılara, 13-dən isə çoxsaylı mitinqlərə başladılar.

Fevralın 19-da Bakıda ilk etiraz nümayiş-mitinqi keçirildi.

Fevralın 20-də DQMV XDS-in növbədənkənar sessiyası Azərbaycan və Ermənistan dövlət orqanları qarşısında DQMV-i Azərbaycan SSR-in tərkibindən çıxarıb Ermənistan SSR-ə verilməsi haqqıda məsələ qaldırdı.

1989-cu il avqustun 16-da Stepanakertdə keçirilən «DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı» DQMV-in Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusunun tanınmamasını və onun Azərbaycan SSR Konstitusiya və qanunlarının işləmədiyi «Müstəqil ittifaq ərazisi» olduğunu elan etdi.

1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Dağlıq Qarabağda «Xüsusi İdarəetmə Komitəsi» yaradıldı. Bölgədə gerçək konstitusiya hakimiyyətini itirmiş Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1989-cu il avqustun 26-da «DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı»nın qərarını qanunsuz elan etdi.

Azərbaycan SSR Ali Soveti sentyabrın 18-də növbədənkənar 10-cu sessiyasında SSRİ Ali Sovetindən Dağlıq Qarabağda yaratdığı «Xüsusi İdarəetmə Komitəsi»ni «Üzərinə götürdüyü vəzifələri yerinə yetirmədiyinə görə» ləğv etməsini xahiş etəsə də, gec idi.

Haylar Qarabağın dağlıq bölümünü rusların dəstəyi və hüquq fırıldaqları ilə Azərbaycan SSR-in kosmopolit, kommunist recimindən almışdılar.

Sonrakı dönəmdə Ermənistan Respublikası Rusiya Federasiyasının yardımı ilə Azərbaycanın DQMV-ni və yanındakı 7 rayonu işğal etdi. 50 mindən çox azərbaycanlı öldürüldü. Bir milyondan çox adam yurdunda qaçqın oldu. Azərbaycana ağlasığmaz dərəcədə böyük maddi-mənəvi ziyan dəydi.

BMT-nin Azərbaycanın işğal olunmuş torpaqlarının qaytarılması ilə bağlı 822, 853, 874, 884 saylı qətnamələri olsa da, böyük xristian dövlətlərinin oyuncağı olan Ermənistan Respublikası işğalçılıq siyasətindən əl çəkmir. Amma zaman ermənilərin yeni tarixi səhv etdiklərini göstərəcəkdir.

Yaranmış hərbi-siyasi durumu gözə alan Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etməyə məcbur odlu. Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikasının Qanunda deyilir: «Azərbaycan Respublikasının Ali Soveti

Azərbaycan Respublikasının öz milli dövlət quruluşu məsələlərini həll etməyə suveren hüququnu əsas tutaraq;

1923-cü ildə Azərbaycan xalqının milli mənafeyinə zidd olan, Azərbaycan xalqı ilə erməni xalqı arasında milli ədavətin dərinləşməsinə şərait yaradan, Azərbaycanın ən böyük təbii-iqtisadi bölgəsi olan Qarabağın infrastrukturunun dağıdılmasına və təsərrüfat əlaqələrinin qırılmasına yönəldilən, Dağlıq Qarabağın Azərbaycanın əzəli tərkib hissəsi olduğuna dair bütün etnik, tarixi, siyasi, iqtisadi və mənəvi əlamətləri bu ərazidə yox etmək üçün erməni millətçilərinin istifadə etdikləri amilin – Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasını qeyri-hüquqi hesab edərək;

Vilayətin yaradıldığı dövrdə Ermənistan SSR-də yaşayan yarım milyonluq azərbaycanlı əhali üçün heç milli-mədəni muxtariyyətin də yaradılmadığını, sonrakı illərdə isə azərbaycanlı əhalinin Ermənistandan zorla köçürüldüyünü, hazırda orada əslində bir nəfər də azərbaycanlı qalmadığını nəzərə alaraq;

Azərbaycanın əzəli tarixi ərazisini qoparıb almaq üçün Ermənistan rəhbərliyinin yeritdiyi siyasətin və bu siyasətdə DQMV-in bir alətə çevrilməsinin Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü üçün real qorxu törətdiyini qeyd edərək;

- Azərbaycan Respublikasında ermənilərin kiçik bir qrupu üçün milli ərazi qurumunun bundan sonra da saxlanmasının azərbaycanlı əhaliyə qarşı zorakılığın artmasına, geniş miqyaslı terrorçuluq əmələri törətmək – öz dövlətinin ərazisində yaşayan azərbaycanlıları qırmaq, soyub talamaq, onların evlərinə od vurmaq, əmlakını məhv etmək üçün yerli ermənilərdən təşkil edilən quldur dəstələrinin və Ermənistan ərazisindən göndərilən yaraqlı ekstremistlərin cinayətkarlıq hərəkətlərinin güclənməsinə səbəb olduğunu dərk edərək;

- Suveren Azərbaycan dövlətini və onun bütövlüyünü qoruyub saxlamaq və inkişaf etdirmək üçün Azərbaycan xalqının indiki və gələcək nəsilləri qarşısında tarixi məsuliyyətini başa düşərək;

- Qarabağın dağlıq hissəsində Azərbaycan Respublikasının suveren hüquqlarını tamamilə bərpa etmək, qanunsuz yaradılmış silahlı dəstələri tərksilah etmək, Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarını, azadlığını və ləyaqətini qorumaq, millətlərarası münasibətləri nizama salmaq zərurətini əsas götürərək;

Azərbaycan xalqının iradəsini rəhbər tutaraq qərara alır:

1. Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanununun) 68-ci maddəsinin üçüncü hissəsi, 104-cü maddəsinin 2-ci bəndi, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 4-cü maddəsi əsas tutularaq Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayəti milli ərazi qurumu kimi ləğv edilsin.

Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş sayılsın.

2. Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq Stepanakert şəhəri Xankəndi şəhəri, Mardakert şəhəri Ağdərə şəhəri və Mardakert rayonu Ağdərə rayonu, Martuni şəhəri Xocavənd şəhəri və Martuni rayonu Xocavənd rayonu adlandırılsın.

3. Əskəran və Hadrut rayonları ləğv edilsin.

4. Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılsın, ləğv edilmiş Əskəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilsin.

5. Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlərin, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları respublika tabeli rayonların sırasına daxil edilsin.

Azərbaycan Respublikasının Prezidenti A.Mütəllibov

Bakı şəhəri, 26 noyabr 1991-ci il».

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. B., 2007.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi. F. 1. Yazı 31. İş 186 "a".
3. AMEA. Xəbərlər. (Tarix, fəlsəfə, hüquq). B., 2007. № 8.
4. Ali Balkan Metel. Ermeni mezalimi və gerçekler. 4. baskı. İstanbul, Seri № 6.
5. Алиев И.Г. Нагорный Карабах: история, факты, события. Б., 1989.
6. Есаи Хасан Джалал. Краткая история страны Албанской (1702-1722). Б., 1989.
7. Историческая география Азербайджана. Б., 1987.
8. Qarabağnamələr. Б., 1989.
9. Qeybulla Qeybullayev. Qarabağ. Etnik və siyasi tarixinə dair. B., 1990.

10. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Б., 1989.
11. Teyyub Qurban. Düşmənlərindən güclü şəxsiyyət. B., 2006.
12. Yadigar Türkel. Politologiya (açıqlamalarla sözlük). B., 2006.

Ядигяр ТЮРКЕЛ

БОРЬБА АРМЯНСКИХ ПОЛИТИКОВ XX ВЕКА ПО ОВЛАДЕНИЮ НАГОРНО КАРАБАХСКОЙ АВТОНОМНОЙ ОБЛАСТИ АЗЕРБАЙДЖАНСКОЙ ССР

Резюме

В статье была проанализирована борьба армянских политиков в XX веке по овладению Нагорной части Карабаха – исторической родины Азербайджанских тюрков.

По мнению автора в 1921-году отдавшего протест в связи с незаконным голосованием членов Кавбюро РКП (б) и добившегося повторного голосования и решения об оставлении Нагорной части Карабаха в Азербайджанской ССР Наримана Нариманова является его исторической заслугой перед родиной и нацией.

Героизмом перед родиной и нацией и большим историко-политическим событием является так же решительное «письмо-действие» секретаря ЦК КП (б) Азербайджана Мир Джафар Багирова секретарю ЦК КП (б) Маленкову в связи с включением неделимой части исторического Азербайджана НКАО в состав Армянской ССР.

В статье так же раскрывается перевод письма секретаря ЦК КП (б) Азербайджана Мир Джафар Багирова секретарю ВКП (б) Маленкову и Закон Азербайджанской Республики о ликвидировании НКАО.

Yadigar TURKEL

STRUGGLE OR ARMENIAN POLITICAL FIGURES OF THE XX CENTERY ON SEIZING OF THE NAGORNO-KARABAKH AUTONOMONS REGION OF THE AZERBAIJAN SSR

Summary

The struggle carried out by Armenian political figures in the XX century on seizing of mountainous part of Karabakh – historical motherland of Azerbaijanian Turks was analysed in the article.

In author′s opinion in 192 making a protest in connection with illegal noting of the members of Caucasian Burean of RCP (b) and achiluing the repeated noiting and decision on keeping of the mountainous part of Karabakh in the structure of the Azerbaijan SSR is Nariman Narimanov′s historical service to his country and nation.

The heroism to his motherland and nation and great historico-political events are also decisive «letter-action» of the Secretary of CC CP (b) of Azerbaijan Mir Gafar Bagirov to the Secretary of the RCC CP (b) Malenkov in connection with inclusion the indivisible part of historical Azerbaijan – the NKAR in the structure of the Armenian SSR.

The translations of the letter of Secretary of the CC CP (b) of Azerbaijan Mir Gafar Bagirov to the Secretary of AU Union Communist Party (b) Malenkov and Zaw of the Azerbaijan Republic about the liquidation of the NKAR are given as well.

Habil HƏMİDOV
p.e.n.

TRASEKA-YA ÜZV AZƏRBAYCANIN PAKİSTANLA BEYNƏLXALQ ƏLAQƏLƏRİ*

Azərbaycan dövlətinin müstəqilliyinə və suverenliyinə rəğbət bəsləyən dövlətlərdən Pakistan İslam Respublikası ilə diplomatik əlaqələr 1992-ci il iyunun 8-də qurulmağa başlayıb. 796 min km^2 sahədə, 128 milyon (hazırki dövrlə müqayisədə statistik göstəricilərdə fərq vardır –H.H.) əhaliyə malik olan Pakistan Respublikası Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 12-də tanıdı. 1947-ci ildə öz müstəqilliyini və 1956-cı ildə Pakistan İslam Respublikası adlı müstəqil dövlət yaranmasını elan edəndən sonra bu ölkə dünyanın siyasi xəritəsində qısa vaxtda özünəməxsus mövqe və nüfuz qazanan dövlətlər sırasında öncül yerlərdən birini tutmağa nail olmuşdur (Əvvəllər qədim ipək yolunun əlaqələndiricisi olan bu ölkə TRASEKA proqramına üzv ola bilməsə də hazırda Azərbaycan dövləti bu qurumun nüfuzlu üzvü kimi ona dəstək verir-H.H.). Qeyd etməliyik ki, əsasən islam ideoloji prinsiplərini rəhbər tutan Pakistan, beynəlxalq aləmin dövlət quruculuğu təcrübələrini də nəzərə alaraq özünün güclü, nüfuzlu və xalqının maraqlarını əks etdirən müstəqil dövlətini yarada bilmişdir. Bu dövlət bəzi Asiya dövlətlərindən fərqli olaraq xarici siyasətdə heç bir hərbi bloka qoşulmamaq, dövlətlərin suveren hüquqlarına və ərazi bütövlüyünə hörmət, münaqişəli məsələlərin sülh və danışıqlar yolu ilə həll etmək prinsiplərinə üstünlük verir.

Azərbaycanla beynəlxalq münasibətlər səviyyəsində əlaqə saxlayan Pakistan dünyanın ən nüfuzlu dövlətləri arasında, xüsusən Asiya qitəsi ölkələri sırasında mühüm mövqeyə malikdir. Oxşar taleli ölkələr kimi Pakistan da Azərbaycan kimi xüsusi strateji ərazidə - Cənubi Asiya, Yaxın Şərq, Mərkəzi Asiya regionlarının kəsişdiyi yerdə yerləşməsi onun beynəlxalq vəziyyətinə və strateji mövqeyinə böyük təsir göstərir və bu dövləti bir növ böyük dünya ölkələrinin tənzimləyijisinə çevirir.

Əlverişli geosiyasi mövqedə yerləşməsi Pakistana Amerika ilə ənənəvi dostluq və əməkdaşlıq əlaqələri yaratmağa və onu qoruyub saxlamağa imkan vermişdir. Bu əlaqələr xüsusilə 70-ci illərdə Sovet İttifaqının Əfqanistanı işğal etməsi ilə bağlı beynəlxalq münasibətlərin kəskinləşdiyi bir vaxtda iki ölkə arasında müttəfiqlik ranqına qədər yüksəlmiş, sonrakı illərdə də Pakistan daim bu regionda ABŞ-ın əsas strateji dayağı olmaq əhəmiyyətini saxlamışdır. Azərbaycan ABŞ əlaqələri tarixinə nəzər yetirdikdə də bəlli olur ki, iki dövlətin beynəlxalq münasibətlərinin strateji tərəfdaşlıq yüksəlməsində milli lider Heydr Əliyevin xidmətləri misilsizdir.

Azərbaycanla oxşar münasibətlər Pakistanın Avropa dövlətləri ilə əlaqələrində də özünü büruzə verir. Onlar arasındakı münasibətlər daha çox iqtisadi tellərlə bir-birinə bağlıdır. Pakistanın iqtisadi əlaqələrində ixracın 30 faizi, idxalın isə 25 fazi bir başa Avropa iqtisadiyyatının payına düşür. Daha bir nəzərə çarpan cəhət odur ki, Pakistan Avropada keçirilən beynəlxalq iqtisadi forumların ən fəal üzvlərindən biri kimi də daim fərqlənir. Bu Asiya dövlətinin digər fərqli cəhətlərindən biri də İslam dünyası ölkələri içərisində xüsusi nüfuza malik olmasıdır ki, Pakistan, İran və Oman körfəzi ölkələrindən daha strateji geosiyasi məkana malik olduğundan, xüsusən Hind-Çinə çıxış və əlaqələrin mərkəzində dayanması və onun iqtisadi, siyasi, hərbi vəziyyəti də nəzərə alınmaqla əslində İslam dünyasının ən aparıcı dövlətlərindən birinə çevrilməsinə obyektiv şərait yaradır. Bundan başqa bu dövlətin ayrılıqda hər bir müsəlman ölkəsi ilə də – xüsusən İran,

---

* Məqalə redaksiya heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

Türkiyə, Əfqanıstan və s. kimi ölkələrlə strateci müttəfiqlik əlaqələri mövcuddur. Bu da təsadüfi deyildi ki, körfəz ölkələri də daxil olmaqla müsəlman dünyasının çoxu Pakistan-Hindistan münaqişəsində, yəni Kəşmir və Jamu əraziləri ilə bağlı məsələlərdə Pakistanı dəstəkləyir.

Bütün bunlar Azərbaycan üçün Pakistanla dostluq əlaqələri yaratmağı şərtləndirən əsas amillərdən hesab olunsa da, belə nətijə çıxarılmamalıdır ki, iki ölkə arasındakı əlaqələr təkjə islam amili üzərində qurulmuşdur. Qətiyyən belə düşünmək olmaz. Azərbaycan-Pakistan əlaqələri beynəlxalq qanunlara, sivil münsibətlərin norma və tələblərinə uyğun qurulub.

Etiraf etməliyik ki, Azərbaycanla Pakistan arasındakı ikitərəfli münasibətlər 1994-cü ilə qədər adi diplomatik münasibətlər çərçivəsində idi və bu ölkənin Azərbaycanla bağlı beynəlxalq aləmdə, istərsə də daxili siyasətdə oynaya biləjəyi mühüm rol respublikanın diplomatik dairələrində layiqinjə qiymətləndirilməmişdi. Halbuki Pakistan qardaş Türkiyədən sonra Azərbaycan Respublikasının müstəqilliyini tanıyan xarici dövlətlərdən birincisi olmuş və hələ 1991-ci ilin dekabrında öz nümayəndə heyətini respublikamıza göndərərək xalqımızın taleyüklü problemlərinin həllinə hər cür yardım göstərməyə hazır olduğunu bəyan etmişdir. Pakistan nümayəndə heyəti ilk anlardan Azərbaycanı iqtisadi əməkdaşlıq təşkilatlarına qatmaq üçün öz vasitəçiliyini təklif etmiş, çox təəssüf ki, bu humanist missiya o zaman layiqincə qiymətləndirilməmişdi. Lakin buna baxmayaraq Pakistan dövləti Azərbaycanla diplomatik əlaqələr yaratmaq təşəbbüslərini davam etdirmiş və həmin məqsədlə 1993-cü ilin martında Bakıda öz diplomatik missiyasını daha da etibarlı zəminlər üzərində quraraq fəaliyyətini daha da genişləndirməyə çalışmışdır. Məhz elə həmin ilin 30 aprelində BMT-də Pakistan nümayəndəsinin sədrliyi ilə keçirilən toplantıda ilk dəfə Respublikamızda yaranmış ictimai-siyasi və hərbi vəziyyət, ermənilərin ərazilərimizə təcavüz etməsi faktı müzakirə edilmiş, sədrin prinsipial mövqeyi nəticəsində Azərbaycana humanitar yardım göndərilməsi haqqında 822 saylı qətnamə qəbul edilmişdir.

Bundan sonra, artıq 1993-cü ilin yayında Azərbaycanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər onun xarici siyasət xəttinin istiqamətinin də dəyişməsinə, yeniləşməsinə və xalqımızın strateji maraqları əsasında qurulmasına şərait yaratdı ki (bütün bunlara baxmayaraq Heydər Əliyevin uzaqgörən siyasəti və təkidi nəticxəsində Azərbaycan TRASEKA-ya yzv qəbul olundu-H.H.), bu da həmin ildə respublika rəhbərliyində gedən dəyişikliklə birbaşa əlaqədar idi. Əvvəlki illərdə xarici siyasət sahəsində buraxılan bəzi səhvlər dərhal operativ şəkildə araşdırılaraq Azərbaycan ətrafında formalaşmış son dərəcə kəskin beynəlxalq vəziyyəti nizama salmaq və xalqın strateci maraqlarını beynəlxalq aləmin respublikamızda toqquşan mənafeləri ilə uzlaşdırmaq sahəsində səmərəli işlər görmək Azərbaycan rəhbərliyinin gecəli-gündüzlü əsas fəaliyyət planı oldu. Təbii ki, bu təxirəsalınmaz vəzifə kimi ona görə qəbul edildi ki, ilk növbədə Qərb ölkələri və ABŞ-la keçmiş İttifaq Respublikaları və Rusiya ilə, müsəlman dünyası və İranla, Cənubi Asiya dövlətləri və başqa ölkələrlə əlaqələrin yeni istiqaməti, aparıcı strategiyası müəyyənləşdirməli, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, zərgər dəqiqiliyi ilə qurulmuş sistemi yaradılmalı idi. Qeyd edildiyi kimi Pakistan həm islam dünyası, həm də Cənubi Asiya dövlətləri içərisində xüsusi strateji əhəmiyyətə malik bir mövqeyə və nüfuza malik olduğundan, o cümlədən Qərb dövlətləri və ABŞ-la yaxın əlaqələrdə olduğundan, onunla xüsusi diplomatik əlaqələr yaratmaq zərurəti əsasən 1993-cü ilin ikinci yarısından daha dərindən dərk edilməyə başlandıqdan sonra Azərbaycanda bu məsələ xarici siyasətin aparıcı bir istiqaməti kimi gündəliyə çıxarıldı.

Digər tərəfdən, dünyada elə bir nüfuzlu beynəlxalq təşkilat yoxdur ki, Pakistan orada təmsil olunmasın və xüsusi strateji mövqeyinə görə həmin təşkilatlarda qəbul olunan qərarlara öz təsirini göstərə bilməsin. Sözsüz ki, yenicə müstəqillik qazanmış Azər-

baycan üçün hər hansı bir beynəlxalq təşkilatlarda təkcə Türkiyə tərəfindən deyil başqa dövlətlər tərəfindən də dəstəklənməyin əhəmiyyəti diqqətdən kənarda qala bilməzdi. Odur ki, 1993-cü ilin noyabrından başlayaraq Pakistanla münasibətlərə Azərbaycan diplomatiyasının fəaliyyətində xüsusi yer ayrıldı.

Məhz həmin istiqamətin götürülməsi sayəsində 1994-cü ildən başlayaraq məqsədyönlü xarici siyasət nətijəsində Azərbaycan-Pakistan ikitərəfli münasibətləri getdikcə yüksəlməyə başladı. Bunu ölkə rəhbərliyinin, dövlət səviyyəsində təşkil olunan nümayəndə heyətlərinin beynəlxalq forumların toplantılarında iştirak edərkən Pakistan rəhbərliyi ilə apardığı müvəffəqiyyətli danışıqlar, işgüzar səfərlər və başqa tədbirlər bir daha sübut edir. Ardıcıl davam edən sonrakı məqsədyönlü diplomatik addımlar - 1994-cü ilin yanvarında pakistanın xarici işlər naziri Əhməd Əli cənablarının respublikamıza, 1995-ci ilin martında isə Azərbaycan nümayəndə heyətinin İslamabada rəsmi səfərləri iki ölkə arasındakı münasibətləri daha da yaxşılaşdırmağa müvafiq şərait yaratdı. Daha sonra Azərbaycan hökumətinin rəsmi dəvəti ilə Pakistanın sabiq prezidenti Əhməd xan Leqari cənablarının 1995-ci ilin oktyabrında Azərbaycana ilk səfəri göstərdi ki, iki ölkə arasındakı münasibətlər artıq rəsmi diplomatik əlaqələr çərçivəsinə sığmır və dostluq, müttəfiqlik üçün real zəmin yaranmışdır.

Beynəlxalq münasibətlər səviyyəsində qurulan Azərbaycan-Pakistan əlaqələrinin təməl daşı üzərində ucalan ümumbəşəri humanizm ideyalarına əsaslanan əlaqələrimiz mərhələ-mərhələ inkişaf etdirilir və keçirilən tədbirlərin böyüklüyündən kiçikliyindən asılı olmayaraq hökumət rəhbərləri bu işləri yüksək qiymətləndirərək diqqətdən kənarda saxlamır. Bunu 1996-cı ilin martın 23-də Bakıda Pakistan səfirliyinin Azərbaycan tarixi muzyeinin böyük salonunda keçirdiyi Pakistan İslam Respublikasının milli günü bayramında [1;1] Azərbaycanın dövlət rəsmilərinin iştirakı bir daha sübut edir. Dostluq və səmimilik şəraitində keçən ziyafətdə Pakistanın ölkəmizdəki səfiri Pərviz Aləm Xanzadə dövlətimizin başçısını və qonaqları salamlayaraq dedi ki, bu gün Pakistan İslam Respublikasının milli gününü qeyd edirik və mən demək istəyirəm ki, ölkəmizin müstəqilliyinin əldə olunmasında, suveren dövlətimizin yaranmasında Pakistanın banisi Qaydi Əziz Məhəmməd Əli Cinnahın həlledici və əvəzsiz rolu olmuşdur. Məhz onun bu ideyanı əzmlə müdafiə eməsi 1947-ci il avqustun 14-də Pakistanın yaranmasına səbəb oldu [1;1].

Daha sonra diplomat həmin mərasimdə qeyd etmişdir ki, «BMT nizamnaməsini əsas tutan Pakistan yeni müstəqillik qazanan ölkələrlə, xüsusilə Azərbaycanla dostluq əlaqələrini inkişaf etdirmək üçün səylər göstərir. Həqiqətən də 1995-ji ildə Pakistan prezidenti Əhməd Xan Leqarinin Azərbaycana səfər etməsi Pakistan hökuməti və xalqının Azərbayjanla daha sıx əlaqələr arzusunu əks etdirir» [1;2]. Pakistan İslam Respublikasının milli bayramı münasibətilə diplomatik nümayəndələri və Pakistan xalqını təbrik edən dövlətimizin başçısı həmin mərasimdən sonra Ümumdünya İslam Xalq Rəhbərliyi idarə heyətinin Bakıda keçirilən növbəti toplantısının iştirakçıları – «Pakistan parlamentinin üzvü Fəzlulrəhman Müfti Mahmud, Pakistan Üləmalar Cəmiyyətinin rəhbəri Əhməd Şah Nurani və xarici dövlətlərin səfirləri ilə də görüşüb ölkələrimiz üçün əhəmiyyətli olan məsələlərlə bağlı işgüzar danışıqlar aparmışdır» [1;2].

Bir daha qeyd etmək lazımdır ki, dövlətlərarası beynəlxalq münasibətlərin səmərəli inkişafının məntiqi nəticəsi kimi Azərbaycan - Pakistan əlaqələrinin daha uğurlu tərəqqisinə nail olmaq üçün Azərbaycan dövləti bunları hökumət səviyyəsində bir daha təsdiqlədi. Yəni Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əməkdaşlıq haqqında müqavilə dövlət başçısı tərəfindən rəsmi qaydada təsdiqləndi. Belə bir addımın atılması isə təbiiolaraq iki ölkə arasında yaradılan beynəlxalq münasibətlərin hüquqi bazasının yaradılması zərurətindən irəli gəlirdi. Həmin qanunun məzmunu aşağıdakı kimi təsbit olunurdu:

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əməkdaşlıq haqqında müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu.

Azərbaycan Respublikasının milli məclisi qərara alır:

1. Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əməkdaşlıq haqqında 1995-ci il oktyabrın 9-da Bakı şəhərində imzalanmış müqavilə təsdiq edilsin.

2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Bakı şəhəri, 12 mart 1996-cı il [3].

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasındakı əməkdaşlıq haqqındakı müqavilənin hüquqi təminatını əks etdirən beynəlxalq norma və tələblər mətndə daha aydın əksini tapmışdır. Müqavilədə yazılır: «Razılığa gələn Azərbaycan və Pakistan ölkələri, iki dövlət arasında siyasi, iqtisadi, ticarət, kənd təsərrüfatı, mədəniyyət, informasiya, turizm, idman və digər sahələrdə münasibətləri (təbii olaraq bu problemlərin həlli ipək yolu kontekstində də nəzərdə tutulur-H.H.) BMT Nizamnaməsi prinsiplərinə, dövlətlərarasında dostluq münasibətləri və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri barədə Bəyannaməyə və qarşılıqlı inam, faydalı əməkdaşlığa dair ümumi qəbul olunmuş normalara uyğun inkişaf etdiriləcəklərinin qanuni əksinin təsdiqi verilən, 11 maddədən ibarət olan bu müqavilə bilavasitə humanist qaydalara əsaslanmışdır. Eyni zamanda həmin qanunda Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası, əməkdaşlığı genişləndirməyə və müstəqilliyə hörmət, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə, aralarındakı mövcud olan dostluq münasibətlərini möhkəmlətməyə səy göstərərək, BMT Nizamnaməsində təsbit edilən məqsəd və prinsiplərə də öz sadiqliyini təsdiq edərək iki xalq arasında çoxdan formalaşan tarix, mədəniyyət və adət-ənənə yaxınlığının hərtərəfli əlaqələrin genişlənməsi üçün layiqli təməl yaradılacağına qəti inam bir daha təsdiqlənir» [2].

Elə həmin tarixdə dövlət əhəmiyyətli ikinci mühüm sənəd, «Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu da imzalanmışdır» [3]. Doqquz maddədəni ibarət həmin qanunda hər iki dövlət öz aralarında daha sıx iqtisadi əməkdaşlığa, xüsusi halda bir tərəfin investorlarının digər tərəfin ərazisinə qoyduğu investisiyaya münasibətdə yardım etmək arzusu ilə, bu investisiyaların tənzimlənməsi ilə bağlı rejim haqqında razılaşmanın investisiya və texnologiya axınına, tərəflərin iqtisadi inkişafına şərait yaradajağını etiraf edərək, sadalananlardan maksimum istifadə üçün dayanıqlı əsas yaradılması ilə bağlı investisiyalarla əlaqədar ədalətli və bərabər rejimin arzu edilən hal olması ilə razılaşdıqları bildirilir. Əlbəttə, iki ölkə arasında münasibətlərin, sosial-iqtisadi, elmi-mədəni və digər əlaqələrin hökumət səviyyəsində dövlətin qanunları ilə təsdiqlənməsi ən etibarlı qarant sayılır.

Pakistan İslam Respublikasının rəsmi dəvəti ilə Azərbay]an nümayəndə heyətinin başda ölkə prezidenti milli lider Heyədər Əliyev olmaqla 1996-cı il aprelin 9-da Pakistana səfərə getməsi ölkələrimiz arasında əvvəllər qurulmuş əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə təkan verdi. İkitərəfli danışıqlar zamanı «Pakistan rəhbərliyi bildirmişdir ki, biz Kəşmir problemi barədə Azərbaycanın açıq mövqeyini və Ermənistanın Azərbaycana təcavüzünün Pakistan tərəfindən daim pislənməsini xüsusi vurğulamaq istəyirik və eyni zamanda bildirmək istəyirik ki, qonşu dövlətlərlə slüh şəraitində yaşayaraq ölkələrimizin və xalqlarımızın əlaqələrinin daha da möhkəmlənməsini hamıya arzulayırıq» [2].

Beləliklə də İslamabada dövlət səviyyəsində ilk rəsmi səfər bəhs olunan diplomatik münasibətlərin iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin əsasını bir qədər də möhkəmləndirdi. Aparılan ikitərəfli danışıqlar, imzalanan sənədlərdən irəli gələn öhdəliklər həqiqi dostluq və müttəfiqlik münasibətlərindən ürəklə danışmağa əsas verir. Hesab

edirik ki, bucür ikitərəfli xoş məram dövlətlərarası beynəlxalq munasibətlərin qurulmasında vacib amillərdən sayılmalıdır.

Cəsarətlə bəyan etmək olar ki, 1996-cı ilin aprelindən Azərbaycan-Pakistan münasibətlərinin yeni mərhələsi başlanır ki, bu da Qafqazda Pakistan, Cənubi Asiyada və beynəlxalq aləmdə Azərbaycanın mənafelərinin gələcəkdə tam dəstəklənəjəyinə əsas verir. Beləliklə, Cənubi Asiyanın və bütövlükdə dünyanın ən böyük dövlətlərindən biri olan Pakistan İslam Respublikası ilə belə möhkəm dostluq və müttəfiqlik münasibətləri yaratmaqla beynəlxalq aləmdə əsasən Türkiyənin dəstəyini alan Azərbaycan bundan sonra həm də Pakistan kimi güclü bir dövlətin, həm də onun nüfuz və təsir dairəsində olan ölkələrin dəstəyini almaq sahəsində böyük diplomatik nailiyyət əldə etmişdir. Hesab edirik ki, bu amil onu deməyə əsas verir ki, artıq Azərbaycan Pakistan kimi nüfuz sahibi olan bir dövlətin ümumilikdə siyasi, hərbi, iqtisadi təsr dairəsində olan dünya dövlətlərinində dəstəyini almağa nail olmuşdur. Tədqiqatçı L.A. Kaşiyevanın təbirincə desək «Azərbaycanın maliyyə biznesinin inkişafında ipək yolunun rolu» [4;365] əvəzsizdir. Daha sonra o, TRASEKA dəhlizinin dövlətlərarası beynəlxalq münasibətlərin əsas komponentlərindən olan iqtisadi əlaqələrin inkişafına, formalaşmasına nə qədər əlverişli şərait yaratmasını real rəqəmlərlə müqayisəli təhlillərl apararaq sübuta yetirir» [4;365-369].

İki ölkə arasında münasibətlərin mühüm əhəmiyyəti imzalanmış sənədlərin əsasında nəzərdə tutulan iqtisadi əməkdaşlıqda da aşkar şəkildə özünü büruzə verir. Pakistan inkişaf etmiş kənd təsərrüfatı ölkəsidir və təbii ki, yeni iqtisadi münasibətlərin formalaşmaqda olduğu Azərbaycan aqrar sahədə özünəməxsus müvəffəqiyyətlər qazanmış Pakistanın təcrübəsindən istifadə etməklə həm respublikanın kənd təsərrüfatı böhranından çıxarılması və ərzaq bolluğu yaradılmasına, kənd təsərrüfatında səmərəli və intensiv inkişafın təmin edilməsinə hərtərəfli zəmin hazırlaya bilər. Reallıq bunları sübut edir ki, hər şeydən əvvəl Pakistanın işgüzar dairələri ilə bağlanmış müqavilələr əsasında qoyulan investisiyalar Azərbaycanda yeni kənd təsərrüfatı və emal sənayesi obyektlərinin tikintisinə jəlb edilir, respublikanın aqrar həyatına əlverişli sərmayələr qoyulması və on milyon dollarlıq ilkin kredit verilməsini təmin edən dost ölkə bundan başqa, Azərbaycan kənd təsərrüfatı və emal sənayesi məhsullarının əlverişli satışını təşkil etmək məqsədilə Pakistan beynəlxalq sərgilərdə respublikamızın təmsil olunmasını təmin etməyi də öz üzərinə götürmüşdür.

Bağlanmış müqavilələrdə nəzərdə tutulan iki ölkənin tijarət əlaqələrinin genişlənməsi, Pakistanın Avropa ilə beynəlxalq iqtisadi tijarət əlaqələrinin Azərbayjan ərazisi vasitəsilə aparılması, neft, qaz, rabitə sahəsində əməkdaşlıq, maliyyə və vergi siyasəti ilə bağlı birgə tədbirlərin hazırlanması və həyata keçirilməsi sahəsində əldə olunmuş razılıqlar hər iki müstəqil dövlətin iqtisadi maraqlarının tam uzlaşdığını və perspektiv imkanlarını nümayiş etdirir. Bu mənada Pakistan İslam Respublikasının TRASEKA-ya üzv olmağa can atmasının, cəhd göstərməsinin və bu problemin müsbət həllində Azərbaycana arxalanması başa düşüləndir. Çünki, sadalanan beynəlxalq iqtisadi əməkdaşlığı reallaşdırmağın ən səmərəli və sivil yolu bu3 cür beynəlxalq layihələr vastəsi ilə həyata keçirilərsə daha faydalı olar. Araşdırıcı A. Fuadın qeyd etdiyi kimi: «TRASEKA Şimal – Cənub dəhlizindən daha önəmlidir. Bu cür nəqliyyat proyekti regionda enerji dəhlizi kimi prioritetə malik ola bilər» [7;14].

Əməkdaşlığın iqtisadi sahəsinin mühüm qollarından biri tibbi ləvazimat və farmaseptika bölməsində nəzərdə tutulan əlaqələr sayıla bilər. Bu sahədə böyük müvəffəqiyyətlər qazanmış Pakistan dövləti Azərbaycana hər cür yardım göstərməyə və bu istiqamətdə respublikamızda əməli iş görməyi də bir növ nümayiş etdirdi.

Ölkələrimiz arasında münasibətlərin mühüm və respublikamız üçün həyati əhəmiyyət kəsb edən sahələrdən biri də hərbi əməkdaşlıq sahəsində nəzərdə tutulan tədbirlər ola

bilər. Əlbəttə ki, bu T.A. Şakelinanın «Yüksəliş strategiyası, yaxud müharibə strategiyası. ABŞ - Kanada» [7;3-14] adlı məqaləsində nəzərdə tutulan əməkdaşlıq kimi deyil, söhbət beynəlxalq münasibətlərin hüquqi normaları əsasındakı əməkdaşlıqdan gedə bilər. Etiraf etməliyik ki, Asiya qitəsinin nüfuzlu və böyük dövlətlərindən sayılan Pakistan əlli ildən artıq müstəqil dövlət quruculuğu tarixində özünün qüdrətli, dünya ölkələrinin həsəd apardığı nizam-intizamlı və yüksək döyüş qabiliyyəti olan ordusunu yaratmışdır. Pakistan dövlətinin ordusu nəinki təkcə bu ölkənin təhlükəsizliyinin və müstəqil dövlətçiliyinin qarantı hesab olunur, həmçinin Asiya qitəsində və bütövlükdə beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli rola malikdir. Təbii olaraq belə bir fikir də söyləmək olar ki, müstəqil dövlət quruculuğunun həllediji mərhələsini yaşayan Azərbaycan üçün Pakistan ordusu və bu ölkənin ordu quruculuğu təcrübəsi həm nümunə ola bilər, həm də Qafqazda sülhün və əminamanlığın bərqərar olunmasında beynəlxalq sülhməramlı qüvvələr tərkibində mühüm rol oynaya bilər. Müstəqil Azərbaycan dövlətinə və xalqımıza olan ehtiram və məhəbbətin nətijəsi kimi rəsmi olaraq İslamabad hər iki sahədə respublikamıza yardım etməyə hazır olduğunu hələ neçə illər bundan əvvəl bəyan etmişdir. Bu mənada hərbi quruculuq sahəsində Pakistanın ölkəmizə yardım üçün zəmanət verməsi, Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi məqsədilə Qafqaz regionuna öz sülhməramlı qüvvələrini göndərməyə hazır olduğunu bəyan etməsini müstəqil dövlət diplomatiyamızın qısa tarixinin uğuru saymaq olar.

Humanitar əlaqələrin yaradılmasına aid imzalanmış sənədlər də Azərbaycan-Pakistan münasibətlərində mühüm amillərdən biri hesab oluna bilər. İlk dövrlərdən başlayaraq danışıqlarda tarixi, mədəni və dini yaxınlıq ənənələri olan Azərbaycan və Pakistan xalqlarının humanitar əlaqələrini yaratmaq və inkişaf etdirmək hər iki dövlətin mənafeyinə uyğun hesab edilmiş, nətijədə Pakistan dövləti öz torpaqlarını müvəqqəti tərk etmiş qaçqın və köçkünlərə bir milyon dollar pul və digər humanitar yardım ayırmışdır.

Belə düşünmək bəlkə də səhv olardı ki, Azərbaycanla-Pakistan arasındakı humanitar əlaqələrin əhəmiyyəti təkjə iki ölkə arasında elm, təhsil, mədəniyyət, idman, turizm və səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi ilə tamamlanmışdır. İkitərəfli danışıqların müxtəlif mərhələlərində Azərbaycanda və onun ətrafında baş verən hadisələr haqqında həqiqətin beynəlxalq ictmaiyyətə çatdırılması, Azərbaycan xalqının tarixi-mədəni nailiyyətlərinin geniş təbliği və respublikamız haqqında beynəlxalq aləmdə yaxşı təəssürat formalaşdırılması ilə bağlı Pakistan televiziya və mətbuat orqanlarının imkanlarından istifadə edilməsi haqqında razılıq əldə edilməsi və Azərbayjan televiziyasının xüsusi proqramlarının Pakistana və ətraf dövlətlərə yayılmasının nə demək olmasının zənnimizjə şərhə ehtiyacı yoxdur. Hesab edirik ki, belə bir ikitərəfli razılaşma informasiya blokadasının yarılmasında, həqiqətlərin dyzgün şəkildə dünyaya yayımlanmasında mühüm strateji mahiyyət daşıyır. 1988-ci ildə ermənilərin antiazərbaycan təbliğatının respublikamızın beynəlxalq nüfuzuna vurduğu ağır zərbəni nəzərə alsaq, Pakistanın ingilisdilli kütləvi informasiya vasitələrinin xalqımıza göstərəcəyi bu xidmət ölçüyəgəlməz dərəcədə əhəmiyyət kəsb edir.

Azərbaycan-Pakistan münasibətlərindən danışarkən belə bir rəyə gəlmək olar ki, danışıqlarda siyasi, iqtisadi, hərbi və humanitar məsələlərlə bağlı regional və beynəlxalq münasibətlərdə iki ölkənin maraqlarını uzlaşdırmağa nail olunmuş və bu əsasda dostluq-müttəfiqlik münasibətlərinin əsası etibarlı zəminlər üzərində qoyulmuşdur ki, bu da Azərbaycanın dəstəyi ilə Pakistanın TRASEKA – ya üzv seçilməsinə real imkan yaradacaqdır.

İstifadə olunmuş ədəbiyyat

1. «Azərbaycan» qəzeti, 25.03.96.
2. «Azərbaycan» qəzeti, 10.04.96.
3. «Respublika» qəzeti, 13.03.96.
4. Кашийева Л.А. Роль великого шелкового пути в развитии финансового бизнеса в Азербайджане //Изв. НАН Азербайджана. Баку, 2006, № 1, с.365-369.
5. «Туризм и Великий Шелковый путь» - 2004. Матер. Шестая международная выставка, Тбилиси, 2004. http/www/ centr Acion
6. «Тень Шелкового пути». http: //sb/ by/
7. Фуад А. ТРАСЕКА предпочтительнее, чем «Север-Юг». Транспортные проекты в регионе могут оказаться приоритетнее энергетических //Зеркало, № 90, 20 мая 2006, с.14.
8. Филиппов А.Я. «Империя» в современной политической коммуникации. Куда идет Россия. Альтернативы общественного развития. М., 1995, с.458.
9. Форте М. Глобализация и мир-Системный анализ. К новым парадигмам геоисторической социальной антропологии //Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература. Сер.2. Социология, 1999, № 1, с.7-15.
10. Шакелина Т.А. Стратегия прогресса или стратегия войны США – Канада. М., Наука, № 1, 2006, с.3-14.

Габил ГАМИДОВ

ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА ЯВЛЯЮЩЕГОСЯ ЧЛЕНОМ ТРАСЕКА С ПАКИСТАНОМ

Резюме

В статье к исследованию привлечено отношения между Азербайджаном, после обретения независимости стал членом ТРАСЕКА и Пакистаном. Автор приходит к выводу, что построение, опирающихся на международно-правовые нормы отношений с Пакистаном, который считается одним из влиятельных государств мира (экономически, политически, геостратегически) может быть полезным для Азербайджана затем отмечается особое значение подписания офицсиальных документов и контрактов между странами во время взаимных визитов глав государств. В статье, в которой проясняются Азербайджано-Пакистанское отношения в различных контекстах, к исследованию привлечены также политические, экономические, транспортно-коммуникационные, научно-культурные и пр. стратегические вопросы Автор приходит к выводу, что в возникновении Азербайджано-Пакистанских отношенй одним из важных факторов является курс на развитие нашей страны, опирающийся на общемировую практику.

Habil HAMIDOV

RELATIONS OF AZERIBAIYAN AS A MEMBER OF TRACECA WITH PAKISTAN

Summary

In the article a study is made of Azerbaijan – Pakistani relations after gaining independence by Azerbaijan and its becoming TRACECA member. Autor draws the conclusion that establishing relations on the basis of the international juridical norms with Pakistan that is considered as one of the influential states of the world (in terms of economics, policy, geostrategy)might be useful for Azerbaijan.

Then, a particular importance of signing the official documents and contracts between the contries during recirocal visits of state heads is underlined. In the article where Azerbaijan – Pakistan relations are being cleared up in the different contexts as well political economic transport – communicative scientific and cultural and oth. strategical issues are drawn to study. Author comes to the conclusion that in the beginnings of Azerbaijan - Pakistan relations the course for the development of our country relying on the general world practice is one of the major factors.

Ramilə DADAŞOVA
AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsinin elmi işçisi, t.e.n.

BEYNƏLXALQ SÜLH VƏ TƏHLÜKƏSİZLİYİN MÜDAFİƏSİNDƏ BMT TŞ-NIN ROLU*

Birləşmiş Millətlər Təşkilatı müxtəlif məsələlərə dair dünya dövlətləri nümayəndələrinin fikir mübadiləsi apardığı, əməkdaşlığın inkişafı, siyasi, iqtisadi, sosial, humanitar xarakterli beynəlxalq problemlər barədə tövsiyələr verilən, qətnamələr qəbul edilən beynəlxalq bir forumdur. Beynəlxalq münasibətlər sistemində beynəlxalq sülh və təhlükəsizliyi dəstəkləyən BMT-nin fəaliyyəti onun qəbul etdiyi Nizamnaməyə əsasən müəyyənləşdirilir və beynəlxalq hüquq prinsiplərinin tətbiqinə əsaslanır. Bu beynəlxalq hüquq prinsipləri dövlətlərin suveren bərabərliyi, beynəlxalq mübahisələrin sülh yolu ilə həll edilməsi, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi, hər hansı bir dövlətin ərazi bütövlüyünü və siyasi müstəqilliyini hədələməkdən çəkinmək, bütün üzv dövlətlərin BMT-nin istənilən tədbirinə yardım etməsi, əleyhinə preventiv və məcburiyyət tədbiri görülən istənilən dövlətə qarşı yardım etməkdən çəkinmək, Təşkilata üzv olmayan dövlətlərin də beynəlxalq sülh və təhlükəsizliyi qoruması üçün bu prinsiplərə uyğun hərəkət etməsi, hər hansı bir dövlətin daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə edilməməsi, çoxtərəfli əməkdaşlıq prinsipləridir. Beynəlxalq sülh və təhlükəsizliyi qorumaq, sülhü təhlükədə qoyan vasitələri aradan qaldırmaq, onları danışıqlar yolu ilə, ədalətlilik prinsipinə müvafiq beynəlxalq hüquq əsasında həll etmək BMT Nizamnaməsinin əsasını təşkil edir. BMT-nin sülh və təhlükəsizliyi müdafiə etməkdə imkanlarını düzgün başa düşmək üçün Nizamnamənin dövlətlərarası münasibətlərin möhkəmlənməsində, inkişafında rolunu, əhəmiyətini izah etmək vacibdir. BMT Nizamnaməsi bir tərəfdən konstitusiya sənədidirsə, digər tərəfdən də unikal xarakterlidir. BMT-də hazırda 192 dövlət konstitusiya əsasında, beynəlxalq hüquq prinsiplərinə müvafiq çoxtərəfli əməkdaşlıq edir.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi 1945-ci il iyunun 26-da San-Fransiskoda Beynəlxalq Təşkilatın yaradılması üzrə Birləşmiş Millətlər Konfransının yekun iclasında imzalanmış, 1945-ci il oktyabrın 24-də qüvvəyə minmişdir. BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. BMT Nizamnaməsinə müvafiq olaraq zəruri köməkçi orqanlar yaradıla bilər.

Baş Məclis BMT-nin bütün üzvlərindən ibarətdir, başqa sözlə, BMT-nin bütün üzvlərinin nümayəndəli orqanıdır. Beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində Baş Məclisin rolu mühümdür, o, Təhlükəsizlik Şurasının diqqətini sülh və təhlükəsizliyin pozulmasına qorxu yarada bilən situasiyalara yönəldə bilər. Bununla belə, beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində əsas məsuliyyət TŞ-nın üzərinə düşür. Təhlükəsizlik Şurası 15 üzvdən ibarətdir. ABŞ, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Rusiya, Fransa, Çin TŞ-nın daimi üzvləridir. TŞ-ının digər 10 müvəqqəti üzvünü Baş Məclis BMT üzvləri arasından seçir. Bu seçki coğrafi bölgüyə, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılmasına verilən maliyəyə əsaslanır. Müvəqqəti üzvlər iki il müddətinə seçilir. TŞ-ının üzvlüyündən çıxan dövlətin dərhal yenidən seçilmək hüququ yoxdur.

---

* Məqalə redaksiya heyətinin üzvü, tarix elmləri doktoru, professor H.Əlibəyli tərəfindən çapa məsləhət bilinib.

BMT-nin üzvləri Nizamnamənin 25-ci maddəsinə müvafiq olaraq TŞ-nın qərarlarına tabe olmalı, onları yerinə yetirməlidir. TŞ-ının daimi üzvləri dünyanın aparıcı, BMT-nin fəaliyyətinə daha çox maliyyə qoyan, hərbi qüvvə verə bilən dövlətləridir. BMT yaradılanda ABŞ, Böyük Britaniya, Fransa böyük müstəmləkəçi dövlət, SSRİ Almaniya kimi dövləti məğlub edən nəhəng dövlətlər idi. Aparıcı dövlətlərin əlamətlərinin əhalinin sayı, hərbi potensialı, iqtisadi, texniki inkişafı ilə müəyyənləşdirildiyini nəzərə alsaq, Çin də beynəlxalq münasibətlər sisteminə güclü təsir edən dövlət idi.

TŞ-nın daimi üzvləri ilə yanaşı, müvəqqəti üzvlər də müzakirələrdə mühüm rol oynayır. Coğrafi bölgüyə görə beş üzv Asiya və Afrikadan, bir üzv Şərqi Avropadan, iki üzv Latın Amerikasından, iki üzv Qərbi Avropa və digər dövlətlərdən seçilir.

BMT-nin yaradıcıları SSRİ, ABŞ, Böyük Britaniya, sonralar Fransa, Çin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsini onun əsas orqanı olan Təhlükəsizlik Şurasına həvalə etmişlər. TŞ Nizamnaməyə uyğun olaraq hüquqi aktlar qəbul edir. Təcavüzkar dövlətin cəzalandırılması TŞ-ının beş daimi üzvünün əlindədir. TŞ-ının fəaliyyəti müəyyən dərəcədə onların operativ işindən asılıdır. TŞ daimi üzvləri «veto» hüququndan istifadə edərək özlərinin şəxsi maraqlarına görə digər dövlətlərin maraqlarına zərər vurmamalıdırlar. Beynəlxalq sülh və təhlükəsizliyi müdafiə edən BMT-nin fəaliyyətinin effektivliyi əsasən TŞ-dan asılıdır. TŞ-nın daimi üzvlərinin veto qoymaq hüququ var, yalnız onlar qlobal təhlükəsizliyi qoruya bilərlər. Bununla belə, veto qoymaq hüququ güclü dövlətlərin öz maraqlarını həyata keçirməsinə imkan verir. BMT-nin üzv dövlətlərinin nümayəndəli orqanı kimi fəaliyyət göstərən TŞ tövsiyə verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyi bərpa etmək üçün BMT adından embarqo, sanksiyalar, silahlı qüvvə tətbiq edilməsi barədə hüquqi əsaslı qərarlar qəbul edə bilər.[1] Bu qərarlar bütün üzvlər tərəfindən öhdəliyə götürülən Nizamnaməyə uyğun qəbul edilir, bütün üzvlər onu yerinə yetirməyə borcludurlar. TŞ özü öz qərarını dəyişə bilər. Əgər birinci dəfə qərar qəbul edəndə ona məlum olmayan hallar ortaya çıxarsa, TŞ həmin məsələyə yenidən baxar və öz ilkin qətnaməsini dəyişə bilər.

TŞ-ının qətnamələri hüquqi xarakterli qərarlardır və beynəlxalq hüquq normalarına uyğun hər bir üzv dövlət bu qətnamələrə əməl etməlidir. Beynəlxalq hüquqi nizamlama vasitəsi kimi sanksiyaların, qətnamələrin beynəlxalq təşkilatın təhlükəsizliyi təmin etməsində rolu böyükdür. Baş Məclisin, Təhlükəslik Şurasının Nizamnaməyə müvafiq qəbul etdiyi qətnamələr hüquq pozuntularına qarşı ciddi tədbirlərdir. Hərbi sanksiyaları isə yalnız BMT qəbul edə bilər.[2] BMT-yə daxil olan hər bir dövlət TŞ-ının qərarlarını danışıqsız yerinə yetirəcəyi barədə öhdəlik götürür. Bu vəzifəni yerinə yetirməmək o deməkdir ki, həmin dövlət BMT kimi beynəlxalq sülh və təhlükəsizliyi dəstəkləyən universal təşkilatın əleyhinədir. Beləliklə, beynəlxalq hüquq çərçivəsində TŞ-ının qəbul etdiyi qətnamələri yerinə yetirməyən dövlət bəşəriyyətə qarşı çıxır. TŞ BMT-nin digər əsas orqanlarından yalnız qətnamələr qəbul etməklə deyil, həm də geniş funksiyası, səlahiyyəti ilə fərqlənir. Bu barədə amerikalı hüquqşünas Q.Kelzen yazır ki, «TŞ-nın səlahiyyəti bütün BMT-nin səlahiyyətləri ilə üst-üstə düşür»[3]. TŞ-nın səlahiyyətləri BMT Nizamnaməsinin 24-cü maddəsinin 1-ci bəndində ifadə olunmuşdur: «BMT-nin cəld və səmərəli hərəktlərini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyəti TŞ-nın üzərinə qoyur və məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən TŞ-nın onların adından çıxış etməsinə razılaşırlar». Həmin maddənin 2-ci bəndində isə göstərilir ki, TŞ BMT-nin məqsəd və prinsiplərinə müvafiq hərəkət edir. Bu vəzifələri icra etmək üçün TŞ-na verilən konkret səlahiyyətlər VI, VII, VIII və XII fəsillərdə öz əksini tapmışdır.[4]

TŞ bütün mübahisələrə deyil, ancaq beynəlxalq sülh və təhlükəsizliyi hədələyən mübahisələrə baxır. Onun istənilən dövlətin daxili səlahiyyətlərinə qarışmaq hüququ

yoxdur. Nizamnamənin 1-ci maddəsinin 7-ci bəndində deyilir ki, heç bir müddəa BMT-yə hər hansı dövlətin, əsasən də, daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etmək səlahiyyəti vermir. BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulur ki, BMT-nin üzv dövlətləri fərdi, yaxud kollektiv özünümüdafiə üçün hərbi qüvvə tətbiq edə bilər: «Əgər BMT-nin üzvünə qarşı silahlı basqın baş verərsə, TŞ tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri tədbirlər görənə qədər fərdi, yaxud kollektiv özünümüdafiə hüququ var.» Beynəlxalq təşkilatlarda (müqavilələrdə) heç kəs dövləti bu və ya digər beynəlxalq təşkilata daxil olmaq, yaxud da müqavilələr bağlamağa məcbur edə bilməz.[5] Beynəlxalq təşkilat kimi dövlətlərin suverenliyi BMT Nizamnaməsində öz əksini tapmışdır.

TŞ öz məqsədinə nail olmaq vasitələrini seçməkdə azad deyil, müəyyən funksiyalar, səlahiyyətlər daxilində fəaliyyət göstərməlidir. Əgər mübahisələr sülh yolu ilə həll edilmirsə, TŞ müəyyən edir ki, göstərilən mübahisə sülhü təhlükədə qoyur. TŞ BMT üzvləri adından kollektiv fəaliyət haqqında qərar qəbul edə bilər. Onun xüsusi səlahiyyətləri Nizamnamənin VII fəslində sadalanır. 39-cu maddəyə müvafiq TŞ sülhə təcavüz aktının olduğunu müəyyən edir, tövsiyələr verir, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması üçün 41 və 42-ci maddələr müvafiq tədbirlər görülməsi barədə qərar qəbul edir. Əvvəlcə TŞ dinc yolla tədbirlər həyata keçirir. Bu, 41-ci maddədə öz əksini tapmışdır: «TŞ öz qərarlarının həyata keçirilməsi məqsədilə silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan hər hansı tədbirin tətbiq olunması barədə qərar qəbul edə bilər və BMT-nin üzvlərindən bu tədbirlərin tətbiq olunmasını tələb edə bilər. Həmin tədbirlər iqtisadi münasibətlərin və dəmiryol, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsini özündə əks etdirə bilər.»

TŞ BMT-nin kollektiv təhlükəsizlik sisteminin mərkəzi elementidir. 33-cü maddədə bu öz ifadəsini tapmışdır: «Beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcək hər hansı mübahisədə iştirak edən tərəflər, həmin mübahisəni, hər şeydən əvvəl, danışıqlar, tədqiqat, vasitəçilik, barışdırma, arbitraj, məhkəmə vasitəsilə, regional orqanlara və ya sazişlərə müraciət etməklə və yaxud öz seçimi ilə digər dinc vasitələrlə həll etməyə çalışmalıdır.» TŞ zəruri hesab etdikdə, tərəflərdən mübahisəni bu vasitələrlə həll etməyi tələb edir. Deməli, TŞ təhlükəni müəyyən etdikdən sonra kollektiv tədbirlər və tövsiyələr verə bilər. Nizamnamənin 40-cı maddəsində göstərilir ki, «Vəziyyətin pisləşməsinin qarşısını almaq məqsədilə TŞ tövsiyələr verməzdən, yaxud 39-cu maddədə nəzərdə tutulmuş tədbirlər barədə qərar qəbul etməzdən əvvəl, maraqlı tərəflərdən onun zəruri hesab etdiyi müvəqqəti tədbirlərin yerinə yetirilməsini tələb edə bilər. Bu müvəqqəti tədbirlər maraqlı tərəflərin hüquqlarına, mövqelərinə xələl gətirməməlidir.» Bu maddəyə müvafiq TŞ müvəqqəti tədbirlər görə bilər. TŞ-nın hərbi münaqişəni kəsmək, müvəqqəti sülh yaratmaq, ordunu çəkmək, döyüşən tərəflər arasında tərksilah edilən zonanı müəyyənləşdirmək hüququ var. Nizamnaməyə uyğun olaraq TŞ silahlı qüvvə tətbiq etmək, yaxud silahlı qüvvə tətbiq etmədən münaqişəyə təsir edə bilər. 41-ci maddəyə görə TŞ günahkar tərəfə qarşı iqtisadi sanksiya və b. silahlı qüvvədən istifadəsi ilə bağlı olmayan tədbirlər görə bilər. Bu vasitələrdən istifadə etmək qanunauyğundur. Əgər yuxarıda sadalanan tədbirlər kifayət etməzsə, 42-ci maddə tətbiq edilir. Yəni, TŞ hava, dəniz və ya quru qüvvələrinin vasitəsilə beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri olan tədbirlər görə bilər. BMT üzvlərinin hava, dəniz, quru qüvvələrinin nümayişləri, blokadası və digər əməliyyatlar həmin tədbirlərə daxildir. 45-ci maddədə göstərilir ki, BMT-yə təcili hərbi tədbirlər görmək imkanı yaratmaq məqsədilə üzv dövlətlər birgə beynəlxalq məcburi tədbirlər üçün öz milli hərbi-hava qüvvələrinin kontingentlərini dərhal hazırlıq vəziyyətində saxlamalıdırlar. Bu

kontingentlərin hərbi gücü və hazırlıq dərəcəsi, onların birgə hərəkət planları TŞ tərəfindən, Hərbi Qərargah Komitəsinin köməyi ilə, 43-cü maddədə göstərilmiş xüsusi saziş və sazişlərdə nəzərdə tutulan hədlər çərçivəsində müəyyən edilir. 43-cü maddəyə müvafiq olaraq TŞ BMT-yə üzv dövlətlərin təhlükəsizliyini təmin etmək üçün silahlı qüvvə verilməsini tələb edə bilər: «BMT-nin üzvləri beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması məqsədilə TŞ-nın tələbi ilə, xüsusi sazişə uyğun olaraq, TŞ-nın sərəncamına görə zəruri olan silahlı qüvvələr, yardım və ərazidən keçmək hüququ da daxil olmaqla, müvafiq xidmət vasitələri vermək vəzifəsini öhdələrinə götürürlər.» Belə sazişlər BMT üzvləri ilə bağlanmalıdır. 29-cu maddəyə görə TŞ zəruri halda köməkçi orqan yarada bilər. TŞ-nın beynəlxalq təhlükəsizlikdə tətbiq etdiyi metodlardan biri atəşkəs və ona nəzarət etməkdir. Bu məqsədlə TŞ vasitəçilər təyin edir, münaqişənin təhlili ilə məşğul olan komissiya yaradır. Münaqişəli tərəfləri barışdırmaq baş katibə, yaxud onun nümayəndəsinə həvalə edilir.

TŞ-nın daimi üzvlərinin qarşılıqlı məsləhətləri birgə fəaliyyət üçün vacib məsələlərdəndir. 49-cu maddədə göstərilir ki, «BMT üzvləri TŞ-nın qərara aldığı tədbirlərin həyata keçirilməsində bir-birinə qarşılıqlı kömək etmək üçün birləşməlidirlər.»

TŞ-dan başqa digər orqanların, hətta Baş Məclisin də hərbi qüvvə yaratmaq, maliyyələşdirmək, ondan istifadə etmək hüququ yoxdur. Bu nöqteyi-nəzərdən TŞ-nın səlahiyyətləri genişdir və bunu kollektiv təhlüksizikdə səmərəli istiqamətə yönəltmək lazımdır. TŞ-nın effektivliyini artırmaq, sülh əməliyyatlarının keçirilməsini tezləşdirmək üçün Hərbi Ştab Komitəsinin üzərinə böyük vəzifə düşür. Bu barədə 46-cı maddədə deyilir: «Silahlı qüvvələrin tətbiqi planları TŞ tərəfindən Hərbi Qərargah Komitəsinin köməyi ilə tərtib edilir.» 47-ci maddənin 4-cü bəndinə əsasən «Hərbi Qərargah Komitəsi TŞ-nın icazəsi ilə müvafiq regional orqanlarla məsləhətləşdikdən sonra regional subkomitələr yarada bilər.»

Beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizliyi müdafiə etməkdə BMT-nin əsas orqanlarından biri olan Baş Məclis mühüm rol oynayır. Baş Məclis Təhlükəsizlik Şurasından fərqli olaraq, BMT üzvlərinin daha çox nümayəndəli orqanıdır. Baş Məclisin sessiyalarında böyük dövlətlər kimi, kiçik dövlətlər də iştirak edir, beynəlxalq məsələləri həll etməkdə əməkdaşlıq edirlər. BMT-nin əsas məqsədi Nizamnamənin 1-ci maddəsində ifadə olunduğu kimi, beynəlxalq sülh və təhlükəsizliyi dəstəkləmək, təhlükənin qarşısını almaq və ya aradan qaldırmaq, təcavüz aktlarını yox etmək, sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə, beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasıdır. BMT özündə dünya dövlətlərinin əksəriyyətini birləşdirir və yuxarıda sadalanan məqsədlərə nail olmaq üçün çoxtərəfli əməkdaşlıqda əsasən, beynəlxalq hüquq normaları çərçivəsində məsələlərin həllində mərkəz rolunu oynayır. Bu işdə, qeyd etdiyimiz kimi, əsas məsuliyyət TŞ və Baş Məclisin öhdəsinə düşür. Baş Məclis BMT-nin bütün üzvlərindən ibarətdir və istənilən məsələnin müzakirə edilməsində, beynəlxalq əməkdaşlıqda onun rolu böyükdür. Nizamnamənin 10-cu və 11-ci maddələrində göstərilir ki, Baş Məclisin istənilən işləri müzakirə etmək, BMT üzvlərinə və ya TŞ-na, yaxud da onların hər ikisinə tövsiyələr vermək hüququ, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanmasında, o cümlədən tərksilah, silahların tənzimlənməsi məsələlərini nəzərdən keçirmək, tövsiyələr vermək hüququ var. Bununla belə, Nizamnamədə beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində başlıca məsuliyyətin TŞ-nın üzərinə düşdüyü qeyd olunur. Buna görə də TŞ cəld və effektli fəaliyyət göstərməlidir. Nizamnaməyə uyğun olaraq Baş Məclis və Təhlükəsizlik Şurasının birgə fəaliyyəti beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə effektli nəticə verə bilər. Lakin TŞ-nın hüquqları daha çoxdur. Nizamnamənin 12-ci maddəsində qeyd edildiyi kimi, öz funksiyalarını yerinə yetirən zaman əgər TŞ xahiş etmirsə, Baş Məclis həmin mübahisə, yaxud situasiya ilə əlaqədar

heç bir tövsiyə verə bilməz. TŞ ancaq bu məsələlərə baxıb qurtarandan sonra Baş Məclis BMT üzvlərinə məlumat verir. TŞ BMT-nin digər üzvlərinin vəzifə kimi qəbul etməsi vacib olan qətnamələr qəbul edir. Nizamnamənin 25-ci maddəsinə uyğun olaraq BMT üzvləri TŞ-nın qətnamələrinə, qərarlarına tabe olmalı, yerinə yetirməlidirlər. TŞ-nın beynəlxalq təhlükəsizliyi müdafiədə səlahiyyətlərindən biri də 34-cü maddədə əksini tapmışdır. Bu maddəyə müvafiq olaraq, TŞ beynəlxalq münaqişəyə gətirib çıxara bilən istənilən mübahisəni, situasiyanı, həmin hadisənin beynəlxalq sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyini tədqiq etmək hüququ var və o, bu məqsədlə beynəlxalq tədqiqatlar keçirə bilər. Göründüyü kimi, TŞ-nın müəyyən münaqişənin dərinləşməsinin qarşısını almaq imkanları genişdir. O, istənilən təhlükəni müəyyən edə bilər və onun 41-ci və 42-ci maddələrə uyğun olaraq, əvvəlcə iqtisadi sanksiyalar tətbiq etmək, əgər bu nəticə verməzsə, hava, dəniz, quru qüvvələrinin nümayişlərini, blokadasını və digər sülh əməliyyatlarını həyata keçirmək hüququ var. Baş Məclisin isə bu səlahiyyətləri yoxdur. TŞ illik hesabatı Baş Məclisə verir, lakin Baş Məclisin hər hansı qətnamə qəbul etmək, yaxud onu bəyənməmək hüququ yoxdur. Baş Məclis Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri yerinə yetirməlidir. Mübahisələrin sülh yolu ilə həll edilməsi, təşkilatın üzvlərinin hüquqları, BMT-dən çıxarılması zamanı TŞ-nın tövsiyəsi tələb olunur.

ABŞ hüquqşünaslarının irəli sürdüyü «kompensasiya doktrinası»na görə BMT-nin əsas orqanlarından birinin zəifləməsi digər orqanların zəifləməsinə səbəb ola bilər.[6] BMT yaradılandan ABŞ ənənəvi olaraq veto hüququndan öz maraqlarını müdafiə etmək, üçün istifadə etmişdir. SSRİ də veto hüququndan istifadə edərək «arzuedilməz» qətnamələrin qarşısını alırdı. Baş Məclisin XXIII sessiyasında SSRİ-nin xarici işlər naziri A.A. Qromıkonun öz çıxışında, TŞ-ının effektivliyini artırmağın zəruriliyini bildirməsi də təsadüfi deyildi.[7] BMT-nin yaradılmasının 40 illiyi münasibətilə məruzə edən SSRİ-nin xarici işlər naziri E.A.Şevardnadze SSRİ-nin BMT-nin yaradıcılarından biri olduğunu, BMT-ni bəşəri nüfuzlu təşkilat kimi görmək arzusunu, xalqın maraqlarına xidmət edərsə, BMT-nin nüfuzunun artacağını bildirmişdi.[8]

BMT-nin effektivliyini artırmaq üçün 1963-cü il dekabrın 17-də TŞ-nın tərkibi genişləndirilərək 11-dən 15-dək çoxaldıldı. 70-ci illərdə də BMT Nizamnaməsinə yenidən baxmaq, Afrika və Asiya nümayəndələrinin artırılması hesabına TŞ-nın genişləndirilərək 15-dən 21-dək artırılması təklifi irəli sürüldü. Bu zaman SSRİ TŞ-nın genişləndirilməsi əleyhinə çıxmışdı. «Soyuq müharibə» dövründə ABŞ-ın sosializm sisteminə qarşı mübarizəsində, yaxud əksinə, SSRİ-nin öz sistemini saxlamasında və ABŞ-ın maraqlarının qarşısını almaqda, başqa sözlə, dünyada balans yaratmaq üçün veto hüququ lazım idi. İndi isə SSRİ yoxdur, ABŞ hegemon dövlətdir, monopolyarlıqdan qaçmaq, çoxqütblü dünya yaratmaq üçün veto hüququnun ləğv edilməsi labüddür.

TŞ son zamanlar beynəlxalq sülh və təhlükəsizliyi qorumaq üçün çox qətnamələr qəbul etmişdir. Lakin onların əksəriyyəti reallaşmır, ancaq kağız üzərində qalır. TŞ qəbul etdiyi qətnamələri sözdə deyil, işdə həyata keçirməlidir. Ermənistanın Azərbaycana qarşı təcavüzü, onun ərazisini işğal etməsi TŞ-nın 4 qətnaməsində öz əksini tapsa da[9], TŞ praktiki bir iş görməmişdir. BMT sülhməramlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ərazisinə gələrək münaqişəyə son qoya bilər. ABŞ beynəlxalq terrorizmlə mübarizəyə çağırdığı halda, Azərbaycanın ayrılmaz ərazisi olan DQ-da ermənilərin terroruna, müasir dövrdə dünyada ən böyük bəlalardan olan narkotik maddələrin DQ ərazisində istehsalına göz yumur. 1988-ci ildən bəri terrorçu Ermənistanın Azərbaycanda törətdiyi qırğınlar nəticəsində 20000-dən çox azərbaycanlı şəhid oldu, 5000 nəfər əlil oldu, 100000 nəfər yaralandı, 1 milyondan çox insan qasqın, köçkün düşdü, 4861 nəfər girov götürüldü. Onlardan 314-ü qadın, 58-i uşaq, 255-i qocadır. Ermənilər onlarla qeyri-insani rəftar edir, qul kimi işlədir, işgəncələrlə qətlə yetirirlər.[10] Ermənilərin əsassız torpaq iddialarına hələ

də son qoyulmamışdır. Cəbrayıl, Zəngilan, Fizuli və digər rayonların işğalında, minlərlə insanın qətlində iştirak edən, hakimiyyətə qondarma Dağlıq Qarabağ respublikasının Dövlət Müdafiə Komitəsinin sədri kimi gəlmiş R.Köçəryanın prezident olduğu Ermənistan terrorçu dövlətdir.[11] Separatist ruhlu R.Köçəryan dövlət aparatına öz terrorçu həmkarlarını məmnuniyyətlə cəlb edir. 1996-cı ildə «Dro» terror təşkilatında fəaliyyətinə görə həbs edilmiş Vaqan Oqanesyan, Qrant Markaryan Ermənistan prezidenti R.Köçəryanın təşəbbüsü ilə həbsdən azad edildilər. V.Oqanesyan–təhlükəli terrorçu prezidentin müşaviri oldu.[12] Münaqişəni nizama salmaq üçün ilk növbədə münaqişə tərəfi kimi Ermənistanda separatist rejim devrilməlidir.

Birləşmiş Millətlərin Minillik Bəyannaməsinə müvafiq, BMT narkomafiya problemini aradan qaldırmaq sahəsindəki öhdəliklərin icrası üçün gücünü ikiqat artırmağı qarşısına məqsəd qoymuşdur.[13] Qeyd edildiyi kimi, Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edilməsi, Ermənistanın terrorçu dövlət olması, ermənilərin işğal etdiyi DQ-da narkotik maddələrin istehsalı - bu üç fakta əsasən BMT-nin Ermənistandan beynəlxalq hüquq normalarına tabe olmasını tələb etmək hüququ var. Əgər Ermənistan bu tələblərə cavab vermirsə, deməli, o, BMT Nizamnaməsinin əleyhinədir, oradan kənarlaşdırılmalı, tərkisilah edilməlidir. BMT-yə qəbul edilərkən hər bir üzv dövlət TŞ-nın qətnamələrinə əməl etməyi öz öhdəsinə götürür. Ermənistan 14 ildir ki, TŞ-nın qətnamələrini yerinə yetirmir.

TŞ emosiyaların yarandığı «iclasa» çevrilməməlidir. TŞ-da 1963-cü ildə islahatlar zamanı daimi üzvlər saxlanılmaqla, müvəqqəti üzvlərin artırılması BMT-nin effektivliyin artırmadı. Tarixi təcrübə göstərir ki, yeni islahatlarda veto hüququnun ləğv edilməsi labüddür, zəruridir.

İstifadə olunmuş ədəbiyyat

1. Basic facts about the United Nations, New York, Published by United Nations Departement of public information. 2000, p.69.

2. Шибаева Е.А. Право Международных Организаций. Москва, «Международные отношения», 1986, с.119.

3. Федоров В.Н., Ефимов Г.К., ООН и поддержание международного мира, Москва, «Знание», 1969, с.20.

4. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.23-33; 43-48.

5. Bax: 1, s.81.

6. Bax: 1, s.46.

7. Bax: 1, s.53.

8. Федоров В.Н. ООН и проблемы войны и мира, Москва, «Международные отношения», 1988, с.12.

9. Resolution 822 (1993), Resolution 853 (1993), Resolution 874 (1993), Resolution 884 (1993), United Nations, Security Council, original.

10. Qaffarov T. Türklərə qarşı erməni terrorizmi, «Ulduz», Bakı, 2000, s.52.

11. Документы Совета Безопасности ООН, 1993, апрель, май, июнь, с.28.

12. Bax: 10, s.53.

13. Birləşmiş Millətlərin Minillik Bəyannaməsi, Minillik Sammit, Nyu-York, 6-8 sentyabr, 2000, s.4-5.

Рамиля ДАДАШЕВА

РОЛЬ СОВЕТА БЕЗОПАСНОСТИ ООН В ПОДДЕРЖАНИИ МЕЖДУНАРОДНОГО МИРА И БЕЗОПАСНОСТИ

Резюме

В XX веке мир столкнулся с целым рядом угроз, носивших глобальный характер, в силу чего их решение было не под силу одному или нескольким государствам. Автор показывает конституционный и уникальный характер Устава ООН. Организация Объединенных Наций является центром решения проблем, с которыми сталкивается все человечество. В статье исследована роль ООН и особенно роль Совета Безопасности в международной безопасности. Согласно Уставу ООН, Совет Безопасности несет главную ответственность за поддержание международного мира и безопасности. Устав обязывает все государства - членов выполнять решения Совета Безопасности. В заключении были подведены научные результаты на основе Устава ООН, касающиеся данной проблемы.

Ramila DADASHOVA

ROLE OF SECURITY COUNCIL OF UNO IN THE MAINTENANCE OF INTERNATIONAL PEACE AND SECURITY

Summary

There were a lot of conflicts in the world in the XX century and the UNO find consensus solutions to global problems. One of the primary purposes of the United Nations and a central part of its mandate – is the maintenance of international peace and security. The article is dedicated to the research the role Security Council of UNO in the maintenance of international peace and security. The UNO has helped to end numerous conflicts, often through actions of the Security Council – the primary organ for dealing with issues of international peace and security. Under the Charter, Member States are obliged to accept and carry out its decisions. At the conclusion of the article, the general issue related to the researched problem have been set up.

Гяриб АЛЛАЩВЕРДИЙЕВ
Фялсяфя елмляри намизяди, досент
Нахчыван Дювлят Университети

АЗАДЛЫГ ВЯ СОСИАЛ ЯДАЛЯТ*

Азадлыг иля ядалятин гаршылыглы мцнасибятляринин тящлили сосиал фялсяфядя юз щяллини эюзляйян проблемляр сырасында хцсуси йер тутур. Йашадыьымыз ачыг, демократик жямиййятя кечид дюврцндя, онлар цмумбяшяри идеал вя реал фяалиййят принсипи олараг бир-бириля вящдятдя чыхыш едир. Сосиал щяйатын бцтцн сащяляриндя баш верян ясаслы трансформасийа просесляри буна ялверишли шяраит йарадыр.

Ядалят анлайышы сон дяряжя эениш мязмуна маликдир. О, инсан фяалиййятинин бцтцн сащялярини ящатя едир. Бу анлайышда жямиййят иля ону тяшкил едян сосиал гурумлар арасында, сосиал гурумларын юз араларында, бцтювлцкдя жямиййят вя щяр бир шяхс, еляжя дя айры-айры инсанлар арасында мцнасибятляр системи юз яксини тапыр. Щяр бир жямиййятдя инсанларын фяалиййяти, онун нятижяляринин мцбадиляси цсуллары, мадди вя мяняви немятлярин бюлэцсц принсипляри, онун сосиал ядалятлилик дяряжясини мцяййян едян башлыжа мейарлардыр. Онларда щям дя бяшярийййятин инкишафы просесиндя газанылмыш цмуми уьурларын дяйярляр бахымындан гиймятляндирилмяси, щяйата кечирилмяси важиб олан иля арзу олунан щаггында тясяввцрляр ифадя олунур. Бу мянада елми ядябийййатда иряли сцрцлян ашаьыдакы фикир доьрудур. Сосиал ядалят анлайышы инсанлар арасында мцнасибятлярин бцтцн ен кясийини ящатя едир. Бурайа мящсул бюлэцсц, сосиал тяминатлар, тящсил вя мядянийййят мясяляляри вя саир дахилдир. Беляликля, ядалят игтисади, сийаси, щцгуги, милли вя саир мцнасибятлярдя дцзэцнлцйц ифадя едир. (1, с.76).

Азадлыг иля сосиал ядалятин гаршылыглы ялагялилийи щяр шейдян яввял бунда тязащцр едир ки, онларын щяр икиси инсанлыьын али дяйярляри вя бяшярийййятин мадди вя мяняви инкишафынын йюнялдийи идеаллардыр. Лакин азадлыг вя ядалят тякжя идеал дейилдир, щям дя конкрет фярдин, сосиал бирлийин вя бцтювлцкдя жямиййятин реал фяалиййят принсипляри кими чыхыш едир. Сонунжу мягам бу анлайышларын мязмунунда цмуми иля конкрет, сабит иля дяйишкян тяряфлярин цзви сурятдя ялагяляндийини эюстярир. Бу мянада онларын щяр икисинин нормал жямиййятин башлыжа принсипи вя бяшярийййятин сосиал мащийййятини ифадя едян ясас амал олдуьуну сюйлясяк, йанылмарыг. Сосиал ядаляти инсанлар арасындакы мцнасибятлярдя вя марагларда ялагяляндирмянин, разылашманын, таразлы вязийййятин тямин олунмасы кими анлайаркян, онун конкрет мязмунунун мцтляг дейил, нисби характер дашыдыьы вурьуланмалыдыр. Бу, ашаьыдакы сябябляр иля изащ едилир: яввяла, мцасир жямиййятин ялдя олунмуш инкишаф сявийяси, сосиал мцнасибятлярин йеткинлик дяряжяси вя инсанларын малик олдуьу субйектив эюстярижиляри (шцуру, тящсили, дцнйаэюрцшц, дяйярляр орийентасийасы вя саир) мцтляг мянада ядалятин реаллашдырылмасы цчцн кифайят етмир. Бу бахымдан ясл азадлыг кими, ясл ядалят дя инсанлары даим йарадыжылыьа вя тяряггийя сювг едян арзу вя идеал олараг галыр. Диэяр тяряфдян, ядаляти горумаьын башлыжа шярти олан

* Məqalə Naxçıvan Dövlət Universitetinin Fəlsəfə kafedrasının müdiri, f.e.n., dos. N.Rəhimov və Sosial idarəetmə və turizm kafedrasının müdiri, dos. H.Hüseynov tərəfindən çapa məsləhət bilinib.

марагларын (мянафелярин) узлашдырылмасы чох мцряккяб вя чятин проблемдир, чцнки жямиййят инкишаф етдикжя, бурада марагларын мцхтялифлийи вя рянэарянэлийи няинки азалмыр, яксиня, даща да артыр (бу инсан фяалиййятинин вя юзцнямяхсуслугларынын фасилясиз сурятдя эенишлянмяси иля шяртлянир). Щям дя нязярдя тутулмалыдыр ки, мцхтялиф фярдлярин мараглары (хцсусиля дя мадди) жямиййятин цмуми рифащы тяляблляри вя ижтимаи боржун мяняви императивляри иля цст-цстя дцшмяйя билир. Цчцнжц сябяб кими бу эюстярилмялидир ки, жямиййятин мювжуд истещсал вя мяняви потенсиалынын имкан вердийи дяряжядя марагларын узлашдырылмасы мцяййян чятинликлярля мцшайият олунур. Мясялян, бязян еля олур ки, бир фярдин вя йа инсанлар бирлийинин марагларынын реаллашмасына шяраит йарадылмасы вя онларын щяйата кечирилмяси диэяр субйектлярин мцвафиг ниййяти, мягсяди вя мювжуд эюстярижиляри иля уйьунсузлуг тяшкил едир. Гейд олунан вязиййят мцяййян гядяр тябиидир. Бу ону эюстярир ки, жямиййят бярабяр сявиййяли вя стандарт юлчцляря малик олан фярдлярин вя бирликлярин механики мяжмусу олмайыб, онларын мцряккяб гаршылыглы тясир механизмлярини ящатя едян чохпилляли сосиал систем кими чыхыш едир. Дейилянлярдян айдын олур ки, реал сосиал щяйат, ижтимаи тярягги сосиал ядалятин щяйата кечирилмяси цчцн ялверишли шяраит йаратмагла йанашы, бир сыра щалларда ядалятсизлик тязащцрцнцн дя юзцнц эюстярмясини мцмкцн едир. Беляликля дя инсан конкрет фяалиййяти сащясиндя чох вахт юзц дя айдын дярк етмядян, бу тяряфляр арасында сечим едир: йа йцксяк мяняви дяйяр олан сосиал ядалятин тяляблляриня уйьун йол иля эедир, йа да жисмани няфсинин гурбанына чевриляряк, мящдуд егоист мараглара цстцнлцк верир, беляликля дя цмуми сосиал ядалятсизлик йарадыр, башгаларынын азадлыьына вя ядалятиня мане олур. Бу мянада вахтиля Ф.Беконун сюйлядийи ашаьыдакы фикир доьру сяслянир:

«Ядалят о демякдир ки, юзцня арзуламадыьын щеч бир шейи, башгаларына да етмяйясян». (2. с.382).

Сосиал ядалят жямиййятин мювжудлуьу, нормал фяалиййяти вя инкишафынын чох важиб интеграл кейфиййяти олмагла, бцтювлцкдя ижтимаи щяйатын сосиал вя мяняви мцнасибятляр системинин, айры-айры фярдлярин вя сосиал бирликлярин марагларынын узлашдырылмасынын ялдя олунмуш сявиййясинин эюстярижисидир. О щям дя сосиал субйектлярин юз габилиййят вя гцввяляринин, реал мадди вя мяняви потенсиалынын, мювжуд имканларынын щяйата кечирилмясинин чох мцщцм мейарыдыр.

Сосиал ядалятин бу ясас кейфиййятляри онунла азадлыг арасында ялагялярин вя вящдятин тямялиндя дурур. Беля ки, щямин хассяляр щям дя азадлыьын чох мцщцм сявиййясини (ялбяття, бир гядяр башга сяпкидя) тяшкил едир. Цмумиййятля, сосиал ядалят иля азадлыьын мязмунунда цмуми жящятляр о гядяр чохдур ки, онлары бир-бириндян айрылыгда тясяввцр етмяк чятиндир. Бу бахымдан В.Давыдовичин ашаьыдакы фикри иля разылашмаг олар:

«Ядалят азадлыг иля щямащянэ сяслянир. Щям ядалятин, щям дя азадлыьын мювжуд олмасы, жямиййятя щава гядяр важибдир. Онларсыз йашамаг, юзц дя ляйагятля йашамаг гейри-мцмкцндцр». (4, с.26).

Йери эялмишкян гейд едяк ки, ядалят иля азадлыьын вящдятинин мющкямлянмясиндя, онларын щяр икисинин сых баьлы олдуьу бярабярлик чох мцщцм йер тутур. Сосиал бярабярлийин тямин олунмуш сявиййяси жямиййятдя ядалятин вя азадлыьын инкишафыны якс етдирян мцщцм мейар ролуну ойнайыр.

Ейниля дя сосиал бярабярсизлийин щюкм сцрдцйц ижтимаи мцщитдя ядалятин вя азадлыьын мювжудлуьундан данышмаг ябясдир. Йухарыда гейд олунан щяр цч анлайыш бир-бириля сых вящдятдядир. Фикримизжя, бу мягамы хцсуси вурьулайан мцяллифляр щаглыдырлар: «Ядалят бярабярлик вя азадлыьын уйьун эялмясидир. Мящз ядалят, азадлыг вя бярабярлик дцзэцнлцк олан йердя мцмкцндцр». (3, с.98). Дейилянляр сцбут едир ки, азадлыг, бярабярлик вя ядалят айрылмаз ялагялярдя олараг, сивил жямиййятин сосиал симасыны мцяййян едян башлыжа мейарлардыр. Сосиал ядалят анлайышына бир сыра башга жящятляр дя хасдыр ки, онлар азадлыг иля вящдят цчцн ялверишли имканлар ачыр. Яввяла, сосиал ядалят щям арзу олунан идеалдыр, щям дя эцндялик реал фяалиййят принсипидир, йяни инсанлар ядалятин щяйата кечирилмясиня тякжя хош арзу, эяляжяк мягсяд кими йанашмыр, онун мцяййян тяряфлярини вя мейарларыны эцндялик практики мадди вя мяняви фяалиййятинин мцхтялиф сащяляриндя реаллашдырмаьа чалышыр.

Азадлыг иля ядалятин гаршылыглы ялагялилийи онларын ясас мязмунуну ящатя едян ашаьыдакы цч истигамятдя юзцнц эюстярир: а) фяалиййятин мягсядинин мцяййян олунмасы вя гиймятляндирилмяси; б) онун щяйата кечирилмяси васитяляринин мяналандырылмасы вя гиймятляндирилмяси; ж) фяалиййятин нятижяляринин шяхси вя ижтимаи бахымдан тящлили вя гиймятляндирилмяси.

Биринжи истигамят юз ифадясини башлыжа олараг бунда тапыр ки, азадлыг вя ядалят реал характер дашыйыр, йяни онлар жямиййятин вахты чатмыш тялябатларыны адекват якс етдирир. Якс щалда, азадлыьын вя ядалятин мягсяди гейри-нормал вя шиширдилмиш мязмуна малик олур, реаллыгдан айры дцшцр. Гейд етмяк лазымдыр ки, бу тялябя ямял олунмасы, формал характер дашымыр. Фяалиййятин бцтцн эяляжяк талейи бир чох жящятдян мящз реал мягсядин мцяййянляшдирилмясиндян асылыдыр.

Азадлыг иля ядалятин вящдятинин икинжи истигамяти дя чох мцщцмдцр. Сющбят мцяййян олунмуш мягсяди реаллашдырмаьын сямяряли васитяляринин вя йолларынын ахтарылыб тапылмасындан вя щяйата кечирилмясиндян эедир. Бунунла ялагядяр гейд едяк ки, бязян нязяри фикирдя вя практикада «мягсяд щяр жцр васитяляря бяраят газандырыр» девизи юзцня йер тутур. Яслиндя бу мювге доьру щесаб олуна билмяз. Беля ки, бир тяряфдян мягсяд ядалятсиз вя азадлыьы олмайан мязмуна маликдирся, она мцвафиг олараг сечилмиш йоллар вя васитяляр дя беля сяжиййя дашыйажагдыр. Диэяр тяряфдян, мягсядин ядалятли вя реал азадлыьы ифадя етдийи щалларда беля, васитялярин сечими мцстягил ящямиййят кясб едян важиб мярщяля кими юзцнц эюстярир. Буна эюря дя ядалятли вя азад сечими дцзцн якс етдирян мягсяди щяйата кечирмяк цчцн адекват олан васитялярдян истифадя олунмадыгда, мягсядин сюзцэедян кейфиййятляринин ящямиййяти эяряксизляшир. Бурадан айдындыр ки, мягсядя наил олмаг цчцн сечилян конкрет васитяляр вя йоллар мцтляг яхлаги жящятдян бяраят газандырылан, башгаларынын азадлыьына мане олмайан, жямиййятин цмуми инкишафы бахымындан ядалятли щесаб олунан кейфиййятляря малик олмалыдыр. Нящайят, ядалят иля азадлыьын цмумилийи вя вящдяти фяалиййятин нятижяляринин тящлилиндя, онларын шяхси вя ижтимаи мараглар мювгейиндян гиймятляндирилмяси истигамятиндя юзцнц эюстярир. Бу сяпки юзцнцн ян дольун ифадясини мясулиййятин мцхтялиф нювляриндя вя онларын азадлыг вя ядалят иля уйьунлуг сявиййясиндя тапыр. Азадлыг вя ядалятин цмуми ялагяляриндя бу истигамят мцстясна рол ойнайыр.

Азадлыг иля ядалятин чох мцщцм бир тямас хятти щцгугда ифадя олунур. Беля ки, щям азадлыг, щям дя ядалят юзцнцн, ян дольун тязащцрцнц мящз бу сферада тапыр. Бу тамамиля тябиидир, чцнки азадлыг ганунлардан айрылмаз олуб, мящз онларда йуридик тясбит олунур. Дювлятин ганунларында азадлыьын мцмкцн олан, йол верилян, ейниля дя гадаьан олунан тяряфляри гяти, айдын вя цмуми нормативляр кими эюстярилир. Буна эюря дя онлары юзцнямяхсус азадлыглар кими тясяввцр етмяк доьру оларды. Бу мянада щцгугда азадлыг вя ядалят бирляшмиш щалда чыхыш едир. А.Спиркин щаглы олараг йазыр: «Щцгуг азадлыьын реаллашмасы юлчцсц, ейни заманда сийаси ядалят нормасыдыр». (6, с.664).

Диэяр тяряфдян ядалят дя мцасир щцгугун тямял анлайышларындандыр. Буна эюря дя юлкямиздя апарылан эениш мигйаслы щцгуги ислащатлар щям дя бу сферада ядалятин мющкямляндирилмясиня хидмят едир. Ганунчулуьа дюнмядян ямял олунмасы ядаляти горумаьын зярури мцгяддям шяртидир.

Щцгуга азадлыьын мигйасы кими йанашылмасы буна ясасланыр ки, ядалятя сюйкянмяйян бцтцн ганунларын вя щцгуги фяалиййятин ижтимаиййят тяряфиндян бяйяниляжяйиня вя азадлыг кими гябул едиляжяйиня инанмаг чох чятиндир. (Ялбяття, ганунларда ядалятин конкрет цнванлы шякилдя дейил, цмуми формада ифадя олундуьуну нязяря алмагла). Бурадан айдын олур ки, ядалят вя азадлыг щцгугун тяркиб щиссяляриня нцфуз етмякля, онун зярури кейфиййят эюстярижиси ролуну ойнайыр. Щцгуг нормаларында ядалятин тясбит олунмасы чох мцщцм ящямиййятя маликдир. Беля ки, о, шяхсиййятин азадлыгларынын диэяр фярдляр, мцхтялиф органлар вя тяшкилатлар тяряфиндян ола биляжяк щямляляриндян горунмасына тяминат верир.

Ядалят мцтляг дейил, нисби характер дашыдыьы цчцн, инсанларын даим жан атдыьы идеал ролуну ойнайыр. Буна эюря дя фасилясиз олараг тякмилляшмяйя олан тялябат кими чыхыш едир. Ядалятин конкрет мязмунундакы щцгуги дяйяр вя яхлаги императив, жямиййятдя йалныз сийаси азадлыгларын мювжудлуьу шяраитиндя реаллаша билир. Бу дейилянлярля йанашы ядалят иля азадлыьын там цст-цстя дцшдцйцнц иддиа етмяк доьру олмазды. Яслиндя онларын вящдяти мцяййян мянада нисби характер дашыйыр. Бу мянада З.Сквортсовун ашаьыдакы фикри доьру сяслянир: «Там азадлыг сосиал ядалятсизлийи доьурур, сосиал ядалят принсипинин ардыжыл реаллашдырылмасы азадлыьын мящдудлашдырылмасыны тяляб едир». (5, с.137).

Жямиййятин тякмилляшмяси эедишиндя ижтимаи инкишафын обйектив ганунлары иля ядалят принсипинин цмумбяшяри мязмунунун йахынлашмасы цчцн реал шяраит йараныр. Бу мцнасибятдя жямиййятимизин йашадыьы гапалы системдян ачыг, демократик ижтимаи гурулуша кечид дюврц сяжиййявидир. Юлкямиздя щцгуги дювлят вя вятяндаш жямиййяти йарадылмасына йюнялмиш стратеъи мягсядин уьурлары, инсанларын азадлыгларынын артырылмасы иля йанашы, сосиал ядалят принсипинин дюнмядян реаллашдырылмасыны тяляб едир. Щазырда юлкямиздя жямиййятин тоталитар реъимдян мирас галмыш игтисади, сосиал, сийаси вя мядяни щяйаты кюкцндян дяйишмякдядир. Азад базар игтисадиййаты формалашыр, демократикляшмя хятти щяртяряфли вя ардыжыл щяйата кечирилир, азад сечкиляр ясасында формалашмыш щакимиййят органлары фяалиййят эюстярир, вятяндашларын щцгуг вя азадлыглары эенишляндирилир. Фикир плцрализми, сюз, мятбуат вя виждан азадлыьы бяргярар олубдур. Бцтцн бунлар мцстягил дювлятимизин азадлыг вя ядалят идеалына ардыжыл вя мягсядйюнлц йахынлашдыьыны сцбут едир.

Сосиал мцнасибятляр системиндя вя бцтювлцкдя жямиййят мигйасында сосиал ядалят принсипинин щяйата кечирилмяси чох мцхтялиф истигамятляри нязярдя тутур. Бурада иштирак едян механизмляр рянэарянэ олуб, бюлэц мцнасибятляриндян тутмуш, кадрларын сечилиб йерляшдирилмяси, ишчилярин мцхтялиф вязифяляря тяйин олунмасына, мадди вя мяняви мцкафатландырмайа гядяр чох эениш диапазону ящатя едир. Бунунла ялагядар гейд едяк ки, милли мцстягиллик ялдя етдикдян сонра юлкямиздя, йухарыда гейд олунан бцтцн сащялярдя ядалятин горунмасы йюнцмцндя чох бюйцк вя ясаслы дяйишикликляр баш вермиш, мцщцм ирялиляйиш ялдя олунмушдур. Онларын сырасында тоталитар реъимдян мирас галмыш мадди вя мяняви немятлярин бюлэцсцндя юзцнц эюстярян ядалят принсипинин позулмасы вя дефорсийаларын арадан галдырылмасы биринжи йердя дурур. Милли дювлятчилик мющкямляндикжя, игтисадиййатда азад базар мцнасибятляри гярарлашдыгжа, демократийа эенишляндикжя, ящалинин шцур вя тящсил сявиййяси, дцнйаэюрцшц йцксялдикжя, жямиййятин щяр бир цзвц юз реал ямяйинин сявиййясиня уйьун щагг алмасы габилиййятиня вя бажарыьына эюря ишля тямин олунмасы даща дольун вя щяртяряфли щяйата кечирилир. Бу бахымдан сон дюврлярдя уьурла тятбиг олунан идарячилийин мцхтялиф сащяляриндя ганунверижи вя ижраедижи органларда ишчилярин демократик сечкиляр ясасында вязифяляря иряли чякилмяси мящкямя системиндя, мцхтялиф инстансийалардан олан щакимлярин мцсабигя йолу иля ишя гябул олунмасы, сосиал ядалятин горунмасы бахымындан мцстясна дяряжядя бюйцк ящямиййятя маликдир. Бу практика эенишляндикжя, ижтимаи щяйатын мцхтялиф сащяляриндя юзцнц эюстярян сосиал ядалятсизлик щаллары – ясассыз бярабярляшдирмяляр, тайфабазлыг, гощумлуг, йерличилик, щимайячилик вя саир уьурла дяф олунур.

Бцтцн бунлар сосиал ядалятин жямиййятин бцтцн цзвляринин щяйат цсулуна чеврилмясини вя реал фяалиййят принсипи кими дольун шякилдя юзцнц эюстярмясини тямин етмяйя йюнялир. Бу просесдя онун азад сечим вя азад фяалиййят иля гаршылыглы ялагяляри даща да мющкямлянир, вящдяти дурмадан артыр.

Истифадя олунмуш ядябиййат

1. Шабанов З. Жямиййятин идаря олунмасында ядалят принсипинин сосиал идрака мцвафиглийи. //Азярбайжан жямиййяти трансформасийа шяраитиндя, Б.: «Адилоьлу», 2001, с.67-79.

2. Бекон Ф. Сочинения в 2-х т. Т.1. М., «Наука», 1965, 512 с.

3. Бербешкина З.А.Справедливость как социально-философская категория. М., «Политиздат», 1983, 254 с.

4. Давидович В.Е. Социальная справедливость: идеал и принцип деятельности. М., «Политиздат», 1989, 254 с.

5. Скворцов Л.В. //Информациональная культура в контексте глобализации. Глобализация и столкновение идентичностей //Под ред А.Журавского, К.Костюка. М., «Логос», 2003, 133 - 140 с.

6. Спиркин А.Г. Философия. М., Гардарики, 2000, 803 с.

Гариб АЛЛАХВЕРДИЕВ

СВОБОДА И СОЦИАЛЬНАЯ СПРАВЕДЛИВОСТЬ

Резюме

В статье анализируется взаимная связь свободы и социальной справедливости с точки зрения современного мышления. В начале раскрывается содержание социальной справедливости. Показывается, что социальная справедливость, будучи очень важным интегральным качеством существования общества, его нормальной деятельности и развития, является существенным критерием реализации имеющихся возможностей системы социальных и духовных отношений в целом, реального материального и духовного потенциала отдельных индивидуумов и социальных субъектов, их способностей и сил. Исследуется основа взаимоотношений и единства между социальной справедливостью и свободой, определяется место равенства в укреплении этих взаимоотношений. Доказывается, что свобода, равенство и справедливость, будучи в неразрывной связи, являются главными критериями, определяющими социальное лицо цивилизованного общества.

В статье исследуются три главных направления, составляющие основное содержание взаимосвязи свободы и социальной справедливости: а) определение и оценка цели деятельности; б) определение значения и оценка средств ее осуществления; в) анализ и оценка результатов деятельности с общественной и личной точки зрения. Характеризуется взаимоотношение свободы и социальной справедливости с правом, отмечается, что в праве выражается важная линия соприкосновения свободы и социальной справедливости, в нем свобода и справедливость выступают вместе, проникая в составную часть права, они играют роль его существенного качественного показателя. Право выступает в качестве измерения реализации свободы, а также в качестве нормы социальной справедливости. Объясняются результаты создания условий для сближения объективных законов общественного развития с общечеловеческим содержанием принципа справедливости в ходе усовершенствования азербайджанского общества и бесповоротной реализации принципа социальной справедливости наряду с расширением свободы людей в построении правового государства и гражданского общества.

Qarib ALLAHVERDIYEV

LIBERTY AND SOCIAL JUSTICE

Summary

Mutual relations between liberty and social justice are analyzed in the article from standpoint of modern thought. Firstly, content of social justice is explained. It is shown that, social justice is the important aspect of realizing existing opportunities of entirely socials life and spiritual relations system, self ability and power of separate individuals and social subjects, real material and spiritual potential being the most important integral quality of existence of society, its normal activity and development. The principles of relations and unity between social justice and liberty is researched, place of equality in their becoming stronger is determined. It is proven that, liberty, equality and justice are the main aspects determining social image of civil society being in integral relation.

Three directions comprising the main content of mutual relations of liberty and social justice – a) determination and estimation of the purpose of activity; b) giving a meaning and estimation of its realization means; c) analysis and estimation of activity results from personal and social point of view are investigated in the article. Mutual relations of liberty and social justice with law is characterized in the article and it is mentioned that, very important contact line of liberty and social justice is expressed with law, liberty and justice perform in united form in it, plays as its necessary quality indicator by penetrating its content part and law performs as realization measure and at the same time, political justice norm of liberty. Creation condition for approaching national content of justice principle with objective law of social development in improvement of society in Azerbaijan, results of repeatedly realization of social justice principle besides increasing liberty of people in legal state and citizen society formation are explained in the article.

Güldanə BABAYEVA
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutunun dissertantı

TÜRKDILLI DÖVLƏTLƏRIN SIYASI ƏLAQƏLƏRININ INKIŞAFI VƏ IRI DÖVLƏTLƏRIN MARAQLARI*

Böyük Atatürkün "Eynən Osmanlı, eynən Avstriya-Macarıstan kimi, Sovetlər Birliyi də parçalana bilər" - sözləri XX əsrin son onilliyində həyata keçdi. XX əsrin sonu XXİ əsrin əvvəllərindən başlayaraq dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər yaradan cahanşümul hadisələr, Sovetlər Birliyinin dağılması, ikiqütblü sistemin bir qütblü sistem ilə əvəz edilməsi, soyuq müharibənin terror və qanlı müharibələrlə əvəz edilməsi, qloballaşma prosesinin sürətlə inkişafı, yeni respublikaların və dövlətlərin yaranması və s. proseslərin inkişafı beynəlxalq münasibətlər sistemində modern nəzəriyyələrin və münasibətlərin yeni formullarını işləyib hazırlamağı labüd etdi. (1, 25)

Müasir tarixin bu cahanşümul hadisəsinin ən mühüm nəticələrindən biri məhz dünya siyasi xəritəsinə bir sıra türk dövlətlərinin, türk respublikalarının çıxması oldu. Avrasiya kimi mühüm məkanda türkdilli dövlətlər ittifaqının formalaşması və Turan ideyasının gerçəkləşməsi barədə səslənən fikirlər, təbii ki, dünyanın qüdrətli dövlətləri tərəfindən birmənalı qarşılanmadı. SSRİ adlanan birliyin yerində müstəqil Türk dilli dövlətlərin yaranması regionda Türkiyə dövlətinin nüfuzunun artması üçün xarici siyasət kursu yeritməsinə baxmayaraq Rusiya, Çin, İranla yanaşı Qərbin bir sıra dövlətlərinin iqtisadi və geosiyasi maraqlarının kəsişmə nöqtəsinə çevrildi. (2,39)

Sosializm sisteminin dağılması və kommunist ideologiyasının nüfuzdan düşməsi beynəlxalq münasibətlər sistemində yeni mühüm faktora çevrilməyə qadir olan Türk Dövlətləri Birliyinin formalaşması Qərb ölkələri ilə yanaşı, Türkiyə, Rusiya, İran, Pakistan və Çinin milli maraqları ilə sıx bağlıdır. Böyük bir məkanı əhatə edən və təbii-iqtisadi göstəricilərinə görə dünyanın siyasi xəritəsində güclü mövqeyə malik olan bu ərazinin birliyinin yaradılması Avropa, Amerika və Asiyanın aparıcı qüdrətlərinin bura daxil olan dövlətləri və əraziləri istismar etməsində güclü əngəllər meydana gələ bilər.

Qeyd edilən problemlərlə yanaşı dünya dövlətlərini narahat edən ən əhəmiyyətlisi din amilidir. Məlumdur ki, türk xalqları islam dininin daşıyıcılarıdır və bu qloballaşma pərdəsi altında Fukoyama və Hantinqtonun nəzəriyyələrini inkişaf etdirən Qərbin xristian gücləri Asiya mədəniyyətini, onun komponentləri olan dilini, musiqisini, ideologiyasını, bir sözlə, simvollarını "özünüləkişdirir" və amansız halda assimilyasiya edir. Mərkəz rolunda çıxış etmək istəyən Qərb ucqar rolunda gördüyü Asiyanı və bu qitədə böyük məkana və gücə malik olan türk xalqlarının ərazilərini və dövlətlərini nəzarətdən kənar buraxmamağa çalışır. Qloballaşma prosesində mərkəz aktiv müdaxiləçi və nəzarətçi, ucqar isə passiv müşahidəçi və təcridci (izolyasionist) müxalifətçidir. (3, 92)

Ucqar qloballaşma prosesinə fəal surətdə qoşulmaq imkanı qazanmayana qədər mərkəzdən asılı olur. Məhz bu asılılığın saxlanması Türk Dövlətlər Birliyi adlanan məkanın yaranmasına sədlər çəkir. Tarixdən məlumdur ki, İslamın ilk passionar qüvvəsi olan ərəblər IX əsrə kimi (tam üç əsr) coşqunluqla irəlilədilər. Sonra yorulub yerlərini Orta Asiyadan gəlmiş türklərə verdilər. Türk passionarlığı XVI əsrə kimi davam etdi.

---

* Məqalə redaksiya heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

Bu illərdə isə paralel olaraq, müsəlman torpaqlarındakı intellektual və mədəni mərkəzlərin süqutu istiqamətində müxtəlif strategiyalar işləyib hazırlamaqda idilər. Türk birliyinə zərbə vuran Sultan Bəyazid-Teymur, Şah İsmayıl - Sultan Səlim, Şah İsmayıl – Şeybani və digər qarşıdurmalar bu strategiyanın "uğurlu" nəticələri idi. Zamanla Türkdilli dövlətlərin və onların əsas aparıcısı hesab edilən Türkiyənin parçalanması prosesinin uğursuz nəticələnməsi Qərb dövlətlərinin missionerlik siyasətinə əl atmasına imkanlar versə də, bu gün bu siyasət türk insanlarının mənəvi-dini həyatını dəyişə bilməyir. (4, 58)

Qərbin türk dünyasına qarşı strateji planlarında ən təhlükəli hədd hesab edilən Türkdilli Dövlətlərin Birliyi adlanan bir qurumun yaradılmasıdır. Bunun üçün isə mütləq geosiyasi maraqların kəsişməsindən məharətlə istifadə edərək, türk milləti arasında psixoloji-ideolji işləri fəal aparmaqla belə bir birliyin yaranmasını reallığa çevirmək lazımdır. Bu işdə isə sayı 300 milyonu ötüb keçən türk millətinin həm dövlətlərinin, həm də diasporunun birgə fəaliyyəti zəruri addımlardandır. Son zamanlar Avrasiya məkanında güclü dövlətlərin geosiyasi maraqlarının toqquşması Türk Dövlətləri Birliyi yaradılması ideyasının reallaşma imkanlarını artırıb. Bu ideyanın gerçəkləşəcəyi təqdirdə ilk dəfə türk dövlətləri sözdə işbirliyindən işdə işbirliyinə qədəm qoyacaq.

Heydər Əliyev dönəmində yüksələn türk birliyinə doğru yönələn xətt nəhayət mədəni, maarif, ədəbiyyat kimi humanitar sahələrdən kənara çıxaraq artıq sırf dövlətçilik, idarəetmə, parlamentarizim istiqamətinə yön alacaq. Doğrudan da bu fakt sevindirici və əlamətdardır. Elə ona görə də gedən proses bir çox dövlətləri narahat edib.(5, 12)

Dünyanın siyasi mənzərəsində yeni mühüm faktora çevrilməyə qadir olan Türk Dövlətləri Birliyinin formalaşması Qərb ölkələri ilə yanaşı, Türkiyə, Rusiya, İran, Pakistan və Çinin milli maraqları ilə sıx bağlıdır.

Bu səbəbdən də əhəmiyyətli geosiyasi dəyişikliklər yarada biləcək həmin Birliyin meydana gəlməsi şərtlərinə hər bir dövlət öz maraqları prizmasından yanaşır. Belə bir ittifaqın yaranması ilk növbədə dünyada geosiyasi mənzərəni və güclər nisbətini kökündən dəyişə bilər, ona görə də hadisələrin iri dövlətlər tərəfindən diqqətlə izlənilməsi haradasa başa düşüləndir. Birliyin formalaşmasına təsir göstərən daxili və xarici amilləri gözdən keçirək. Avrasiya məkanında önəmli geosiyasi mövqeyi və sosial, iqtisadi, siyasi inkişafına görə böyük gücü olan Türkiyədə Turançılıq ideyası tarixən güclü olub. Hələ böyük Atatürkün xarici siyasətində "Sovetlər Birliyi idarəsi altında olan dili, inancı bir qardaşlarımıza sahib çıxmaq və bütünləşmək" - fikirləri müasir Türkiyənin xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

1980-ci ildən etibarən sosial-iqtisadi və siyasi-mədəni inkişafda böyük uğurlar əldə edən Türkiyə xarici siyasətində türkdilli dövlətlərlə əlaqəli yeni strateji xətlər cızıldı. Azərbaycan, Mərkəzi Asiya və Rusiya Federasiyasına daxil olan türk respublikaları ilə hərtərəfli əlaqələri 1981-ci ildən sonra inkişaf etdirməyə başlayan Türkiyə üçün bu siyasət yeni imkanlar açdı. Yeni iqtisadi inkişaflar geosiyasi nöqteyi-nəzərdən yeni dünya düzəninin müəyyənləşdirilməsində Türkiyənin rolunu artıra bilən bu xətt bəzi Qərb və Şərq dövlətləri tərəfindən birmənalı qarşılanmadı. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla paralel olaraq, Rusiyanın türk respublikaları ilə qurulan əməkdaşlıqda bəzi boşluqların ortaya çıxması Türkiyənin nüfuzunun bir qədər zəifləməsinə səbəb olub. (6, 26)

Bu boşluğu yaradan səbəblər Türkiyənin Mərkəzi Asiya bazarı uğrunda rəqabəti də Çinə güzəştə getməsi, türkdilli dövlətlər üçün vahid sosial, siyasi və mədəni bazis hazırlanmaması, onların xarici aləmə çıxmasında passivlik göstərilməsi, birgə fəaliyyətin təmin edilməməsi və s. amillər idi. Əvvəlki geosiyasi mövqeyi və nüfuzu əldə etmək üçün Türkiyə rəsmiləri mütləq psixoloji, nəzəri və təşkilati hazırlıq əsasında digər amillərlə yanaşı, əmək resursları, təbii ehtiyatlar nəzərə alınmaqla, düzgün xarici siyasət kursu yeritməlidir.

Regionun digər bir qüdrətli dövləti hesab olunan Rusiya çar imperiyası və Sovetlər Birliyinin bəzi xususiyyətlərini saxlamaqdadır. Rusiya Türk Birliyi bu və ya digər formada yaranarsa, daha da gücdən düşəcək. Bundan əlavə sözügedən Federasiyada onlarla türk xalqları və muxtar strukturlar formasında olsa da, dövlətlər var. Yaxın gələcəkdə Rusiyanın tənəzzülündən istifadə edib, Türk dünyasının tərəqqisindən ürəklənib Saxa, Tatarıstan, Çuvaşıstan və digər böyük ərazilərə və iqtisadiyyata malik türk muxtar dövlətlərinin Türk Birliyinə qoşulacağı ehtimalı Rusiyanın imperialist dairələrini qorxudur. Əvvəllər bu dövlətlər müşahidəçi statusunda iştirak etsələr də, sonradan tam hüquqlu üzv ola bilərlər ki, bu da rus imperiyasının süqutu deməkdir. (7, 123)

Başqa variant da ola bilər. Dağıdılmaqdan çəkinən Rusiya özü Türk Birliyinə qoşulmaq təşəbbüsü edə bilər və bu variantın sonu da rus imperiyasının gələcəyi üçün uğurlu heç nə vəd etmir Regionda itmiş nüfuzunu bərpa etmək üçün Rusiya Azərbaycan və Mərkəzi Asiyada təsir qüvvəsini saxlamaqla yanaşı, idarəçiliyi altında qalan türk xalqlarını assimilyasiya etməyə çalışır. Bu prizmadan yanaşsaq, rus dilinin Mərkəzi Asiya və Azərbaycanda hələ də ünsiyyət vasitəsi kimi qalmasını yeridilən siyasətin bir parçası olduğunu hesab etmək olar. İnadkarlıqla öz telekanalların Azərbaycan və Mərkəzi Asiya regionunda yayımı Asiya regionunun ən qüdrətli dövlətinə çevrilən Pakistanın da türkdilli dövlətlərin bir araya gəlməməsində öz maraqları var. (8, 98)

Hələlik maddi və siyasi baxımdan elə böyük gücə malik olmayan Pakistan hazırda ABŞ və Səudiyyə Ərəbistanının maraqlarını, bu yolla öz mənafeyini regionda tədricən yeritməyə çalışır. Bu istiqamətdə din amilindən xüsusilə fəal istifadə edən Pakistan Mərkəzi Asiyada da öz nüfuzunu artırmaq qəsdindədir. Təbii ki, türkdilli dövlətlərin ittifaqı yaranacağı təqdirdə Pakistanın belə bir mühüm əraziyə təsirini itirə bilər, bu da, söz yox, onun milli maraqlarına uyğun gəlmir. Pakistan bu siyasətdən umduğu məqsədlərdən biri bölgədə əsas rəqibi olan İranın nüfuzunu zəiflətməkdir. Nüvə texnologiyalarının inkişafı üçün yeni komponentlər əldə etmək, Rusiya, İran, Türkiyə və Çin təsirinin qarşısını almaq məqsədilə Mərkəzi Asiyada hərbi bazalar yaratmaq da Pakistanın başlıca niyyətlərindəndir.

Regionun ən qüdrətli dövləti olan Çin tarixən və hazırda da, türk dövlətlərinin ittifaqının əleyhdarı olub və olaraq da qalmaqdadır. Hazırda Mərkəzi Asiya, türkdilli respublikalar içərisində Çin xüsusi xidmət orqanlarının fəal işlədikləri barədə tez-tez fikirlər söylənilir. Əslində, bunun həqiqiliyi olduqca ağlabatandır. Çin Böyük Turan ideyasının reallaşacağı təqdirdə uyğurlar üzərində idarəçiliyi və onlara aid böyük əraziləri itirmək qorxusu ilə üzləşə bilər. Bu səbəbdən də müxtəlif vasitələrlə həmin ideyanın ideya olaraq qalmasına çalışır.

Bu istəyin tarixi əsasları, Böyük Çin səddinin yaradılmasına qədər gedib çıxan kökləri var. Türk birliyini əngəlləməklə Çin həm də Avropaya çıxış yolu olan məkanda ağalıq etmək, Qərbin ona təsirini neytrallaşdırmaq, regionun iqtisadi inkişafını nəzarətdə saxlamaq kimi niyyətlərini gerçəkləşdirmək əzmindədir. Son illər çinlilərin Azərbaycan və Mərkəzi Asiyaya geniş ayaq açması, bu ölkədən gələn iş adamlarının bölgədə güclü biznes qurmağa çalışması Çinin yürütdüyü məlum strateji xəttin təzahürləridir. ABŞ, Fransa, Almaniya və Böyük Britaniya türk dövlətlərinin ittifaqını NATO-ya, Avropa Birliyinə alternativ kimi qəbul edir. Onların əsas narahatçılığı Türkiyə-Qərb əlaqələrinin zəifləməsi, Türkiyəni daha çox şərqə yönələn xarici siyasət yürüdəcəyidir. Bu isə Qərb dövlətlərinin geosiyasi maraqlarının bölgədə xeyli zəifləməsi deməkdir.

Türkiyənin qərb yönümlü xarici siyasi xəttinin məhdudlaşdırılmaması üçün Qərb ölkələri Türk Dövlətləri Birliyinin əleyhinə çıxmağa, belə demək mümkünsə, məcburdurlar. Həmin dövlətlərin bu cür siyasi xətt yeritmələrini şərtləndirən əsas amillər Avrasiya məkanında Rusiya, İran və Çin təsiri sırasına Türk Birliyi faktorunun da əlavə olunmasının qarşısını

almaq, islam-türk təsirinin güclənməsinə yol verməmək, Azərbaycan və Mərkəzi Asiyanın təbii sərvətləri üzərində nəzarət rıçaqlarını saxlamaqdır (9, 23)

Bu sıraya Qərbin dünya hegemonluğu ideyasının tam gerçəkləşməsi niyyətini də əlavə etmək mümkündür. Hazırda o qədər də açıq və fəal şəkildə təbliğ olunmasa da, iri dövlətlərin Türk Birliyinin formalaşmasını əngəlləmək yönündə gördükləri gizli və aşkar tədbirlər bu ideyanın reallaşmasının heç də fantastika, yaxud uzaq zamanların hadisəsi olmadığından xəbər verir. "XXI əsr türk əsri olacaq" - fikri bu mənada olduqca yerində səslənir. Fikirmiczə Türk Birliyinin yaradılması üçün zəruri hesab edilən aşağıdakı addımların atılması günümüzün ən aktual problemlərindən biridir:

• Dünya Türkləri Prezidentləri Məclisi, Türk–Azəri Diaspor Təşkilatları Rəhbərləri Konfederasiyası, Türk-Azəri Parlamentləri Bilriyi, Türk-Azəri Nazirləri Məclisi, Türk Dövlətlərinin Müdafiə və Təhlükəsizlik Şurasının və s. kimi qurumların təsis edilməsi;

• Türk- Azəri İqtisadi Forumu, Məclisi və Birliyinin Yaradılması, Xaricdə Türk-Azəri Biznesmenlər və İş Adamları Federasiyasının Təsisi, Türk Dünya Bankı, Türk Dünya Birjası, Türk-Azəri Diaspor Sahibkarlar Forumu və s.;

• Amerika, Avropa, Asiya və Avstraliya Türk-Azəri Diaspor Konqresləri, Federasiyaları və Konfederasiyaları ilə yanaşı ölkələrdə və şəhərlərdə müxtəlif birliklərin yaradılması və fəaliyyəti;

• Türk-Azəri İnformasiya Şəbəkəsinin, Agentliyinin, KİV-in və digər təbliğat vasitələrinin yaradılması;

• Siyasi-hüquqi və elmi-mədəni sahədə əməkdaşlıq etmək üçün Türk Dünyası Hüquqşünaslar Assosiasiyasının, Türk Elmi Araşdırmalar Mərkəzi, dünya Türk Mədəniyyət Ocağının və s. yaradılması .

İstifadə olunmuş ədəbiyyat

1. Sevinc Ruintən. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində. “Adiloğlu”, 2005, 212 səh.
2. A.N.Abbasbəyli. Beynəlxalq münasibətlər: nəzəri və konseptual yanaşmalar. “Şirvannəşr” 2006, 194 səh.
3. Парвин Дарабади. Геоистория Каспийского региона и геополитика современности. “Элм”, 2002, 192 стр.
4. Natiq Məmmədli. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. “AzAtaM”, 2005, 308 səh.
5. Посольство Азербайджанской Республики в Туркменистане. www.azembass-yashg.com
6. Kamil Hüseynoğlu. Qədim Turan: mifdən tarixə doğru. ,“MBM” 2006, 120 səh.
7. Yunus Oğuz. Türkün tarixinə yeni bir baxış. “Olaylar”, 2007, 204 səh.
8. Ислам в Туркменистане. www.sunhome.ru/religion/1862
9. Türk Birliyi: http/:zaur.azeriblog.com

Гюльдана БАБАЕВА

РАЗВИТИЕ ПОЛИТИЧЕСКИХ ВЗАИМООТНОШЕНИЙ ТЮРКОЯЗЫЧНЫХ ГОСУДАРСТВ И ИНТЕРЕСЫ БОЛЬШИХ ГОСУДАРСТВ

Резюме

Представленная статья Гюльданы Бабаевой определяет направления развития связей в новом мировом порядке между тюркоязычными государствами. Известно, что этом регионе многие государства такие как, Россия, Китай, Иран, Пакистан против политических взаимоотношений между тюркоязычными государствами с Западом. Учитывая исламско-тюркский фактор и потерю контрольных рычагов над природными ресурсами Азербайджана и Центральной Азии, Западные страны обеспокоены образованием Альянса Тюркских Государств. Эти проблемы исследованы в статье и выдвинуты предложения их решения.

Guldana BABAYEVA

THE DEVELOPMENT OF POLITIKAL RELATIONS OF TURKISH-SPEAKINQ STATES AND THE INTERESTS OF THE QREAT POWERS

Summary

The presented article by Guldane Babayeva determines the orientatiens in development of the ties between theTurkic-speakinq states in a new world order. It is known that in this region many states such as Russia, China, Iran and Pakistan are aqainst the political interrelations between theTurkic-speakinq states and the west.

Takinq into consideration Islamik and Turkic factor and the loss of the control levers over natural resources of Azerbaijan and Central Asia the western countries become anxions about formation of the Aliance of the Turkic states.

These problems have been studied in the article and the proposals on their solution are put forward.

Abbas ORUCƏLİYEV

HƏRBİ MÜDAFİƏ STRATEGİYASI*

Hər bir dövlət müstəqilliyini xarici hərbi müdaxilədən qorumaq üçün müdafiə sistemi yaradır. Müdafiə sisteminin yaradılmasında ordu quruculuğu başlıca yer tutur. Əlverişli geosiyasi məkanda yerləşən, zəngin enerji resurslarına malik olan Azərbaycan dünyanın güclü dövlətlərinin maraq dairəsindədir. Mənafelərin toqquşması ərazi bütövlüyü və suverenliyə təhlükə törədir. Məhz buna görə də ordu quruculuğu dövlətin başlıca strateji məqsədidir. Azərbaycanın güclü orduya malik olması milli mənafedən irəli gəlir.

Azərbaycan Respublikası Konstitutsiyasında xarici siyasətin əsas cəhəti əsaslandırılmışdır. Konstitutsiyada əsasən Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətləri hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulur.

Ordu quruculuqu dövlətin xarici siyasəti ilə qarşılıqlı həyata keçirilən siyasətdir. Azərbaycanın xarici siyasəti sülh siyasətidir. Azərbaycanın Silahlı Qüvvələri heç bir ölkəyə qarşı çevrilməmişdir. Onun məqsədi sülhməramlıdır.

Beynəlxalq hüquq prinsipləri əsasında Azərbaycan Respublikası öz milli mənafeyinə uyğun olaraq milli ordunu yaradır və xarici siyasi strategiya prinsiplərini müəyyən edir. Həmin prinsiplər aşağıdakılardan ibarətdir.

Birincisi, müstəqilliyin və suverenliyin qorunması;

İkincisi, ölkənin ərazi bütövlüyünün qorunması;

Üçüncüsü, beynəlxalq və regional təşkilatlarda təmsil olunmaqla ölkənin təhlükəsizliyini təmin etmək;

Dördüncüsü, ölkənin milli mənafeyinə uyğun geostrateji siyasət aparmaq;

Beşincisi, işğal edilmiş ərazilərin qaytarılması üçün sülh və güc amilindən istifadə etmək;

Altıncısı, daxili və xarici siyasətin qarşılıqlı vəhdətini qoruyub saxlamaq;

Yeddincisi, xarici siyasətdə humanizm prinsiplərini həyata keçirmək.

Milli Ordu siyasi strategiyanın həyata keçirilməsi üçün dövlətin milli güc vasitəsidir. Hərbi güc cəmiyyətin siyasi sistemindən, dinamik inkişafından, siyasi qərarların qəbul edilməsi mexanizmindən, diplomatiyanın gücündən də asılıdır. Daxili və xarici siyasət iqtisadi inkişaf, milli mənfəət, əhalinin sosial rifahı ordunun güclənməsinə təsir edir. Dövlət təcavüzkara qarşı həm siyasi, həm də güc vasitəsindən istifadə edilməlidir.

Güc qüvvələrinin köməkliyi ilə ölkənin təhlükəsizlik sistemi yaradılır. Azərbaycanın milli mənafeyinə əsaslanan təhlükəsizlik sistemi aşağıdakı amillər əsasında formalaşır:

1) dünyanın inkişaf etmiş dövlətləri birliyinə daxil olmaqla təhlükəsizliyinin təmin edilməsi;

2) İqtisadi böhrandan, təcrid olunmaqdan çıxaraq iqtisadi inteqrasiyaya qoşulması;

3) Milli Ordunun hərbi sənaye kompleksinin yaradılması.

Erməni işğalçıları Azərbaycanın ərazisinin 20 faizini işğal etdikdən sonra, müasir hərbi texnika ilə silahlanır, sülh müqaviləsi bağlamaqdan imtina edir. Buna görə də Azərbaycanın Milli Ordusunun güclənməsi tələbatı meydana gəlir.

Azərbaycan Respublikası əlverişli geosiyasi məkanda yerləşir. Zəngin enerji resurslarına malikdir. Buna görə də təcavüzkar dövlətlər müstəqil Azərbaycana qarşı ərazi

---

* Məqalə redaksiya heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

iddiaları qaldırır, suverenliyinə qarşı qəsd edirlər. Milli Ordu quruculuğu müstəqilliyin qorunmasının əsas amillərindən biridir. Milli Ordunun geniş dünyagörüşə malik, intellektual səviyyəsi yüksək olan, hərbi işi dərindən bilən, yüksək ixtisaslı kadrlarla təmin edilməsi strateji vəzifədir. Bu mühüm strateji məqsədi həyata keçirmək üçün Azərbaycan Respublikası Prezidentinin 20 fevral 1999-cu il tarixli fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradılmışdır.

Ordu dövlətin milli mənafeyini qoruyur, milli təhlükəsizliyini təmin edir, hər hansı təcavüzün qarşısını alır. Ordunun gücü cəmiyyətin milli, sosial-siyasi, mənəvi-əxlaqi simasını əks etdirir. Ordu quruculuğu dövlət quruculuğunun tərkib hissəsidir. Azərbaycanın milli ordusu yenidən komplektləşdirilir, müasir hərbi sistemə uyğun təşkilat strukturu yaradılır, yeni hərbi strategiya, hərbi sənətin incəlikləri öyrədilir. Ordu quruculuğunun əsas cəhətlərindən biri strategiyanın hazırlanmasıdır. Hərbi strategiyada ölkənin geosiyasi mənafeyi əsas yer tutur. Azərbaycan Milli Ordusunda hərbi-iqtisadi, hərbi-siyasi, hərbi ekoloji, hərbi xidmətin yüksək səviyyədə, təşkili də ordu quruculuğunun mühüm problemləridir.

Azərbaycan Respublikası Konstitutsiyasının 9-cu maddəsinin birinci bəndində deyilir: 1. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa birləşmələr yaradır [1,6].

Hərbi strategiya beynəlxalq şəraitə uyğun olaraq dəyişə bilər. Siyasi reallıq strategiyanın həyata keçirilməsinin əsas şərtidir. Siyasi reallığın düzgün dərk edilməsi hərbi strategiyanın əsas şərtidir.

Ordu quruculuğu millətin ən böyük nailiyyətidir. Milli təhlükəsizliyin başlıca gücü yüksək döyüş hazırlığına malik olan ordudur.

Tarixi siyasi proseslər göstərir ki, Azərbaycan Respublikası müstəqil dövlət kimi siyasi varlığını qorumaq qabiliyyətinə malikdir. Siyasi varlığın qorunması bir sıra amillərlə yanaşı ordunun gücündən asılıdır. Milli Ordu quruculuğunda aşağıdakı vəzifələr nəzərə alınmalıdır: birincisi, Ordu ərazini qorumaq, milli təhlükəsizliyi təmin etmək gücünə malik olmalıdır; ikincisi, Ordu quruculuğu inkişaf etmiş ölkələrin hərbi strategiyasının, xüsusilə NATO-nun tələbləri səviyyəsinə cavab verməlidir; üçüncüsü, son dövrdə baş verən məhəlli müharibələrin təcrübəsi göstərir ki, peşəkar ordu hissələrinin yaradılmasına üstünlük verilməlidir; dördüncüsü, dövlətin iqtisadi inkişafı ordunun möhkəmləndirilməsinə yönəldilməlidir; beşincisi, hərbi güc ilə siyasi diplomatiya əlaqələndirilməlidir.

Ordu quruculuğu dövlət quruculuğunun tərkib hissəsi, onun elementi olub milli, mənəvi dəyərlər, xalqa, vətənə sədaqət, hərbi bilik, peşəkarlıq, döyüş qabiliyyəti və yüksək nizam- intizam əsasında yaradılır. Güclü Ordu ölkənin sərhədlərinin möhkəmliyini təmin edir.

Siyasi amil ordunu ayrı- ayrı, bir- birinə zidd qruplara bölə bilər. Hərbi qüvvə ölkənin qlobal, regional, milli sahələrdə təhlükəsizliyini təmin etməlidir. Hərbi güc ölkənin maddi və mənəvi imkanı əsasında yaranır.

Ölkənin geosiyasi mövqeyi, idarəetmə strukturu, milli intellektual səviyyəsi hərbi potensialın inkişafına təsir edir. Azərbaycanın sosial- siyasi inkişafının qarşısını almaq, onu zəiflətmək üçün milli- etnik zəmində münaqişələr törədirlər. Güclü dövlətlər münaqişə edən tərəflərə köhnə modelli silahları satmaqla küllü miqdarda qazanc əldə edirlər. Milli hərbi- sənaye kompleksinin yaranması, güclü ordu təcavüzkarlıq siyasətinin qarşısını alır.

Siyasi strategiyaya əsaslanan milli sülh siyasəti, əxlaq və sağlam düşüncə təcavüzkarın qarşısını alan mühüm amillərdəndir.

Hərbi gücünə görə Azərbaycan Qafqazın cənub regionunda güclü dövlətdir. NATO-ya yaxınlaşmaq onun beynəlxalq mövqeyini möhkəmləndirir. Siyasətin bu yolu ölkə üçün əhəmiyyətlidir. Lakin, aşağıdakı amillər də əsas götürülməlidir: birincisi, iqtisadi inkişaf nəticəsində ölkə öz milli istehsal məhsullarını dünya bazarına çıxarmalıdır. Milli iqtisadiyyat, milli sənayenin inkişafı ordunun möhkəmləsinin əsas şərtlərindəən biridir, ikincisi, əhalinin müxtəlif sosial təbəqələri, siyasi partiyaları, müxalifət iqtidar qüvvələri arasında siyasi birlik yaradılmalıdır; üçüncüsü, azərbaycançılıq, Azərbaycan vətəndaşlığı ideya birliyinin təməlinə çevrilməlidir; dördüncüsü, cəmiyyətin qütbləşməsi, ifrat zənginlik və kasıblığın qarşısı alınmalıdır; beşincisi, korrupsiya, rüşvətxorluq kimi hallara son qoyulmalıdır. Ordu cəmiyyətin bir hissəsidir. Ona görə də cəmiyyətin sağlamlaşdırılması diqqət mərkəzində olmalıdır. Azərbaycan hər hansı xarici dövlətə deyil, öz cəmiyyətinə, millətinə söykənməlidir. Əgər bu inkişaf, stabillik yaranarsa, Azərbaycanın geostrateji mövqeyi xarici ölkələrin marağını artıracaqdır.

Müasir ordu quruculuğunda sivil modellər əsas götürülür. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi üçün güclü orduya, müdafiə sisteminə ehtiyacı vardı. İşğal edilmiş ərazilərin qaytarılması üçün güclü Ordu vacib şərtdir. «Açıq qapı» siyasəti də ölkə üçün müəyyən problemlər yaradır. Millət xarici iş adamları ilə iqtisadi, sosial, siyasi, mənəvi sahələrdə yaranan əlaqələrə hazır olmalıdır. Dünyanın yenidən qurulması uğrunda mübarizədə Azərbaycan öz mövqeyini möhkəmləndirir.

Qafqaz və Xəzər dənizi siyasi regionu dünya münaqişəsində başlıca rol oynayır. Azərbaycan bu siyasi regionda yerləşdiyinə görə balans siyasətinə üstünlük verməklə milli mənafeyini qoruya bilər. Milli müdafiə dünya dövlətləri ilə bərabər əməkdaşlıq etməkdir. Milli mənafe mürəkkəb dəyişən dünyada ölkənin təhlükəsizliyinin təmin edilməsidir. Milli müdafiədə ölkənin milli maraqları düzgün seçilməlidir. Milli təhlükəsizlik beynəlxalq huquqi normalara uyğun qurulur.

Milli mənafe digər ölkənin mənafeyini nəzərə almalıdır. Azərbaycan, Gürcüstan, Rusiya, İran, Türkiyə ilə həmsərhəddir. Ölkənin milli mənafeyi tələb edir ki, bu dövlətlərlə balans siyasəti vasitəsi ilə milli təhlükəsizlik təmin edilsin. Milli mənafe və dövlətlərin xarici siyasət tarixi göstərir ki, balans siyasətinə üstünlük verən dövlətlər öz təhlükəsizliyini daha yaxşı qoruyurlar.

Güclü ordunun yaradılması beynəlxalq aləmdə dövlətin nüfuzunu gücləndirir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. B., 1997.
2. Макеев В.В. Политика и безопасность. В., 1998.
3. Гаджиев К.С. Геополитика. Москва, 1997.
4. Qasımov M. Azərbaycanın xarici siyasəti. B., 1997.
5. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. B., 2002.

Аббас ОРУДЖАЛИЕВ

СТРАТЕГИЯ ВОЕННОЙ ОБОРОНЫ

Резюме

Армия защищает национальные интересы, обеспечивает национальную безопасность и предотвращает любые формы агресии, направленные против народа.

Мощь армии отражается в национальных, социально-политических, морально-этических качествах общества. Формирование армии является центральным моментом становления государства. Национальная армия Азербайджана была реорганизована заново на основе современной военной концепции, где были учтены новые тенденции и направления военного строительства.

Один из главных моментов в становлении армии является определение страрегии, где немаловажную роль играет учитывание геополитических преимуществ.

История показала, что Азербайджанская Республика в состоянии защитить свою независимость. В формировании армии слудует уделить особое внимание к следующим моментам: обеспечению защиты суверенности и независимости страны; защите целостности страны; обеспечению безопасности государства путем представительства в международных и региональных организациях; ведению благоприятной геостратегической политики направленной на защиту интересов страны; использованию как дипломатических, так и силовых методов решения вопроса возврашения оккупированных территорий.

Abbas ORUJALIEV

THE GEOPOLITICAL ADVANTAGE OF THE COUNTRY IN MILITARY STRATEGY

Summary

The army protects national interests of a state, ensure its national security and prevent it from any aggression.

The power of the army reflects the national, social-political, moral-ethic face of a society. The army construction is a content of a state construction. The national army of Azerbaijan is being completed again according to the modern military system its organization structure is made new military strategy, tendencies of a military professional training.

One of the main features of the army construction is preparing a strategy. The geopolitical advantage of a country plays a great role in preparing a military strategy.

Historical political processes show that the Azerbaijan Republic has a power to protect its political being as an independent state. Protecting political being depends on the force of army besides the several factors. For the construction of the National army the following duties must be taken into consideration. The first: the army must have the power to protect an aria, to ensure the security, the second: the army construction must be up to the requirement of the military strategy of the developed countries, especially the claim level of NATO. The third: the experience of territorial wars happened lately shows that superiority must be given to the professional army units.

The fourth: the economical development of the country must be directed to strengthen the army. The fifth: military force must be connected with the political diplomacy.

Ağasəlim HƏSƏNOV

AZƏRBAYCANÇILIQ İDEYASI VƏ MƏNƏVİ DƏYƏRLƏR*

Etikanın tədqiqi obyektlərindən biri də milli ideya və mənəvi dəyərlərin qarşılıqlı əlaqəsi problemidir. İctimai, milli psixologiya milli-mənəvi dəyərlər ilə bağlı olan milli ideyanı milli mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi Azərbaycan xalqının tarixi inkişafından və mədəniyyətinin tarixindən kənarda öyrənmək qeyri-mümkündür.

Milli özünüdərk və milli kimliklə sıx bağlı olan milli ideya millətin formalaşması, yaranıb inkişaf etməsi, etnomədəni-mənəvi və etnopsixoloji proseslərlə əlaqədar bir fenomendir.

Xalqın millətə çevrilməsi prosesində onun ziyalı, vətənpərvər, müdrik nümayəndələrinin işləyib hazırladığı ideyalar milli və ümumbəşəri dəyərlərin sintezindən ibarət sağlam təfəkkürə əsaslanarsa mütərəqqi xarakter daşıyıb millətin siyasi-mənəvi inkişafında həlledici amil rolu oynaya bilər. Mürtəce zərərli mahiyyət kəsb edən, bəşəriyyətə müharibələr, zorakılıq, bədbəxtlik bəxş edən ideyalar (faşizm, irqçilik mürtəce millətçilik, erməni milli iedyası və s.) isə milləti uçuruma, fəlakətə, məhvə apara bilər.

«Milli ideyalar millətin yaranıb inkişaf etməsi ilə birlikdə formalaşır. Millətin milli mənlik şüurunun formalaşmasının özünüdərkini sürətləndirir. Milli ideyalar saf ideyalar şəklində deyil, çox vaxt müxtəlif formalarda və bayraqlar altında yaranıb inkişaf edə bilərlər. Onların ilkin formalarından milli-dini təəssübkeşlik ideyalarını, vahid dövlətə və xalqa mənsubluq şüurunu ümumbəşəri sərvətlərə malik olmaq uğrunda mübarizə aparmaq əzmini də göstərmək olar». (7, s.5)

Fəlsəfi-siyasi ədəbiyyata milli ideya anlayışını ilk dəfə XVIII əsrdə Fransada Adam Vasyxaunt gətirmişdir. Fransada milli ideya – milli təəssübkeşlik, millətçilik, şovinizm şəklində meydana gəlmişdir.

Gerçəkliyi dərk etmək vasitəsi, mentalitet sahəsinə aid, fərdi və ictimai şüurda təzahür edən milli ideya Fransa burjua inqilabının təsirilə bəşəriyyətin mənəvi inkişafının meyarı kimi Avropada meydana gəlmişdir.

Milli ideya cəmiyyətdə elə bir sağlam və dəyişməz əxlaqi qanun yaradır ki, milləti səfərbər edir, milli birliyi daha da möhkəmləndirir. Azərbaycan tədqiqatçısı V.Abdullayev çox düzgün olaraq milli ideyanın millət ideyasının «cəmiyyətin sosial, siyasi, iqtisadi, hətta əxlaqi-mənəvi birliyi hesabına nail olduğu, əsil millət adı ilə həyata keçirilən tərəqqinin meyarı rolunda çıxış etdiyini (2, s.9) qəbul edir. Görkəmli fransız tədqiqatçısı C.Mişle də milli ideyanı həm Vətən, həm də dünya həyatında başlıca olan kimi başa düşür.(5, s.141) Digər bir tədqiqatçı Morras da milli ideyanı milləti siyasi-mənəvi cəhətdən birləşdirən amil hesab edir. Onun fikrincə bu ideya «birləşdirici amillərdən ən genişi, ən möhkəmi və ən təkmilidir». (6, s.8)

Milli ideya sayəsində cəmiyyətdə mühüm siyasi-mənəvi proseslər baş verir: fərdlər cəmiyyətinin formalaşdırıcı suverenliyinin mənbəyi olan millət yaranır, millətin varlığını, azadlığını qoruyan vətənpərvərlər birliyi, mənəvi birlik daha da möhkəmlənir və mərkəzi ərazi konsepsiyası reallaşır və bütün bunlar dövlətçiliyin əsas atributları hesab olunur. Fransız tədqiqatçısı P.Aron da milli ideya sayəsində formalaşan millətin üç səciyyəyə malik olduğunu göstərir: birinci dövlətin həyatında hamının hərbi mükəlləfiyyət və ümumi seçki hüququ vasitəsilə iştirakı; ikinci həmin siyasi iradənin və ictimai mədəniyyətin (o cümlədən milli-mənəvi dəyərlərin – A.H.); üçüncü, milli dövlətlərin xarici amillərdən qeyri-asılılığı». (1, s.297)

---

* Məqalə fəlsəfə elmləri doktoru, professor A.Mustafayev tərəfindən çapa məsləhət bilinib.

Milli ideya və milli-mənəvi dəyərlər etnik idealların və sərvətlərin bərqərar olmasında, onların ruhi-mənəvi simvollar səviyyəsinə yüksəlməsində fəal rol oynamışdır. Milli ideya yüksək mənəvi dəyərlər və ənənələrlə birləşərək ümumi əhəmiyyət kəsb edən mənəvi sərvətlər əsasında ideya-siyasi kontekstdə təzahür edir. Ə.Daşdəmirov Azərbaycan ideyasının siyasi, mənəvi fenomen kimi Azərbaycan, etnikliyinin təbiətilə şərtləndiyini qeyd edir. Bu mənada müəllif düzgün olaraq azərbaycanlıların milli-mənəvi dəyərlərinin Qafqaz xalqlarının, türk xalqlarının mənəvi sərvətləri islam mədəniyyəti ilə bağlılığını açıb göstərir, bu dəyərlərin Şərq və Qərb sivilizasiyalarının, dünya dinləri və ideologiyaların qovşağında yarandığını qeyd edir. (3, s.11)

Azərbaycan ideyası XX əsrdə ölkəmizdə milli və Avropa nümunəli dövlətlərin yaranmasına səbəb oldu.

Hələ XIX əsrdə maarifçilik ideologiyasının irəli sürdüyü «vətən, dil, millət» şüarı, milli istiqlalçıların irəli sürdükləri Şərq və Qərb dəyərlərinin, ümumbəşəri və milli mənəvi dəyərlərinin sintezi olan «türkləşmək, islamlaşmaq, müasirləşmək» prinsipini rəhbər tutan məfkurə təşəkkül tapdı.

Ümummilli liderimiz mərhum Azərbaycan prezidenti Heydər Əliyev Azərbaycan ideyasının qaynaqları haqqında belə deyirdi: «XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizə köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin, Abbasqulu Ağa Bakıxanovun və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcılıq fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi». (4, s.2)

Tədqiqatçılar Azərbaycan ideyasının daha dərin tarixi qatlara gedib çıxdığını milli dövlətçilik ənənələrilə yanaşı eramızın əvvəllərindən XX əsrədək inkişaf etdiyini göstərirlər. Azərbaycan ideyasının təşəkkül tapıb inkişaf etdiyi dövrlərdə əsasən Şərq tipli milli dövlətlər yaranıb, Azərbaycan xalqı və milləti formalaşıb. Bu prosesdə dindaşlığa, Vətənçilik əxlaqına, ittihadçılığa və istiqlalçılığa əsaslanan milli-mənəvi dəyərlər formalaşıb inkişaf etmişdir. Bu dövrdə Azərbaycan milli ideyasının daşıyıcıları olan milli ziyalılar, xalqa milli mənlik şüuru aşılayırdılar. ABŞ tədqiqatçısı T.Svyatoxovski «Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə» əsərinin «Maarifçilik hərəkatından siyasi proqramlara doğru» fəslində XIX əsrdə Azərbaycan milli ideyasını iərli sürən milli ziyalıları «ənənəvi islam mədəniyyəti və Rusiyanın təmsil etdiyi müasir Avropa mədəniyyətinin qovuşmasında meydana gələn ictimai qüvvə və mədəni hadisə kimi» dəyərləndirərək «onların Avropa ideyalarının ötürücüsü və Azərbaycan cəmiyyətindəki dəyişikliklərin başlıca ünsürünə çevrildiklərini» göstərirdi. Müəllif çox doğru olaraq qeyd edirdi ki, «Azərbaycan tarixinin gedişinə önəmli bir təsir göstərmək taleyin hökmülə milli ziyalılara həvalə olunmuşdu». (8, s.36)

T.Svyatoxovski Azərbaycan cəmiyyətinin də məhz Avropa üsullu təhsil sayəsində müəyyən nailiyyət qazananların ənənəvi islam məktəbi ideyaları daşıyıcılarından ancaq islahatçı baxışları qəbul edənlərin ziyalı hesab olunduğunu, XIX əsrin əvvəllərində Azərbaycan ziyalılarının ilk qrupunun Qafqaz canişinliyində hərbi və mülki xidmətdə olan və bunun sayəsində Rusiya mühitilə tanış olan azsaylı nümayəndələrindən ibarət olduğunu göstərir. T.Svyatoxovski milli ziyalıların artmasına səbəb olan amilləri azərbaycanlıların canişinlikdəki hökumət idarələrində işləmək imkanlarının genişləndirilməsi, Rusiya, Tibilisidəki ali məktəblərdə, Qori Müəllimlər Seminariyası, hərbi məktəb və «rus-tatar» məktəblərində təhsil almaları ilə izah edir. Nəticədə jurnalist, müəllim və ədəbi yaradıcılığa meyli və bağlılığı olanlardan ibarət milli ziyalılar yarandığını diqqətə çatdıran

müəllif XIX əsrin II yarısında «rus ziyalı təbəqəsi əsasında modelləşən milli ziyalıların elə bir vüsət aldığını qeyd edir ki, hətta qərbpərəst və xalqçıların da öz qruplarını yaratdıqlarını göstərir.

Qeyd etmək lazımdır ki, milli ideyanın əsasında milli-mənəvi dəyərlər etnofəlsəfi, etnomədəni ənənələr qarşılıqlı təsirdə və qarşılıqlı əlaqədə bir-birilə çulğalaşır.

Milli ideyanın XIX əsrdə maarifçilər, maarifçi demokratlar tərəfindən, XX əsrin əvvəllərində isə istiqlalçılar və millətçilər tərəfindən irəli sürülüb inkişaf etdirilməsi haqqında H.Hüseynov, Z.Göyüşov, M.Ağamirov, F.Köçərli, İ.Rüstəmov, M.Məlikova, Ə.Mirəhmədov, T.Əhmədov, Ə.Daşdəmirov, İ.Məmmədzadə, Ə.Tağıyev, A.Mustafayev, K.Talıbzadə, A.Balayev, N.Nəsibzadə, D.Hüseynova və b. ətraflı bəhs etmişlər.

Ə.Daşdəmirov düzgün olaraq milli ideyanın fəlsəfəsini tarixdən ayrılmaz olduğunu, milli ideyanın fəlsəfəsinin ən mühüm probleminin milli mədəniyyətin hərəkətini bildirən kateqoriya kimi keçmiş, indi və gələcəyin – onun tarixi mövcudluğunun bu əsas meyarlarının qarşılıqlı əlaqədə olması probleminin olduğunu göstərir: «Bu rakursda Azərbaycan milli ideyasının fəlsəfi problemi hər şeydən əvvəl etnomədəni problem kimi təsəvvür olunur. Etnomədəni axtarışlarında artıq XIX əsrin ortalarında Azərbaycanın intellektual elitası mənəvi mənbə kimi islam ideya-fəlsəfi ənənələrlə yanaşı Azərbaycan İntibahının nəhənglərinin fəlsəfi – mənəvi irsinə də müraciət edirdilər». (3, s.36)

Müəllif düzgün olaraq Azərbaycan milli ideyasının liberal demokratik istiqamətilə fərqlənən maarifçilik ideologiyası zamanı meydana gəldiyini və onun əsasında ümumbəşəri və xalqımızın milli-mənəvi dəyərlərinin durduğunu diqqətə çatdırır: «Azərbaycan ideyası milli ideya kimi yenidən yaranan liberal-demokratik hərəkat olan Azərbaycan maarifçiliyinin son mərhələsində meydana gəlmişdir. Müasir Azərbaycan mədəniyyətinin yaradıcıları onun əsasına şəxsiyyət azadlığı, humanizm, sosial ədalət ideallarının təməlini qoydular, onlar dini fanatizmi, klerikalizmi tənqid etdilər. XIX-XX əsrlərin Azərbaycan Musiqisi, dramaturgiyası, poeziyası və ədəbiyyatında aydın təcəssümünü tapan ənənələr, heyrətamiz şəkildə xalq dünyaduyumunun ifadəsi olan dəyərlər yarandı. Bu ənənələrdə güclü antifeodal, antiçar müstəmləkə əleyhinə istiqamətilə ifadə edən ədalətli dünya quruluşu vasitəsi və yolu ilə özünəməxsus xalq həyat tərzi, mənəvi axtarışlar öz əksini tapıb.

Maarifçilik mədəniyyəti və ideologiyası olan bu ənənələrilə milli şüur, milli dirçəliş və tərəqqi uğrunda mübarizə qovuşur. Bunun əsasında «millətin sıxlaşması», «milli hisslər» ideyaları irəli sürülür, müasir Azərbaycan mədəniyyətinin çoxəsrlik tarixinin yeni mərhələsində onun ruhi-mənəvi, sosial-fəlsəfi, ideya-estetik əsasının quruculuğu gedirdi.

Müstəqillik illərində milli ideyanın dərin inkişafı, milli özünüdərkin ideya-nəzəri və ideoloji formalarının keyfiyyətcə yeni inkişafı dövrü başlandı. Milli ideya millətin bütün təbəqələrinə və subetnik strukturuna nüfuz etdi.

Beləliklə, milli ideya milli-mənəvi dəyərlərlə qarşılıqlı əlaqə və qarşılıqlı təsir şəRaitində inkişaf etmişdir. Milli ideya millətin milli özünüdərki milli şüuru, milli maraqları, milli ideologiyası, mənəvi və siyasi ideallar axtarışı ilə bağlı olmuşdur.

Milli ideya və milli ideologemlər milli-azadlıq hərəkatının və totalitarizm əleyhinə mübarizənin güclü hərəkətverici amili olmuşdur. Milli ideya kütləvi təsir vasitəsi kimi kütlələrin şüuruna güclü təsir etmişdi.

Azərbaycanda Qarabağ hadisələri milli şüuru oyadaraq bütün əhalini siyasiləşdirdi, vətənçilik əxlaqı ətrafında birləşdirdi və xalq antiseperatist, antierməni və antisovet istiqamətlərilə fərqlənən milli ideya ətrafında milli birlik yaratdı.

Milli ideyalar, bəzən birləşdirici qüvvə rolu oynamaya da bilər. Bu zaman siyasi və etnik, kütləvi və fərdi davranışlar arasındakı fərqlər onu siyasi hakimiyyət uğrunda mübarizə vasitəsinə də çevirə bilər. Bir sözlə milli ideya öz etnik aspektlərinə görə güclü, siyasi aspektlərinə görə isə ziddiyyətli, konfliktli və qeyri-ardıcıl ola bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Aron R. Poyx et gnerre entra les nations. Paris, 1962.
2. Abdullayev V.İ. Milli şüurun formalaşmasında siyasi amillərin rolu. Nam.dissert. Bakı, 1998.
3. Дашдамиров А. Национальная идея и этничность. Москва, 1996.
4. Əliyev H. Yeni 2001-ci il münasibətilə Azərbaycan xalqına müraciəti //«Respublika» qəzeti, 30 dekabr, 2000.
5. Мишле Т. Народ. Москва, 1965.
6. Моррос Г. «Мои политические мысли». Москва, 1986.
7. Tağıyev Ə.M., Mustafayev A.X., Balayev M.A. Azərbaycanda milli hərəkat ideyalarının yaranması və tarixi təkamülü (XIX əsrin sonu XX əsrin əvvəlləri). Bakı, 1994.
8. Svyatoxovski T. Rusiya və Azərbaycan. Bakı, «Xəzər Universiteti» nəşriyyatı, 2000.

Агасалим ГАСАНОВ

ИДЕЯ АЗЕРБАЙДЖАНСТВА И МОРАЛЬНЫЕ ЦЕННОСТИ

Резюме

В статье автор анализирует развитие идеи азербайджанства и реализация ее в азербайджанской действительности, ее взаимосвязь с национально-нравственными ценностями Азербайджана, сформировавшимися на протяжении веков, национальным самосознанием и собственными традициями государственности, принадлежностью к единому народу, патриотическим поведением с философско-этической точки зрения.

Анализируя нравственные аспекты идеи азербайджанства автор делает экскурс в историю и представляет ее как основу национальной идеологии в наше время, в период независимости, а также как закон здоровой морали, фактор национально-нравственного единства.

А.Гасанов обращает внимание на то, что идея азербайджанства представляет синтез национальных и всемирных ценностей, а свобода личности взаимосвязана с гуманизмом, идеями социальной справедливости.

Agasalim HASANOV

IDEA OF AZERBAIJANISM AND MORAL VALUES

Summary

In the article the author makes an analysis of emergence, development of Azerbaijanism idea. Its realization in Azerbaijan reality, its interrelation with national-moral values of Azerbaijan, having formed for centuries, national self-consciousness and own traditions of statehood, belonging to a unite people, patriotic behaviors from the philosophical and ethical point of view. On analyzing the moral aspects of azerbaijanism idea the author makes an excursus to history and presents it as a foundation of national ideology of our days in the period of independence, as well a law of healthy morals, factor of national-ethical unity.

A.Hasanov pays attention to that idea of azerbaijanism referents synthesis of the national and universal values, and freedom of personality is interrelated with humanity ideas of social justice.

Əhədi Hadibeglu Əsğər Əlisahib oğlu
Baki Dovlət Universiteti «Sosiologiya» kafedrasının aspirantı

İRAN CƏMİYYƏTİNDƏ İCTİMAİ TƏBƏQƏLƏŞMƏ VƏ MÜHARİBƏ ƏLİLLƏRİNİN İCTİMAİYYƏTDƏ MÖVQEYİ*

Əgər sosiologiyanı statik və dinamik hissəllərdən ibarət olan bilik sahəsi kimi nəzərdən keçirsək, onda ictimai quruluş sosiologiyasından ictimai dəyişikliyin sosiologiyasından bəhs etmək olar.

Bəzi sosioloqlar ictimai nizamı (sistemi) və sabitliyi müdafiə edir, bəziləri isə ictimai dəyişiklik və yeniləşmə məsələsində təkid edirlər. Lakin bir məsələ aydındır ki, cəmiyyətin bir hissəsi, o cumlədən cəmiyyətin təbəqələşməsi müəyyən sistemə malik olub əsasən səbatlıdır, başqa bir hissəsi isə daim dəyişməkdədir. Sosiologiyanın banisi hesab olunan Oqyust Kont da sosiologiyanın iki hissəyə stabil və daim dəyişiklik axtaran hissələrə bölürdü. Hətta bəzi dinlər və etigadı məktəblər, o cümlədən islam dini də dini ehkamları və qanunları iki hissəyə sabit-ilkin hökmlərə və zamanın tələbinə müvafiq olaraq dəyişən-ikinci dərəcəli ehkamlara bölürlər.

Biz ictimai təbəqələşmə məsələsini nəzərdən keçirərkən qeyd etməliyik ki, sosiologiyada iki anlayışdan istifadə olunur: sinif və strat.

Təbəqələşmədə siniflərə önəm verən baxış əsasən marksist metedologiyadır. Belə baxışda ictimai quruluşda müxtəlif ictimai təbəqələrin mərkəzi (əsas) mövqeyi əmək bölgüsü və istehsal vasitələrinə olan münasibətlə müəyyən olunur. Bu baxımdan iqtisadi vəziyyətlərinə görə ictimai təbəqələri belə təsnif etmək olar: yuxarı təbəqə, orta təbəqə və aşağı təbəqə. Yuxarı təbəqənin heç bir iqtisadi problemi yoxdur. Orta təbəqənin gəliri ərzaq məhsullarının zəruri həyat xidmətlərinin və s. təmin edilməsi üçün kifayət edir. Lakin aşağı təbəqə yalnız ərzaq və qida məhsullarının təmin edilməsinə qadirdir. Bu təbəqə bütün həyatı boyu öz işlərini borcla təmin edir. (9, s.116).

Belə bir sual qarşıya çıxır: insanlar yalnız iqtisadi və maddi parametrlərə malikdirsə, onda ictimaiyyətdə başqa həyat parametrlərini nəzərə almamaq olarmı? Görəsən insanlar yalnız istehsal və istehlak üçündürmü? Nəzərdən keçirdiyimiz baxış bu suala çox çətin cavab verə bilər. Başqa bir baxışa əsasən fərdlərin ictimai təbəqələşməsində üç amili-qüdrət və bacarığı, sərvəti və təhsili təsirli bilsək, onda deməliyik ki, təkcə iqtisadi amil ictimai təbəqələrin təyin edilməsində əsas şərt deyil, əksinə, onun üçün lazım olan şərtlərdən – amillərdən biridir.

Nəzərə almaq lazımdır ki, ictimai təbəgələşmə haqqında çoxlu baxışlar və nəzəriyyələr irəli sürülmuşdür və onların hamısı haqqında bir məqalədə bəhs etmək imkan xaricindədir. Ona görə də diqqəti daha çox Diyvesun, Morun, Nayibinin və Təvəssölinin ictimai təbəqələşmə haqqında nəzər və baxışları üzərində cəmləşdirərək öz mövqeyimizi əsaslandırmaqla kifayətlənməli olduq.

İctimai təbəqələşməni ictimai qeyri-bərabərliyin nizamlı (sistematik) quruluşunun, başqa sözlə desək, maddi və mənəvi mükafatların qeyri-bərabər bölüşdürülməsinin silsilə şəklində təsnifatı kimi izah etmək olar.

Ən əvvəl istehsal təbəqələşməsi nəzəriyyəsini nəzərdən keçirək.

Bu nəzəriyyə Kinqezli Devis və Vilbert Mur (1945-ci il) tərəfindən irəli sürülmuşdür. Corc Riterz bu nəzəriyyəni daha tanınmış nəzəriyyə kimi səciyyələndirir. Həmin nəzəriyyəyə görə, dünyada heç bir cəmiyyət sinifsiz deyildir və təbəqələşmə istehsalla şərtlənmiş

* Məqalə fəlsəfə elmləri doktoru, professor İ.Rüstəmov tərəfindən çapa məsləhət bilinib.

zərurətdir. Bu halda təbəqələşmə bir quruluş kimi nəzərdən keçirilir; təbəqələşmə onu yaradan sistemin daxilinə deyil, mövqelərin nizamına – sisteminə aid edilir. Deməli, müəyyən mövqelər müxtəlif dərəcələri şərtləndirir. Lakin fərdlərin müxtəlif mövqelərə necə çatmalarına diqqət yetirilmir. Məsələnin belə qoyuluşu iki cəhətdən maraqlıdır: Birincisi, cəmiyyət layiqli şəxsləri öz bacarıqlarına görə müxtəlif mövqelərə, vəzifələrə meyl etməsinə inandırır. İkincisi isə öz bacarıq və qabiliyyətlərinə görə müəyyən vəzifələr çatdıqda cəmiyyət bu vəzifələrin yerinə yetirməsini onlara öyrədir. Bu baxımdan Diyus və Mor layiqli ictimai təyinat problemi haqqında üç dəlil irəli sürürlər.

Birincisi, bəzi vəzifələr başqa vəzifələrə nisbətən daha xoşagələndir. İkincisi, bəzi vəzifələr başqa vəziyələrlə müqayisədə cəmiyyətin yaşaması üçün daha mühümdür. Üçüncüsü, müxtəlif ictimai vəzifələr, mövqələr müxtəlif cür bacarıq və istedadlar tələb edirlər. (7).

Deyvis və Murun fikrincə, hər bir işin yerinə yetirilməsi üçün fitri istedad, bacarıq və xususi vərdiş tələb olunur. Odur ki, fərdlər tutduqları mövqedə öz rolunu oynamaq üçün zəruri olan fəaliyyətlərini biruzə verməlidirlər. Beləliklə, ictimai mövgeyin əldə edilməsində iki mühüm amil – səlahiyyət (hakimiyyət) və ixtisas çox əhəmiyyətlidir. (6).

Naibi öz araşdırmalarında belə bir nəticəyə gəlmişdir ki, Diyus və Morun ictimai mövqeyin əldə edilməsində həlledici məna verdikləri iki amil – səlahiyyət və ixtisas ayrı-ayrılıqda ictimai mövqeyin təyin olunmasında müdafiə rolunu oynaya bilməz. Onun fikrincə, ixtisas (təhsil və ya əməli məharət) bir ictimai mövqeyə aid olan vəzifələrin yerinə yetirilməsi üçün zəruridir və səlahiyyət də ondan yaranır; bu iki amil birlikdə qeyd olunan ictimai mövqeyi sosial baxımından səciyyələndirə bilir.

Ona görə də ictimai mövqeyin əhəmiyyətinin müntəzəm surətdə öyrənilməsi və araşdırılması ixtisas və səlahiyyətlə əlaqədardır. Lakin səlahiyyət və ixtisas meyarlarının bilavasitə müəyyənləşdirilməsi çətin olduğundan dolayi vasitələrdən, məsələn, eksperimentlərdən istifadə edilməlidir.

Doktor Naibi öz tədqiqatlarında belə nəticə çəxarmışdır ki, şəxsin, fərdin peşə nüfuzu onun ictimai mövqeyinin qeyri-maddi, zahiri tərəfidir. Buna görə də İranda peşə quruluşundan standart göstərici kimi, ictimai təbəqələşmənin zahiri parametri kimi istifadə etmək olar.

İctimai təbəqələşmənin araşdırılmasını aparan Məşğulluq uzrə rəylərin öyrəNilməsinin Milli Mərkəzinin (National opinion reasearsh center), Hac (Hadge) və başqaları (1967-ci il) bu qənaətə gəlmişlər ki, təbəqələşməni məşğulluğun dəyərləndirilməsi kimi nəzərdən keçirmək olar.

Lakin belə bir sualla rastlaşırıq ki, ictimai prestiji formalaşdıran ictimai məşğulLuğun mövqeyinin nisbi olması nəzərə alınmaqla o, cəmiyyətdə ictimai təbəqələşməni dəqiq dəyərləndirirmi yoxsa ondan da dəqiq olan başqa bir amil vardırmı? Bu haqda tədqiqatçıların araşdırmaları göstərir ki, ictimai təbəqələşməni səciyyələndirmək üçün peşə pristiji yararlıdır. Fərdin mövqe məqam əldə etdiyi dəyərlər bir cəmiyyətdən başqa bir cəmiyyətə keçdikdə fərqli olduğuna görə onların sayı da cəmiyyətin mürəkkəbliyindən asılı olaraq artır və ya azalır. Təbəqə mövqe, qüdrət və s. fərdin və insan toplumunun (qrupunun) mövqeyini formalaşdırmış olur. Bir çox sosiaoloqlar peşəni fərdin (şəxsiyyətin) mövqeyinin əsas amili hesab edirlər.

Amerikada 1946-cı ildə Nurs və Hatt tərəfindən aparılan məşhur tədqiqat işində əldə edilən əsas nəticə də bu baxımından maraqlıdır. Həmin tədqiqatda respondentlərdən (3539 nəfər) tələb olunmuşdur ki, müxtəlif peşələri (88 peşə) ictimai mövqeyə görə təsnif etsinlər və dərəcələrə bölsünlər. Nəhayət, respondentlərin rəylərinə əsasən peşələrin sıralanması meyar əldə olundu.

İndiyədək o miqyasdan fərdlər, müxtəlif ictimai qruplar və müxtəlif cəmiyyətlər arasında mövqeyin hesablanması üçün istifadə olunur. İnkels və Rozi bu fikirdədirlər ki,

peşə mövqeyinin miqyası bir çox cəmiyyətlər üçün yararlıdır və ümumiyyətlə ictimai mövqeyin öyrənilməsi üçün istifadə oluna bilər (5).

İctimai təbəqələşmə və prestijli təbəqələrin müəyyən edilməsi üçün Trimen dünyanın 60 ölkəsində mövqeyin dəyərləndirməsi miqyasında peşənin rolundan istifadə etməklə geniş tədqiqatlar aparmışdır. Bu ölkələrdə ictimai təbəqələşmədən əldə edilən nəticələr arasında güclü asılılıq olduğu aşkar edilmişdir. Asılılıq meyarı r=0,88-dən 0,93-dək olmuşdur. Bu cür tədqiqatlar aparılan 60 ölkədə peşə pristijinin stukturunun oxşar olmasına əsasən Trimenin beynəlxalq standart miqyası müxtəlif cəmiyyətlər üçün nümunə kimi tanınmışdır. İndi bu nümunə ictimai təbəqələşmənin müəyyən edilməsində geniş şəkildə tətbiq olunur (6) və Nayibi (1381-ci il). Nayibi Trimenin miqyas meyarlarını İranda yerli şəraitə tətbiq etmiş və standartlaşdırmışdır. Bu standartlaşma 60 ölkənin peşə pristiji strukturu ilə yüksək səviyyədə uyğundur: r=0,93.

İctimai təbəqələşmənin öyrənilməsinin əhəmiyyəti bundadır ki, o, ən səlahiyyətli adamları daha mühüm ictimai vəziyələrdə, mövqelərdə işləmək üçün (hakimiyyət strukturlarında, yaxud ictimai mövqeyi olan ixtisaslarda) həvəsləndirir. Buna əsasən ictimai təbəqələşmə üçün 5 səviyyə müəyyən edilmişdir. Bəzi hallarda fərdlər iki səviyyə arasında qərar tuturlar. Ümumiyyətlə, ictimai mövqe səviyyələri aşağıda qeyd olunan 9 təbəqəyə şamil edilir:

- Birinci təbəqə xalqın mütləq icmaya malik olduğu təbəqədir və xeyli yüksək mərtəbədə (dərəcədə) qərar tutur.
- İkinci təbəqə elə bir təbəqədir ki, xalq nisbi icmaya malikdir, həm yüksək dərəcəyə, həm də xeyli yüksək mərtəbəyə (dərəcəyə) malik olur.
- Üçüncü təbəqə elə bir təbəqədir ki, xalq mütləq icmaya malikdir və yüksək dərəcədə qərar tutur.
- Dördüncü mərtəbə elə bir mərtəbədir ki, xalq nisbi icmaya malik olub yüksək və ya orta mərtəbədə qərar tutur.
- Beşinci təbəqə elə bir təbəqədir ki, xalq mütləq icmaya malik olub orta mərtəbədə qərar tutur.
- Altıncı təbəqə elə bir təbəqədir ki, xalq nisbi icmaya malik olub orta və ya aşağı mərtəbədə qərarlaşır.
- Yeddinci təbəqə elə bir təbəqədir ki, xalq mütləq icmaya malik olub aşağı mərtəbədə qərarlaşır.
- Səkkizinci təbəqə elə bir təbəqədir ki, xalq nisbi icmaya malik olub aşağı və ya çox aşağı mərtəbədə qərar tutur.
- Doqquzuncu mərtəbə elə bir mərtəbədir ki, xalq mütləq icmaya malik olub çox aşağı mərtəbədə qərar tutur (6).

Əlbəttə, nəzərdən qaçırmaq olmaz ki, ictimai təbəqələşmənin öyrənilməsi üçün üç metod vardır. Yuxarıdakı şərhlərdə yalnız onlarlan biri ilə kifayətlənmişik. Biz öz araşdırmalarımızda zehni metodu tətbiq etmiş və maraqlı nəticələr əldə etmişik.

İctimai təbəqələşmənin araşdırması üçün tətbiq edilən üç metod aşağıdakılardan ibarətdir:

1) Eştehardi metodu: bu metodda fərddən sual olunur ki, başqa fərdlər hansı ictimai təbəqədə yerləşirlər. Bu təbəqəyə aid olanların çoxu adətən tanınırlar.

2) Zehni metod: bu metodda fərdin özü öz ictimai təbəqəsini təyin edir. Bu metodda fərdlərdən tələb olunur ki, onlar özlərini aid etdikləri ictimai təbəqəni göstərsin.

3) Obyektiv metod: bu metodda tədqiqatçılar ictimai təbəqəyə daxil edilməyin əsas səbəblərini və cəmiyyətin bölündüyü təbəqələri müəyyən edirlər. Fərdlər müəyyən olunmuş əsas səbəblərə görə dəyərləndirilir və həmin səbəblər əsas götürülməklə ictimai təbəqələr təsnif olunurlar (1).

Belə tədqiqatı biz müharibə əlillçərinin, əlillərinin ictimai mövqeyini öyrənmək üçün aparılmışıq. Bu tədqiqatda survey tədqiqatı metodundan istifadə etməklə ixtiyari seçilməni nümunə göturməklə 3654 müharibə əlili, 188 nəfər adi adam, 630 nəyər elm və mədəniyyət işçisi, 218 nəfər, mütəxəssis və unversitet müəllimi əhəatə olunmuşdur. Bu halda iki cür (biri standart, digəri isə müəllifin özünün hazırladığı) sorğu anketi hazırlanmış, müharibə əlillərinin mövqeyi araşdırılmışdır. Tədqiqat zamanı İranda doktor Nayibi tərəfindən tətbiq edilmiş Trimenin mövqeyin dəyərləndirilməsi sorğu anketindən istifadə edilmişdir.

Statistik məlumatların təhlilindən məlum olmuşdur ki, müxtəlif qruplar – adi adamlar, unversitet müəllimləri, mütəxəssislər, elm-mədəniyyət işçiləri, cavanlar vəs. müharibə fədəkarlarını orta dərəcəyə meyl edən yüksək dərəcə səviyyəsində olmalarını vacib hesab etmişlər. Amma burada əsas məsələ odur ki, müharibə fədakarlarının baxışları bütün qruplardan fərqlənir. Qeyd etməliyik ki, biz tədqiqat zamanı elə bir yeni elmi nəticəyə əldə etmişik ki, ictimai təbəqələşmənin dəyərləndirilməsində ona daha az diqqət yetirilmişdir.

İranda ictimai heysiyyətin quruluşu doktor Nayibi tərəfindən tənzim edilmiş və biz də öz araşdırmalarımızda sübut etməyə çalışmışıq ki, müxtəlif ictimai amillərin ona təsiri aşağıdakı kimi özünü göstərir.

Birinci təbəqə: çox yüksək dərəcəli heysiyyat səviyyəsi.

İctimai mövqelər: alim, respublika prezidenti, unversitet müəllimi, mütəxəssis həkim, nazir, məhkəmə sədri.

İkinci təbəqə: yüksək dərəcəli, yaxud çox yüksək dərəcəli həysiyyat səviyyəsi.

İctimai mövqelər: məhkəmə, təyyaraçi, iqtisadiyyat üzrə elmlər namizədi, ədliyyə idarəsinin rəisi, parlament sədri, parlament nümayəndəsi, şəhər bələdiyyəsi işçisi, yazıçı, qubernator, ali ruhani, memar-mühəndiş.

Üçüncü təbəqə: yüksək dərəcəli heysiyyat səviyyəsi

İctimai mövqelər: psixoloq-elmlər namizədi, kompüter mühəndisi, əczaçı-elmlər namizədi, stomotoloq, səfir, sosioloq-elmlər namizədi, tikinti mühəndisi, kimyaçı, ədliyyə vəikli, baş direktor, icra başçısı, nazir müavini, həkim, mütərcim, bank direktoru, qəzetin baş redaktoru.

Dördüncü təbəqə: yüksək dərəcəli, orta dərəcəli heysiyyat səviyyəsi.

İctimai mövqi: böyük zavod sahibi, böyük şirkət sahibi, aqronom, kinofilm rejissoru, şəhər şurasının nümayəndəsi, bəstəkar, musiqiçi, peşəkar idmançı, general, hərbçi, mühəndis-texnik, orta məktəb müəllimi, hərbçi-polkovnik, idxalat-ixracat taciri, mama, ibtidai sinif müəllimi, qəzetin məsül katibi, idarə rəisi, partiyanın baş katibi, rayon rəhbəri, nəqqaş-rənqsaz, heykəltaraş, həkim-veterenar, ibtidai məktəb direktoru, zabir, baş tibb başçısı, 8-illik məktəbin müəllimi, musiqi müəllimi, müxbir, şəfqət bacısı, kitab SAtıcısı, diş texniki, topdansatınşla məşğul olan bazar taciri, həmkarlar təşkilatının sədri, imam-cümə, xanəndə, ruhani, avtomobil salonunun sahibi.

Bişinci təbəqə: orta dərəcəli heysiyyat səviyyəsi.

İctimai mövqelər: mühasib, xəritəçəkən-kartoqraf, kiçik zavod sahibi, radio-televiziya diktoru, zərgər, qizli satan, uşaq bağçasının tərbiyəçisi, memar, kiçik şirkət sahibi, itehsal müəssisəsi sahibi, çörəkbişirən, hotel sahibi, fotoqraf, operator (film çəkilişində), böyük super market sahibi, xalça satan, zavodun texniki fəhləsi, radio-telivizor texniki, tokar, texnik-elektrik, xırdavat taciri, adi idarə məmuru, avtoçilingər, toyuqçuluq fermAsının sahibi, elektrik avadanlıqları çilingəri, aşpaz, avtomobil təlimatçısı, qəlibçi, elektrik avadanlıqları mağazasının sahibi, qənnad, dərzi, qapı-pəncərə düzəldən, avtomobil dəmirçisi, xarrat, qadın bərbəri, məişət avadanlıqları dükanın sahibi, tikinti podratçısı, kişi bərbəri, ehtiyat hissələri satan, rənqsaz, fəhlə briqadiri, restoran işçisi, yeməkxana işçisi,

bəzzaz, dəmirçi, qaynaqçı, makinaçı, santexnik, qadın katibə, xalçı sənayesi işçiləri, ərzaq məhsulları satıcısı sayğac nəzarətçisi, meyvə satan, qəssab, pinəçi, şüşə salan, yağlayıcı, sandviç satan.

Altıncı təbəqə: orta, yaxud aşağı dərəcəli heysiyyat səviyyəsi.

İctimai mövqelər: uşaq mürəbbisi, bənna, məddah, fəhlə, mədən fəhləsi, sənətkar, ticarət müəssisəsinin sahibi, vizitor, əmtəə göstərən, sadə zavod fəhləsi, kişi katib, rövzəxan, telefonçı, satıcı, sadə tikinti fəhləsi.

Yeddinci təbəqə: aşağı dərəcəli heysiyyat səviyyəsi.

İctimai mövqelər: qaraj sahibi, qəzet satan, xaş biçirən, süpurgəçi, kiçik dükançı.

Səkkizinçi təbəqə: aşağı dərəcəli, çox aşağı dərəcəli heysiyyat səviyyəsi.

İctimai mövqelər: çayxanaçı, xadimə, xırda dükan sahibi, hammal, ayaqqabi silən, səyyaf, küçə satıcısı, duz satan, quru çörək satan.

Doqquzuncu təbəqə: çox aşağı dərəcəli heysiyyat səviyyəsi.

İctimai mövqelər: siqaret satanlar, talon satanlar.

Trimenin və Nayibinin iddialarına əsasən ölkələrin ictimai təbəqələşməsinin quruluşu təxminən bərabər olsa da, cins, yaş və təhsil kimi amillər, peşə yönumü, təbəqənin peşə rəngarəngliyi (ikinci peşə), coğrafi və mədəniyyət rəngarəngliyi, iqtisadi inkişaf xalqın dəyərləndirilməsində təsirli deyildir.

Bizim apardığımız tədqiqatda da məlum olmuşdur ki, yuxarıda göstərilən-amillər əlillərin həqiqətən ictimai mövqeyinin dəyərləndirilməsinə əsaslı şəkildə təsir etmir. Bizim araşdırdığımız sual belədir: xalqın ümumi sağlamlığının ictimai mövqeyin dəyərləndirilməsində nə kimi rolu vardır? Biz öz dəyərləndirilməmizdə (müharibə əllilləri haqqında) belə bir nəticəyə gəldik ki, xalqin (fərdlərin) ümumi sağlamlığı (Koldberg sınaqlarından istifadə olunmuşdur) onların ictimai dərəcələrinin, mövqelərinin dəyərləndirilməsində fərqli nəticələr göstərmişdir. Fərqli psixoloji sağlamlıq dərəcəsinə malik olmaq fərdlərin və qrupların heysiyyatının dəyərləndirilməsində fərqlənirlər. Bununla yanaşı zehni metodla fərdlərin prestijliyi səviyyəsi araşdırıldıqda aydın olmuşdur ki, fərdlər öz heysiyyat səviyyəsini təyin etdikdə eyni təbəqədən olsalar da, müxtəlif nəticələr göstərmişlər.

Ona görə də demək olar ki, fərdlərin məşhur olma səviyyəsini eştehardi və zehni metodlarla tədqiq etdikdə fərqli cəhətlər meydana çıxır. Aydın olmuşdur ki, fərdlər cəmiyyətin bütün icması içərisində öz pristijliyi səviyyəsini təyin edərkən fərqlənmələrinə baxmayaraq, özləri haqqında cəmiyyətin ümumi baxışlarını da fərqli şəkildə dəyərləndirirlər.

Tədqiqat zamanı gənclərin müharibə fədakarları haqqında rəyini soruşduq. Onlar müxtəlif qrupların cavab verdikləri kimi müharibə fədakarlarının dərəcəsinin yüksək, orta dərəcəyə meylli şəkildə olduğunu qeyd etdilər. Halbuki başqa bir sualda müharibə fədakarlarından soruşuldu: gənclər sizin heysiyyat səviyyənizi hansı həddə qiymətləndirirlər? Müharibə fədakarları bildirdilər ki, cavanlar onların heysiyyat səviyyəsini orta həddə dəyərləndirirlər. Müharibə fədakarlarından «Siz özünüzü hansı dərəcədə dəyərləndirirsiniz?» soruşduqda bütün cavablar toplandıqdan sonra məlum oldu ki, onlar özlərini orta dərəcədə dəyərləndirirlər. Müharibə əlillərinin və gənclərin fərqli baxışları göstərir ki, ictimai mövqeyi dəyərləndirmədə müxtəlif metodlar tətbiq edildikdə fərdlərin heysiyyat səviyyəsində fərqlər özünü göstərir. Başqa sözlə, fərdlər özlərini öz şəxsi baxışlarına görə 5-ci təbəqədə, cəmiyyət isə onları 4-cü təbəqədə görürlər.

Müharibə fədəkarlarının heysiyyatının zehni dəyərləndirilməsinə görə əldə edilən nəticələr aşağıdakı kimidir:

-Müharibə fədakarları öz ictimai prestij səviyyələrini orta səviyyədə olduğunu dəyərləndirmişlər.

-Fərdlərin cısmi problemləri nə qədər aşağı olarsa, onların ümumi prestij səviyyəsi bir o qədər çoxdur.

- Fərdin nə qədər iztirabı az olarsa, ümumi prestij səviyyəsi də bir o qədər çox olar.

-Fərdin ictimai fəaliyyətində xələl az olduqca ictimai prestij dərəcəsi də yüksək olar.

-Fərdin pərişanlıq səviyyəsi az olduqca onun ictimai prestiji çox olur.

-Fərdin yaşı çox olduqca onun ictimai prestiji çox olur.

-Fərdin müharibə əlilliyi faizi çox olduqca onun ictimai prestiji də yüksək olur.

-Fərdin aylıq gəliri çox olduqca onun ictimai prestiji səviyyəsi yüksək olur.

-Fərdin fobiyası və qorxusu az olduqca onun ictimai prestij səviyyəsi yüksəu olur.

-Fərdin fikri mütərəddidliyiaz olduqca onun ictimai prestij səviyyəsi də yüksək olur.

Bu nümunələrə əsasən belə bir nəticə çıxarırıq ki, fərdin sağlamlığı çox olduqca onun ictimai prestiji səviyyəsi yüksək olur. Bu məqalənin ümumiləşdirici məqamları aşağıdakılardan ibarətdir:

1. Məşhur olmaq təbəqələşmənin nəticəsinin sabit olması təsdiq olunur.
2. Məşhur olmaq təbəqələşmə ilə zehni təbəqələşmənin nəticəsi fərqlidir.
3. İctimai dəyişikliklər fərdlərin zəhni təbəqələşməsinə təsir edir.
4. Fərdi fərqlər, o cümlədən psixi sağlamlıq, fərdi xüsusiyyətlər fərdlərin zehni təbəqələşməsinə təsir edir.

İstifadə olunmuş ədəbiyyat

1. Təvəssoli Qolamabbas. Sosiologiyanın əsasları. Tehran, «Ney» nəşriyyatı, 1385.
2. Dilavər Əli. Humanitar ictimai elmlərin tədqiqində elmi-nəzəri əsasları. Tehran, «Roşd» nəşriyyatı. 1380.
3. Nayidi Huşəng. İranın ictimai təbəqələşməsi, nameye ulume ictimayi jurnalı № 20, Tehran, Tehran Universitetinin humanitar elmlər fakültəsi, 1381.
4. Hamen Heydər Əli. Davranış elmində elmi metodun tədqiqi. «Tehran Parsu» nəşriyyatı, 1373.
5. Məlik Həsən. Təbəqələrin, ictimai bərabərsizliyinin sosiologiyası. VII çap. Peyam-e Nur Universiteti, 1383.
6. Nayibi Huşəng. İranın ictimai təbəqələşməsi (diplom işi). Tehran Universiteti, 1381.
7. Carc Riterz. Müasir dövrdə sosiologiya nəzəriyyəsi. Elmi nəşriyyat (müərcim M.Səlasi). Tehran, «Elmi» nəşriyyat, 1376.
8. Əhədi Hadibəylu. Əsgər. Müharibə fədakarlarının ictimai ehtiyaclarının və heysiyyatının tədqiqi və münasib çıxış yolları. Tehran, Aziya mədəni araşdırmalar mərkəzi, 1385.
9. Rəcəbli A. Əhalinin ictimai təbəqələşməsi. //Cəbrlər jurnalı, № 4, BOU, 2005.

Ахади Хади Беджаи Асхарь

СОЦИАЛЬНОЕ РАССЛОЕНИЕ В ИРАНСКОМ ОБЩЕСТВЕ И ПОЗИЦИЯ ИНВАЛИДОВ ВОЙНЫ В ОБЩЕСТВЕННОСТИ

Резюме

Эта статья посвящена социальному расслоению в иранском обществе и позиции инвалидов войны в этом расслоении. Были сравнены, сгруппированы и анализированы разные направления, позиции и мнения о проблеме. Анализ информаций, полученных в результате социального опроса обыкновенных респондентов и инвалидов войны, опре-

делен мотив для вывода, что существуют различные моменты в определении позиции инвалидов войны в обществе.

Ahadi Hadi Beglu Asghar

SOCIAL CLASSIFICATION IN IRANIAN SOCIETY AND POSITION OF WAR-DISABLED PERSONS IN SOCIETY

Summary

The present article is dedicated to existing social classification and determining the position of war-disabled persons in the same classification. Different directions, positions, and opinions have been compared, classified, and analysed by the problem. At the result of social referendum analyses' taken from simple respondents and war-disabled persons, we come to a conclusion that a different notions is existing on determining the position of war-disabled persons in the society.

Mikayıl ƏKBƏROV
Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar
İnstitutunun kiçik elmi işçisi

DİASPOR MƏDƏNİYYƏT DAŞIYICISIDIR*

Mədəniyyət bəşəriyyətin təcrübəsinin məcmusu, tarixi proses, insanın yaradıcılıq – maddi və mənəvi nailiyyətidir. Mədəniyyətin inkişafında müşahidə edilən proseslərin gedişi insana və cəmiyyətə xeyirli nəticələr əldə etməyə şərait yaradır. İqtisadi, siyasi və sosial münasibətlərdə baş verən dəyişikliklər mədəni sahədə öz əksini tapır. Mədəniyyət milli dəyərlərə, adət-ənənələrə söykənərək müasirliyin təsiri nəticəsində yeni amillərlə zənginləşir, inkişaf prosesində yeni istiqamətlər, yeni çalarlar yaradır. Tərəqqi dedikdə ilk növbədə insani münasibətlərdə mədəni irəliləyiş nəzərdə tutulur. Bəşəriyyəti məhvdən qurtara biləcək amilin yalnız mədəniyyətin olacağı haqqında proqnozlar gündən-günə artmaqdadır. Təsadüfi deyildir ki, tədqiqatçılar cəmiyyətin mədəni durumunun nəbzini tutmaqla dünyanı anlamağa çalışırlar.

Bəşər mədəniyyətinin inkişafı üçün mənəvi dəyərlərin qorunub saxlanması başlıca amildir. Bu məsələnin Azərbaycan diaspor cəmiyyətləri üçün aktuallıq kəsb etməsi diqqəti cəlb edir. Bir çox ölkələrin inkişaf dəyərlərə tələbatı artıb. Müasir dövrdə mənəvi dəyərlərdən istifadə olunması hər bir diaspor üçün çox əhəmiyyətlidir.

Fəaliyyətindən, məşğuliyyətindən və dini etiqadından asılı olmayaraq hər hansı bir etik qrupa aid olan insanların müəyyən vaxtda öz vətənlərindən kənarda yaşamaqları və ictimai fəaliyyətlə məşğul olması diasporun formalaşmasına gətirib çıxarır.

Diasporun təşəkkülü və mövcudolma tarixi öz başlanğıcını mühacirət prosesindən götürür. Mühacirət hallarının kütləvi xarakter alması isə öz növbəsində diasporun yaranmasını zəruri edir.

Azərbaycanlılar minillər boyu özlərinin qədim torpağında yaşayaraq dünya mədəniyyətinə böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər Azərbaycanı parçalanmış, əhalisinin bir qismini yurd-yuvalarından didərgin salmış, deportasiyalara məruz qoymuş, bir-birindən ayrılmışdır. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edib dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar da çox olub. Hal-hazırda dünyanın bir çox ölkəsində – Rusiyada, Ukraynada, Baltikyanı dövlətlərdə, Avropada, Amerikada, müsəlman Şərqində iri Azərbaycan icmaları fəaliyyət göstərir.

Bu gün inkişaf üçün atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir qələbə müstəqil Azərbaycanın gələcəyinə nikbinliklə baxmağa imkan verir. Respublikamızın kiçik bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bütün həmvətənlərimizdə qürur və iftixar hissi doğurur.

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin payı vardır.

Azərbaycan diasporu və lobbisi məsələsindən danışarkən onlar arasındakı sərhədlərin politoloji cəhətdən müəyyən edilməsi üzərində dayanmaq lazımdır. Diaspora yaradılmır, amma içərisində iş aparmaq lazımdır, onu «təşkil etmək», yəni üzvləri arasında milli şüuru gücləndirmək tələb olunur. Onların içərisindən seçilmiş və maraqlarının müdafiəsinə çevrilmiş lobbi isə əslində təzyiq qrupu olub mövcud ölkənin hakimiyyət

* Məqalə fəlsəfə elmləri doktoru, professor A.Şükürov tərəfindən çapa məsləhət bilinib.

orqanlarına müəyyən məqsədəuyğun təsir göstərmək yolu ilə diasporun mənafelərini müdafiə edir.

Azərbaycanın dövlət müstəqilliyinin elan olunması bütün dünya Azərbaycanlılarının böyük sevincinə səbəb oldu. Yenicə azadlığına nail olan respublikamız xaricdəki Azərbaycan diasporları ilə sıx və qarşılıqlı əlaqələr qurmaq istiqamətində mühüm addımlar atmağa başladı. Xüsusən Azərbacan diasporlarına dövlət səviyyəsində diqqət artırıldı, onun ali və elmi müəssisələrində dərindən öyrənilməsi prosesi başlandı. Lobbiçilik anlayışı yaranaraq respublikamızda keçiirilən iqtisadi və dövlət quruculuğu işində ölkə vətəndaşları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımızın da yaxından iştirakı üçün zəmin yarandı.

1991-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü il 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd edilməsi lobbiçilik istiqamətində atılan ən mühüm addım oldu.

Dünya Azərbaycanlılarının Həmrəylik gününün 31 dekabr təyin olunmasında əsas məqsəd il ərzində diaspor istiqamətində görülən işlərə yekun vurmaq və gələn il üçün işlərin planlaşdırılması idi. Milli maraqlar Azərbaycan diasporunun birləşməsini, yaxşı təşkilatlanmasını və beynəlxalq birlikdə mövqeyinin möhkəmlənməsini tələb edirdi. Zaman-zaman aparılan işlər öz bəhrəsini verməyə başladı. 31 dekabr azərbaycançılıq ideologiyasının təbliğ olunmasına və dünya azərbaycanlılarının malik olduğu milli gücün realizə edilməsinə imkan verdi.

Son illər Azərbaycan diaspor təşkilatları bütün gücünü 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününə – lobbiçilik ənənələrimizin bütün dünyada yayılmasına yönəldib. Əlamətdardır ki, bu öz nəticəsini vermiş və dünyanın bir sıra şəhərlərində də diasporumuzun güclü qanadları yaranmışdır.

Dünya azərbaycanlılarının qurultayı ölkəmiz üçün çox böyük tarixi hadisə sayılır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə altı il bundan əvvəl – 2001-ci ilin noyabrında keçirilən Dünya azərbaycanlılarının I qurultayı tariximizin əlamətdar hadisəsi kimi yadda qaldı. Qurultay milli dövlətçiliyimizin möhkəmlənməsində böyük rol oynayaraq qərarları ilə dünyada yaşayan azərbaycanlıları bir-biri ilə daha sıx birləşdirdi, əlaqələrini möhkəmlətdi. Məhz bu qurultaydan sonra ölkəmizdə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. 2006-cü ilin martında keçirilən Dünya azərbaycanlıların II qurultayı isə xarici ölkələrdə qərar tutmuş soydaşlarımızın mövqeyinin daha da möhkəmlənməsinə xidmət etdi.

Qurultay tribunasından prezident İlham Əliyev geniş nitq söyləyərək bildirdi:

«Bu sahədə görülən bütün tədbirlər, atılan bütün addımlar öz bəhrəsini verməkdədir. Dünyada yaşayan soydaşlarımız təşkilatlanır, yaşadıqları ölkələrin həyatında daha fəal rol oynayırlar. Əlbəttə ki, bu həm onların maövqelərini möhkəmləndirir, eyni zamanda müstəqil Azərbaycan Respublikasının mövqeyini gücləndirir, əhəmiyyətini artırır. Biz çox şadıq ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin dövlətlərin həyatında, iqtisadiyyatında çox mühüm rol oynayırlar və artıq möhkəm mövqelərə malikdirlər».

Əksər Azərbaycan diaspor təşkilatının üzvləri hər iki qurultayda fəal iştirak edərək vacib qərarların qəbul olunmasında zəhmətini əsirgəmədilər.

Qurultaydan sonra geri qayıdan nümayəndə heyətinin üzvləri bu ali iclasda irəli sürülən müddəaları müxtəlif ölkələrdə yaşayan soydaşlarımız arasında daha geniş təbliğ edərək böyük işlər gördülər.

Müstəqil Azərbaycan dövləti yaranandan sonra azərbaycançılıq həm ölkəmizdə, həm də dünyada yaşayan həmvətənlərimiz üçün əsas ideya olub. Beynəlxalq münasibətlər sisteminin aparıcı istiqamətlərindən olan diasporçuluğun Azərbaycan və azərbaycanlılar üçün cəmi on altı il tarixi var.

Ümummilli lider Heydər Əliyevin 21 fevral 2003-cü ildə imzaladığı «Xaricdə yaşayan azərbaycanlılarla balğı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında fərmanı mövcuddur. Həmin fərmana əsasən xaricdə yaşayanlarla müvafiq işlər görülməsi, əlaqələr yaradılması səlahiyyətləri Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinə həvalə edilmişdir. Bu xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsədi və prinsiplərinin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir. Komitə beynəlxalq hüququn qəbul edilmiş prinsipial və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və dövlətimizin qanunvericiliyinə uyğun olaraq xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlər və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilməsinə də yardım göstərir.

Həqiqətən, prezident İlham Əliyevin sərəncamı ilə 2006-cı il martın 16-da Bakıda Dünya Azərbaycanlılarının II qurultayında dünyada yaşayan bütün soydaşlarımızın bir araya gəlməsi böyük qələbə idi.

Ötən il Azərbaycan diaspor tarixində daha bir önəmli hadisə baş verdi – 2007-ci il mart ayının 9-da Bakı şəhərində Dünya Azərbaycan və türk diaspor təşkilatlarının I forumunun, ayın 10-da isə Avropa Azərbaycanlıları Konqresinin II qurultayının keçirilməsi Azərbaycan diasporunun xoş gələcəyindən xəbər verdi.

XX əsrin axırlarında Azərbaycan qəddini düzəldib nicat yoluna qədəm qoymaq istərkən torpaqlarını tutmaq niyyətilə bədnam qonşularımızın – ermənilərin apardıqları soyğunçuluq müharibəsi böyük maneələr törətdi. Yüzlərlə, minlərlə vətən övladı torpaqlarımızın hər qarışı uğrunda fədəkarlıqla mübarizə apararaq böyük qəhrəmanlıq nümunələri göstərdilər. Xalqımızın, dövlətimizin bu müharibədə qəddar düşmənə güclü müqavimət göstərməsinə baxmayaraq, ermənilərin arxalı olması iyirmi faiz torpaqlarımızın itirilməsinə və minlərlə şəhid verməyimizə gətirib çıxartdı. İndi neçə ildir ki, bir milyona yaxın soydaşımız Qarabağ müharibəsi nəticəsində yerindən-yurdundan didərgin düşmüşdür.

Hüquqi müstəvidən yanaşdıqda ərazi bütövlüyünün toxunulmazlığı prinsipinə görə dünyanın aparıcı dövlətləri Ermənistanı təcəvüzkar ölkə kimi pisləməli, ona qarşı sanksiyalar tətbiq etməli idi. Lakin ermənilər burada da manevr edərək millətlərin öz müqəddəratlarını təyin etmək hüququ ilə fikirləri çatdırır, Azərbaycan torpaqları hesabına yeni müstəqil erməni dövləti yaratmaq istəyirlər. Ən bağışlanması mümkün olmayan isə ermənilərin Azərbaycanın qədim torpaqlarının - Qarabağın onlara məxsus olması haqda sərsəm iddiaları ilə dünyanı çaş-baş qoymasıdır. Bu günün reallığı ondan ibarətdir ki, Azərbaycan qədim Qarabağı işğal olunmuş, bir milyon insan evindən-yuvasından ayrı düşərək adi elementar insan hüquqlarından məhrum olmuşdur.

Azərbaycanın ağır günlərndə ona kömək göstərənlər sırasında respublikamızda kənarda yaşayan həmvətənlərimiz həmişə öndə olmuş, öz maddi və mənəvi yardımlarını ölkəmizdən əsirgəməmişlər.

Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətini həyata keçirərkən qanunvericiliyimiz beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə əsaslanır, insan hüququ və azadlıqlarına hörmət edir, başqa dövlətlərin daxili və xarici siyasətinə qarışmağa icazə vermir. Qanunlarımıza əsasən, ərazisindən kənarda müvəqqəti və daimi yaşayan azərbaycanlılar vətəndaşlarımızla bərabər hüquqa malikdir və eyni vəzifələr daşıyır. Digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan soyDaşlarımızla bütün sahələrdə əlaqələrin saxlanılması, inkişaf etdirilməsi, onların əsas hüquq və azadlıqlarının müdafiəsi üçün müvafiq tədbirlər görülməsi hüquqi bazamızda öz əksini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsinə uyğun olaraq digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlılar ölkəmizdə olarkən qanunla dövlətimizin tərəfdar çıxdığı müqavilələrə əsasən ölkəmizin vətəndaşları kimi bütün hüquqlardan istifadə etmək imkanına malikdir.

Azərbaycan Respublikasının vətəndaşı xarici dövlətin ərazisində yaşayarkən vətəndaşlığı xitama səbəb olmur. Xaricdə yaşayan soydaşımız bizim vətəndaşlığa qəbul edilməsi barədə vəsatət qaldırarkən dövlət rüsumu ödəməkdən də azad edilir. O, dünyanın hər hansı bir dövlətində yaşayarkən ölkəmizin iqtisadiyyatına investisiya qoyub, azad surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Həmçinin təbii fəlakətlər, ekoloji və digər qəzalar baş vermiş yerlərdə yaşayan həmvətənlərimizə yardım etmək hüququna malikdir. Onlara dövlət siyasətimizin məqsədləri üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq vergi, gömrük və digər sahələrdə güzəştlər edilir.

Qədim və orta əsrlərdə azərbaycanlı mühacirətinin kökündə siyasi, iqtisadi və mədəni səbəblər dayanırdı. Ötən əsrin əvvəllərndən indiyədək müəyyən fasilələrlə davam edən bu mühacirətlər hətta xaricdə mühacir ədəbiyyatının yaranıb inkişaf etməsinə səbəb olmuşdur. Lakin müəyyən sosial, siyasi və mənəvi amillər ucbatından Azərbaycan mühacirləri öz lobbilərini istənilən səviyyədə formalaşdıra bilmirdilər. Hətta indinin özündə də məsələ yüksək səviyyədə deyil. Və onun ürəkaçan olması üçün zəhmət çəkib çox iş görmək lazımdır.

XX əsrin ilkin ziyalı mühacirlərindən olan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məmmədəmin Rəsulzadə milli şüurun oyanmasında, xalqın öz mənliyin dərk etməsində böyük təsiri olan dilin, ədəbiyyatın, mədəniyyətin inkişaf etdirilməsində böyük rol oynamışlar. Onların milli məsələ problemləri sahəsindəki təhqiqatları sonrakı ictimai-siyasi fikir tariximiz üçün böyük əhəmiyyəti oldu.

Azərbaycan mühacirlərinin bütövlükdə milli-azadlıq hərəkatına verdikləri töhfələr də şübhəsiz ki, az olmadı. Əvvəllər Rusiya ərazisində milli muxtariyyətə nail olmaq uğrunda gedən azadlıq mübarizəsi az da olsa məhz mühacirlərin müəyyən vasitələri nəticəsində müstəqillik uğrunda mübarizəyə çevrildi. Azərbaycan diasporlarının fəlsəfi-politoloji təhlili göstərir ki, XX əsrin axırlarında respublikamızın müstəqil dövlət kimi dünya birliyinin üzvü olmasında onların da müəyyən rolu olmuşdur.

Mühacirət irsi ümumazərbaycan mədəni irsinin tərkib hissəsi olduğu kimi mühacirət mətbuatı da Azərbaycan mətbuatının bir hissəsidir. Mətbuatımızın hərtərəfli öyrənilməsi mühacir mətbuatının da araşdırılmasını zəruri edir. Şübhəsiz ki, mühacir mətbuatının tədqiq etmədən bütövlükdə Azərbaycan ədəbiyyatının araşdırıldığını iddia etmək mümkün deyil.

Mühacirət mətbuatı, onun tarixi, ayrı-ayrı nəşrlər, mövzu, ideya istiqaməti, dil, üslub, sənətkarlıq məsələləri barədə yazanlar ancaq hörmətə layiqdir.

Yurdunu başqa bir ölkə ilə dəyişdirən andan istənilən şəxsin həyatında yeni dövr başlayır. Çünki onda yeni cəmiyyətdə yaşamaq üçün çətin psixoloji anlar keçirmək, həmin ölkənin hüquqi, iqtisadi və mədəni həyatını dərindən bilib dərk etmək tələb olunur. Psixoloji cəhətdən buna hazır olmayanlar yeni daxil olduqları cəmiyyətə adaptasiya oluna bilmir, çətinliklərlə qarşılaşmalı olur. Xüsusən gendən-gələn daxili «mən»i və mədəniyyəti olmayanlar nəinki həmin ölkədə uğur qazana bilmir, hətta bütün ümidləri boşa çıxaraq oranı tərk etmək məcburiyyəti qarşısında qalır.

Maraqlıdır ki, bir çox məşhur adamlar öz vətənlərində deyil, başqa ölkələrdə şöhrət qazanmışlar. Filosoflar onların buna bəşəriliyi – başqa xalqlara olan məhəbbəti, daxili gücü, qazandıqları biliklər hesabına nail olduqlarını qeyd edirlər.

Assimilyasiya digər xalqın dilini, mədəniyyətini qəbul edərkən hər hansı bir xalqın özünü itirməsi deməkdir. Tədricən assimilyasiyaya uğrayan xalq yaşadığı cəmiyyətin millətinə çevrilərək öz milli adət-ənənələrindən məhrum olur.

Milli dilin hər hansı bir icmanın yaşaması üçün həlledici rolu inkaredilməzdir. Bir-birindən ayrılmaz olan bu iki anlayışın davam etməsi üçün milli ideyanın, tarixi yaddaşın və dini baxışın da müəyyən təsiri vardır. Təbii və məcburi formaları mövcud olan assimilyasiya çox da sadə deyildir. Təbii assimilyasiya etnik cəhətdən müxtəlif millətlərin əlaqələri, xüsusən qarışıq nigahlar vasitəsilə baş verir. Məcburi isə bir dövlətin digər bir dövləti işğal etməsi nəticəsində olur. Və bu milli hüquqların qeyri-bərabər olduğu ölkələrə xasdır. Azərbaycan təbii və öz torpaqlarında məcburi assimilyasiyaya uğrayan xalqlardandır. Qürbətdə yaşayan soydaşlarımız yerli millətlərə assimilyasiya olunmağa meyllidir. Və xüsusən, keçmiş SSRİ dövründə başqa xalqlarla sıx əlaqədə yaşadığımızdan bu proses Rusiyada özünü indi də göstərməkdədir.

Səbəblərini yaxşı bildiyindən bəzi soydaşlarımız çalışdıqları diasporda əhəmiyyətli işlər ortaya qoymaqla təhlükəli assimilyasiyanın qarşısını qismən də olsa ala bilirlər.

Dünyada ayrı-ayrı dövlətlərin təşəkkül tapdığı vaxtdan adamlarda vətənlərinə məhəbbət hissi yaranmağa başlamış, nəsildən-nəsilə keçərək bizə gəlib çatmışdır. İctimai ədalətsizliyin, hüquqsuzluğun, milli zülmün tüğyan etdiyi ictimai-siyasi quruluşlarda belə insanlar öz vətənlərindən üz döndərməmiş, onun tərəqqisi yolunda əllərindən gələni Əsirgəməmiş, ən çətin vaxtlarda dillərini, dinlərini, adət-ənənələrini qoruyub saxlamış, hətta işğalçılara qarşı mübarizədə canlarını belə qurban vermişlər. İndi çoxları vətən məhəbbətinin öz-özünə, kortəbi qaydada yaranıb təşəkkül tapacağına ümid bəsləyir. Əslində, bu arxayınçılıq ziyandan başqa heç nə vermir. Vətənpərvərlik duyğusunu və şüurunu insanlara mütəmadi olaraq aşılamaq, tərbiyə etmək lazımdır.

Vətən məhəbbəti mücərrəd anlayış deyil, insandan real mənəvi qüvvə, bacarıq və qəhramanlıq tələb edir.

Başqa xalqların nümayəndələrində olduğu kimi, Azərbaycan övladlarında da doğma torpağa bağlılıq hissi və vətən məhəbbəti böyükdür. Onlar bunu zamanın bütün dönəmlərində canı və malı ilə dəfələrlə sübut etmişlər.

Öz vətənini sevmək – bəşəriyyətin mütərəqqi ideyalarının həyata keçirilməsinə kömək etmək deməkdir. «Vətən», «xalq» sözlərini tez-tez dilə gətirən kəsi vətənpərvər adlandırmaq olmaz. Əsil vətənpərvər vətənə məhəbbətini sözdə deyil, əməli fəaliyyəti ilə nümayiş etdirir. Qürbətdə yaşadıqlarına baxmayaraq hər bir vətən övladının öz ölkəsi üçün gördüyü iş təqdirəlayiq və bəşəri xarakter daşıyır.

İstifadə olunmuş ədəbiyyat

1. Şükürov A.M. «Kulturologiya». «Adiloğlu» nəş, Bakı, 2003, s.273.
2. Şükürov A.M. «Fəlsəfə və zaman». «Elm» nəş, Bakı, 1998, s.186.
3. «Azərbaycan diasporu: Tarix və nəzəriyyə» buraxılış, «Aspoliqraf» nəş, Bakı, 2005, s.90.
4. Əliyev Z.B. «Dünya diasporları». «Qismət» nəş, Bakı, 2005, s.350.
5. Qloballaşma və Azərbaycan nəşriyyatı. //Respublika elmi-praktik konfransın materialları, Bakı, 2004, s.44.
6. «Şərq-Qərb sivilizasiyaların dioloqu» jurnalı, № 3-4, Bakı, 2006, s.250.
7. «Elmi əsərlər» jurnalı, № 1, Bakı, 2007, s.206.

Микаил АКПЕРОВ

ДИАСПОРА – НОСИТЕЛЬ КУЛЬТУРЫ

Резюме

Настоящая статья посвящена азербайджанской диаспоре. Так как увеличиваются потребности многих стран в ценностях развития, это тема актуальна для нынешнего периода. Тема статьи была мало разработана в азербайджанской философии.

Автор, касаясь в статье теоретических задач диаспор, говорит и об их значении для нашей страны. В статье указывается, что диаспора, будучи носителями культуры, дают большую пользу мировой культуре.

Превращение диаспоры уже в часть системы мировой культуры рассматривается в данной статье. Из статьи становится ясно, что дела, будущее быстро развивающейся азербайджанской диаспоры еще впереди.

Несомненно, что это статья, посвященная диаспоре, которая способна дать пользу мировой культуре, будет воспринято читателями с интересом.

Mikail AKPEROV

DIASPORA AS A BEARER OF CULTURE

Summary

The present article is dedicated to Azerbaijan diaspora, a bearer of culture, as a need of many countries in the values of progress are being increased this theme is actual for current period However, it has not been used enough in Azerbaijan philosophy.

Touching upon the theoretical tasks of the diaspora author speaks also on their inportanse for aur country. In the article it is pointed out to that diasporas been the bearers of cultures are benefit for word culture.

Transformation of the diaspora already into a pert of the world cultures system becomes evrident in this scientific article.

As well it becomes clear that the matters future of rapidly developing Azerbaijan diaspora is still before.

Na doubt that the present article dedicated to diaspora able tj be benefit for word culture will be received with an interest by the readers.

Джавад АХУНД-ЗАДЕ
аспирант НАНА Института Философии и Политико-Правовых Исследований

О МЕЖДУНАРОДНО-ГЕОПОЛИТИЧЕСКОМ ЗНАЧЕНИЕ КАСПИЙСКОГО РЕГИОНА НА СОВРЕМЕННОМ ЭТАПЕ*

Геополитические процессы, происходившие на рубеже XX-XX1 вв. и все возрастающая роль энергоресурсов в мировой политике неизбежно привели к Пересмотру ряда традиционных взглядов на регионы, входящие в Ближний и Средний Восток. В книге «Энергетический Суперкубок», изданной Институтом Никсона, регион, простирающийся от устья Волги до Омана, охарактеризован как стратегический энергетический эллипс. По мнению авторов исследования, его энергетическая перспективность заключается в том, что он представляет собой продолжение нефтяных месторождений Ирана и всего Ближнего Востока. Причем вышеназванный «эллипс» содержит в себе 2/3 разведанных залежей нефти и более 40 % доказанных мировых запасов природного газа.(1, 95)

В этой связи в энергетическом и в геополитическом плане Каспийский бассейн и Персидский залив рассматриваются как единая конструкция. Подобный подход дал американским стратегам повод объединить этот ареал в единый «Новый Ближний Восток», входящий в свою очередь в «Большой Средний Восток» и, считая при этом, что каспийско-персидский энергетический эллипс с его богатейшими ресурсами является стратегическим призом на меняющейся международно-политической арене.(1, 95)

В наступившем столетии в определении геополитических позиций той или иной страны непосредственную роль играет степень контроля над топливно-энергетическими ресурсами и средствами из транспортировки, ее способность обеспечить их надежную защиту от сил международного терроризма. Причем энергоресурсы не являются единственным фактором, определяющим стратегические значение Каспийского региона. Через это регион может пройти система сухопутных коммуникаций – так называемый коридор Север-Юг, который соединит Европу с Россией, Казахстаном, Туркменистаном и через Иран с Персидским заливом, а в перспективе и с Южной Азией. Не менее важное, если не большее геополитическое значение приобретает уже начавшееся функционировать проект ТРАСЕКА по коридору Запад-Восток. Все эти проекты, в конце концов, могут принести всем прикаспийским государствам немалую экономическую выгоду и будут способствовать укреплению их политического авторитета на мировой арене.

Образование в начале 90-х гг. XX века в результате распада одной из двух супердержав - СССР независимых государств на Южном Кавказе и Средней Азии привело к радикальному пересмотру многих, ранее казавшихся незыблемыми геополитических реалий, связанных с Каспийским регионом. Если до краха Советского Союза Каспийское море фактически являлось "российским озером", то в нынешней ситуации она является лишь одним из пяти претендентов на богатства Каспия. Тем более что согласно осуществленному Министерством нефтяной промышленности СССР в 1970 году разделу Каспийского моря, Азербайджан получил 78 тыс.кв.км. площади, Туркменистан – 79 тыс.кв.км., Казахстан – 113 тыс.кв.км., а Россия – лишь 64 тыс.кв.км.(2)

---

* Məqalə redaksiya heyətinin üzvü, tarix elmləri doktoru, professor H.Əlibəyli tərəfindən çapa məsləhət bilinib.

Важнейшим геоэкономическим фактором, оказывающим существенное влияние на расклад геополитических сил в Каспийском регионе, является наличие здесь огромных запасов нефти и газа. По оценкам Министерства энергетики США Каспийский регион располагает крупнейшими неразработанными запасами углеводородов в мире, в том числе разведанные запасы составляют от 17 до 33 млрд. баррелей нефти и около 232 триллионов кубических футов природного газа. Потенциальные же запасы могут составить около 200 млрд. баррелей нефти и до 350 триллионов кубических футов природного газа.(3,4,5)

По мнению же западных экспертов, как альтернатива для арабской нефти сырье из Каспийского моря может иметь большое значение для Европы к 2010 году, когда уменьшится добыча из Северного моря.(6,41) Касаясь запасов нефти в отдельных прикасПийских странах, то по оценкам независимых экспертов доказанные запасы нефти в Азербайджане составляют на первый квартал 2007 года 7 млрд. баррелей, Казахстана – 30 млрд. баррелей, Туркменистана – 600 млн. баррелей, Ирана – свыше 136 млрд. баррелей, в то время как запасы нефти в Саудовской Аравии – свыше 262 млрд. баррелей.(7,8,20) По мнению же некоторых российских экспертов на долю Каспия приходится не более 10 % мировых запасов нефти, тогда как на Россию – 6-10 %, а на страны Ближнего Востока – 60 %.(8)

Что же касается природного газа, то по оценкам экспертов «Бритиш Петролеум», на долю Азербайджана, Туркменистана и Казахстана приходится в общей сложности 5,55 трлн. куб.м.(9)

Все это превращает Каспийский регион, в особенности Азербайджан, Казахстан и Туркменистан, в один из основных центров геополитического и геоэкономического влияния на планете. В докладе, составленном гендиректором PFC Energy Джулией Нэнэй под названием «Проблемы энергетической безопасности США: Россия и Касспий» и представленном в начале июня 2003 года в комитет сената США по внешним сношениям, подкомиссию по международной экономической стратегии, экспорту и торговому содействию, наибольшее внимание уделялось Азербайджану. Суть декларируемой в докладе расстановки интересов в Каспийском регионе сводилось к тому, что США готовы всеми силами защищать свои энергетические интересы в Азербайджане. «За последние шесть лет, - отмечалось в докладе, - начиная с июня 1997 года, когда государственный департамент США предал гласности очень высокие данные о потенциальных нефтяных резервах в Каспийских странах, правительство США наиболее серьезно сфокусировалось на Азербайджане. Занимая ключевое положение на Южном Кавказе и, гранича с Ираном, Азербайджан стал стержневой страной для правительства США в защите его инвестиций».(11) Далее в докладе говорилось о том, что США должны быть обеспокоены ситуацией относительно собственной энергетической защиты в этом регионе, учитывая недавние события на Ближнем Востоке. Здесь же содержится вывод, что опасность для американских инвестиционных вкладов представляют действия некоторых прикаспийских государств, в особенности России и Ирана». Участвуя в одном из главных нефтяных проектов Азербайджана и одном из газовых проектов, США намерены помочь этой стране обеспечить устойчивую политическую среду, необходимую для создания конвейерного производства в Азербайджане, с нефтяными и газовыми экспортными маршрутами, функционирующими через Грузию и Турцию».(11)

В свою очередь, директор научно-информационного центра И.Барниц отмечает, что «борьба между Россией и США за влияние в Закавказском регионе определяется не

только близостью к стратегически важным нефтяным месторождениям Азербайджана». Главная причина – признание Кавказа как стратегического узла, в котором пересекаются интересы России, Турции, стран Востока.(12,191-192)

В центре прямых геополитических интересов мировых и региональных держав, как это было и в предыдущие столетия, в силу своего чрезвычайно важного геостратегического положения оказался Азербайджан. По мнению российского аналитика Гейдара Джемаля «Азербайджан является естественным лидером Кавказского региона, который представляет собой дальний восточный бастион Европы… Это очень богатый центр, который представляет собой очень серьезный задел для европейского будущего».(13)

Что же касается вопроса о статусе Каспия, то 6 июля 1998 года Казахстан и Россия подписали Соглашение о разграничении северной части дна Каспийского моря в целях осуществления суверенных прав на нефтепользование.(14,93) Это сыграло свою положительную роль в деле привлечении крупных иностранных инвестиций в разработку нефтяных месторождений на северном Прикаспии. В то же время Казахстан уделяет достаточно серьезное внимание обеспечению безопасности в своем секторе Каспия. И хотя у Казахстана в настоящее время нет острых спорных вопросов с соседями по Каспию, Астана, также как и Баку и Ашгабат, в особенности за последние годы проявляет вполне объяснимое стремление к укреплению своих силовых структур и границ в стратегически важном регионе с нестабильной ситуацией.(15) В этом деле свое содействие Казахстану оказывают США.

Qoca doğruluğunu etdiyi üçün dayaq,
Padşah acıdı ona, ürəyi yumşalaraq.
Qocanın doğruluğu şahın xoşuna getdi,
Özünü əyri görüb, ixtiyarı əfv etdi.
Dedi: "Çıxarın onun kəfənini boynundan,
Ətirli xələt verin qoy sevinsin bu insan".
Əl çəkib zalımlıqdan o bir adil şah oldu,
Rəiyyətini sevib, dərdindən agah oldu.
Bu bir həqiqətdir ki, doğruluq etsə hər kəs,
Öz doğru işlərindən dünyada ziyan görməz. (1, s.183)

Nizamiyə görə, doğru danışmaqla, zalımların zülmünü açıq-açığına güzgü kimi aydın üzlərinə söyləməklə onlara təsir etmək mümkündür. Məhz bu fikrə əsasən şair düzlüklə, doğruçuluqla padşahın tərbiyələndiyini göstərir. Şair "Zalım padşahın zahid ilə dastanı" hekayəsində də tərbiyə vasitəsilə zülmün aradan qaldırılmasında cəsarətliliyə, düzgün və doğru danışmağa böyük əhəmiyyət vermişdir.

Bu üsul zalımın zülmünün aradan qaldırılmasında əsas vasitə olmasa da, o dövrə görə qabaqcıl və cəsarətli, mütərəqqi dünyagörüşdür.

Çox maraqlıdır ki, ilk "Sirlər xəzinəsi" poemasında düzlüyə, doğruçuluğa böyük əhəmiyyət verən şair öz mülahizələrini son əsəri "İsgəndərnamə"də daha geniş ifadə etmişdir. Nizami bu əsərində İsgəndəri romantik bir ölkəyə gətirib çıxarır. Bu yerlərin təbiəti gözəl, hər yanda gül-çiçək, dağların döşünə sürülər səpələnərək otlayır. Burada heç bir çoban sürülərə keşik çəkmir. Ölkədə bağlar hasarsız, qapılar açıq, adamlar şən və firavan həyat keçirirlər. İsgəndər müdrik qocalarla şəhərə daxil olur. O, burada çox təəccüblənir. Burada dükanların nə qapısı var, nə də qıfılı. İsgəndər müdrik qocalardan bütün bunların səbəbini soruşduqda qocalar ona belə cavab verirlər:

Fağır bir tayfayıq, həm də dinpərvər –

---

* Məqalə fəlsəfə elmləri doktoru, professor Ə.Abasov tərəfindən çapa məsləhət bilinib.

Düzlükdən dönmərik əsla tük qədər!
Əyri dolanmaqla yoxdur işimiz,
Düzlükdən başqa yol tanımırıq biz.
Əyrilik yoluna çəkmişik hasar,
Düzlüklə olmuşuq əzabdan kənar.
Yalan gətirmərik biz dilimizə,
Əyri yuxular da görünməz bizə. (6, s.183)

Şair göstərir ki, ölkədə düzlük, doğruluq hakimdir. İnsan əxlaqını korlayan sifətlər aradan qalxmışdır. Bu ölkədə heç kim düzlükdən, doğruçuluqdan başqa yol tanımır. Hamının varı bərabərdir. Birinin dərdi - hamının kədəridir. Bir nəfərin sevinci - hamının fərəhidir. Şair göstərir ki, bu ölkədə əkin zamanı dəni səpib haqqa tapşıraraq bir də biçin vaxtı gəlib biçirlər. Kim bir sünbül oğurlayırsa, elə yerindəcə ölməlidir. Bu ölkənin sürüsünə bir canavar dəyərsə, yerindəcə məhv olmalıdır.

Göründüyü kimi, bu ölkədə düzlük, doğruçuluq və təvazökarlıq hakimdir. Burada hamı əliaçıq, xəsislik bilmədən yaşayır. Belə adamlardan hətta vəhşi heyvanlar da qaçmır. Bu ölkədə ölüyə əsla yas saxlamırlar. Çünki onlar bilirlər ki, buna əlac yoxdur. Onlar Allahın verdiyi şeyə narazılıq etmirlər. Bu ölkədə bir insan bu yoldan çıxarsa, onların yaşamağa haqqı yoxdur. Şair göstərir ki, İsgəndər belə bir ölkəni gördükdə bunlara pərəstiş edir. Bəxşişlər paylayıb fərəhlə arxaya dönür.

Şübhəsiz ki, bu insanlarda göstərdiyi müsbət əxlaqi xüsusiyyətlər onun – şairin arzularıdır. Maraqlıdır ki, "Sirlər xəzinəsi"ndə düzlük, doğruçuluq vasitəsilə insanlarda ədalətliliyi, mərhəmətliyi tərbiyələndirən şair son əsərində ideal bir ölkə təsvir edir. Bu ölkədə də insanlar xoşbəxt, firavan yaşayırlar. Çünki burada insan əxlaqını korlayan, ona mənfi təsir göstərən xüsusiyyətlər aradan qaldırılmışdı. İnsanların simasında düzlük, doğruçuluq, ədalətlilik, sadəlik, təvazökarlıq hakimdir. Şair həyatda düzlüyə böyük əhəmiyyət verərək. Onun əksi olan yalanı insanı korlayan bir keyfiyyət hesab etmişdir. Şair yazır:

Sönükdür hər zaman yalan xəyallar,
Yalnız həqiqətdə ölməz qüvvə var.
Həqiqət açarı əbədiyyətdir,
Onunla seçilir möcüzdən sehir. (4, s.202)

Həqiqətin böyük təsir qüvvəsinə inanan şair bütün sehirlərin açarını onda görür. Nizaminin düzlük və doğruçuluq haqqındakı fikirləri insanda düz yolla getməyi aşılayır. Məhz bunun üçün də şairin mütərəqqi ideyaları gənclərin tərbiyəsində böyük əhəmiyyətə malikdir. Burada Nizaminin utopik cəmiyyət təsəvvürləri qabarıq olaraq nəzərə çarpır. Şair yaradıcılığında utopik cəmiyyətin təsvirinə tez-tez yer verir. Bu da onun həm yaşadığı cəmiyyətdən narazılığını, həm də insanın yalnız xoşbəxt cəmiyyətdə xoşbəxt ola biləcəyinə inamından irəli gəlir.

Nizami dövrünün naqisliklərindən – əyriliklərindən, yalançılıqdan, rüşvətdən, xəyanətdən və s. çox şikayətlənir. Yəni o yaşadığı cəmiyyətin ideal saydığı cəmiyyətdən xeyli fərqləndiyini deyir və xoşbəxt saydığı cəmiyyəti təsvir edir. Bu - doğru danışan, düz işlər görən, xeyirxah, heç kəsə pislik etməyən insanların cəmiyyətidir. Burada Nizaminin qədim yunan filosoflarının utopik cəmiyyət təsəvvürləri ilə uyğunluğu duyulur. Xüsusilə, Sokratın xeyirxah insanlar anlayışına yaxınlıq görünür. Ancaq Nizami bir şərqli mütəfəkkir kimi emosiya və hisslərə daha çox üstünlük verir. O, adil şahın cəmiyyəti xoşbəxt edəcəyinə inanır. Platon ideal dövlətin başında filosofu görürsə, Nizami adil şahı görür. Ancaq Nizaminin adil şahı da nəcib, bilikli, əxlaqlı, geniş dünyagörüşünə malik adam olmalıdır. Bu mənada onun «adil şahı» Platonun «filosof – hökmdar» obrazına uyğundur. Bu onu göstərir ki, Nizaminin cəmiyyət və dünya haqqında təsəvvürlərinin formalaşmasında Sokrat və Platon fəlsəfəsinin böyük rolu olub. Onu da qeyd etmək

lazımdır ki, Nizami cəmiyyətin sosial psixonizmlərinin dərinliyinə baş vurmayıb. Bunun da öz səbəbi var. Nizami elə bir dövrdə yaşayırdı ki, cəmiyyətdə sosial inteqrasiya, iqtisadi qanunauyğunluqlar özünü zəif göstərirdi. Ölkə, adətən, ayrı-ayrı vilayətlərdən ibarət idi və onlar şahın fərmanı ilə idarə olunurdu. Belə təsəvvür yaranırdı ki, cəmiyyətdə olan hər bir hadisə (siyasi, iqtisadi, mənəvi) şahın necə fərman verməyindən asılıdır. Fərman siyasi-iqtisadi reallığı yaradırdı, əks təsəvvür olunmurdu. Məhz buna görədir ki, ölkənin hər bir uğuru və ya uğursuzluğu şahın adı ilə bağlanırdı. Ancaq onun dərin zəkası bir çox sosial amillərə nüfuz edə bilirdi.

Əxlaq tərbiyəsinin tərkib hissələrindən biri də təvazökarlıqdır. Başqa müsbət əxlaqi xüsusiyyətləri ilə birlikdə insan tərbiyəsində təvazökarlıq mühüm keyfiyyətlərdən biri hesab olunur.

Nizaminin əsərlərində yeri gəldikcə təvazökarlıq qiymətləndirilir, onun əksi olan lovğalıq, təkəbbürlülük isə kəskin tənqid olunur. O, insanı gözə girməkdən, öz biliyi, işi ilə fəxr etməkdən çəkindirir. Nizami insanlarda sadə, təvazökarlıq kimi keyfiyyətləri aşılamağa çalışır. Şair tövsiyə edir ki, insan nə qədər bilikli, bacarıqlı olsa da, bir o qədər də təvazökar olmalıdır. Nizamiyə görə, məzmunsuz boşboğazlılıqla heç kim yüksələ bilməz. Qırğı nə qədər səy etsə də, bülbülə bənzəməz. (1, s.27).

Nizami yersiz danışmağı, mənasız sözlərlə başqasının zəhləsini tökməyi və s. təvazökarlıqdan uzaq hal kimi pisləyir. «Az danışmağın gözəlliyi» adlı məşhur parçada bu fikir öz ifadəsini daha yaxşı tapmışdır: hər sözü az danış, çox deyilmiş söz öz qiymətini azaldır. Su da çox içiləndə dərd gətirir. Danışanda elə sözlər seç ki, danışığın mənasız olmasın. Belə ki, ürəyə xoş gələn bir dəstə çiçək az da olsa, bir xırman otundan yaxşıdır. Şair burada göstərir ki, az danış, lakin mənalı danış. İnsan nə qədər təvazökar olsa, bir o qədər yüksəkdə durur.

Şair hər insana öz şöhrətini yüksəltməyi tövsiyə edir:

İlan tək dikbaşlı gəzmə, ey insan!
Açacaq dünyanın seli başından.
Yeddi başın olsa, əjdahalar tək,
Onun yeddisi də yerə düşəcək. (3, s.52)

Nizami göstərir ki, öz şöhrətini şişirtmə, dikbaşlıq heyvanlara məxsusdur. İnsan heyvan səviyyəsinə enməməlidir. İnsan təvazökarlığı ilə fərqlənməlidir. Bu keyfiyyət onu həmişə ucaldar. Şair göstərir ki, həmişə öz acizliyini etiraf et. Öz gücünə çox da qürrələnmə.

Beləliklə, o bütün əsərlərində şöhrətə uymamağı, təvazökar olmağı tövsiyə edir. Şair «Sirlər xəzinəsi» poemasında «Bülbül ilə qızılquşun söhbəti» təmsilində təvazökarlığı gözəl ifadə edir. Bülbül qızılquşdan soruşur ki, nə üçün sən bütün quşlar içərisində ən dinməz quş olduğun halda, ancaq sənin yemin dağ kəkliyidir. Mən isə bir anda xəzinələr mədənində yüzlərcə mirvarilər (təranələr) çıxardığım halda, yenə də mənim yemim cücüdür. Buna cavab olaraq qızılquş belə deyir:

O zamandan ki, az-çox iş bilənəm, eşit sən,
Yüz iş görərəm ancaq birini açmaram mən.
Sən vurğunsan bu dəli rüzgara durma get,
Bir iş görməz, min işdən açarsan bizə söhbət. (1, s.143)

Bu təmsilində şair mənasız danışmağın zərərli olduğunu açıb göstərmişdir. Nizamiyə görə, çox danışmaq, boşboğazlıq məzmunsuzluqdan irəli gəlir. Lakin dolğun və zəngin məlumata malik olmaq, bununla yanaşı, qiymətli işlər görmək boşboğazlığı və məzmunsuzluğu inkar edir. Şairə görə, sənə pislik edəni və yaxşılıq etdiyini, həm onu, həm də bunu unut.

Xüdpəsənd olmayan təmiz, sadə bir şəxs heç bir şeydən qorxmaz. Yaxşı adamların

eyibinə həmişə göz yum. Həmişə dünyada yaxşılıq axtar. Həyatda yaxşı ad qazanmış şəxslə daima dostluq et. Çünki yaxşı ad almaqda əbədiyyət var. Yaxşı bir insan pis bir fikrə düşərsə, hər zaman özünə yamanlıq edəcəkdir. Əgər haqdan yaxşılıq istəyirsənsə, heç vaxt pislik etmə, həmişə çalış xalqa xeyirxahlıq edəsən. (6, s.183).

Əgər sən yaxşılıq etsən, haqdan da hər zaman yaxşılıq görəcəksən. Göründüyü kimi xeyir və şər problemini burada açmaq istəmişdir.

Nizami Gəncəvinin təvazökarlıq, sadəlik, xeyirxahlıq haqqındakı fikirləri insanların mənəvi cəhətdən saflaşmasında və nəcibləşməsində böyük təsir qüvvəsinə malikdir.

Ümumiyyətlə, Şərq fəlsəfi fikir tarixində təvazökarlıq, sadəlik və xeyirxahlıq həmişə daha çox diqqət yetirilən keyfiyyətlər olmuşdur. Böyük Çin filosofu Kunfunun fəlsəfi təlimində mərkəzi anlayışlardan biri təvazökarlıq olub. O, Çin cəmiyyətində pozğunluğun, nizam-intizamın pozulmasının insanların özündən razı, dikbaş, başqalarına yuxarıdan aşağı baxan olması ilə sıx bağlı olduğunu söyləyir (7, s.48-52). Buna qarşı olaraq Kunfu təvazökarlığı və hər bir hərəkətdə ölçünü gözləməyi təklif edir. O, təvazökar insanı güclü və xeyirxah sayır. Dahi Nizaminin yaradıcılığında da təvazökarlıq və xeyirxahlıq ümumi cəmiyyət səviyyəsinə qaldırılan keyfiyyətlər kimi təqdim olunur. Bu bağlılıqda onun yaxşı adam anlayışı maraq doğurur. Nizamiyə görə, yaxşı ad əbədiyyət qazandırır. Bu nə deməkdir? Yəni insanın kamilliyi onun fiziki əlamətləri ilə müəyyənləşmir və o, cəmiyyətdə bu keyfiyyətinə görə yadda qalmır. Fiziki gücü ilə öyünənlər yaddaşlarda qallmır, çünki cəmiyyətə, insanlığa faydası olmur. İnsanın yalnız davranışı, mənəviyyatı, əxlaqı, gördüyü işlər başqalarına gərəkli olur. Yəni yaddaşlarda qalmaq üçün bu cür gərəkli olmalısan. Bu gərəkliyə isə yaxşı adam olmaq deyirlər. Bu mənada yaxşı ad çıxarmaq əbədi olmaq deməkdir. İnsan öz hərəkətlərinə cavabdehdir. Etdiyi yaxşılıq və ya pislik gec-tez özünə qayıdır. Yaman ad çıxaranlar yamanlıqlar altında məhv olur. Yaxşı ad çıxaranlar isə yaxşılıqlar üstündə ücalır. Dünyanın əbədi qanunauyğunluğu bundan ibarətdir. Buna hind fəlsəfəsində «karma» deyirlər. Nizami dünyanın karmasını çox gözəl duyub. O qədər dərindən anlayıb ki, onu şeirlərin sətrində qısa və məzmunlu ifadə edə bilib.

Nizaminin yaradıcılığında Daosizmlə də müəyyən uyğunluq duyulur. Daoya görə «kim çox bilirsə, az danışır, çox danışansa az bilir». İndi Nizaminin misrasına fikir verin: «Yüz iş görürəm, ancaq birini açmaram mən». Yəni çox iş görən, çox bilən adam həmişə az danışar, özünü sakit aparar. Hər yerdə bolluca vədlər verib heç bir iş görə bilməyənlər isə susmaq bilməz. Nizami belə adamlardan kənar olmağı məsləhət bilir.

Göründüyü kimi, Nizaminin düşüncələrində qədim Şərq fəlsəfəsi ənənəsi üstün yer tutur. O, sadə şeir dilində ifadə etdiyi fikirlərin dərin fəlsəfi mənasını anlamış görünür. Nizami dahiliyinin əsas cəhətlərindən biri bundan ibarətdir.

Nizami Gəncəvinin əxlaqi görüşlərində ən mütərəqqi xüsusiyyətlərdən biri də şairin insanlarda əməksevərliyi və zəhmət adamlarına məhəbbəti təbliğ etməsidir. O, insan əməyinə böyük qiymət verir, onun tərbiyəedici roluna möhkəm inanırdı.

Şair öz əsərlərində zəhmətkeş adamları müftəxor adamlarla qarşı-qarşıya təsvir etmişdir. Nizami göstərir ki, ipəkçilikdə iki cür qurd vardır. Bunlar odla su kimi bu işdə iştirak edirlər. Onlardan biri xeyir verən barama toxuyur, o biri isə ipək sapı zədələyir. Şanada iki cür arı vardır. Bu arılardan biri qida toplayır, o birisi isə oğru kimi gizlincə yeyir. Bu bal hazırlayan arılardan biri balı yeyən arıların yüzündən yaxşıdır. (6, s.34-35).

Nizami insan həyatının bütün mənasını əməkdə görərək, «Sirlər xəzinəsi» poemasında əllərin insana işləmək üçün verildiyini qeyd edir. O öz işini başqasına gördürməyi insana layiq olmayan sifət sayır. Şair çalışmağı, zəhmət çəkməyi hamı üçün vacib hesab edir.

Əməyin hamı üçün zəruri olması fikri Nizaminin bütün əsərlərində özünü göstərir.

Nizami əməyin azadedici mahiyyətini, onun insanı asılılıqdan xilas etməsini xüsusi qeyd edir. «Sirlər xəzinəsi» poemasındakı «Kərpickəsən kişinin dastanı» hekayəsi bu cəhətdən maraqlıdır. Şam şəhərində öz qoca yaşlarında kərpic kəsmək kimi ağır zəhmətlə məşğul olan bir qoca yaşayırmış. Bir dəfə gənc bir oğlan onun yanına gələrək bu sənətin qoca adama yaraşmadığını söyləyir. Sonra isə ağır zəhmətdən əl çəkməyi ona məsləhət görür. Qoca isə bu cavana belə cavab verib deyir ki, mən əlimi bu sənətə ona görə uzatdım ki, sonra bir gün əlimi sənin qarşında uzatmayım. Mən sərvət xatirinə heç kimin qarşısında dilənçilik etmirəm. Mən əlimin zəhməti ilə topladığım qazancı yeyirəm. (1, s.71).

Göründüyü kimi, Nizami zəhmətə insana sərbəstlik verən, onu başqalarının qarşısında boyun əyib əl açmaqdan xilas edən bir vasitə kimi baxır.

Şair «Leyli və Məcnun» əsərində yazır ki, şam kimi həmişə öz ehtiyatınla keçin. O zaman Nizami kimi sənə də dünyaların sultanı qul tək xidmət göstərər. (3, s.185).

Nizamiyə görə, əmək və xoşbəxtlik bir-birinə qırılmaz tellərlə bağlıdır. Hərgah insan sevərsə, əmək onun üçün səadət gətirər.

Nizamiyə görə əmək insanı ucaldır. Ona şərəf, şöhrət bəxş edir, Şair göstərir ki, dünyada böyük adam olmaq üçün sənin səyin və Allahın köməyi lazımdır.

Əməyə məhəbbət, fəallıq və çalışqanlıq tərbiyəsini təklif edən Nizami təbiidir ki, kəskin tənbəlliyə qarşı çıxmışdır. Nizami avamlığı, işsizliyi insan adına layiq olmayan bir vəziyyət hesab edir.

Şairə görə, tənbəllik insanın əxlaqını pozduğu halda, zəhmətə qatılaşmaq insanın əxlaqına müsbət təsir edir, əxlaqın pozulmağın qoruyur. Sən öz əməyinlə xalqa nə qədər xeyir versən hörmətin, şərəfin də bir qədər yüksələr. Odur ki, insan heç bir zaman çətinliklərdən qorxmamalıdır.

İnsanın qüvvəsinə hədsiz inam bəsləyən Nizami onun qarşısında həll oluna bilməyəcək çətinlikləri də qeyd edir. Bu münasibətlə şair «Xosrov və Şirin» dastanında zəhmət adamı Fərhaddan məhəbbətlə söz açır. Onun hünərini qiymətləndirən şair yazır ki, hərgah on polad dağ yarmaq lazım gəlsə belə, yenə də insan əlində bu cüzi bir işdir. Qarşısında aciz olduğu ölümdən başqa, insan qüvvəsinə baş əyməyən bir şey yoxdur (2, s.149).

Nizami insanın qüdrətinə böyük etimad bəslədiyi üçün onun qarşısında böyük tələblər qoyur. O, insanları çətinliklərdən üz döndərməməyi, çətinlik qarşısında ümidsiz olmamağı, əksinə nikbin görüşlə yapışıb, axıra qədər dözməyi lazım bilirdi.

Bütün bu göstərilənlərlə Nizami gənc nəsildə əməyə məhəbbət, dözüm tərbiyə etməyi, onları çətinliklərlə mübarizə etmək üçün hazırlamağı lazım bilirdi. O göstərir ki, iş çətinə düşdükdə, təmkinlə vəziyyətdən çıxmaq lazımdır. (6, s.123). Heç vaxt ümidi üzməyərək məqsədə doğru inamla getmək yaxşıdır.

Nizami çətinliklərlə mübarizəni tələb etməklə bərabər, eyni zamanda yarımçılıqdan qaçmağı, gördüyün hər işin keyfiyyətinə fikir verməyi lazım bilir. «Leyli və Məcnun» dastanında o öz oğluna həsr etdiyi nəsihətində yazır ki, fikirlə, ağılla, səbrlə palan qayırmaq, pis papaq tikməkdən yaxşıdır. (3, s.185). Nizami nəsihət edir ki, elə işləməlisən ki, işin məhsulundan utanıb adamlar yanında başıaşağı olmayasan.

Nizami bu əqidədə olmuşdur ki, əmək insanı ucaldır, ona şan-şöhrət verir. İnsan hər cür çətinliyə tab edib sinə gərməsə, heç cürə «xəzinə kəşf edə bilməz». O, yazır:

Bərk başlar içində gizlənər gövhər,
Gövhər çətinliklə əldə edilər.
İş bərkə düşəndə, bədbin olma sən,
Könlünə qüvvət ver, əqlinə güvən! (8, s.231).

Nizami insanı daima işləməyə, əməklə məşğul olmağa çağırır. O yazır ki, süstlük həyat üçün təhlükəli, sağlamlıq üçün zərərlidir. Bunun üçün işə girişmək lazımdır:

Süstlük nə deməkdir, giriş tez işə,

Bikarlıq insanı sıxar həmişə. (8, s.214).

Bu hikmətlərdə dərin məna vardır. Əmək tərbiyəsi haqqında Nizaminin tövsiyələri əməyə və əməkçi insanlara məhəbbətin gözəl bir nümunəsidir. Təsadüfi deyil ki, şair sarayda yaşamaqdan boyun qaçırmış, bütün ömrü boyu öz zəhməti ilə yaşamağı, öz müstəqilliyini və azadlığını hər şeydən üstün tutmuşdur. Onun yorulmadan və ömrünün axırına qədər işləməsi gənclərdə əməyə, zəhmətə, əməkçi insanlara, məhəbbət və rəğbət hissi aşılamaq nöqteyi-nəzərindən tərbiyəvi mahiyyət kəsb edir.

Nizami həyatı və insanları çox sevən, onlara inanan şairdir. Həyata və insana olan bu nikbinlik şairin əmək, xoşbəxtlik, çalışqanlıq haqqında dediklərində özünü daha qabarıq göstərir. Qətiyyətlə demək olar ki, Nizami əməyin insanın yaranması və təfəkküründə böyük rol oynadığına tam inanırdı. Çünki o, mənfi xüsusiyyətləri bekarlıq, boş gəzmək və avaraçılıqla bağlayır. Bundan başqa o, işsizliyin insanın psixoloji cəhətdən sağlamlığına mənfi təsir göstərdiyini, onda bədbinliyə səbəb olduğunu söyləyir. Burada Nizaminin məsələyə fəlsəfi yanaşması ilə müasir fəlsəfi cərəyanlardan olan ekzistensializm arasında maraqlı müqayisə aparmaq olar. Ekzistensializm insanın varlığı, mövcudluğu və həyatının mənasına üstünlük verən fəlsəfi cərəyandır. Burada insanın əsl mahiyyəti yalnız öz-özünə qapandıqda, ətraf aləmdən təcrid olunub daxili dünyasına cəmləşdikdə anladığı önə çəkilir. Və bu zaman insanı naməlum kədər, həsrət, qüssə və bədbinlik bürüyür. Belə insan üçün ətrafda olan hər şey ona qarşıdır. Bu mənada insan qiyam etməli, daim təhlükəyə qarşı hazır olmalıdır. Nizamidə isə yuxarıda gördüyümüz kimi tamam əksinədir. Nizami insanı yalnız işdə, fəaliyyətdə tanıyır. Öz-özü ilə məşğul olan, özünə qapılan, bədbinləşən adamı şair insanlığa yaraşmayan, onun mahiyyətinə, bu dünyadakı missiyasına uyğun olmayan kimi dəyərləndirir. Ekzistensializmdən fərqli olaraq Azərbaycan mütəfəkkiri insanı bu cür vəziyyətlərdən uzaq olmağa çağırır.

İstifadə olunmuş ədəbiyyat

1. Nizami Gəncəvi. "Sirlər xəzinəsi". Bakı, Azərnəşr, 1947.

2. Nizami Gəncəvi. «Xosrov və Şirin». Bakı, Azərb. SSR Ea Nəşriyyatı, 1962.

3. Nizami Gəncəvi «Leyli və Məcnun». Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1959.

4. Nizami Gəncəvi. «Yeddi gözəl». Bakı, «Azərnəşr», 1941.

5. Nizami Gəncəvi. "İsgəndərnamə" ("Şərəfnamə"). Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1967.

6. Nizami Gəncəvi. "İsgəndərnamə" (İqbalnamə). Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1967.

7. История философии в кратком изложении. Пер. с. чес. И.И.Богута, Н: «Мысль», 1991.

8. M.Rzaquluzadə. Nəsillərdən nəsillərə. Bakı, «Azərnəşr», 1965. (Nizaminin hikmətli sözləri).

9. M.Ə.Rəsulzadə. «Azərbaycan şairi Nizami». Bakı, 1982.

Эльмира ТАХМАЗОВА

ЭТИЧЕСКИЕ ВЗГЛЯДЫ НИЗАМИ ГЯНДЖЕВИ

Резюме

В статье отражен духовный мир того времени. В творчестве Низами Гянджеви наряду с показом положительных моральных качеств, подвергаются критике и отрицательные черты. В своих произведениях, богатых философскими взглядами, поэт отразил нравственные ценности азербайджанского народа периода средневековья. Эта проблема широко освещена в статье. В то же время поэт считал, что основным фактором в формировании мировоззрения человека являются моральные ценности. Бейты приведенные из произведений Низами помогают разобраться в поставленных проблемах.

Elmira TAKHMAZOVA

THE ETHICAL VIEWS OF NIZAMI GENJEVI

Summary

Nizami Genjevi tanned the positive moral peculiarities in his creation at the same time he criticized the negative features of morals. His works are full of with literary and philosophical thoughts. In these works the poet reflected the moral values of his time. From this point of view the article expresses Nizami's moral principles reflected in his works. At the same time poet thought that the human moral values were important in the formation of a person's world outlook. The couplets cited from Nizami's works are useful in the analysis of the problem brought to attention.

Şahnaz QULİYEVA
Sumqayıt Dövlət Universiteti

МЦАСИР ДЮВРДЯ ЭЯНЪ ГЫЗ ШЯХСИЙЙЯТИНИН ФОРМАЛАШМАСЫНЫН ПСИХОЛОЖИ МЯСЯЛЯЛЯРИ*

Щяр бир халгын эянъ гызлара мцнасибятиндя, онун шяхсиййятинин тяшяккцлцндя вя аиля щяйатына щазырлыьында юз мядяниййяти вя адят-янянляри мювъуддур. Эянъ гызын шяхсиййятинин формалашмасында, онун аиля щяйатына щазырлыьында мцхтялиф халгларын мядяниййятиндя охшар ъящятляр чохдур, лакин онлар ейни заманда бир чох ъящятдян фярди вя юзцнямяхсус хцсусиййятляри иля сечилирляр. Бу ъящятляр ися етник хцсусиййятлярдя, милли характердя, халгын менталитетиндя бцтцн айдынлыьы иля якс олунур. Йяни щяр бир халгын, етник групун эянъ гыз шяхсиййятинин тяшяккцлц иля баьлы юзцнямяхсус ганунлары олдуьу кими щяр бир тайфанын вя аилянин дя ганунлары юзцнямяхсуслуьу иля сечилир. Бу бахымдан Азярбайъан халгынын да эянъ гыз шяхсиййятинин тяшяккцлцндя, аиля щяйатына щазырлыьында юзцнямяхсус ганунлары, милли хцсусиййятляри, принсипляри вя идеолоэийасы мювъуддур, демяли, гыз ушаьы доьулдуьу эцндян юз халгына, аилясиня мяхсус сосиал-психоложи континиума, йяни аиля мцщитиня дцшцр вя щямин гыз ушаьы халгына мяхсус мядяниййятин аб-щавасында бюйцмяйя башлайыр вя онда милли шцурун формалашмасына, давраныш вя ряфтарынын милли адят-янянляря уйьун тяшкилиня хцсуси диггят йетирилир. Биз бу мягалядя диггят йетирдийимиз проблемя айдынлыг эятирмяк вя мцасир сосиал мцщитин бу просеся тясирини айдынлашдырмаг ццчцн шяхсиййятин тяшяккцлц иля баьлы эениш елми-тядгигат ишляри апармыш тядгигатчыларымыздан Я.С.Байрамов, Я.Я.Ялизадя, М.Щямзяйев, Я.Я.Гядиров, А.Аббасов, Р.Ялийев вя башгаларынын елми-тядгигат ясяриндян истифадя етмякля эянъ гызын юзцнц нечя дярк етмясини, ня заман юз «мян»ини даща адекват сурятдя гиймятляндирмяси, щансы амиллярин эянъ гызын яхлаги кейфиййятляринин зянэинляшмясиня щялледиъи тясир эюстярмясини, эянъ гызын мняви идеалы вя сярвят мейлляринин, ейни заманда эянъ гызын йарадыъылыг имкан вя ахтарышларынын онун мняви зянэинлийи иля неъя узлашдыьы бизим ццчцн гаранлыг олан мясяляляря бу мягалядя гысаъа олмагла айдынлыг эятиря билярик.

Эянъ гыз дедикдя йенийетмялик дюврцнцн чатмасы вя онун физики ъящятдян йеткинляшмяси, психоложи ъящятдян формалашмасы дюврц баша дцшцлцр. Психологлар эянълик дюврцнцн ики мярщяляни кечдийини гейд едирляр: илкин эянълик (15-17 йаш) вя йеткин эянълик (18-21) йаш.

Эянъ гызларын формалашмасы щям биоложи, щям психоложи, щям психосексуал, щям дя сосиал амиллярин тясири алтында баш верир. Бунларын ичярисиндя ися сосиал-психоложи амилляр ясас йер тутур вя она эюря дя эянълийи сосиал-психоложи щадися кими гейд етмяк олар. Биоложи бахымдан эянъ гызларын организми физики ъящятдян ясаслы сурятдя дяйишир вя онун инкишафы ясасян тамамланыр.

Психоложи бахымдан ися эянъ гызлар артыг юз «мян»лярини дярк едир, идрак фяалиййятляри вя дцнйаэюрцшляри эениш ящатяли олур.

Психосексуал бахымдан эянъ гызларда ъинси йетишмя тамамланмыш олур, психосексуал давраныш сосиал нормалара уйьунлашыр.

---

* Məqalə pedaqogika elmləri namizədi T.M.Məmmədov tərəfindən çapa məsləhət bilinib.

Сосиал бахымдан ися эянъ гызлар иътимаи мцнасибятляри мянимсямякля сосиаллашыр, нятиъядя сосиал варлыг кими йетиширляр.

Мцасир дюврдя эянъ гыз шяхсийййятинин тяшяккцлц ян мцряккяб сосиал мцнасибятляр мцщитиндя баш верир. Беля ки, эянъ гызларын сосиал фяаллыььынын артдыьы бир заманда онун мцнасибятляринин даиряси эенишлянмиш, чаларлары зянэинляшмишдир. Эянъ гыз беля мцнасибятлярдян лазымынъа баш чыхармалы, щям дя лазым эялдикдя она уйьунлашмалыдыр. Эянъ гыз шяхсийййятинин тяшяккцлц тякъя хариъи амиллярин тясири иля дейил, щям дя эянъ гызын юзцнц тякмилляшдирмяк сащясиндя активлик дяряъясиндян асылыдыр. Йяни щяр бир хариъи тясирин эянъ гызын шяхси линзасындан нечя сыныб кечмясиндян, дахилиндя ня кими якс-сяда доьурмасындан дейил, щям дя эянъ гыз шяхсийййятинин щяйат гайясиндян, сярвят мейли вя юзцнц тякмилляшдирмяк сащясиндя активлик дяряъясиндян вя с. асылыдыр. Елми-техники тярягги, сосиал-мцщитдяки дяйишкянлик йалныз информасийа каналларынын чохалмасы, хцсусян дя эянъ гызларын цнсийййят сащясинин щяддян зийадя эенишлянмяси эянъ гыз шяхсийййятинин психолоэийасында щям кямийййятъя, щям дя кейфийййятъя ъидди дяйишиклик йаратмышдыр. Эянъ гыз шяхсийййятинин, мяняви аляминин тяшяккцлц вя аиля щяйатына щазырлыььынын формалашмасы мцряккяб вя даими просесдир вя бу просес эянъ гызын юзцнц дярк етмясиндян, ону дцзэцн гиймятляндирилмясиндян чох асылыдыр. Ялбяття, эянъ гыз мянявийййатынын вя аиля щяйатына щазырлыььынын формалашмасынын, цмумийййятля, онун шяхсийййятинин тяшяккцлцндя эянъ гызын юзцнцгиймятляндирмясинин механизмини ачмаг, щямин просесин динамикасыны излямяк милли-мяняви дяйярляримизя ясасян тяшяккцл хцсусийййятлярини ашкар етмяк цчцн бюйцк ящямийййятя маликдир. Щяр бир эянъ гызын щямин просеся йахындан бяляд олмасы, даима юз цзяриндя ишлямяси, юзцнц тякмилляшдирмяси вя шяхсийййятинин мцасир иътимаи щяйатын, елми вя техники тяряггинин артан тяляблярини уйьун тяшяккцлцнц уйьунлашдырмасы онун юзцнц дцзэцн гиймятляндирмясиндян чох асылыдыр. Лакин камиллийя ъан атан, мцасирлийин тяляблярини уйьун давраныш вя ряфтарыны гуран щяр бир азярбайъанлы эянъ гыз илк нювбядя юз дахили аляминя, халгынын милли адят-яняняляриня, психолоэийасына йахындан бяляд олмалы вя шяхсийййятинин тяшяккцлцнц дюврцн тяляблярини уйьунлашдырмалыдыр. Психолоэийа елмляри доктору, профессор Я.С.Байрамовун фикирляриня ясасян гейд едя билярик ки, эянъ гызын юзцнц гиймятляндирмяси ики шякилдя юзцнц эюстяря биляр:

1) Мцасир дюврдя мяним фяалийййятим, давраныш вя ряфтарым халгын мянафейи иля ня дяряъядя щямащянэдир;

2) Елми-техники тяряггинин инкишафетдийи бир заманда мян юз шяхсийййятимин инкишафы цчцн, йяни юзцмцн елми вя мядяни инкишафым, мяняви тякмилляшмям; мядди сярвят вя мювге газанмаг, эяляъякдя эюзял щяйат йолдашы, гайьыкеш ана, цмумийййятля, эяляъяк щяйатымын ращатлыьы цчцн няляря йийялянмишям вя йийялянмялийям.

Бу ики йанашма тярзи, ики мювге эянъ гыз шяхсийййятинин тяшяккцлцня, цмумийййятля онун истяр мяняви, истярся дя аиля щяйатына щазырлыьы иля баьлы бахышларынын, давраныш вя яфтарынын формалашмасына ъидди сурятдя истигамят верир вя тясир эюстярир. Тябии ки, бу просесин формалашмасына мювъуд игтисади дурум, аиля тярбийяси вя тящсил ъидди тясир эюстярир.

Щяр бир эянъ гызын юзцнцгиймятляндирмяси психоложи ъящятдян мцряккяб просесдир. Башгаларынын яхлаги кейфийййятлярини дярк етмякля, эянъ гыз

юзцнцгиймятляндирмяк цчцн зярури информасийа ялдя едир. Бу эянъ гызын юзцнцгиймятляндирмясинин цмуми механизмидир. Анъаг щяр бир эянъ гызда юзцнцгиймятляндирмянин тяшяккцлц мяхсуси ъящятляря маликдир вя бу щяр бир гызда мянлик шцурунун, «мян» щаггында тясяввцрцнцн формалашмасы онун цмуми мядяни инкишаф сявийяясиндян, дцнйаэюрцшцндян, ягидясиндян, щяйат мювгейи вя мягсядляриндян, мейлиндян, еляъя дя юзцнц дцзэцн дярк етмяк сявийяясиндян асылыдыр.

Эянъ гызларын шяхсийяятинин формалашмасында Азярбайъан аиляляриндя халгын ян йцксяк дяйярляндирдийи яхлаги вя мяняви кейфийяятляр ашыланыр. Бу бахымдан гызларымызын хцсусийяятинин яхлаги ъящятдян формалашмасында онлара ашыланан яхлаги кейфийяятляр ъямийят тяряфиндян эянъ гызларын давраныш вя ряфтары иля баьлы дягиг сурятдя мцяййян едилмиш мяъбури тяляблляр, нормативляр мяъмусудур. Гейд етмялийик ки, эянъ гыз шяхсийяятинин тяшяккцлцндя тякъя онлара яхлаги кейфийяятлярин дейил, ейни заманда мяняви кейфийяятлярля баьлы биликлярин ашыланмасы да ясас шяртдир.

Щяр бир эянъ гызын мянявийяаты дедикдя, онун юз щярякят вя давранышынын иътимаи мянасыны баша дцшмяси вя онун тяляблляриня уйьун олараг щярякят етмясиндя ифадя олунур. Ялбяття, юз давраныш вя ряфтарынын иътимаи мянасыны баша дцшян эянъ гыз баша дцшцр ки, щансы щиссляр, тящрикляр, щансы ямялляр, ряфтар гайдалары йахшы вя йа писдир. Еля буна ясасян дя эянъ гызын юзцнцгйимятляндирмяси, юзцня тянгиди йанашмасы онун юз ряфтар вя давранышыны идаряетмя системиндя мцщцм йер тутур вя она имкан верир ки, о юз давраныш вя ряфтарыны тянзим етсин, нюгсанларыны эюрсцн вя ону арадан галдыра билсин.

Шяхсийяятин формалашмасында юзцнцгиймятляндирмяйя бюйцк юням верян рус психологу Петровски гейд едир: «Юзц щаггында артыг ня ися билян инсан башга адама нязяр йетирир, юзцнц онунла мцгайися едир, щямин адамын да онун шяхсийяят кейфийяятляриня, ямялляриня, тязащцрляриня лагейд олмадыьыны нязярдя тутур: бунларын щамысы шяхсийяятин юзцня вердийи гиймятляря (юзцнцгйимятляндирмясиня) дя дахил олур вя онун мянлик щиссини мцяййян едир». Ялбяття, эянъ гыз башга адамлар ичярисиндя юзцнц дярк едир вя шяхсийяят кими тяшяккцл тапыр вя онда милли-мяняви щисслярин формалашмасына имкан йараныр. Истяр мянявийяатын, истярся дя аиля щяйатына щазырлыьын формалашмасында башга адамларла цнсийяят заманы давраныш вя ряфтарла баьлы сосиал нормалары мянимсяйир вя ваъиб олан истигамятляри мцяййянляшдирир вя щямишя цнсийяятдя олдуьу вя ятрафдакы адамларын ондан ня эюзлядийини нязяря алыр вя онларын ряйляри, щиссляри, тяляблляри иля щесаблашыр, башга адамларын кейфийяятлярини дярк едяряк, юзцнцн гйимятини мцяййянляшдирмяйя имкан верян зярури мялуматы алыр.

Гейд етмялийик ки, эянъ гызын юзцнц дцзэцн гиймятляндирмяси юзцнцтярбийянин дцзэцн формалашмасынын ясасыны тяшкил едир. Юзцнягиймятя фялсяфи бахымдан эениш ачыглама верян профессор З.Эюйцшов гейд едир: «Юзцнягиймят юзцнцдярк етмянин тязащцр формасындан бири олуб, юз яхлаги ягидя, идеал вя мягсядляриня, юз яхлаги кейфийяятляриня яхлагъа гиймят веря билмяк габилийяти, ейни заманда шяхсийяятин виъданынын тязащцр формасыдыр. Ялбяття, эянълик дюврцндя эянъ гызлар шяхсийяятлярини йахшы анламаьа башлайыр вя юзляри щаггындакы тясяввцрляри даща да эенишлянир вя дяйишир, ейни заманда мянлик шцурунун мязмуну дяйишир вя бунун ясасында юз давраныш вя фяалийяятини тящлил

едир вя гиймятляндирир. Бцтцн бунлара ясасян гейд едя билярик ки, эянъ гызын юзцня мцнасибяти, юзцнцгиймятляндирмяси онун юз хариъи эюркямини, ъялбедиъилийини дярк етмяси, сонра ися юзцнцн яхлаги-психоложи, ягли, иради кейфиййятлярини дярк етмяси ясасында йараныр.

Мцасир дюврдя юлкямизин сосиал-игтисади бахымдан дцнйанын инкишаф етмиш юлкяляри сырасына интеграсийа етдийи бир заманда эянъ гыз шяхсиййятинин тяшяккцлцня даща мясулиййятля йанашмалы вя бунун цчцн юзцнцтярбийянин дцзэцн формалашмасына даща диггятли олмаг бу просеся планлы, мцтяшяккил шякилдя йанашмаг лазымдыр. Профессор Я.С.Байрамов гейд едир: «Унутмаг олмаз ки, йениляшмяк, сафлашмаг, юзцнцтярбийя кортябии олараг баш верян бир просес дейилдир. Бунун цчцн иътимаи-тярбийяви тясирлярля шяхсиййятин юз цзяриндя ишлямяк, юзцнцдяйишдирмяк, тякмилляшдирмяк, юз гябащятляриндян ял чякмяк мейли ялагяляндирилмялидир. Башга сюзля, тярбийя иля юзцнцтярбийя цзви сурятдя бир-бирини тамамламалыдыр, онларын гайяси ващидляшмялидир». Ялбяття, щямин мцяллифин фикирляриня ясасян гейд едя билярик ки, эянъ гыз шяхсиййятинин формалашмасында она верилян илкин тярбийя ясас рол ойнайыр ки, бунун да ясасында юзцнцтярбийя формалашыр вя бу да эянъ гызын йашадыьы иътимаи шяраитля, алдыьы тялим вя тярбийянин характери иля цзви сурятдя ялагядардыр. Бунунла да баьлы гейд едя билярик ки, юзцнцтярбийя тярбийянин мцяййян шяклиндян, формасындан ибарятдир. Юзцнцтярбийя елми-техники тяряггинин йцксялдийи бир заманда эянъ гызларын фяаллыьынын артырылмасы, онларын юзляриндя ян йцксяк мяняви кейфиййятляри инкишафы етдирмяси, интизамлы олмалары, щяр бир давраныш вя ряфтарларыны ъямиййятимизя хас олан сосиал нормалара ясасян мцяййянляшдирилмяси ъящятдян иътимаи ящямиййятя маликдир.

Гызларын тярбийяси просесиндя юзцнц эюстярян иътимаи мцнасибятляр эянъ гызларын юзцнцтярбийяси цчцн ясас рол ойнайыр вя бу, юзцнцтярбийя просесинин дцзэцн формалашмасында юз нятиъясини эюстярир вя якс олунур, йяни йа эянъ гыз ону ящатя едян хариъи сосиал мцщитин тясирлярини гябул едир, йа да щямин мцщитин тясирляринин яксиня щярякят едир. Эянъ гызын юзцнцтярбийя иля мяшьул олмасында, юз шяхси кейфиййятляринин формалашмасында милли-мяняви дяйярляримизя юням верилмясиндя вя тякмилляшдирилмясиндя ону ящатя едян сосиал мцщит мцщцм рол ойнайыр ки, бу да онун мянявиййатынын вя аиля щяйатына щазырлыьында юз тясирини эюстярир вя бцтцн бунлара ясасян гейд едя билярик ки, эянъ гыз шяхсиййятинин формалашмасында ясас рол ойнайан юзцнцтярбийя иътимаи мащиййят дашыйыр, бу вя йа диэяр иътимаи шяраитля шяртлянир.

Эянъ гыз шяхсиййятинин тяшяккцлцндя ясас рол ойнайан юзцнцтярбийянин сябябляри, мотивляри, йол вя васитяляри мцхтялиф ола биляр. Юзцнцтярбийянин мотиви дедикдя, эянъ гызын мянявиййатынын, аиля щяйатына, цмумиййятля, шяхсиййятинин формалашмасында эянъ гызын бу вя йа диэяр кейфиййяти юзцндя инкишаф етдирмяйя йюнялдян сябяби, щямин сябябин айдын дярк едилмяси баша дцшцлцр. Эянъ гызын шяхсиййятинин формалашмасында хариъи вя дахили амилляр ясас рол ойнайыр ки, хариъи амилляря ъямиййятин игтисади-сийаси щяйат шяраити вя мювъуд ъямиййятин яхлаги тяляблляри дахилдир. Дахили амилляря ися эянъ гызларын мадди вя мяняви тялябатлары, мараглары, милли-мяняви дяйярляримизя бахышы вя с. дахилдир ки, бунлар да юзцнцтярбийянин формалашмасында ясас мотив ролуну ойнайыр.

Мцасир дюврдя эянъ гыз фяаллаыынын эенишлянмясиндя ясас рол ойнайан хариъи амилляр яэяр эянъ гыз тяряфиндян дярк едилир вя онун шяхси мараглары, арзу вя истякляри иля уйьун эялирся, щямин амилляр эянъ гызы юз цзяриндя ишлямяйя, о тяляблярля лайигинъя ъаваб вермяк цчцн щазырламаьа вадар едир вя онун фяаллыыны артырырлар. Яэяр щямин тяляблярля эянъ гызы тямин етмирся, онун юзцнцтярбийя истигамятиня дцзэцн тясир эюстяря билмир.

Эянъ гызларда юзцнцтярбийянин дцзэцн формалашмасы цчцн онун тярбийя шяраити ясас рол ойнайыр. Тябии ки, мцхтялиф аиля вя буна ясасян дя мцхтялиф тярбийя шяраити олдуьундан айры-айры эянъ гызларда юзцнцтярбийянин тязащцрц, истигамяти, характери дя башга-башга олур, йяни бир-бириндян фярглянир. Гейд етмялийик ки, мцасир ъямийййятимиздя эянъ гыз шяхсийййятинин тяшяккцлцнцн психоложи тядгигиндя юзцнцтярбийянин ян мцщцм мотиви эянъ гызларын мянявий-йатынын вя аиля щяйатына щазырлыыынын формалашмасында инкишафымыза тякан верян милли-мяняви дяйярляримизин, яхлаги принсипляримизин дярк едилмяси вя щямин кейфийййятляри юз давраныш вя ряфтарында инкишаф етдирмясидир. Эянъ гызын юзцнцтярбийясинин формалашмасында юзцнянязарят дя ясас рол ойнайыр. Эянъ гыз мянявийййатынын тяшяккцлц просесиндя, аиля щяйатына щазырлыыында юз щярякят вя давРанышларына юзцня нязарят етмяйи вя кянардан баха билмяйи, юз нюгсанларыны эюрмяйи баъармалы, юз ряфтар вя давранышында писи вя йахшыны айырд етмяли вя юз шяхсийййятинин дцзэцн формалашмасына диггят йетирмяли, юзцнц дцзэцн тярбийя етмялидир. Эюрцндцйц кими, юзцнцтярбийя анъаг юзцнянязарят сайясиндя мцмкцн олур. Яэяр эянъ гыз юзцнянязарят едя билмязся, юзцнцтярбийя дя истянилян сявийййядя щяйата кечя билмяз.

Эянъ гыз шяхсийййятинин тяшяккцлцндя онун сярвят мейли дя ясас рол ойнайыр. Гейд етмялийик ки, эянъ гызын сярвят мейлинин тяшяккцлцндя бир сыра сосиал-психоложи амилляр, хцсусян цзвц олдуьу кичик сосиал груплар щялледиъи рол ойнайыр. Демяли, эянъ гызын сярвят мейлинин тяшяккцлц онун фярди психоложи хцсусийййятляриндян, гызын алдыыы тярбийянин характериндян, илк нювбядя ися шцур сявийййясиндян айрылыгда тясяввцр едиля билмяз. Гызлар сосиал мцщитин, алдыыы тярбийянин фярди психоложи хцсусийййятлярдян асылы олараг, йа мядди, йа да мяняви сярвятляря йийялянмяйи щяйатынын мянасы щесаб едир вя она наил олмаг цчцн юзцнцн физики вя зещни гцввяляриня сярф едир вя бу ися бир даща сцбут едир ки, сярвят мейли эянъ гызын арзу вя истяйини, онун шяхси кейфийййятляриня тяйин едир. Бунлара ясасян гейд едя билярик ки, эянъ гыз шяхсийййятинин тяшяккцлц, онун мянявийййатынын вя аиля щяйатына щазырлыыынын уьурлу истигамятлянмяси просеси сярвят мейли иля цзви сурятдя баьлыдыр. Эянъ гызын сярвят мейли онун ятраф алямя мцнасибятинин конкрет тязащцрц, юзцнцн кечмишини, индисини вя эяляъяйинин, ейни заманда юз мянлийинин мащийййятинин баша дцшмяйин, дярк етмяйин хцсуси формасыдыр.

Гейд етмялийик ки, эянълик дюврцндя эянъ гыз биососиал-психоложи варлыг кими формалашыр, онларда тяшяббцскарлыг, принсипиаллыг, мясулийййятлилик кими давраныш формалары тяшяккцл тапыр, эянъ гыз мцряккяб интеллектуал ямялийййатлар апармаьа щазыр олур, онун хцсуси габилийййятляри сцрятля инкишаф едир вя эянълик дюврц эянъ гыз цчцн йашлылыг мярщялясиня кечидин битмяси, юзцнцдяркетмянин тяшяккцлц, сосиал-психоложи варлыг кими формалашмасында мцщцм мярщяляни тяшкил едир.

Сонда гейд етмяк истярдим ки, эянъ гызлар шяхсийййат кими формалашдыгъа юз мягсядлярини айдын дярк едир вя она наил олмаьа ъящд эюстярир, бу да шяхсийййятин камилляшмясиня тясирсиз галмыр.

Истифадя олунмуш ядябийййат

1. Байрамов Я.С. Шяхсийййятин тяшяккцлцнцн актуал психоложи проблемляри. Бакы: «Азярняшр», 1981.
2. Байрамов Я.С. Етник психолоэийа мясяляляри. Бакы, «Елм вя щяйат», 1996.
3. Байрамов Я.С., Ялизадя Я.Я. Сосиал психолоэийа. «Гапп-Полиграф», 2003.
4. Ялизадя Я.Я., Аббасов А.Щ. Аиля. Бакы, «Маариф», 1989.
5. Казымов З. Дахиля пянъяря. Юзцнцдяркетмя. Бакы, «Азярняшр», 1978.
6. Эюйцшов З. Дахиля пянъяря. Юзцнцдяркетмя. Бакы, «Азярняшр», 1978.
7. Немов Р.С. Психология. М., 2001.

Шахназ КУЛИЕВА

ПСИХОЛОГИЧЕСКИЕ ЗАДАЧИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ МОЛОДЫХ ДЕВУШЕК В СОВРЕМЕННОМ МИРЕ

Резюме

В азербайджанской семье молодая девушка с самого детства чувствует национальные свойства, принципы и идеологии своего народа, и на базе этого формируется ее личность. Родители должны выделять особое внимание на правильное формирование их личности, морали и поведения. Потому что, именно они несут ответственность в правильном воспитании своих дочерей.

В статье рассказывается о свойственной культуре, традиции азербайджанского народа в отношении к молодым девушкам и их подготовке к семейной жизни. И конкретно просматривается психологические задачи этих национальных характеристик, принципов и идеологий.

Shahnaz GULIEVA

IN MODERN AGES THE PSYCHOLOGICAL PROBLEMS OF THE FORMATION YOUNG GIRL'S PERSONALITY

Summary

In Azerbaijan family every young girl sees and knows the characteristic rules, national traditions, principles and ideology of own people from her childhood. And on these bases the young girl's personality is formed. In this process parents must pay a great attention their girls' personality, morality formation. Parents treat their children's exact formation of the behavior and acts with responsibility.

All of these problems are given briefly in this article.

This article is talked about the attitude of Azerbaijan people to their young girl's, the characteristics of their culture and traditions during the preparation of young girl's family life.

It is attended a little about psychological problems of the national characteristics, principles and ideology in this article.

Fərid HACIYEV
Aspirant

KIPR TÜRKLƏRI VƏ YUNANLARI ARASINDA MÖVCUD OLAN PSIXOLOJI, TARIXI VƏ SIYASI BARYERLƏR KIPR MÜNAQIŞƏSI KONTEKSTINDƏ*

Kipr yunanları və kipr türkləri dil, din, mədəni və etnik xüsusiyyətlərinə görə bölünublər. Kipr yunanları yunan dilində danışır, özlərini yunan xalqının, mədəniyyətinin və klassik Bizans imperiyasının irsinin bir hissəsi hesab edirlər. Kipr yunanlarının demək olar ki, hamısı Kipr yunanlarının siyasəti, təhsili və mədəniyyətində mühüm yer tutan Pravoslav kilsəsinin üzvləridir. Digər tərəfindən Kipr türkləri türk dilində danışır və özlərini türk xalqının, türk mədəniyyətinin və Osmanlı imperiyasının bir hissəsi hesab edirlər.

Kipr türkləri və yunanları arasında mövcud olan tarixi baryerlərdən biri Osmanlı hakimiyyəti dövründə din və etnik mənsubiyyət əsasında həyata keçirilən "millət" inzibati sistemidir. Bu sistemə görə, hər bir dini-etnik qrupa ayrı-ayrılıqda yanaşma mövcud idi. Bu qrupların hər birinin inzibati məsəllərdə iştirak etmək hüquqları var idi və bu məsələlər müxtəlif dini qurumların köməyi ilə həyata keçirilirdi. 1571-ci ildə Kiprin Osmanlı İmperiyası tərəfindən fəth edilməsindən sonra adadakı pravoslav kilsəsinin muxtariyyəti təsdiq edildi və arxiyepiskop Kiprin yunan icmasının dini və siyasi lideri kimi tanındı. Nəticədə kilsə Kipr yunanlarının siyasi və etnik birliyinin rəmzinə çevrildi ki, bu da yunanlara özlərinin dini, etnik, mədəni və siyasi kimliyini qoruyub saxlamağa kömək etmiş oldu. Digər tərəfdən "millət" sistemi etnik mənsubiyyətin qütbləşməsinə gətirib çıxartdı. Britaniyanın adaya sahib çıxmasından sonra "millət" sistemi tamamilə ləğv edilmədi. Müasir bürokratik administrasiyanın qurulmasına və ümumi kimlik - Kipr kimliyi yaratmaq üçün hər iki icmanın müasir konsepsiya və ideyalar təqdim etməsinə baxmayaraq, bu icmaların hər biri yenə də din, təhsil, mədəniyyət, şəxsi status məsələlərinə nəzarəti özlərində saxlayırdılar.

İki icma arasında mövcud olan başqa bir tarixi baryer isə adanın siyasi keçmişi və gələcəyinə dair onların fərqli baxışlara malik olmalarıdır. Yunan tərəfi həmişə adanın tarixini Yunan tarixinin bir hissəsi hesab edib. Adada Britaniyanın hakimiyyəti dövründə Enosis (Kiprin Yunanıstanla birləşməsi) Kipr yunanlarının ən ümdə məqsədi olmuşdur. Bu Bizans İmperiyasının bərpa edilməsi məqsədi daşıyan Meqali İdeya (Böyük İdeya) olan geniş Panellin hərəkatının bir hissəsi kimi də izah edilə bilər. Yunanların Bizans İmperiyasının itirilməsi fikri ilə barışa bilməmələri və bu yaranın nəsildən nəslə ötürülməsi, üstəlik XIX əsrdə Yunanıstanda baş qaldıran millətçilik ruhu öz ifadəsini Enosis şüarının ortaya çıxmasında tapdı. Meqali İdeyasının nəticəsi olaraq 1920-23-cü illərdə Türkiyə ilə Yunanıstan arasında müharibə başladı və bu müharibə yunanların Kiçik Asiyada məğlubiyyəti ilə nəticələndi. Bu həmçinin 1 milyon yunanın Türkiyədən Yunanıstana və 650 min türkün əks istiqamətə köç etməsinə səbəb oldu. Bu cür kütləvi köçlər hər iki xalqda düşmən imicini daha da gücləndirmiş oldu. Yunanların Enosis çağırışlarına əks qüvvə kimi Türkiyə taksim (Kiprin iki hissəyə - yunan və türk Kiprinə bölünməsi) ideyasının ortaya atdı. Enosis və taksim çağırışları öz növbəsində hər iki etnik qrup arasında siyasi qütbləşmənin yaranmasına gətirib çıxartdı.

"Böl və idarə et" prinsipinə əsaslanan Britaniyanın müstəmləkə siyasəti Osmanlı üsul idarəsindən miras qalmış etnik, inzibati və siyasi bölgünü qoruyub saxladı və daha da möhkəmləndirdi. Təəssüf ki, Britaniya administrasiyası vahid Kipr kimliyi və siyasi mədəniy-

---

* Məqalə fəlsəfə elmləri doktoru, professor Y.Rüstəmov tərəfindən çapa məsləhət bilinib.

yəti yaratmaq üçün heç bir cəhd göstərmədi. İnzibati məsələlərdə iki icmaya ayrı-ayrılıqda yanaşılır və bu icmalar arasında düşmənçilik qızışdırılırdı. Bu iki icma arasında psixoloji və inzibati baryerlərin saxlanılması Britaniyanın ada üzərindəki nəzarətini şərtləndirən əsas amil idi.

Kipr münaqişəsindəki siyasi baryer faktiki olaraq London və Sürix razılaşmaları, eləcə də Kiprin konstitusiyasına əsaslanırdı. Bu razılaşmalar Kipr xalqının adından Türkiyə, Britaniya və Yunanıstan tərəfindən imzalanmışdı. Həmçinin, bu razılaşmaların bir hissəsi olan Konstitusiya da referenduma çıxarılmamış və xarici qüvvələr tərəfindən zorla qəbul etdirilmişdir. Başlanğıcdan adanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü adada hərbi qüvvələrin yerləşdirilməsi və yuxarıda adı çəkilən razılaşmaları imzalamış ölkələrə adanın daxili işlərinə qarışmaq hüququnun verilməsi nəticəsində xeyli dərəcədə məhdudlaşdırılmışdı.

Etnik ikiləşmə özünü ictimai həyatın bütün sahələrində göstərirdi. Etnik separatçılığa şərait yaradan siyasi sistem artıq yaranmışdı. Enosis və taksim ideyalarının konstitusiya tərəfindən qadağan edilməsinə baxmayaraq, alternativ sistem cəmiyyətdə inteqrasiya prosesinə şərait yarada bilmədi. İctimai qurumlar Kiprdə ümumi kimliyin yaranmasına yardımçı olmaq əvəzinə etnik maraqlara xidmət edirdilər. Nəticə etibarilə sistem dövlət və cəmiyyət üçün həyati əhəmiyyətə malik olan orqan və funksiyaları iflic vəziyyətinə saldı. Məsələn, ictimai xidmət sahəsində, polis və orduda qeyri-proporsional bölgünün aparılması, eləcə də hökumət işlərində veto hüququnun tətbiq edilməsi etnik ziddiyyətləri intensivləşdirirdi.

Fiziki cəhətdən onlar müxtəlif kəndlərdə və şəhərlərin müxtəlif hissələrində yaşayırdılar. Kiprin siyasi coğrafiyasına dair araşdırmasında Riçard Patrik həm yunanların, həm də türklərin yaşadığı qarışıq kəndlərin sayının 1881-ci ildən 1931-ci ilə qədər olan dövr ərzində əhəmiyyətli dərəcədə azalmasını göstərən statistik faktları ortaya qoyur (1, s.8-12). 1931-ci ildən sonra qarışıq yaşayış məntəqələrinin azalması daha aydın görünməyə başladı, belə ki, hər iki icmadan olan insanlar artıq etnik qohumluq olan ərazilərdə yaşamağa üstünlük verirdilər. 1960-cı ilin siyahıyaalmasına əsasən, ümumilikdə 634 kənddən (onlardan 395-i tamamilə yunan, 121-i isə türk kəndi idi) cəmi 114-ü qarışıq idi (1, s.25).

Osmanlı hakimiyyəti dövründəki "millət" sistemi və Britaniyanın müstəmləkə hakimiyyətindən miras qalmış təhsilin bölünməsi prinsipi etnik bölünməni daha da gücləndirdi və davam etdirdi. Britaniya hakimiyyəti dövründə hər iki icmanın ayrılıqda məktəbləri var idi ki, onlar da müvafiq dini qurumların nəzarəti altında fəaliyyət göstərirdi. Bu dövrdə Pravoslav dindarları və müsəlman möminləri məktəb müəllimləri kimi də işləyirdilər. Bundan əlavə, təhsil sahəsində onlar öz vətənləri ilə asılı əlaqələr qurmuşdular. Kiprin orta və ali məktəblərində tətbiq edilən tədris planı və dərs vəsaitləri əsasən Yunanıstan və Türkiyədən idxal edilirdi. Nəticədə, hər iki icma özünün dini, milli, etnik irsinə və dəyərlərinə yiyələnərək uzun tarixə malik yunan-türk düşmənçiliyini adaya gətirmiş oldu. Kollec və universitetlərin çatışmazlığı səbəbindən hər iki icmadan olan cavanlar Türkiyə, Yunanıstan, Böyük Britaniya və digər ölkələrdəki təhsil müəssisələrinə üz tuturdular. Bu isə öz növbəsində təhsil sahəsində və intellektual sahədə icmalar arasında əlaqələrin zəifləməsi ilə nəticələndi və iki icma arasında birtərəfli "etnik" düşüncə tərzini möhkəmlətmiş oldu. Məsələn, adanın hər iki hissəsində ilk universitet 1992-ci ildə yaradıldı. Yarandıqdan sonra Kipr Universitetində Kipr yunanları təhsil almışdılar. Bunun nəticəsi isə iki icmanın anlayışlarında və münasibətlərində fərqlərin daha da dərinləşməsi oldu. Hər iki icmanın özünün qəzetləri və digər nəşrləri var idi ki, onlar da əsasən tərəflər arasında media müharibəsinin aparılmasına xidmət edirdi. Adadakı yerli mətbuat, eyni zamanda Yunanıstan və Türkiyədən gətirilən mətbu nəşrlər yunan-türk düşmənçiliyini diqqət mərkəzində saxlayır və qarşılıqlı qorxu hissini gücləndirirdi. Yuxarıda sadalanan faktorlar – kilsə hakimiyyəti, "millət" sistemi, bölünmüş etnik təhsil, siyasi qütb-

ləşmə və Britaniyanın "böl və idarə et" siyasəti Kiprin iki icmasının öz etnik kimliyini qorumasına və onlar arasında siyasi parçalanmanın yaranmasına gətirib çıxardı. 4 əsrlik coğrafi yaxınlıq və iki icmanın etnik cəhətdən bir-birinə qaynayıb qarışması din, inzibati, təhsil, sosial, psixoloji və mədəni fərqlərə əks qüvvə kimi iki icmanın birgə mövcudluğu və vahid Kipr kimliyinin yaranmasına gətirib çıxartmadı.

Psixoloji və sosial cəhətdən iki icma arasında uçurum var idi. Birinci psixoloji baryer vahid Kipr kimliyinin olmaması, eləcə də ayrılıqda Türk və Yunan kimliklərinin cəmiyyətdə dərin kök salması problemi idi. Hər iki icmanın 400 ildən artıq bir müddət ərzində eyni adada yaşamasına baxmayaraq, türklər türklüyünü, yunanlar isə yunanlığını qoruyub saxlamışdı. 1960-cı ildə Kipr Respublikası yarandıqda onun Kipr xalqı yox idi, əvəzində iki müxtəlif icma, xalq var idi. Müstəqil olduqdan sonra da hər iki icma müvafiq olaraq Yunanıstan və Türkiyənin milli bayramlarını qeyd edirdilər. Bundan əlavə, Kiprin rəsmi bayrağı yalnız prezident sarayı kimi müəyyən yerlərdə asılırdı. Başqa yerlərdə və tədbirlərdə Yunanıstan və Türkiyənin milli himnləri və bayraqlarından istifadə edilirdi. Kiprin özünün himni də yox idi. Kipr türklərinin Türkiyənin bayrağını, Kipr yunanlarının isə Yunanıstanın bayrağını dalğalandırmaları istər-istəməz iki icmanı bir-birinə yadlaşdırır, onlarda milli mənsubiyyət hissini gücləndirir, eləcə də Yunanıstan və Türkiyəyə sadiq qalmalarının şərtləndirirdi. Bütün bunlar Kiprdə ümumi siyasi mədəniyyətin formalaşmasının qarşısını alır və yeni Kipr dövlətinin legitimliyinə kölgə salırdı.

Kiprlilərin Kiprin rəsmi bayrağına münasibətini təsvir edərkən psixologiya üzrə professor Vamik Volkan bunları yazırdı:

1994-cü il Budapeşt Sammitindən bir qədər əvvəl, yəni 1994-cü ilin sentyabrında BMT-də ABŞ-ın daimi nümayəndəsi Madlen Olbrayt Bakıda ölkə prezidenti ilə görüşündə Qarabağ konfliktinin siyasi problem olaraq potensialını düzgün qiymətləndirmiş və onu beynəlxalq birlik üçün sınaq hesab etmişdi. Bundan əlavə, oktyabrın 25-də səfir R.Kozlariç Azərbaycan Prezidentinə ABŞ prezidenti B.Klintonun məktubunu çatdırmışdı. Burada ABŞ-ın dövlət başçısı Qarabağ probleminin həllində ATƏT-in Minsk qrupunun fəaliyyətinə üstünlük verdiyini göstərmiş, konfliktin tənzimlənməsində sülhyaratma qüvvələrinin təşkili ideyasını dəstəkləmişdir. Ən qüdrətli dövlətin başçısının problemə bu meyarla yanaşması fəaliyyəti 1994-cü il dekabrın 6-dan başlayan Budapeşt sammitinin gedişi üçün çox şey demək idi. Bundan əlavə, BMT-nin Baş katibi B.Qali həmin ərəfədə bütün konfliktli hallarda olduğu kimi BMT-nin Təhlükəsizlik Şurasının regionda sülhü bərpa etmək naminə ATƏT-in bütün fəaliyyətində iştirak etməyə hazır olduğunu vurğuladı. Onun fikrincə, digər konfliktlər kimi Ermənistan-Azərbaycan konfliktinin də həllində BMT üç əsas vəzifəni yerinə yetirməlidir: l.BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini təmin etmək; 2. Regionda ATƏT-in sülhməramlı

əməliyyatlarının maksimum dəstəklənməsi; 3. Konflikt zonasında sülh və təhlükəsizlik naminə təşkilat tərəfindən təkrarçılığa yol verilməməsi üçün sülh təşəbbüslərinin əlaqələndirilməsi funksiyasını yerinə yetirmək (4).

Azərbaycan tərəfinin narahatçılıq keçirməsi əbəs deyildi. Çünki hələ 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalı məsələsini bir neçə dəfə müzakirə etmişdir. Dörd qətnamə - 30 aprel tarixli 822 nömrəli, 29 iyul tarixli 853 nömrəli, 14 oktyabr tarixli 874 nömrəli, və 11 noyabr tarixli 884 nömrəli qətnamələr qəbul edilmişdir. Lakin bunların heç biri yerinə yetirilmədiyindən ATƏT-in fəaliyyətini intensivləşdirmək xüsusi məsələ kimi sammitin iştirakçılarını da düşündürməyə bilməzdi.

Bütün bu deyilənlərin məcrasında bizi düşündürən ən mühüm problemlərdən biri BMT və onun prosedurası sisteminin xarakteridir. Xatırladaq ki, Ki-Uest danışıqlarının açılışı günü prezident H.Əliyev görüşün keçirilməsinə impuls verən bəyanatında Qarabağ konfliktinin tarixi ve siyasi-hüquqi qaynaqlarına da toxunmuş və Ermənistanın təcavüzkar tərəf olduğunu açıqlamışdı. Lakin Ermənistan prezidenti buna heç də diplomatik nəzakət normalarına sığmayan "mən danışıqlara gəlmişəm, təbliğat aparmağa yox" deyə cavab vermişdi. Lakin sonralar erməni təbliğatı "əldən verilmiş imkanın" yerini doldurmağa cəhd göstərmişdir. Həmsədrlərin Bakı görüşü ərəfəsində, aprelin 30-da separatist rejimin Xarici İşlər nazirliyi Birləşmiş Millətlər Təşkilatında yayılmaq üçün memorandum və onu müşayiət edən məktub göndərmişdir. Memorandum Ermənistanın BMT-dəki daimi nümayəndəsinin məktubuna əlavə kimi təqdim edilmişdir. Məlum mənbə mətbuata bildirmişdir ki, BMT-nin katibliyi üzv dövlətlərin istənilən əlavəsini yaymağa borcludur. Biz bu məsələyə qayıdacağıq, indi isə "əlavənin" məzmunu və niyyəti barədə. Memorandumda deyilir ki, "DQR" 2001-ci il 30 aprel tarixli məktubunun Baş Məclisin 56-cı sessiyasının sənədi kimi yayılmasına görə minnətdarlığını bildirir. Erməni separatistlərinin məktubunda həmçinin göstərilir ki, "Dağlıq Qarabağ Respublikasının" hakimiyyət orqanları "keçmişin problemlərilə" bağlı diskussiyalardan çəkinməyə çalışmış və diqqəti konfliktin həlli üçün gələcəkdə sülhün və sabitliyin yaradılması naminə səylər üzərində cəmləşdirmişdir. Qəribədir ki, bütün rəsmi və təbliğat sənədlərində Arsaxın Ermənistanın tarixi torpağı olması barədə heç bir tarixi-etnoqrafik əsasa söykənməyən söhbətləri ortaya atmaqla Azərbaycan tərəfini həmişə mənasız polemikaya zorla cəlb edən erməni alimləri deyilmi? İndi isə erməni separatistləri nədənsə Azərbaycan prezidentinin öz bəyanatında Qarabağın tarixi barədə əsl elmi, obyektiv açıqlamasından narahat olurlar. Odur ki, erməni tərəfi məktubda regionun tarixi barədə “danılmaz elmi” faktlar gətirir.

İstifadə olunmuş ədəbiyyat

1. «Azərbaycan» qəzeti. 19.10.1993.

2. BMT-nin Beynəlxalq münasibətlərə dair illik bülleteni. 1993.

3. Аббасзаде Ф. Функционирование механизмом ООН по предотвращению, управлению и решению споров и конфликтов. Авт.дисс.канд.наук. Баку, 2001, с.21-22.

4. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı, 2001, səh.74 (150 səh.)

5.BMT-nin TŞ-nın 822 saylı qətnaməsi: «Azərbaycan «qəzeti 21 aprel, 1993, № 36.

Анар АЛИЕВ

РОЛЬ ООН В РЕШЕНИЕ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА

Резюме

Национальный лидер Гейдар Алиев подходил к решению Карабахского конфликта с позиции международного права и опирался на поддержку международных организаций. Эта проблема несколько раз была обсуждена в ООН. Но армянская сторона необращала внимание на решения международных организаций. Данная статья принимает важность в исследовании этой проблемы.

Anar ALIYEV

THE ROLE OF UNO IN SOLUTION THE NAGORNY KHARABAH CONFLICT

Summary

The Nagorny Kharabah conflict created treated tragedies from independence national leader Haydar Aliyev tried to solve this problem with the standards of international law and the support of the international organizations. This problem was discussed in UNO for several times. But Armenian didn’t pay attention to the standards of international law. This article assumes importance in investigating this problem.

Рафиг МИРЗЯЙЕВ
ЛДУ-нун аспиранты

ИРЯВАН ДИЙАРЫНЫН СИЙАСИ ТАРИХИНЯ ДАИР*

Азярбайжан Сяфявиляр дювляти йарандыгдан сонра Йахын Шярг Юн Асийа вя Гафгаз реэионларында бейнялхалг вязиййятинин кяскин дяйишмяси тясадцфи олмамышдыр. Бир тяряфдян Сяфявиляр дювляти Авропа юлкяляри ччцн даща чох тящлцкяли олан Османлы Тцркийяси, диэяр тяряфдян ися гцдрятлянян, узаг шяргя гядяр торпаглара сащиб олан вя йахын эяляжякдя Гафгазда щеэомонлуг мягсядляриня чатмаьа жан атан Русийа иля цз-цзя дурмаг яряфясиндя галырды. Бейнялхалг мцнасибятляр бахымындан эюрмяк олур ки, илкин мярщялядя Османлы Тцркийяси яввялки эцжцня вя гцдрятиня архаланараг Сяфявиляр дювляти иля цз-цзя дайанса да, Русийа иля эюзлямя дипломатийасындан мящарятля истифадя едирди. Гярб дювлятиня эялдикдя ися онларын бир гисми Османлы тяжавцзцндян хилас олмаг вя бу щярби йцрцшляринин давам етмясинин гаршысыны алмаг вя бундан Османлы сарайындан йайылмаг ччцн Азярбайжан Сяфявиляр дювлятиндян бажарыгла истифадя едя билдиляр. Бу Гярб дютлярляринин щямишя олдуьу кими, щийляэяр дипломатийаларынын уьуру иди.

Иряван шящяри Азярбайжан Сяфявиляр дювлятинин инзибати ярази бюлэцсцня эюря 4 бяйлярбяйлийиндян бири олан Чухурсяяд бяйлярбяйлийинин мяркязи иди. Бу цч яйалятиндян Родмин мяркязидян Чухурсяяд бяйлярбяйлийи Сяфявиляр тяряфиндян идаря олунурду. И.П.Петрушевскинин йаздыьы кими сонралар Сащ Гулу Султан Ужтадлы вя Мящяммяд хан Тохмар Ужтадлы идаря етмишди. (5)

ХВЫ ясрдя Османлы Сяфяви мцщарибяляринин эедишини изляйяркян мцяййян етмяк олур ки, Ирявян шящяри бу дювлятлярин щярби пласдармы олмуш, мцхтялиф вахтларда бу вя йа диэяр дювлятин ихтийарына кечя билмишдир. Буна бахмайараг Иряван шящяр эеосийаси жящятдян олдугжа ящямиййятли олдуьу ччцн тяряфлярин щярби ямялиййатлары давам етмяк вя уьурларын газанылмасында щеч дя аз рол ойнамамышдыр.

ХВЫЫЫ ясрин яввялляриндя Сяфяви-Османлы мцнасибятляриндя Нахчыван вя Иряван яразиляри хцсуси йер тутурду. Она эюря дя 1603-жц илдя нойабрын 16-да Иряван галасы Ы Шащ Аббас тяряфиндян мцщасиряйя алынды. Сярт сойуг шяраитя бахмайараг Сяфявилярин щярби ямялиййатлары 1603-1604-жц илин гышына кими давам етмяси тясадцфи олмамышды. Иряван галасы 1604-жц ил ийунун 8-дя тутулду. Османлы ордусу тяслим олду. Бундан сонра Сяфявилярин щярби ямялиййатлары Тцркийя яразисиня кечди.

Ы Шащ Аббасын Османлылара гаршы «йандырылмыш торпаглар» тактикасы Нахчыван вя Ирявандан да йан кечмяди. Бурада ярази йандырылды вя ящали зорла Иранын мцхтялиф йерляриня кючцрцлдц. Буна жаваб олараг 1612-жи илин августунда Иряван галасы мцщасиряйя алынды. Нятижядя Сяфявиляря аьыр зярбяляр вурулду. Лакин 1620-жи илдя апрелин 30-да Иряван галасы дюйцш иля Османлыларын ялиня кечди. Щямин илин сентйабрында Сяфявиляр сарайынынын Щярби Шурасы Иряван галасынын эери гайтармаьы гярара алды. Нятижядя 1635-жи илдя апрелин 2-дя Иряван галасы Ы Шащ Сяфи тяряфиндян тутулду. Сонракы тарихи дюврдя Османлы-Сяфяви

* Məqalə redaksiya heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor A.Şükurov tərəfindən çapa məsləhət bilinib.

мцнасибятляриндя нисби сакитлик олса да, ХВЫЫЫ ясрин яввялляриндя ися бу мцнасибятлярдя йени мярщяля башланды. Гярби Авропа юлкяляриндя, еляжя дя Русийада да бейнялхалг вязиййятин дяйишмяси Жянуби Гафгаз реэионуна да юз тясирини эюстяря билди. Илк нювбядя Османлы Тцркийясинин торпагларынын бир гисми Чар Русийасы тяряфиндян тутулса да, Русийа нисбятян эюзлямя дипломатийасы мювгейиндя дурараг Османлы Тцркийяси иля йенидян тоггушмамаг, тяняззцл дюврц кечирян Азярбайжан Сяфявиляр дювлятиндян бажарыгла истифадя етмяк, эяляжякдя Хязяр сащили торпаглара сащиб олмаг вя ишьалчы сийасятини уьурла щяйата кечирмяк мягсядлярини эцдцрдц. Османлы сарайына эялдикдя ися, Сяфявиляр дювлятинин тяняззцлц иля ялагядар олараг бу дювлятин варислийиня сащиб олмаг планы щазырланды. 16 октйабр 1716-жы илдя Шамахыйа эялмиш А.П.Волински инэилис тажири Бернс Булгар иля эюрцшдц. Бу эюрцшдя Волинскийя Исфащана эялмиш тцрк елчиси султанын Тифлис вя Ируван шящярлярини дя гайтармаг тялябини билдирди. Гярби Авропа дювлятляриля Османлы империйасынын Балканларда апардыьы мцщарибяляр дя мяьлубиййятини вя чох зяифлянмясини баша дцшян, Иран Шащы Тифлис вя Иран шящярляринин илк нювбядя гайтармайажаьы вя юзцня лазым олдуьу, икинжи ися султан сарайынын христиан юлкяляри иля мцщарибя вязиййятиндя олдуьундан онларын ишиня гарышмайажаьы. О, бу мювгедя чыхыш етмяйя мяжбур олурду. Шащ Султан Щцсейнин бу тяклифи бир тяряфдян щеч дя тясадцф олмамышдыр. Чцнки Османлы Тцркийяси Гярб дювлятляри иля илк нювбядя мцщарибя вязиййятиндя олмасы мцщарибяни Гярбдян Шяргя кечирмяк цчцн ня сийаси, ня дя щярби имканлары вермирди. Бундан башга, Османлы сарайындакы щакимиййят уьрунда мцбаризя даща да дяринляшмякдя иди. Диэяр тяряфдян ися Османлы Тцркийяси иля йенидян мцщарибяйя башламаг цчцн эцжц йох иди. Русийайа эялдикдя ися Азов йцрцшцндян сонра щярби маневрлярини Гара дянизиндян Хязяр дянизиня вермяси щеч дя кечирмяси сябябсиз олмамышдыр. Йахын эяляжякдя Русийа ямин иди ки, Гара дянизя нисбятян Хязяр дянизи реэионунда щярби ямялиййатлары даща уьурла баша чатдыра биляр. Бунун цчцн илк нювбядя бу истигамятя даща чох цстцнлцк верирди.

12-13 ийун 1723-жц илдя тцрк ордусу эцржц феодалларынын ара мцщарибяляриндян истифадя едяряк дюйцшсцз Тифлиси тутду. Иран шащы бу щадисяйя бир о гядяр дя ящямиййят вермяди. ВЫ Вахтанд щакимиййятдян бу щадисядян яввял щакимиййятдян эютцрцлся дя яввялляр Ируван бяйлярбяйлийи идаря едян Мящяммядгулухан бурайа тяйин едилмишди. Бир мцддят щяр ики щаким юз араларында щакимиййят уьурунда мцбаризя апармалы олдулар. (8, 18) Лакин буна бахмайараг щадисялярин сонракы мярщялясиндя Мящяммядгулухан 4 май 1723-жц илдя Даьыстан феодалларынын кюмяйи иля гяфлятян Тифлиси тутду вя Вахтанг ися бурадан говулду. (3) Османлы сарайы Жянуби Гафгазда Тифлисин стратеъи ящямиййятини дярк едян Ярзуруллу Ибращим пашаны Тифлися эюндярди, Мящяммядгулу хана галанын арчарлары вя хейли мигдарда пул верди. Бунунла мящдудлашмайан Мящяммядгулу хан ися Ируван вя Эянжяни тцркляря табе едяжяйини вяд етди. Ибращим паша Тифлиси тутду, бурада тцрк гарнизону йерляшди.(4) 1723-жц илин октйабрында ялавя олараг Ярзурумдан 60 минлик тцрк ордусу Тифлися эюндярилди, цмуми гошуна Ибращим паша рящбярлик едирди. Гыса мцддят ярзиндя Ибращим пашанын рящбярлийи алтында тцрк ордусу Эянжяйя йахынлашды. Шящяри 10-12 мин адам мцщафизя еддирди, йайдакы Эянжя дюйцшцндя ися тцркляр 4 мин адам итирдиляр, 1000 няфяр ися йараланды. 12 эцндян сонра Мящяммядгулу ханын

гайытдыьыны ешидян тцркляр, эерийя чякилмяйя мяжбур олдулар. Бу вахт Исщак паша, Мящяммяд паша вя Мустафа пашанын цмуми рящбярлийи алтында 10 минлик тцрк ордусу Тифлися йолланылдылар. Бундан башга, султан сарайы Иряван шящяри тутмаг цчцн Ариф Ящмядя ялавя тапшырыг верилди. 1724-жц илдя ися Ариф Ящмяд пашанын башчылыьы алтында 60 минлик тцрк ордусу Ирявана истигамятляндирилди. Чухурсяяд бяйлярбяйлийиня рящбярлик едян Мящяммядгулу хан Эянжядян, Шямсяддиндян вя Ирявандан азярбайжанлылары ордусуна жямляшдиряряк, тцрк ордусуна инадлы мцгавимят эюстяря билди. Буна бахмайараг 31 августда гала Османлы ордусу тяряфиндян тутулду 24 эцндян артыг Иряван галасынын мцдафияси нятижясиз галды. Анадолу валиси вязир Осман паша Иряван галасынын коменданты тяйин едилди. (9, 298) Тезликля Тябриз, Хой вя Щямядан да ишьал едилди. Иряван тутулдугдан сонра тцрк сарайы тижарятин инкишафы цчцн бир сыра тядбирляри эюрмякля бейнялхалг игтисади мцнасибятляр системиндя юз мювгейиндя дяйишиликляр йаратмаг арзусунда иди. Ариф Ящмяд пашанын юз щюкцмятиня бу сащядя тяклифи щеч дя тясадцф дейилди. Араз чайында навигасийа системинин инкишафы цчцн авадлыг ишинин эюрцлмяси вя йаралы щала салынмасы Хязяр дянизиндян истифадя цчцн зярури шяраитин йарадылмасыны нязярдя тутурду. Тцрк щюкцмяти тякжя тижарят цчцн дейил, эяляжякдя щярби мягсядлярини щяйата кечирмяк цчцн Араз чайында дярщал бир сыра ишляр эюрмякля йанашы кюрпцляр дя салынды. Артыг 1724-жц илдя Арпа чайында да бу ишляр апарылды. Ордубадда Арас чайы цзяриндя салынан кюрпц тцрк хязинясиня илдя 12 мин газанж эялир эятирди.

1724-жц илдя Русийа иля Тцркийя арасында баьланан Истанбул мцгавиляси бир тяряфдян Русийанын Хязярйаны торпаглары илщаг етмяси имканлары верирся дя, диэяр тяряфдян ися Жянуби Гафгазда вя Жянуби Азярбайжан яразилярини ишьал етмяк цчцн разылыг ялдя етди. Бу да Чухурсяяд бяйлярбяйлийи, хцсусиля Иряван галасы истигамятдя 75 мин ордунун Абдулла Паша Кюпрцлцнцн башчылыьы алтында жямлянмяси иля нятижялянди. 1724-жц ил ийунун 7-дя Иряван галасына тцрк ордусу дахил ола билди вя августун 31-дя Иряван шящяри Иран ордусундан тамамиля тямизлянди. Тцрк сяркярдяси Ряжяб Паша щаким тяйин едилди. (7, 177) Щадисялярин сонунжу мярщялясиндя Османлы-Иран мцнасибятляри 1729-жу илдя баьланан мцгавиля иля нятижялянди. Мцгавиляйя ясасян Османлы сарайынын ишьал етдийи торпаглардан - Иряван, Эянжя, Тифлис, Шамахы, Нахчыван вя с. ял чякмяйиня разы олдуьуну тясдиг етди. (2, 47) Лакин бу мцгавиля щеч дя ябяди олмады. 1732-жи ил йанварын 16-да йенидян баьланылан Османлы-Сяфяви мцгавиляси иля Жянуби Азярбайжан шящярляри, Иряван вя Нахчыван йенидян Османлы Тцркийясинин тяркибиндя галды.(2, 19)

Сяфявилярдя Надир Гулу ханын щакимиййятя эялши иля бу дювлятляр арасында мцнасибятляр эярэинляшди Апарылан дипломатик данышыглар нятижясиндя мцщарибясиз 1735-жи ил октйабрын 3-дя тцрк гарнизону Ирявны тярк етди. Надир шащы яввялки турибат ярази бюлэцнц ляьв едяряк Ширван, Гарабаьы, Тябриз Чухурсяяд бяйлярбяйликлярини бирляшдиряряк мяркязи Тябриз олмагла йени инзибати бюлэя йаратды. Бюлэяйя шащын гардашы Ибращим хан башчы тяйин олунду. (1, 379) Беляликля Азярбайжан яразисиндя ханлыгларын йаранмасына гядяр Иряван дийары эеосийаси жящятдян диггяти жялб етдийиндян даим мцщарибяляр мейданына чеврилмяси тясадцфи олмамышдыр.

Истифадя олунмуш ядябиййат

1. Azərbaycan tarixi, 7 cldli. 3-cü cild. Bakı, 1999.
2. Fuad Əliyev, Urfan Həsənov. İrəvan xanlığı. Bakı, 1997.
3. Маркова О.Р. Россия – Закафказье: международные отношения в XVIII веке. М., 1966.
4. Мустафазаде Т.Т. Азербайджан и Русско-турецкие отношения в первой трети XVIII в. Б., 1993.
5. Петрущевски И.Р. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX в.в. Л., 1948.
6. Отхмезури Т.Х. Восточная Грузия в 1722-1735 гг. Автореферат дисс. Тбилиси, 1975.
7. Симон Ереваиси Джабр. М., 1959.
8. Тер-Мкртычян З.Л. Армения под властью Надир шаха. М., 1963.
9. Хаммер. История Османской империи тт., ч.1.

Рафик МИРЗОЕВ

ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ ОБРАЗОВАНИЯ ЕРЕВАНСКОЙ ОБЛАСТИ

Резюме

Известно, что Сафавильское государство по законной части разделена на бейляров и бейликляров. И одним из таких частей являются азербайджанские земли - центр Еревана - город Чухурсаад.

Из истории известно, что Ериван является Азербайджанской землёй.

Большая часть города Еривани и в целом Чухурсаад населен был азербайджанскими турками.

В результате народных выступлений в XVIII веке с 20-х годов Сафавильское государство мгновенно разделилось на отдельные части. Прикаспийскии территории были захвачены Россией.

Территория Чухурсаада включая бейлярбейли, западные и южные азербайджанские земли оказались под наблюдением Османской империи. Они организовали Ереванскую область.

И до 1735 года существовала Ереванская область, которую поддерживала Османская Империя.

Османская империя проводила для развития области разнообразные мероприятия. В то же время проводилась перепись населения.

Под руководством известного Азербайджанского полководца Надирахана с 1735 года османлинцы были изгнаны из Азербайджанской земли.

В 1735-1747 годах при правлении Надир хана, город Ереван был в числе Сафавильского государства.

В 1747 года был убит Надир хан, под руководством Мирмехти хана образовалось самостоятельное Ереванское ханство.

Rafiq MIRZOYEV

TO THE POLITICAL HISTORY OF IRAVAN

Summary

As it's known the Hvevides stste was adminstrativly divided into the regions which were called "baylarbaylik" One of them was Chukhursad of which the centre was Iravan.

From ancient being Azerbaijan land the most population of Iravan and altogether of Chukursad consisted of Azeri Turks.

In the result of foreign military interference and the rebellion of people the Sefevider state was divided in the years of the twentieth in XVII century.

The Caspian side provinces were occupied by Russia but including the territory of Chukursad the lands of west and South Azerbaijan fell under the control of the Ottomans organized the province of Iravan instead of Chukursad region. During the Ottoman reign that lasted fill 1735 some measures were taken about the economical improvement of the province. The registration of the population was held, too. As it's known in the result the Ottomans had been driven out of Azerbaijan lands by 1735 with the efforts of the tallantedAzerbaijanian general Nadir Afshar. In 1735 - 1747 during the reign of Nadir khan the city of Iravan was a consisting pars of the Sevevides state. After Nadir khan's commiting suicide in 1747 an undependent Iravan khanate was founded in Iravan and it's nearby under the leadership of Mirmehdi khan.

Çingiz QURBANOV
Диссертант

EVTANAZIYA VƏ ONUN ƏTARAFINDA YARANAN ETIK PROBLEMLƏR*

Evtanaziya ətrafında mübahisələr əslində heç zaman səngiməmiş və zaman-zaman özünə həm ictimaiyyətin, həm də filosofların diqqətini cəlb etmişdir. Problemin aktuallaşması ikinci dünya müharibəsindən sonra faşist Almaniyasında həkimlərin törətdikləri cinayətlərin müzakirəsi və həmçinin müasir təbabətin inkişafı ilə şərtlənən yeni etik situasiya ilə izah oluna bilər. Məsələ ondadır ki, müasir təbabət həyatın uzadılması istiqamətində böyük nailiyyətlərə nail olaraq həyatı bitkisəl formada qeyri-müəyyən müddətə uzatmaq imkanları qazanmışdır. Aydındır ki, bu hal ictimai təcrübədə (tibbi təcrübə də onun tərkib hissəsi kimi) ilk dəfədir ki, meydana çıxır. Bu halda adətən passiv evtanaziya, yəni suni həyat təminatı vasitələrinin açılması, tətbiq olunur. Və burada yaranan etik məsuluyyətin ünvanı qeyri-müəyyən qalır. Həkim koma vəziyyətində olan pasientin yaxınlarının tələbi ilə aparatları açır və xəstə təbii gedişatla öz ölümünə çatır. Yaxınlar da əslində xəstənin ölümünü arzulamadıqlarını bildirirlər, lakin ölüm baş verir. Aydındır ki, süni həyat təminatı vasitələri qeyri-müəyyən müddətə işləyə bilməz, ən azı maddi baxımdan. Və prosesin gec-tez dayandırılması şübhə doğurmur. Problem bu addımın gerçəkləşdirilməsinin mənəvi tərəfi ilə bağlıdır.

Ikinci tərəfdən tibbin böyük nailiyyətləri ilə yanaşı bir sıra ağır keçən və böyük faizlə letal sonluqla bitən xəstəliklər mövcuddur ki (məsələn, xərçəng, QİÇS və s.), onlar pasientlərə böyük fiziki və mənəvi əzablar gətirir. Bu hallarda artıq aktiv evtanaziyanın tətbiqi məsələsi mərhəmət ifadəsi olaraq diqqət mərkəzinə gəlir. Müasir fəlsəfə qarşıya çıxan etik dilemmaları həll etmək iqtidarında deyil. Ən azı ona görə ki, təklif olunan həll ənənəvi əxlaq normaları ilə konfliktə gedir. Və cəmiyyətin ziddiyyətsiz olaraq qəbul edəcəyi həll hələ yetişməmişdir. Burada həmçinin ictimai təcrübənin əxlaqi təcrübəni qabaqlamasından da danışmaq olar. Odur ki, hələlik problem ən müxtəlif tərəflərdən öyrənilməkdədir.

Mak A. (Hopis Bredberi, Qonkong) və G.Elvin (Uelss Universiteti, Böyük Britaniya) "Ağır xəstələrin səsləri: evtanaziya arzusunun mənasının aşkarlanması"[1] adlı tədqiqatlarında evtanaziyanın Qonkonq xəstəxanasının onkoloji xəstələri üzərində müşahidələr əsasında öyrənilməsinə cəhd göstərmişlər. Müəlliflərin məqsədi bilavasitə xəstəxana şəraitində problemi tədqiq etmək və evtanaziya ilə bağlı problemlərin həyati əsaslarını aşkarlamaqdan ibarət idi. Öz tədqiqatlarında onlar metod qismində subyektiv təcrübənin hermenevtik interpretasiyasından yararlanmağa çalışmışlar. Tədqiqat obyekti kimi onlar o xəstələrdən istifadə etmişlər ki, həmin xəstələr evtanaziya arzusunu dillərinə gətirmişlər.

Və A. Mak və G.Elvinin gəlib çıxdıqları nəticələr belə olmuşdur:

a. Evtanaziya arzusunun dərəcəsi pasientin əzablarının səviyyəsindən asılıdır;

b. Evtanaziya tələbi əzabın ifadəsi olraq yaranır;

c. Etik problem insan həyatının müqəddəsliyi tələbi ilə xəstənin seçim azadlığının toqquşmasından yaranır.

Xəstəliyin dərinləşməsi ilə pasientlər anlayırdılar ki, ölüm qaçılmazdır və sağalmaz xəstəlik onlara heç bir perspektiv qoymur. Əvvəlki rollarının, hərəkətliliyin, müstəqilliyin itirilməsi ilə onlar özlərini tamamilə başqa cür hiss etməyə başlayırlar. Pasientlər bu kimi ifadələr söyləyirlər: "Bu xəstəlik növü son nəticədə ölümə gətirib çıxarır və mən bu yolu getməyə

* Məqalə fəlsəfə elmləri doktoru, professor A.X.Mustafayev tərəfindən çapa məsləhət bilinib.

məcburam"; "Ümid çox azdır və möcüzə gözləməyə dəyməz"; "Xəstənin vəziyyəti daima pisləşməyə doğru gedirsə, həkimlər heç nə ilə kömək edə bilməzlər"; "Mən işləməyə öyrəşmiş adamam, amma burda mənə qulluq etməli olurlar"; "Hərəkət edə bilmədiyimdən özümü bir tərəvəz kimi hiss edirəm"; "Yaşamaq istəyirəm – yaşaya bilmirəm, ölmək istəyirəm – ölə"[2]. Pasientlər anlayırlar ki, onlar yaxınlarına əziyyət verirlər və bununla yanaşı onlardan və həkimdən asılıdırlar: "Yüz təskinlik sözü bir ehtiyatsız kəlmənin vurduğu yaranı sağaltmır"[3]. Pasientlər görürlər ki, onlarla, yaşamağa perspektivi aydın olanlar arasında böyük uçurum mövcuddur və məhz bu məqama görə əslində onları heç kim axıra qədər anlamır. Onlarının özünün qaranlıq perspektivləri isə onları ümidsizliyin son həddinə gətirib çıxarır: "Ağrı məni axıra qədər təqib edəcək. Heç nə ilə yardım etmək mümkün deyil".[4]

Müəlliflərin fikrincə, pasientlər kompleks tibbi xidmət, ağrı üzərində nəzarət, şəxsi funksional potensiallarının artırılmasını, mənəvi-psixoloji dəstək və yaxınlarının yüklərinin azaldılmasını istəyirdilər. Onlar ətrafdakılarla isti münasibətləri və tibbi personalın qayğısını yüksək qiymətləndirirdilər: "Xəstəxanada olmaq məni ruhdan düşməyə qoymadı. Insanlarla ünsiyyət qüvvəmi möhkəımləndirdi və indi ağrını bir o qədər hiss etmirəm. Həkim və tibb bacılarının qayğısı isə məni sakitləşdirir". "Ətrafdakıların diqqətindən təsirlənmişəm".[5]

Beləliklə, evtanaziya istəyi müəlliflərin fikrincə, orqanizmin dağılması və onu müşayiət edən ağrılarla məhdudlaşmır. O, kənaradan gəlməli olan qayğının, hörmətin və dəstəyin azlığı ilə şərtlənə bilər. Çox vaxt pasientlər öz şəxsi maraqlarını ailənin maraqlarına qurban verməyə hazır olurlar. Yaxınlara faydalı olmaq imkanının itirilməsi onlarda mövcudluqlarının mənasızlığı hissinin formalaşmasına səbəb olur. Lakin müəlliflərin fikrincə, evtanaziyanın leqallaşdırılması cəmiyyətin parçalanmasına gətirib çıxara bilər.

Stanislav Qrof öz tədqiqatlarında problemə başqa bir yöndən yanaşır. Onun fikrincə, evtanaziya istəyi xəstənin şüurunun səviyyəsi ilə müəyyən olunur.[6] Pasientlər üzərində aparılan eksperimental təcrübələr nəticəsində Qrof əmin olmuşdur ki, əgər müəyyən psixotrop maddələr və xüsusi musiqinin köməyi ilə xəstənin şüurunu holotrop (ənənəvi dillə desək, ruhani) səviyyəyə qaldırmaq mümkün olarsa, fiziki əzab və çıxışsızlığın yaratdığı evtanaziya arzusunu aradan qaldırmaq mümkündür. Belə olduqda xəstə ömrünün son dəqiqələrinə qədər həyatdan həzz alacaqdır. Beləliklə, Qrofun fikrincə, evtanaziya və onunla bağlı etik problemləri pasientin ekzistensial statusunun dəyişməsi ilə tamamilə aradan qaldırmaq mümkündür.

Cəmiyyətin parçalanması təhlükəsi evtanaziya əleyhdarlarının daima qayıtdıqları əsas arqumentlərdən biridir. Ikili əxlaqın yaranması, müəyyən insanların həyati prespektivdən məhrum edilərək, cəmiyyətdən təcrid edilməsi (məsələn, QİÇS yaxud quş qripi daşıyıcılarına münasibətdə) əlbəttə ki, əxlaqın özünü təhlükə altına alır.

Aberdindəki Pobert Qordon Universitetinin professoru Hoskins S.A. "Tibb bacıları və nasional-sosializm - əxlaqi dilemma: evtanaziayaya yolun tarixi nümunəsi" adlı məqaləsində cəmiyyətin bu cür parçalanmasına klassik nümunə olan faşıst Almaniyasını xatırlamağı vacib hesab edir. Müəllif qeyd edir ki, nasistlər bu və ya digər fiziki yaxud psixoloji çatışmazlıqları olan insanları öldürə bilmək üçün "mərhəmətdən doğan ölüm" anlayışından istifadə edirdilər[7].

Evqenikanın yaranaşını H. Spenserin adı ilə bağlayırlar. Onun təliminə görə, sosial orqanizm öz daxili imkanlarını maksimal surətdə gerçəkləşdirməyə can atır. Bu istəyə görədir ki, bir çox vətəndaşlar xoşbəxt həyata nail ola bilirlər. Lakin bu məqsədə yalnız o adamlar yetişə bilirlər ki, onların yüksək intellektual və mənəvi keyfiyyətləri mövcuddur. O fərdlər ki, ümumi işə heç bir tövhə verə bilmirlər, cəmiyyətdən təmizlənməlidirlər. Əks təqdirdə sosial tərəqqi mümkünsüzləşir. Bu ideyalar sonradan sosial-darvinistlər tərəfindən inkişaf etdirilməyə başlandı.

1933-cü ildən başlayaraq Almaniyada hakimiyyətə gəlmiş qüvvələr sosial-darvinizmin ideyalarını həyata keçirməyə cəhd göstərdilər. Onların liderlərindən biri olan R. Hess iddia edirdi ki, nasional-sosializm "tətbiqi biologiya"dan başqa bir şey deyil[8]. Nasistlər üçün fərd sosial orqanizmlə müqayisədə ikinci dərəcəli hadisə idi. 1933-cü ilin iyulunda Almaniyada "Anadangəlmə xəstəliklərlə doğulacaq nəslin qarşısının alınması haqqında" Qanun qəbul edildi. Bu qanuna görə psixi və fiziki çatışmazlıqları olan şəxslər məcburi qaydada sterilləşməyə məruz qalırdılar. Bu qanun təkcə xəstələrə deyil, həm də "asosial" şəxslərə (evsizlərə, dilənçilərə, uzun müddət ərzində işsiz qalanlara və s.) tətbiq edilirdi. Bu prosedurun qurbanlarının sayı 375 minə çatdı.

Ictimai xeyir şüarı altında əslində insanların dəyərli və dəyərsizlərə (yəni heç bir insani hüquqları olmayanlara) bölünməsi həyata keçirilirdi. Tibb işçilərinin hərəkətlərində xəstələrə qarşı hər hansı mərhəmət hiss olunmurdu. Həkimlər, nasist dövlətin məmuru olaraq, pasientlərin seçilməsini şəxsən həyata keçirir, beləliklə də xəstələri məlumatlandırılmış razılıq hüququndan məhrum edirdilər. Tibb işçiləri xəstə adamların öldürülməsini əxlaqdan kənar addım hesab etmirdilər. Onlar fəal surətdə cinayətkar rejimlə əməkdaşlıq edirdilər. Hakimiyyətin də bu cür həkimlərə qarşı tədbirləri sərt idi. Tabe olmayanlar ön cəbhəyə göndərilirdi. Bir çox tibb işçiləri sonradan boyunlarına alırdılar ki, onların hərəkətləri əqidələri ilə ziddiyyət təşkil edirdi və onlar yalnız ölüm mexanizminin bir hissəsi idilər: "Mən yalnız öz işimi və rəislərimin əmrlərini yerinə yetirirdim, -- deyəcəkdi bir tibb bacısı sonradan.—direkror bizi daima Gestapo ilə hədələyirdi".[9] Bir çox tibb işçilərinə isə həqiqətən də elə gəlirdi ki, onlar öz hərəkətləri ilə öz qurbanlarına yalnız yaxşılıq etmiş olurdular. Lakin bununla yanaşı bir çox pasientlərin yaşamaq arzusu cavabsız qoyulurdu.

1939-cu ildə Hitler evtanaziya üzrə proqramın gerçəkləşdirilməsinə başladı. O proqrama görə sağalmaz elan olunmuş hər bir pasient "mərhəmət üzündən ölümə" məhkum olunmalı idi. Bu addım hətta Üçüncü Reyxin qanunları baxımından belə cinayət sayılırdı. Zira proqram ənənəvi olaraq "sağlamlıq məbədləri" hesab olunan xəstəxanalarda gerçəkləşdirilirdi. Alman həkimləri xəstələrin etibarından istifadə edərək onları öldürürdülər. Xəstələrə, bir neçə gün ərzində, guya sağlamlıqlarını möhkəmləndirəcək dərmanlar verirdilər ki, bu da onları ölümə gətirib çıxarırdı. Sonralar, dərman preparatlarının çatışmazlığı üzündən nasist həkimləri pasientləri öldürmək üçün "hava inyeksiyalarına" keçdilər. Və əgər əvvəl vaxtlar pasientləri sözəbaxan etmək üçün yalan tətbiq olunurdusa, sonra həqiqəti gizlətmək mümkün olmayanda, fiziki zordan istifadə edirdilər.1941-ci ilə qədər 200 mindən çox adam evtanaziyaya məruz qalmışdı. Nasistlərin hasabı sadə idi. Əgər hər 1000 nəfərdən 10-u psixi çatışmazlığa malik idisə, deməli, hər on nəfərdən biri evtanaziyaya məruz qalmalı idi. 5 mindən çox uşağın evtanaziyası pediatrik mərkəzlərdə həyata keçirilirdi. Valideynlərə deyilirdi ki, uşaqlar ora tibbi yardım alınması məqsədi ilə göndərilir.

Yalnız az bir qism kilsə nümayəndələri nasist Almaniyasında baş verənlərlə razı olmadıqlarını açıqca bildirirdilər. Beləcə, Münsterin yepiskopu Klemens fon Halen 1941-ci ildə işə yaramayan qocaların öldürülməsini döyüşdə yaralanmış və sıraya qayıda bilməyən əsgərlərin öldürülməsi ilə müqayisə etmişdi. Nasistlərin evtanaziya proqramını o, həyatın müqəddəsliyi prinsipinin pozulması adlandırmışdı.

Müasir dövrdə evtanaziyanın leqallaşdırıldığı ölkələrdə (məsələn, Niderland və Belçikada) ehtimal ola bilər ki, həkimlər nasist Almaniyasındakı kolleqalarının qarşılaşdıqları əxlaqi dilemmaları ilə qarşılaşa bilərlər. Pasientin öz ölümünü yaxınlaşdırmaq barədə istəyini yerinə yetirməli olan tibb işçiləri qətlə mənən hazır olmalıdırlar. Hətta evtanaziya total leqallaşsa belə, bir çox tibb işçiləri pasientin ölümünü sürətləndirməyi öz daxili əqidələrinə zidd bir şey kimi qavrayacaqlar. Zira o, yaxşılıq etmək və "zərər vurmamaq" haqqındakı prinsiplərə

qarşıdır. Tibb bacılarının Beynəlxalq kodeksinə görə tibb işçiləri insanın hüquqlarına, o cümlədən, yaşamaq və ləyaqət hüququna hörmətlə yanaşmalıdırlar.[10]

T.L.Biçamp "Aktiv və passiv evtanaziya barədə Reçelsə cavablar" [11] yazısında başqa bir problemi araşdırır. Müəllif, aktiv və passiv evtanaziya yaxud qətl və ölümə icazə vermə arasında fərqin nədən ibarət olmasını aydınlaşdırmaq istəyir. O, belə bir misal çəkir. K. adlı pasient koma vəziyyətindədir və onun həyatı süni vasitələrin hesabına davam edir. Həkimlərin bir qismi iddia edir ki, xəstənin vəziyyəti dönməzdir və bioloji ölüm qaçılmazdır. Pasientin valideynləri bildirirlər ki, onlar öz qızlarını öldürmək fikrində deyillər, lakin süni təminat vasitələrinin açılmasının tərəfdarıdırlar: ola bilsin ki, o, bundan sonra müstəqil yaşasın. Beləliklə də tibbi səhvin edilməsinə şərait hazırlanır. Həkimlərin proqnozunun həqiqiliyindən və ya yalnışlığından asılı olmayaraq bu situasiyada heç kim pasientin ölümünə görə əxlaqi məsuliyyət daşımayacaq. Mürəkkəb vəziyyətlərdə tibbi proqnozlar ehtimal xarakteri daşıyır və heç kim deyə bilməz ki, xəstənin orqanizmi heç bir halda bərpa oluna bilməz. Əgər aktiv evtanaziya pasientə yaşamağa şans qoymursa, passivdə, yəni aparatların açılmasında belə bir şans, hipotetk də olsa, qalır. Və bununla da əslində dolayı qətllə bağlı mənəviyyatda yarana biləcək gərginliyin şiddəti səngidilir. Və ümumiyyətlə də, passiv evtanaziya vəziyyətində potensial olaraq daha çox insan həyatı qorunmuş olur, nəinki, aktiv evtanaziya zamanı.

Digər hallarda, müəyyən şəxsin başqa adamın ölümündə bilavasitə məsuliyyəti olduqda, qətllə ölümə icazə vermək arasında fərq əhəmiyyətsiz olur. Belə vəziyyətlərdə hər hansı addım və ya fəaliyyətsizlik onun üzərindən məsuliyəti götürmür. Pasienti öldürmüş həkim onun ölümünə görə məsuliyyət daşıyır; eyni ilə sağalmaqda olan pasientin müalicəsini yarımçıq saxlamış həkim də. Hər iki halda pasientin həyatı qoruna bilərdi; mənəvi baxımdan burda elə bir fərq yoxdur. Qəsdli müdaxilə yaxud müdaxiləsizlik üzündən yaşamağa qadir, günahsız insanı öldürmək yolverilməzdir. Bir var həkim sağalmaqda olan xəstənin süni həyat təminatını açır, bir də var bu açılma dönməz komatoz vəziyyətdə olan və sağalmasına ümid qalmayan pasientə qarşı tətbiq edilir. Müdaxilənin xarakterinin müxtəlifliyi məsuluyyətin də differensasiyasını tələb edir. Lakin passiv və ya aktiv evtanaziya məsələsində söhbət məsuluyyətin azlığından ya çoxluğundan getmir. Məsuliyyət məsələsi burda bu və ya digər seçimin əsaslandırılması zamanı həll edilir.

Istər passiv, istərsə də aktiv evtanaziyanın əleyhdarları diqqəti "sürüşkən yayınma" məqamına yönəldirlər. Onlar iddia edirlər ki, əgər mərhəmət nöqteyi-nəzərindən öldürmə yolverilən hesab olunsa, bu, şübhəli hallarda "lazımsız" adamların aradan götürülməsi üçün bəhanə rolunu oynaya bilər. Belə şəraitdə hər hansı bir qətlə haqq qazandırmaq mümkündür. Əgər adam öldürmək mümkündürsə, onda əsaslandırılmış qətllə əsaslandırılmamış qətl arasında sərhəd çəkmək çətinləşir. Belə şəraitdə "öldürmək olmaz" tabusu getdikcə aşınmaya məruz qalmış olur. Məsələn, əgər könüllü evtanaziyaya yol açılarsa, Biçampın fikrincə bu, məcburi evtanaziayaya da yol aça bilər. Bu üsulla cəmiyyət dəlilərdən, residivist cinayətkarlardan, psixi yaxud fiziki çatışmazlıqla doğulmuşlardan azad ola bilər ən azı.

Utilitarist düşüncəyə görə, hər hansı qayda (yaxud qaydalar sistemi) yalnız və yalnız o zaman mənən əsaslandırıla bilər ki, cəmiyyət üçün faydalı olan digər qayda (yaxud qaydalar sistemi) olmamış olsun. Bu nöqteyi-nəzərdən passiv və məhdud çərçivədə aktiv evtanaziyanın tətbiqi faydalı görünə bilər, çünki bu addım bəzi pasientləri dözülməz ağrılardan azad edə bilər. Utilitarizm baxımından fiziki və psixi qüsurlu körpələrə məcburi evtanaziyanın tətbiqi normal addım hesab oluna bilər. Lakin qətlə icazə verən prosedurlar insan həyatının müqəddəsliyinə kölgə salır. Insan həyatının qorunmasına yönəlmiş normalar bir-birindən izolə olunmuş halda deyildir. Bu normalar ümumi əxlaq sisteminin hissələri kimi mövcuddurlar. Və parçanın sapları azaldıqca, onun cırılma ehtimalı artır. Əgər passiv evtanaziyanı yolverilən

edən qaydalar neqativ halların qarşısını almaq iqtidarında deyilsə, evtanaziyanın aktiv və passiv formaları arasında fərq özü təhlükə altına düşür.

Biçamp belə bir hipotetik dünya təsvir edir ki, burada ölüm prosesi heç hansı aparatların köməyi olmadan qeyri-müəyyən müddətə uzadıla bilir. Fərz edək ki, bu zaman pasientin ölmə prosesi baha başa gəlir və xəstəxanalar da can verən adamlarla dolur.Və əgər qətlın daha asan və ağrısız metodları tapılıbsa, güman etmək olarmı ki, belə dünyada aktiv evtanaziya əxlaqi baxımdan düzgün hesab olunsun? Beləliklə, şəraitdən asılı olaraq qətl və ölümün baş verməsinə mane olmamaq arasında fərq itə də bilər.

"Ölüm haqqı azadlığın təntənəsi kimi"[12] adlı başqa bir məqaləsində Biçamp göstərir ki, ölüm haqqı bioetikanın vacib mövzularındandır. Hazırda tibb elminin inkişafı insan həyatının uzadılmasına böyük imkanlar yaradır. Və müasir tibbi deontologiyada bu və ya digər müalicə metodlarına məlumatlandırılmış razılıq və ya onlardan imtina geniş tətbiq olunur. Bəzi pasientlər harda və nə zaman ölməyi özləri seçmək istəyirlər.

1960-cı illərdə hesab olunurdu ki, pasientin razılığı yalnız orqanların transplantasiyası və cərrahiyyə zamanı tələb olunur. Bu dövrdə hesab olunurdu ki, pasientin məlumatlandırılmış razılığı tam şəkildə həyata keçirilə bilməz və bu məqam pasientin özünün xeyiri baxımından tamamilə məqbul sayılmamalıdır. 70-ci illərdən etibarən isə məlumatlandırılmış razılıq tibbin bütün sahələrinə geniş tətbiq edilməyə başladı.

Ənənəvi olaraq, həkimlər əmin idilər ki, ekstraordinar müalicə metodllarının tətbiqi yaxud onların dayandırılması müstəsna olaraq həkimlərin hüququdur və buna maneçilik tibbi etikanın normalarını pozur. Lakin 1976-cı ildə Nyu Cersi məhkəməsi həyat və ölüm məsələlərində pasientin hüququnun həkimlərin mülahizələrindən daha üstün olduğu qərarını verdi. Bu qərara görə tibb personalı pasientin istəyi olarsa, həyat təminatını gerçəkləşdirən hər hansı ekstraordinar vasitələrin işini dayandırmalıdırlar. Məhkəmənin bu qərarı subyektin ümumhüquqi norma olan özünü təyinetmə haqqına əsaslanırdı.

Beləliklə, 90-cı illərin əvvəlləri üçün ABŞ-da pasientin həyat və ölüm məsələləri ilə bağlı belə bir sosial razılıq əldə olunmuşdu ki, ona əsasən xəstə həyatı üzadan ekstraordinar vasitələrin işini dayandırmağı tələb edə bilərdi, lakin öz ölümünü fəal sürətdə sürətləndirməyi həkimdən tələb edə bilməzdi. Lakin 1994-cü ildə bu razılıq da pozuldu. Belə ki, Oreqon ştatında həkimə pasientin razılığı ilə letal dozada preparat yazmaq icazəsi verildi. "Ləyaqətli ölüm haqqında" Qanun pasientin "insan kimi ölmək haqqını" təsdiq edirdi. Lakin pasient bu halda israrlı şəkildə öz istəyini bildirməli idi. Əvvəlcə yazılı ərizə ilə müraciət etməli, sonra isə 15 günlük intervalla iki şahidin iştirakı ilə öz arzusunu təsdiqləməli idi. Pasientin vaxtsız ölümünə razılığı könüllü və məlumatlandırılmış olmalı idi.

"Ləyaqətli ölüm haqqında" Qanun subyektin azadlığının hüquqi və etik sərhədlərini genişləndirməklə onun ölmək haqqını bir daha təsdiqləmiş oldu. Burada bir sual açıq olaraq qalır: həkim pasienti qətləmi yetirir ya sadəcə ona ölməyə icazə verir yaxud həkim etik gərginlikdən xaricdə qalır? Görünür ki, xəstənin azad seçimi burada həlledici deyildir, həlledici olan həkimin addımlarıdır. Həkim süni həyat təminatı vasitələrini açmaqla yaşamaq istəyən orqanizmə münasibətdə əxlaqdan kənar addım atır, baxmayaraq ki, bundan sonra ölüm təbii yolla baş verir. Xəstənin razılığı olmadıqda bu əsl qətldir. O halda isə ki, pasient qanuna əsasən həkimdən letal dozada dərman yazılmasını tələb edir, bunu artıq nə qətl, nə də ölümə icazə adlandırmaq mümkün deyil. Beləliklə də pasientin azadlığına hörmət "qətl" və "ölümə icazə" kimi anlayışların fərqləndirilməsində önəmli rol oynayan amil kimi ortaya çıxmış olur.

Aktiv evtanaziya tərəfdarları hesab edirlər ki, pasientə ölməyə kömək etməklə, həkim qədim ənənəyə sadiq qalaraq xəstənin həyatının sonuna qədər qayğısını çəkmiş olur. Biçampın fikrinə görə, əgər pasientin razılığı varsa, süni həyat təminatı vasitələrinin dayandırılması və

ölümün sürətləndirilməsi arasında fərq yoxdur. Hər iki hadisə mənəvi baxımdan eynigüclü sayılır.[13] Əlbəttə aktiv evtanaziyanın əleyhdarları etiraz edə bilərlər ki, onun leqallaşdırılması əsaslandırılmamış və zorakı ölümlərə yol açа bilər və s. Lakin müəllifin yazdığına görə "Ləyaqətli ölüm haqqında" qanunun qəbul olunduğu Oreqon ştatında bu qanunun tətbiqi ilə bağlı bir neqativ hal belə qeydə alınmamışdır.

Aydındır ki, etik problemlər cəmiyyət səviyyəsində həll olunur. Ayrı-ayrı fərdlərin qənaətləri nə qədər əhəmiyyətli olsa da, problemin həlli baxımından həlledici deyildir. Və bu səbəbdən də dünyanın müxtəlif regionlarında tətbiq olunan qanunvericilik aktları (və xüsusi ilə də onlardan doğan həyati təcrübə) diqqətlə öyrənilməlidir. Yuxarıda araşdırılan aktiv və passiv evtanaziyadan başqa məcburi evtanaziyanın da gündəmə gəlməsi və qanunvericilik səviyyəsində yenidən müzakirə obyektinə çevrilməsi də utopik perspektivdə deyildir. Qloballaşan dünya ərzaq və enerji böhranı ilə üz-üzə qalarsa (şiddətli dərəcədə), cəmiyyətin fiziki və psixi çatışmazlıqlarla doğulan körpələrə, daha sonra isə yaşlılara münasibətinin dəyişəcəyini gözləmək olar. Aydındır ki, bu gün relslərin üzərinə düşən ağ siçana görə metro qatarını saxlayan İngiltərə cəmiyyətinin əxlaqi ilə yaşamaq uğrunda mübarizədə övladlarını satmağa məcbur olan üçüncü dünya ölkələri arasında böyük situasyon fərqlər mövcuddur.

Istifadə olunmuş ədəbiyyat

1. Mak Y.Y.W., Elwyn G. Voices of the terminally ill: Uncovering the meaning of desire for euthanasia// Palliative medicine.-L.,2005. – Vol.19.-p.343-350.
2. Yenə orada, s.345.
3. Yenə orada.
4. Yenə orada.
5. Yenə orada, s.347.
6. Bax, Станислав Гроф. Холотропное сознание. М., 2003, с.267.
7. Hoskins S.A. Nurses and National Socialism – a moral dilemma: one historical example of a route to euthanasia// Nursing ethics. – L.2005. – 12, N 1, p.79-91.
8. Yenə orada, s.88.
9. Yenə orada, s.85.
10. Bax, International council of nurses: Code of ethics for nurses. Geneva, 2004. – mode of access: www.icn.ch/icncode
11. Beachamp T.L. A reply to Rachels on active and passive euthanasia// Cross cultural perspectives in medical ethics: Readings/ ed. By Veatch R.M. – L.etc.,1989. – p.263-274.
12. Beachamp T.L. The right to die as the triumph of autonomy// J. of medicine a. philosophy. Georgtown, 2006.- vol.31.- p.643-654.
13. Yenə orada, s.651.

Чингиз ГУРБАНОВ

ЭВТАНАЗИЯ И ЭТИЧЕСКИЕ ПРОБЛЕМЫ ВОЗНИКАЮЩИЕ ВОКРУГ НЕЕ

Резюме

В статье предпринята попытка проанализировать современную этическую ситуацию возникщую около проблемы эвтаназия. Опираясь на современные западные исследования в этой области автор приходит к следующим выводам:

Хотя проблема эвтаназии имеет древнюю историю, но все же ускоренное развитие медицины вносит новые поправки в этическую ситуацию вокруг нее и философия не поспевает за этими изменениями.

Могут возникнуть новые условия (изменение либо экономических условий жизни, либо экзистенциального статуса), в рамках которых этические проблемы вокруг эвтаназии отпадут сами собой.

Chingiz QURBANOV

EUTHANASIA AND MORAL PROBLEMS ORIGIN AROUND IT

Summary

In this article author makes attempt analyzing the origin of the moral problems around euthanasia. Guided by western researchers he comes to results:

Although euthanasia has ancient history, the fast development of medicine is updating moral situation around it and philosophy can not reach after this changing.

And author says it may form conditions (changing the economical situation or the existentional status) in which problems around euthanasia revolt themselves.

Adilə NƏZƏROVA
AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlarİnstitutunun aspirant və dissertantlarla iş sektorunun labarantı

MÜƏLLİM MƏNƏVİ DƏYƏRLƏRİMİZİN DAŞIYICISIDIR*

Təhsil əyanilik ünsüründən, yəni öyrənənlə öyrədənin bilavasitə ünsiyyətindən heç bir zaman imtina etməmişdir. Kibernetika dili ilə desək informasiyanı vermək üçün təbiət canlı vasitədən, müəllimdən daha qiymətli bir vasitə yaratmamışdır. Dolayı yolla verilən heç bir bilik kitablar, komputerlər, və s. bilavasitə insandan insana, müəllimdən tələbəyə bilik vermək zərurətini tam əvəz edə bilməz.

Təlim prosesində öyrədən (müəllim) mərkəzi yer tutur. Həm də əgər bu texniki və təbii elmlər barəsində doğrudursa, ictimai elmlər barəsində yüz qat artıq doğrudur. Məsələn, yaşamağın məqsəd və mənası nədir? sualına heç bir öyrədən qurğu cavab verə bilməz. Tədris prosesində yaxşı bir mühaziraçinin öz dinləyicilərinə bağışladığı emosional, mənəvi, əxlaqi təsiri heç bir şey əvəz edə bilməz. Şəxsi cəzbetmə elə bir şeydir ki, onu heç bir proqrama daxil etmək olmaz.

ABŞ-ın milli elmi fondu bir neçə il əvvəl məşhur alimlərdən sual etmişdir ki, onlar öz təhsillərində nəyi ən yaxşı amil hesab edirlər? Cavabların hamısı demək olar ki, bir idi: «Böyük ilhamedici müəllim ilə sıx əlaqəni» Bütün bunlar müəllimə qarşı tələbləri kəskin surətdə artırmalıdır.

Müəllimin ideya davranışının və bütünlüklə fəaliyyətinin əsasında ideyalılığın, siyasi mübarizliliyin və inamın, dünyagörüşün və ictimai vəzifəyə şüurlu münasibətin, vətəndaşlılığın və milli dövlət siyasətinin fəal təbliği, öz əməyi ilə cəmiyyətimizin əxlaqi prinsiplərini təbliğ və tətbiq etmək bacarığı durur.

Şagirdlərin bilik, bacarıq və vərdişlərinin ardıcıl olaraq yoxlamaq, Azərbaycan dili və ədəbiyyatının təlimində vacib hesab edilir. Buna hər dərs saatının müəyyən mərhələsində yer ayırmaq mümkündür.Bunun üçün xususi dərs saatından istifadə etmək lazımdır. Dövlət proqramlarında nəzərdə tutulmuş qaydaları yerinə yetirməklə bərabər şagirdlərin maraq dairəsi yaş və bilik səviyyəsinə uyğun söhbət və müzakirələr aparmaq vacibdir.Bütün fənnlər üzrə bu kimi tədbirləri həyata keçirmək olar. Orta və ali məktəblərdə keçirilən xarici dil fənnlərindən də eynilə... Amma ən vacibi bu proqramların doğma ana dilimizdə keçirilməsidir.

Respublikamızın ümumtəhsil müəssisələrində təhsil alan hər bir gənc istehsalat sahələrində səmərəli fəaliyyət göstərmək, ölkənin içtimai həyatında daha fəal iştirak etmək üçün ünsiyyət vasitəsi kimi Azərbaycan Respublikasının dövlət dilini mükəmməl bilməlidir.

İndi Azərbaycan Respublikasının qanunu Azərbaycan dilini dövlət dili kimi tədqiqi və tətbiqi imkanlarını genişləndirmiş, xüsusən, təhsil müəssələrində öyrənilməsi işinin təkmilləşdirilməsi üçün yeni perspektivlər açmışdır.

Şagirdlərin nitq mədəniyyətini, təfəkkürünü, bədii yaradıcılıq qabiliyətini və onların dünyagörüşünü inkişaf etdirməkdə imla, ifadə yazı işlərini aparmazdan əvvəl şifahi olaraq, o mövzular haqqında söhbətlər aparılmalıdır.Bu cür keçirilən təcrübələrdə şagirdlərin müşahidələri, onu əhatə edən həyat hadisələri haqqında təəssüratları əsas yep tutur. Bütün bunlar şagirdlərdə Vətənə məhəbbət, dostluq, düşmənə nifrət hisslərini tərbiyə edir.

---

* Məqalə fəlsəfə elmləri namizədi Y.Əliyev tərəfindən çapa məsləhət bilinib.

Müəllimin verdiyi savad şagirdi qaranlıqdan işığa doğru aparan yoldur. Çünki savad insanların həyat çırağıdır.

İntibah dövründən bu günə qədər insanlığın ən böyük kəşfi məktəb və müəllimdir.

Quranda da yazılıb: «Elm Cində də olsa onun ardınca get»

Müəllim tərbiyə,əxlaq, savad verməklə bərabər şagirdin vəzifə borclarını ona aydın bir dillə aşılamalıdır.Bunun üçün dərslərdə və mə"ruzələr zamanı müəllimlə çagird arasındakı səmimi hisslər o dərəcədə olmalıdır ki, şagird onun danışığının emosiyasından, ahəngindən və təsirliliyindən zövq alsın, ona inansın.

Müəllim etibar, məhəbbət qazanıbsa şagird ondan heç nə gizlətməz. O, bilər ki, hansı şagirdin nəzarətə, ailə məsələlərində qayda yaradılmasında tərbiyəyə ehtiyacı var və lazımı orqanlarla birlikdə bu ehtiyacı aradan qaldırmağa səy göstərər.

Məktəb lazımi tərbiyə almayan şagirdin ailəsini müəyyən etməlidir. Məsələn,A... pis oxuyur, intizamsızlıq edir, özünü nalayiq aparır. Araşdırma zamanı müəyyən edilmişdir ki, A....-nın atası və anası boşanmışlar. Ana bəzən günün birinci yarısı, bəzən ikinci yarısı işləyir. Uşaqla məşğul olan yoxdur,belə halda onun dərsləri ilə bərabər təlim-tərbiyəsi ilə məşğul olmaq da müəllimin və sinif rəhbərinin öhdəsinə düşür.

Qoy sinif rəhbərləri etiraf etsinlər, bir dərs ilində ardıcıllıqla neçə ailəyə gedib, onlarla əlaqə saxlayıblar? Gələcəkdə də öz vicdanları qarşısında bu suala cavab verəndə utanmasınlar.

Tədris prosesində müəllim öz vəzifəsini, əsl borcunu ancaq o halda yerinə yetirə bilər ki, yalnız özgələrin dediklərini sadalamasın. Özü düşünsün, sənətinə yaradıcı münasibət bəsləsin. Oxunan mühazirə düşündürən olmalı, səmimi danışıq müəllimlə şagird arasında bir körpü yaratmalıdır.

Məktəblinin dünyagörüşü müxtəlif ünsürlərdən yığılmış qarmaqarışıq sistemsiz mənzərəyə bənzəyir. "Şagird boş qab deyil ki, onu doldurasan. Elə məşəldir ki, onu gərək alışdırasan" ifadəsi çox obrazlı deyilmişdir. Burada alışqan rolunu məhz müəllim oynamalıdır.

Ümumiyyətlə bəşəriyyətin xilası, həm də insan mənəviyyatının kamilləşməsi yolları məktəbdən başlanır.Xalqimızın ümumi səviyyəsi, kamillik və keyfiyyət dərəcəsi nə qədər yüksək olarsa ölkəmizə və millətimizə o qədər başucalığı gətirər.

«Uşaqlar bizim gələcəyimizdir!» devizi altında işləyiriksə bu kamilləşməyə aparan yolun təməli ilk növbədə məktəbdə qoyulur.

Gələcəyin vətəndaşlarına - indiki uşaqlara həm qayğı göstərib, həm də onların vəzifə borclarını layiqincə öyrətməliyik. Gələcəkdə onlar da eyni nəcib, ləyaqətli sifətlərlə yaşayıb, eyni təcrübə ilə öyrədəcəklər.

Hərdən belə sözlərə rast gəlirik: Mənim müəllimim oxuduğum kitablardır.Və ya: indi kompüter dövrüdür. Kompüterlə hər biliyə və informasiyaya yiyələnə bilərsən. O sənin müəllimindir.

Ancaq belə deyil. Burda deyiblər ki, müəllim insan bağının bağbanıdır,o da torpaq kimidir, nə qədər verərsən o qədər alarsan.

Müəllim dərsi izah etməklə işini bitmiş hesab etmir. Onun həyat təcrübəsindən irəli gələn ibrətamiz bir söz və ya bir nəsihət şagirdin həyatda səhvlərdən uzaq olan doğru bir yol tutmasına vasitə ola bilər və o nəsihətlə ömrü boyu yaşayar.O, həyatda tutduğu doğru yola görə, layiqli vəzifəyə və hörmətə görə müəlliminə minnətdar olar, onu hər zaman öz qəlbində yaşadar.

«Müdrik insan elmilə tanınar» deyərlər. Gözəl müəllim isə tələbələri ilə tanınar.

Bəxtiyar Vahabzadənın dililə desək:

Tələbələrim mənim,

Bu gün mənə güvəndiniz,

Sabah sizə güvənim.
Bu gün önümdəsiniz,
Sabah isə ayaq açıb
gəzən şirin sözlərim...
Vətənimə səpələnmiş
Mənim dan ulduzlarım...
Mən öyrədən, siz öyrənən,
Zaman keçir, yer dəyişir
Bu müqəddəs dövrədə...
Bu dünyanı öyrənmişəm
Mən öyrədə-öyrədə...

Адиля НАЗАРОВА

ПЕДАГОГ – НОСИТЕЛЬ НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ

Резюме

В статье говорится о роли педагога в процессе образования, взаимоотношениях между обучающим и обучающимся в период передачи информации, о его духовном, нравственном и эмоциональном влиянии в данном процессе. В то же время рассматривается построение отношения «учитель - учащийся» при формировании человека как гражданина и выполнении им своего долга перед обществом.

Adulya NAZAROVA

A TEACHER IS A BEARER OF MORAL VALUES

Summary

In the article it is stated on a part of a teacher in the process of education, on interrelation between a teacher and learner in the period of passing information, on his spiritual, moral and emotional influence. At the same time establishing «teacher-learner» relations at formation of a man as a citizen, discharging his debt to a society, is considered.

HÜQUQ BÖLMƏSİ

Aqşin QULİYEV
Hüquq elmləri namizədi

«SİYASİ VƏ HÜQUQİ TƏLİMLƏR TARİXİ»NİN ÖYRƏNİLMƏSİ VƏ TƏDQİQİNİN BƏZİ MƏSƏLƏLƏRİ*

Müasir elmi-texniki tərəqqi elmin bütün sahələrində olduğu kimi, humanitar elmlər sferasında da problemlərin həllinə yeni yanaşmanı zəruri və labüd edir. Həlli vacib olan problemləri, toxunduğu məsələlərinin bir çoxunun hələ də aktual olması ilə hümanitar elmlər içərisində özünəməxsus yeri olan siyasi və hüquqi təlimlər tarixinin ən yeni metodiki üsul vasitələrinin tətbiqi yolu ilə öyrənilməsi tədqiqi mühüm vəzifələrdən biri olmalıdır. Bu müstəqil hüquq elmi mühüm sosial hadisələr olan dövlətin, hüququn, hüquqi siyasətin və qanunun formalaşmasına, inkişaf mərhələlərinə və müxtəlif tarixi dövrlərdə dəyişikliklərə uğramasına dair ən qədim və müasir nəzəriyyə və təlimləri öyrənir. Bu isə dövlətlərin və hüquq sistemlərinin hazırkı inkişaf mərhələsində son dərəcə böyük əhəmiyyət kəsb etməyə bilməz. Siyasi və hüquqi təlimlər tarixinin universal elm sahəsi olması onun elmi-nəzəri müddəalarından dövlət quruculuğunda, hüquq sisteminin və qanunuvericilik sisteminin təkmilləşdirilməsində, eləcə də dövlət siyasətinin müsbət tarixi təcrübənin varislik prinsipindən istifadənin tətbiqində yetərincə faydalanmaq olar.

Siyasi və hüquqi təlimlər tarixi sosial-siyasi və hüquqi həqiqətlərin müxtəlif dövrlərdə təşəkkül tapmış fəlsəfi ümumiləşdirmələrinin öyrənilməsi tədqiq edilməsinin bir növ əlifbası, açarıdır. Sosial-siyasi və hüquqi həqiqətlərin, eləcə də onların fəlsəfi ümumiləşdirmələrinin müxtəlif xalqların və millətlərin dünyagörüşünün və düşüncə tərzinin məhsulu olmasına baxmayaraq, onların bir çoxu aforizmləşərək bütün insanlığın mənəvi sərvətinə çevrilmişdir. İlkin sosial-siyasi və hüquqi təsəvvürlərin tədricən püxtələşərək mükəmməl ideya və təlimlərə çevrilməsi bu təməlli humanitar elmlərdən biri olan siyasi və hüquqi təlimlər tarixinin formalaşması əsasına xidmət etmişdir. Bir çox qədim sosial-siyasi, hüquqi təsəvvürlər indi siyasi və hüquqi aksiomlara, hətta nəsihətamiz kəlamlara çevrilmişdir. Buna görə də eyni mahiyyətli maarifləndirici yönümü həm dini-fəlsəfi, həm də sosial-siyasi və hüquqi ideyada, hətta məntiqi-anlayışlı sillogizmdə görmək olar. Bu mənada siyasi və hüquqi fikirlərdə bir-birinə oxşar olan və demək olar ki, eyni mövqedən irəlisürülən doktrinalar az deyildir.

Siyasi və hüquqi təlimlər tarixinin öyrənmə predmetini müxtəlif dövr mütəfəkkirlərinin, siyasi-hüquqi doktrinalarının cəmiyyət, dövlət, hüquq, siyasət və qanun haqqında ən qədim dövrlərdən başlayaraq müasir dövrədək (Ən Yeni dövr də daxil olmaqla) yüzilliklər ərzində bir-birini əvəz etmiş ideya və təlimlərinin yaranması və onlardan praktiki istifadə tarixi təşkil edir.

Siyasi və hüquqi tələblərin çoxşaxəliliyi nəticəsində dövlətin, hüququn təbiətinə, onların təyinatına və praktiki imkanlarına baxışlar da son dərəcə müxtəlif olmuş, bəzən isə onların öyrənilməsi ayrı-ayrı elm sahələrinin – dövlət və hüquq nəzəriyyəsinin, dövlət və hüquq tarixinin, habelə hüquq fəlsəfəsinin predmetinə aid edilmişdir. Ona görə də XIX yüzillikdə və XX yüzilliyin başlanğıcına doğru Qərbi Avropanın bir sıra ölkələrində, o cümlədən inqilabaqədərki Rusiyada bu kursun adı «Hüquq fəlsəfəsi tarixi» kimi yayılmışdı.

---

* Məqalə hüquq elmləri doktoru B.Zahidov tərəfindən çapa məsləhət bilinib.

Adları çəkilən elm sahələri eyni sosial hadisələrin (dövlət, hüquq, siyasət, qanun və s.) öyrənilməsi və tədqiqi ilə məşğul olan eyni yönümlü fənlər olduqlarına görə, çox zaman eyniləşdirilirlər. Dövlət və hüquq nəzəriyyəsinin, dövlət və hüquq tarixinin, eləcə də siyasi və hüquqi təlimlər tarixinin və hüquq fəlsəfəsinin arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Belə üzvü qarşılıqlı əlaqəni hüquq elminin digər sahələri arasındakı əlaqəyə nisbətən daha sıx hesab etsək, fikrimizcə bu, şişirtmə olmaz. Lakin bununla yanaşı, eyni yönümlü bu elm sahələrinin bir-birindən aşkar şəkildə fərqlənən öyrənmə və tədqiqat predmeti vardır. Siyasi və hüquqi təlimlər tarixinin öyrənmə predmeti yuxarıda göstərildi.

Dövlət və hüquq nəzəriyyəsi öz nəticə və tövsiyələrini sahəvi hüquq elmləri üçün formalaşdıran əsas ümumhüquqi fəndir. Ona görə də dövlət və hüquq nəzəriyyəsinin predmetini aşağıdakılar təşkil edir: 1) dövlət və hüququn əmələ gəlməsi, inkişaf və fəaliyət qanunauyğunluqları; 2) dövlət və hüququn, hüquq sisteminin mahiyyəti, tipləri, formaları, funksiyaları, strukturu və fəaliyyət mexanizmi; 3) bütün hüquq elmləri üçün ümumi olan əsas dövlət-hüquqi anlayışlar.

Dövlət və hüquq tarixi bütövlükdə insan cəmiyyəti haqqında tarix elminin bir hissəsidir. Humanitar elmlərin hər biri sosial həyatın tərəflərindən birini öyrənir. Dövlət və hüquq tarixi dövlət və hüquq kimi sosial hadisələrin yaranmasını və inkişafını öyrənir, tədqiq edir. Beləliklə, dövlət və hüquq tarixi elmi dövlət və hüququn, sosial-iqtisadi formasiyalar çərçivəsində və onların konkret-tarixi inkişafı prosesində ayrı-ayrı ölkələrin yaranmasının, inkişafının və fəaliyyətinin ümumi və spesifik qanunauyğunluqlarını öyrənir.

Dövlət və hüquq nəzəriyyəsi, dövlət və hüquq tarixi ilə müqayisədə siyasi və hüquqi təlimlər tarixi elminə ən yaxın, eləcə də çox zaman eyniləşdirilən növbəti elm hüquq fəlsəfəsidir. Məsələ burasındadır ki, hüquq fəlsəfəsi hüququn öyrənilməsinin digər növləri və üsulları ilə qarşılıqlı əlaqədə olması nöqteyi-nəzərindən hüququn dərk edilməsinin, onun insanların həyatındakı mənasının, dəyərinin və əhəmiyyətinin dərk edilməsinin yüksək mənəvi formasıdır. Lakin o, siyasi və hüquqi təlimlər tarixinin eyni deyildir. Hüquq fəlsəfəsi xatırladılan sosial hadislərə dair təlimləri öyrənmir. Bir sözlə, hüquq fəlsəfəsi hüququn anlayışını, məna və mahiyyətini, onun fəlsəfi əsaslarını və maddi aləmdə tutduğu yeri, onun dəyərini və əhəmiyyətini, insan, cəmiyyət və dövlət həyatında, xalqların və bütövlükdə bəşəriyyətin taleyində oynadığı rolu öyrənən, tədqiq edən elm sahəsidir. Hüququn qanunla qarşılıqlı əlaqəsi, hüququ qanundan fərqləndirən cəhətlər də hüquq fəlsəfəsinin predmetinə daxildir.

Siyasi cəhətdən mütəşəkkil müəyyən ərazi miqyasında ilk ümumməcburi qanuniləşdirmələr sivilizasiyanın əmələ gəlməsindən dərhal sonra təzahür etmir. Bu, yalnız əraziyə malik konkret dövlətin yaranmasından bir neçə yüzillik keçdikdən sonra baş verir. Bu barədə ilk məlumatlar mifoloji mətnlərdə və əfsanələrdə əldə olunur. Qədim Misirin (e.ə. III minilliyə aid edilən firon Menesin qanunları) və Çinin ilk sülaləsi hesab olunan Sya sülaləsinin (e.ə. XXV yüzillik) formasına görə mifik səciyyət daşıyan qanunları haqqında məlumatları misal göstərmək olar. Mesopotamiya qanunlarını – Urinimginin hikimiyyəti dövründə (e.ə. 2360) verilmiş Laqaş qanunları və hökmdar Ur (e.ə. 2100-ci ilə yaxın) tərəfindən verilən qanunlar dövrümüzədək gəlib çatmış ilk qanunvericilik aktlarıdır. Babilistan çarı Hammurapi (e.ə.1792-1750) tərəfindən tərtib edilmiş qanunlar toplusu öz keyfiyyətinə görə ən yaxşı qorunub saxlanmış qədim hüquqi abidələrdən hesab oluna bilər.

Hüquq, hər şeydən əvvəl, xüsusilə də özünün müasir təfsirində hakimiyyətin (komandanın, inzibati komandanın və s.) tənzimləyici aləti kimi qavranılır. Dövlət isə idarəetmə hakimiyyəti (qanunverici-inzibati-məhkəmə) təşkilatı qismində təfsir olunur. Məhz buna görə də dövlət və hüquq nəzəriyyəsində və eyni zamanda da tarixində hüququn və dövlətin öz sosial təbiətinə və təyinatına görə nə demək olması, onların necə

fəaliyyət göstərməsi və nə qədər məhsuldar olmaları haqqında məsələ ən diskussiyalı məsələlərdən biri kimi meydana çıxır.

Siyasi və hüquqi təlimlər tarixi faktiki olaraq cəmiyyət, dövlət və hüquq, siyasət, qanun və qanunvericilik haqqında nəzəri təsəvvürlər tarixinin öyrənilməsi istiqamətini tutduğuna görə, onu elmi-nəzəri və tarixi yönümlü hüquqi fənlə adlandırmaq olar. Bu fənn özündə tarixi hüquqşünaslığı, tarixi dövlətşünaslığı və tarixi siyasətşünaslığı (politologiyanı) ehtiva edir.

Bu tədris fənninin öz məzmununa uyğun adlandırılması uzun illər ərzində (təqribən XIX yüzilliyin ikinci yarsından başlayaraq) elə bir kəsin mübahisə predmeti olmasa da, təqribən 150 ildən artıqdır ki, onun adında dürüst müəyyənliyə nail olunmamışdır. Məsələn, inqilabaqədərki Rusiyanın universitetlərində siyasi və hüquqi təlimlər tarixi «Qanunvericilik fəlsəfəsi tarixi» (K.A.Nevolin, 1839), «Siyasi təlimlər tarixi» (B,N.Çiçerin, 1869-1902), sonra «Hüquq fəlsəfəsi tarixi» (G.F.Şerşeneviç, 1896; P.İ.Novqorodüev, 1897; N.M.Korkunov, 1898; Y.N.Trubetskoy, 1902) adı altında tədris edilmişdir. Keçmiş sovet dövründə bu fənn «Siyasi təlimlər tarixi» adlandırılmışdr. Azərbaycanda bu fənn məhz «Siyasi və hüquqi təlimlər tarixi» adı (keçən yüzilliyin 90-cı illərinin sonunadək isə «Siyasi və hüquqi nəzəriyyələr tarixi») ilə 1950-ci illərdən başlayaraq tədris edilmişdir.

1990-cı illərin sonunda Rusiyanın təhsil İşləri üzrə Nazirliyi fənnin adından «siyasi» sözünü çıxararaq, onu «Hüquqi təlimlər tarixi» adı ilə saxlamışdır. Bu isə hüquqi təlimlər tarixinin öz predmet sahəsini bu və ya başqa cür həm siyasətşünaslıqla, həm də dövlətşünaslıqla əlaqələndirməli olması demək idi. Belə universallığa rus politoloqlarının israrlı iddiaları fənnin adının bir daha nəzərdən keçirilməsilə nəticələnmişdir. 2004-cü ildən başlayaraq fənni «Hüquq və dövlət haqqında təlimlər tarixi» (baxmayaraq ki, RF-də 2004-2006-cı illərdə nəşr edilmiş dərsliklər yenə də «Siyasi və hüquqi təlimlər tarixi» adlandırılmaqda davam etmişdir) adlandırılmışdır.

Avropa universitetlərində, eləcə də Asiya və Afrikanın bəzi universitetlərində bu fənn «Siyasi fikirlər tarixi», «Siyasi ideyalar tarixi» və ya «Hüquq fəlsəfəsi tarixi» adlandırılır.

Haqqında söhbət gedən fənnin necə adlandırılması onun verdiyi biliyin məzmununa heç bir xələl gətirmir. Ona yuxarıda göstərilən hər hansı addan birini vermək olar. Dərin təəssüfdoğurucu başqa məsələdir. Azərbaycan hüquqşünaslığının (əlbəttə ki, bilavasitə bu sahə üzrə mütəxəssis-hüquqşünasların fəaliyyti nəzərdə tutulur bu təməlli tədris kursunun mükəmməl öyrənilməsindən ötrü dərslik hazırlamaq sahəsində işi sıfıra bərabərdir. Həqiqətən də inanmaq olmur ki, artıq 50 ildən çox bir dövr ərzində tədris olunan fənn üzrə heç olmasa bir tədris vəsaiti belə yazılmamışdır. Daha faciəlisi odur ki, bu işə əngəl törədən mühit öz fəaliyyti ilə öyünür və qüvvələnir, bu sahədə tələbatı minimum dərəcədə təmin edə biləcək mütəxəssis-hüquqşünasların hazırlanması (xüsusilə də hazırda ölkəyə bu sahədə elmlər doktorlarının hava və su qədər lazım olduğu bir vaxtda) ilə fəxr edilir.

Lakin bu sahədə atılmış cəsarətli addımları görməmək, görülmüş işləri qiymətləndirməmək ədalətsizlik olardı. Ömrünün 30 ildən çoxunu Azərbaycanın siyasi və hüquqi fikrinin tədqiqinə həsr etmiş mərhum professor, əməkdar elm xadimi Ağababa Rzayevin elmi fəalimyyəti təqdirəlayiqdir. O, siyasi və hüquqi fikrimizin tədqiqinə 10-a yaxn sanballı monoqrafik kitabın müəllifidir. Dünyasını dəyişməzdən bir neçə il əvvəl xalqımızın elmi ictimaiyyətinə miras qoyub getdiyi «Azərbaycanda siyasi və hüquqi təlimlər tarixi» (Bakı-Elm-2000) kitabı siyasi və hüquqi fikrimizin öyrənilməsi və tədqiqi baxımından dəyərli elmi hadisədir.

Ümumdünya sosial-siyasi və hüquqi fikrinin tədqiqi baxımından son 20 ilə yaxın bir dövrdə fəlsəfə elmləri doktoru, professor, AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun direktoru Yusif Rüstəmovun elmi fəaliyyəti bu sahədə sözün həqiqi

mənasında böyük fədakarlıqdır. Fəlsəfə, sosiologiya və politologiya sahəsində mükəmməl elmi tədqiqatların müəllifi olan filosof alim soail-siyasi və hüquqi fikir tarixi sahəsindəki tədqiqatları ilə hüquq elminin bu sahəsinin filosoflar üçün hələ də doğma olduğunu bir daha sübut etdi. O, 2006-cı ildə təkrar nəşr etdirdiyi kitabını da bu vaxtadək nəşr olunan dərsliklərdən fərqlənən orijinal bir ad – «Sosial-siyasi və hüquqi təlimlər tarixi» adı ilə adlandırmış, həmin kitab Azərbaycan və rus dillərində nəşr edilmişdir. Bu ilk elm mənbələrindən biri kimi hüquqi ictimaiyyətin geniş rəğbətinə səbəb olmuşdur. Bu elmi nailiyyətin Azərbaycan hüquqşünaslığının gələcək uğurlarının başlanğıclarından biri olacağına əminik.

Bir daha siyasi və hüquqi təlimlər tarixi tədris kursu haqqında.

Siyasi və hüquqi təlimlər tarixini hazırkı mərəhələdə siyasi və hüquqi fəlsəfə, hüquq və siyasi təsisatlar nəzəriyyəsi və doktrinasının tarixini öyrənən müasir hüquqşünaslıq fənlərinin tarixi bölmələrindən biridir. Bu hüquqi tədris fənni və müasir sosial fəlsəfənin sahəsi idraki planda dövlətin, hüququn, siyasətin və qanunun təbiəti. Təyinatı və həyati xüsusiyyətləri haqqnda təsəvvürlərin və biliklərin yaranması prosesinin dərk edilməsinə və ümumiləşdirilməsinə yönəldilmişdir. Siyasi və hüquqi təlimlər tarixi keçmişdə olduğu kimi indi də hüquqşünaslığın və dövlətşünaslığın fəlsəfi məsələlərinin aydınlaşdırılmasna yönəldilmişdir.

Siyasi və hüquqi təlimlər tarixində ən tipik və tez-tez təsadüf olunan mövzu və məsələlərə aşağıdakıları aid etmək olar:

1) əxlaq normalarında, adətlərdə, yaxud müxtəlif xalqların və dövlətlərin qanunlarında nəyin ədalətli və ya düzgün hesab olunması;

2) ayrı-ayrı tarixi dövrlərdə müxtəlif xalqlarda dövlətin və hüququn təbiətinin və təyinatının necə olması;

3) mövcud olan və ya nə vaxtsa mövcud olmuş bütün dövlət quruluşlarından və ictimai quruluşlardan fərqli olaraq hansı quruluşun ən yaxşı, düzgün və ədalətli hesab olunması;

4) dövlətin mövcud olan və ya tarixən mövcud olmuş idarəçilik formalarından hansının ən yaxşı forma hesab olunması;

5) kim və necə idarə edir, yaxud kim (kimlər) idarə etməlidir və ya idarə edə bilər;

6) biz kimik, haradanıq və bizim sosial, siyasi və qanunvericilik varlığımız, habelə özünəməxsus səciyyəvi elementlərə, struktura və ideya yönümünə malik olan mənəviyyatımız hara hərəkət edir.

Sadalanan və cəsarətlə əbədi problemlər sırasına aid edilə bilən bu məsələlər və onların ən müxtəlif mövqelərdən həlli istiqamətində atılan addımlar ya mühafizəkar və islahatçı, ya da mötədil və radikal səciyyə daşımışdır. Sonsuzluğa doğru aparan sualların cavabları da sərhədsiz olmuş, problemləri meydana çıxaran tarixi dövrün həmin problemləri həll etmək istiqamətində mövqeyi bir-birindən fərqlənmişdir.

Müasir dövrdə siyasi və hüquqi təlimlər tarixinin bütün problemlərinin mənimsəNilməsinin bəzi üsulları təşəkkül tapmışdır və onlar hazırda da mövcuddur Bu tədris kursunun ən sadə və əlverişli şəkildə mənimsənilməsini xronoloji və tarixi-mərhələli üsullar təşkil edir. Belə ki, siyasi və hüquqi doktrina və təlimlərin tarixi dövrlər üzrə ardıcıl bölügüsü qavramanı və mənimsəməni asanlaşdırır, onların tarixi təkamül prosesində hansı dəyişikliklərə məruz qalmalarını düzgün qiymətləndirməyə imkan yaradır.

Kursun materiallarının mənimsənilməsində zəruri tamlığa və dərinliyə nail olmaq üçün aşağıdakıları nəzərə almaq vacid hesab olunur:

1) bu və ya digər mütəfəkkirin dövlət, hüquq, qanun və siyasət haqqında görüşlərini öyrənərkən onun dünyagörüşünün formalaşdığı və inkişaf etdiyi tarixi dövrün iqtisadi, sosial-siyasi və hüquqi xüsusiyyətlərinin müəyyən edilməsi;

2) siyasi və hüquqi təlimlərin zənginləşməsində müsətəsna xidmətləri olmuş mütəfəkkirlərin, habelə klassiklərin siyasi-fəlsəfi və fəlsəfi-hüquqi yönümlü əsərləri ilə tanışlıq;

3) müxtəlif dövr mütəfəkkirlərinin gələcək hüquqşünaslar üçün əhəmiyyət kəsb edən dövlətin mənşəyi və mahiyyəti, formaları və vəzifələri, siyasi hakimiyyətin təşkili və təyinatı, hüququn formaları, mahiyyəti və prinsipləri və s. (mütəfəkkirlərin bilvasitə özləri tərəfindən irəli sürülən fikir və ideyaların dairəsindən asılı olaraq) məsələlərə dair təsəvvürlərinin və konsepsiyalarının aydınlaşdırılması;

4) müəyyən sosial-siyasi və hüquqi konsepsiyanın, yaxud doktrinanın hansı sosial qrupların mənafelərinə düzgün və ya dolayı xidmət və ya onların mənafelərni ifadə etməsinin təhlil və dərk edilməsi;

5) bu və ya digər mütəfəkkirlərin siyasi və hüquqi təlimlər tarixi xəzinəsini elmi nöqteyi-nəzərdən hansı yeni nəzəriyyə və ya təlimlə zənginləşdirməsinin öyrənilməsi, onun sosial-siyasi və hüquqi ideyalarının siyasi və hüquqi fikrin əvvəlki və sonrakı inkişaf mərhələləri ilə bağlılığının, habelə sonrakı tarixi dövrlərdə meydana gələn siyasi və hüquqi fikirlərə təsirinin olub-olmAmAsının müəyyənləşdirilməsi.

Biliklərin əldə olunması və tədqiqatların aparılmas prosesi praktikada həmişə hüdudsuz görünür. Mənimsənilənlərə və qazanılanlara təkrar-təkrar diqqət yetirərkən onlara həmişə nələrisə əlavə etmək istəyi və ya ehtiyacı yaranır. İ.Kantın insan idrakının bu xüsusiyyəti haqqında aşağıda söylədiyi fikir çox maraqlıdır: «İnsan zəkası yaratmağa o qədər meyllidir ki, o, dəfələrlə inşa etdiyi qüllənin bünövrəsini daha da möhkəmləndirməkdən ötrü onu yenidən sökür».

İstifadə olunmuş ədəbiyyat

1.Yusif Rüstəmov. Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, «Azərbaycan Universiteti», 2007.

2. Агабаба Рзаев. Политические и правовые исследования. Баку, «Элм», 1997.

3. Теория государства и права /Под ред. Н.И.Матузова, А.В.Малько. М., «ЮРИСТЬ», 1999.

4. История государства и права зарубежных стран /Под ред. П.Н.Галанзы и Б.С.Громакова. М., «Юрид.лит.», 1980.

Акшин КУЛИЕВ

НЕКОТОРЫЕ ВОПРОСЫ ИЗУЧЕНИЯ И ИССЛЕДОВАНИЯ «ИСТОРИИ ПОЛИТИЧЕСКИХ И ПРВОВЫХ УЧЕНИЙ»

Резюме

Предметом изучения политических и правовых учений является история возникновения идей и взглядов мыслителей разных эпох. Эти идеи сменяли друг друга на долгом пути от древней и средневековой вплоть до современной эпохи. Политико-правовые идеи обычно получают признание и распространение в определенном регионе и в виде локальной идейно-политической активности. Историю политических и правовых учений можно определить сегодня как один из исторических разделов дисциплин современного правоведения. А современная правоведения изучает история политических и правовых философий, теорий и доктрин права и политических учреждений.

Agshin GULİYEV

SOME QUESTİONS OF STUDY AND İNVESTİGATİON OF «HİSTORY OF POLİTİCAL AND LEGAL TEACHİNGS»

Summary

The subject of the study of political and legal teachings is the history of beggining of ideas and views of thinkers of differentages. These ideas replaced each other in the long way from ancient and medieval up to the present ages. The pand legalideas usually have go recognition and distribution in a certain region and in the form of local ideological and political activity. The history of political and legal teashing may be determined today as one of the historical sections of discipline of modern science of law. And the modern science of law studies the history of political and legal philosophies, theories and doctrines of law and political instititutions.

Əli RZAYEV
AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun «Konstitusiya hüququ dövlət və hüquq nəzəriyyəsi» şöbəsinin aparıcı elmi işçisi, hüquq elmləri namizədi

HAKİMİYYƏTLƏRİN BÖLGÜSÜ: KLASSİK NƏZƏRİYYƏSİ, ONUN KONSTİTUSİYA MEXANİZMİNDƏ REALİZƏSİ VƏ DÖVLƏT QULLUĞUNUN TƏŞKİLİNDƏ ROLU*

Hakimiyyətlərin bölgüsü ideyasının rüşeymləri ilk olaraq Aristotelin əsərlərində rast gəlinir. Lakin bu ideya tam şəkildə D.Lokkun (1632-1704), L.Monteskyenin (1684-1755) əsərlərində işıqlandırılmışdır.

Aristotel siyasi quruluşu qanunvericilik, inzibati və məhkəmə hakimiyyətləri kimi hissələrə ayırır. Aristotel göstərirdi ki, hər bir dövlət üç hissədən ibarətdir: birinci – qanun tərtib edən orqan; ikincisi – vəzifələr; üçüncüsü – məhkəmə orqanları [1, s.55].

1) Qanun tərtib edən orqan qanunlar, müharibə və sülh, ittifaq bağlamaq və ləğv etmək, ölüm cəzası, vətəndən qovulmaq, mülkiyyətin müsadirəsi, vəzifəli şəxslərin seçilməsi və onların hesabatı haqqında məsələlərə baxır;

2) Vəzifələrin bölüşdürülməsi, onların sayı, səlahiyyət müddəti, vəzifəli şəxsin rəhbərlik etdiyi sahə və b. məsələlər ilə bilavasitə əlaqədardır. Vəzifəli şəxslər, müəyyən iş sahələrində qanun tərtibi, həlledici və sərəncamverici hakimiyyət hüquqlarına malikdir. Bunlardan ən əsası isə – sərəncam verməkdir; [2. s.514-515]

3) Dövlət quruluşunun axırıncı hissəsi olan məhkəmə hakimiyyətinə aşağıdakı məhkəmə növləri daxildir: birincisi – vəzifəli şəxslərdən hesabat qəbul etmək; ikinci – dövlətə ziyan vuranları mühakimə etmək; üçüncü – dövlət cinayətinə dair, dördüncü – vəzifəli və xüsusi şəxslər arasında cərimələməyə dair iddiaları araşdırmaq; beşinci – xüsusi şəxslər arasında iri ticarət sazişlərinə dair; axırıncı – əcnəbilərin ölüm işləri və məhkəmə işlərinin araşdırılması ilə məşğul olan məhkəmələr.[2, s.519]

Hakimiyyətlərin bölgüsü nəzəriyyəsi kapitalizmin bərqərar olduğu dövrdə burjuaziyanın feodal mütləqiyyətinə qarşı mübarizə zəminində yaranmışdır. Kral hakimiyyətini məhdudlaşdırmağa səy göstərən gənc burjua ideoloqları dövlət hakimiyyətini qanunvericilik (parlament), icra (dövlət başçısı) və məhkəmə hakimiyyətlərini tanımaq tezisi irəli sürürdülər.

Məlumdur ki, ümumavropa miqyasında ilk inqilab (1640-1660) İngiltərədə olmuş və o vaxtdan cəmiyyətin tarixində yeni dövr - yeni tarix başlanmışdır. 1649-cu ildə İngiltərədə parlament tərəfindən idarə olunan respublika elan edilmişdir. 1688-89-cu illərdə baş vermiş "şanlı inqilab" nəticəsində ali hakimiyyətin parlamentə məxsus olduğu konstitutsiyalı monarxiya elan olunmuşdur.

1689-cu ildə qəbul olunmuş "Hüquqlar haqqında Bill"də aşağıdakılar bəyan edilirdi:[3, s.165-166]

1) Parlamentin razılığı olmadan kral hakimiyyətinin qanunları və ya onların həyata keçirilməsini dayandırmaq hüququnu mənimsəməsi qanunsuzdur;

4) Parlamentin icazəsi olmadan müstəsna hüquq iddiası ilə taxt-tacın ehtiyacları və xərcləri üçün pul toplamaq qanunsuzdur;

5) Subyektin krala petisiya (müracət) vermək hüququ var və buna qarşı olan bütün maneələr qanunsuzdur;

---

* Məqalə hüquq elmləri doktoru B.Zahidov tərəfindən çapa məsləhət bilinib.

6) Sülh şəraitində parlamentdən icazəsiz krallıqda nizami ordu saxlamaq və onu gücləndirmək qanunsuzdur;

8) Parlament üzvlərinin seçkisi azad olmalıdır;

9) Parlamentdə nitq və fikir söyləmək azadlığı məhkəmədə və ya parlamentdənkənar hər hansı bir yerdə təqib oluna və töhmətləndirilə bilməz;

12) Məhkəmənin hökmü yoxdursa, cərimələr qanunsuzdur;

13) Müxtəlif sui-istifadə hallarının qarşısının alınması, qanunların təkmilləşdirilməsi, möhkəmləndirilməsi və qorunması üçün parlament mümkün qədər tez-tez toplanmalıdır.

Hakimiyyətlərin bölgüsü ideyasının yaranması üçün "Hüquqlar haqqında Bill" hüquqi əsas sayıla bilər.

D.Lokk, "Dövlət idarəçiliyi haqda iki traktat" (1690) əsərində İngiltərədə "şanlı inqilab" dövrü siyasi çevrilişinin nəzəri olaraq doğruluğunu təsdiqləyir.

İnqilab dövründə gənclik çağını keçirən D.Lokk atasının (Kromvelin parlament ordusunda eskadron komandiri olmuş) parlament yolu ilə xalqın suverenliyini təmin etmək ideyasının təsiri altında olmuşdur. O, 1652-58-ci illərdə Oksford universitetində oxumuş, 1675-1679-cu illərdə Fransada yaşamış, 1683-1689-cu illərdə Hollandiyada mühacir həyatı keçirmiş, 1688-ci ildə "Şanlı inqilabdan" sonra 1689-cu ildə vətənə qayıdaraq hökumət qulluğu ilə yanaşı elmi və ədəbi fəaliyyət göstərmişdir. Londonda D.Lokkun anonim müəllifliyi ilə çap olunmuş "Dövlət idarəçiliyi haqda iki traktat" əsərində başqa məsələlərlə yanaşı əsas diqqət dövlət hakimiyyətinin bölgüsü probleminə yetirilir. Birinci traktatda hakimiyyətin ilahi mənşəli feodal-teokratik konsepsiyası tənqid edilir. İkinci traktatda "şanlı inqilab"la siyasi çevrilişin nəzəri olaraq düzgünlüyü əsaslandırılır.

D.Lokk hakimiyyətlərin bölgüsü haqda öz ideyasını onunla əsaslandırır ki, insan öz təbiətinə görə maddi varlıq olduğundan öz arzularını təmin etmək və iztirablardan qaçmaq üçün öz şəxsi hisslərinin təsiri altında olur. İnsan təbiətinin zəifliyi nəfsə və "hakimiyyətdən yapışmaq" meyilliliyində özünü göstərir. Hakimiyyətdə olan insanlar isə qanun yaratmaq, həmin qanunların icrasını öz əlində cəmləşdirməklə bu qanunlara tabe olmaqdan kənarda qalmaq istəyirlər. D.Lokk dövlət hakimiyyətini, onların həyata keçirdiyi funksiyaların xüsusiyyətinə görə qanunvericilik, icra və ittifaq (federal) hakimiyyətinə bölür.[4, 88-89]

Qanunvericilik hakimiyyəti – parlament qanunlar qəbul edir.

İcra hakimiyyəti – ordu və məhkəmələrə məxsus olub qanunları həyata keçirir.

İttifaq hakimiyyəti – krala və nazirlərə məxsus olub xarici siyasəti həyata keçirir.

D.Lokk qeyd edir ki, məhkəmə hakimiyyəti ayrıca yox, icra hakimiyyətinin tərkib hissəsi kimi qanunların icrası ilə məşğul olur [5, s.5]. Onun fikrincə, hakimiyyətlər bərabər paylanılmır. Qanunvericilik hakimiyyəti başqalarına münasibətdə ali hakimiyyət olub, bütün dövlətin başında durur. Lakin İcra və İttifaq hakimiyyətləri isə qanunvericilik hakimiyyətinin əlavəsi kimi yox, ona təsir etmək imkanları olması ilə səciyyələndirilir. Lokka görə İcra və İttifaq hakimiyyətləri ayrı-ayrı orqanlar yox, bir şəxsə – monarxa məxsus olmalıdır. Ancaq monarx bundan sui-istifadə etməməlidir [4, s.89].

D.Lokkun baxışlarının orijinallığı ondadır ki, o, İngiltərədə 1688-ci ildəki inqilabdan sonra ictimai şüurda əsas yer tutan parlamentin hakimliyi doktrinası şəraitində hakimiyyətlərin hüquqlarını müəyyən etməyə səy göstərir. D.Lokka görə: birinci, qanunverici orqan öz hakimiyyətini heç kəsə vermək istəməz; ikinci, vergilərin artırılması, mülkiyyətdən məhrum etmək məsələləri yalnız bütün xalqın və maraqlı

tərəflərin razılığı ilə baş verə bilər; üçüncüsü, ən əsası, parlament hakimiyyətini məhdudlaşdırmaq zəruriliyi.

Hakimiyyətlərin bölgüsü nəzəriyyəsi haqda D.Lokkun klassik ideyası Fransa filosofu, hüquqşünası və tarixçisi Ş.L.Monteskye tərəfindən daha da inkişaf etdirilmişdir.

Monteskye üç il müddətində əksər Avropa ölkələrinə səyahət etmiş, İngiltərədə il yarım yaşamış (İngiltərə parlamentində iştirak edərək, onun işini müşayiət etmiş, onun mahiyyətini və mexanizmini dərindən təhlil etmiş) və o ölkələrin siyasi-hüquqi təsisatlarını öyrənmiş və onun həyatının mənası olan "Qanunların ruhu haqqında"[6, s.159] traktat üçün material toplamışdır. Bu əsər üzərində o, 20 il çalışmış, öz fəlsəfi, sosial, hüquqi, iqtisadi və tarixi baxışlarını sistem halına salmışdır.

Monteskye göstərirdi ki, monarxiya və ya demokratik idarəçilik formasından asılı olmayaraq dövlət hakimiyyəti, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri ilə təmsil olunmalıdır. Onun nəzəriyyəsinə görə düzgün qurulmuş dövlətdə vahid hakimiyyət ola bilməz, əksinə, bir-birindən asılı olmayan üç hakimiyyət – qanunverici, icra və məhkəmə hakimiyyətləri olmalıdır.

Qanunverici hakimiyyət qanunlar yaratmalı, icra hakimiyyəti ümumdövlət xarakterli qərarların icrasını təmin etməli, məhkəmə hakimiyyəti cinayət tərkibli və mülki iddialara baxmalıdır. Onun fikrincə, qanunverici və icra hakimiyyətlərinin bir əldə cəmləşməsi qanunların aliliyini pozar, əgər hakimlər mühakimə etməklə yanaşı qanunvericiliklə məşğul olsalar, məhkəmə özbaşınalığı yaranar. Monteskye belə hesab edirdi ki, hakimiyyət orqanları bir-birindən asılı olmamalı, qarşılıqlı təsirlərini uzlaşdırmalı, bir-birini çəkindirə bilməlidirlər. Bu formada ifadə olunan dövlət quruluşu, heç bir kəsin qanunun icazə vermədiyinə məcbur edilməsinin mümkünsüzlüyünü təmin edir.

Monteskyenin fikrincə, eyni şəxsdə və idarədə üç hakimiyyət birləşirsə, yəni hakimiyyət həm qanun yaradır, hakimiyyət həm dövlət xarakterli qərarlarını icra edirsə və hakimiyyət həm də cinayətkarları mühakimə edirsə və mülki iddialara baxırsa, hər şey məhv olar [6, s.290-291]. Üç hakimiyyətin bir-birinə qarşılıqlı təsiri – mürəkkəb və məsuliyyətli prosesdir. O öz ifadəsini müxtəlif məsələlərin uzlaşmasında, hakimiyyət qollarının bir-birinə təsirində tapır. Hakimiyyətdən sui-istifadə imkanları olmasın deyə, Ş.Monteskye hər bir hakimiyyət qolunun digərini çəkindirə bilmək və tarazlaşdırmaq ideyasını irəli sürür. Onun fikrincə, monarxın icra hakimiyyətinin başçısı kimi parlamenti çəkindirmək üçün "veto" hüququ olmalı, hökumət qanunvericilik prosesinə qatılmamalı, parlamentin isə icra hakimiyyətinin fəaliyyətini dayandırmaq hüququ olmalıdır [6, s.291].

Ş.Monteskyenin hakimiyyətlərin bölgüsü ideyasının praktiki tətbiqini ilk olaraq ABŞ Konstitutsiyasında (1787) görmək olar. Odur ki, hüquqi ədəbiyyatda Monteskye ABŞ Konstitutsiyasının mənəvi atası sayılır.

ABŞ Konstitutsiyasında ilk olaraq tətbiq olunmuş hakimiyyətlərin bölgüsündə prezident modelindən ikiyüz il keçməsinə baxmayaraq müvəffəqiyyətlə inkişaf etmiş və hazırda dünyanın 130-dan çox ölkəsinin konstitutsiyasında bu model öz əksini tapmışdır [7, s.99]. Paradoksal hal ondadır ki, hakimiyyətlərin bölgüsü nəzəriyyəsinin təşəkkül tapdığı İngiltərədə bu cür "bölgü" aparılmamışdır [8, s.40]

Qeyd etmək lazımdır ki, ABŞ Konstitutsiyasının hazırlanma prosesində yaxından iştirakları olmuş Amerika mütəfəkkirləri T.Ceferson, A.Hamilton, B.Franklin, D.Adams və D.Medison Ş.Monteskye ruhunda hakimiyyətlərin bölgüsü prinsipini məharətlə inteqrasiya etmişlər.

Ş.Monteskyenin "qanunların ruhu haqqında" əsərinin nəşrindən 34 il sonra T.Ceferson (sonradan Amerika prezidenti olmuş) "Virciniya ştatı haqda qeydlər" əsərində fransız mütəfəkkirinin əsas fikirlərini təkrar edir. O yazırdı: "Biz o hökumətin tərəfindəyik ki, orda azad prinsiplərə əsaslanmaqla yanaşı hakimiyyətlər elə bölünməlidir ki, onların heç biri digərinin hakimiyyətinə qəsb etməsin və öz hüquq həddini keçməsin" [9, s.221-222]. O hesab edirdi ki, bütün dövlət hakimiyyətinin, qanunverici, icra və məhkəmə hakimiyyətlərinin bir orqanda – qanunverici məclisdə cəmləşməsi, dövlətdə bu üç əsas hakimiyyətin bir yerə qatılması "əslində tiran idarəçiliyi" deməkdir [10, s.81].

ABŞ-da qanunvericilik hakimiyyəti və prezidentin şəxsində icra hakimiyyəti bir-birindən asılı olmayaraq müstəqil formalaşdırılır. Məhkəmə hakimiyyəti isə dövlət başçısının və konqresin qarşılıqlı təsiri ilə yaradılır. ABŞ Konstitutsiyasında dövlət hakimiyyətini ayrı-ayrı hakimiyyətlərə bölmək, onların formalaşmasında müstəqillik, hər birinin özünə xas səlahiyyətlərinin olması ilə yanaşı konstitusiyanı yaradanlar hakimiyyət qolları arasında bir-birini çəkindirməyi və tarazlaşdırmağı əsas prinsip kimi qoymuşlar. Onlar hər bir hakimiyyət orqanının əlində həddən artıq hakimiyyətin cəmləşməsinin qarşısını almaq üçün dinamik, dəqiq mexanizm yaratmış və hakimiyyətin heç bir qolunun başqaları üzərində üstünlüyü olmaması fikrini əsas götürmüşlər. V.Luzin hakimiyyət bölgüsünü dövlət mexanizminin bünövrəsi, hakimiyyət qollarının bir-birini çəkindirmək və tarazlaşdırmaq sistemini dövlət mexanizminin canlı toxuması, damarı, hakimiyyət bölgüsü prinsipinin özəyi sayır [11, s.88]. O hesab edir ki, hakimiyyətlərin bölgüsündə çəkindirmə və tarazlaşdırma sistemi üçün aşağıdakı əsas elementləri olmalıdır: 1) Senatın məsləhəti və razılığı ilə bəzi ali vəzifəli şəxslərin vəzifəyə təyin olunması; 2) bikameralizm (ikipalatalı parlamentin olması); 3) məhkəmə nəzarəti; 4) prezident "vetosu"; 5) prezidentin xarici, daxili və hərbi sahədə bəzi mühüm hüquqların həyata keçirilməsində konqresin iştirakı; 6) konqresin təhqiqatı və impiçmenti [11, s.88].

Məlumdur ki, tarixi təcrübədə keçmiş sovet respublikalarında, o cümlədən Azərbaycanda nə çar, nə də sovet hakimiyyəti dövründə dövlət hakimiyyət bölgüsü və prezident sistemi tətbiq edilməmişdir.

Hüquqi ədəbiyyatda sovetlər dövründə hakimiyyətlərin bölgüsünün aparılmaması məsələsi görkəmli fransız mütəfəkkiri J.J.Russonun (1712-1778) ideyaları ilə əlaqələndirilir.

J.Russo "İctimai müqavilə haqda" kitabında qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə ali hakimiyyətin bölünməz, xüsusi təzahürü kimi baxırdı. O, sosial-siyasi mənada dövlət hakimiyyətinin bölgüsünü inkar edirdi və göstərirdi ki, hakimiyyət xalqdan gəlməlidir. Qanunvericilik hakimiyyəti xalq məclisində həyata keçirilməli, icra hakimiyyətini isə xalqın qarşısında məsuliyyət daşıyan hökumət həyata keçirməlidir. O hesab edirdi ki, dövlətin idarə olunmasında cəmiyyətin bütün üzvləri iştirak etməlidir [12, s.22].

Xalq hakimiyyətinin bölünməzliyi haqda Russonun konsepsiyası marksizm-leninizm baxışlarının əsasını təşkil etmiş və nəticədə "bütün hakimiyyət sovetlərə" tezisi meydana gəlmişdir. Bu ideya SSRİ Konstitutsiyasında, ittifaq və muxtar respublikaların konstitutsiyalarında öz əksini tapmışdır. Odur ki, bütün orqanlar sovetlər tərəfindən yaradılır və onların fəaliyyətinə nəzarət həyata keçirilirdi.

Sovetlər dövründə hakimiyyət bölgüsü nəzəriyyəsi ətrafında müxtəlif baxışlar mövcud olmuşdur. Bir qrup alim hakimiyyət bölgüsünün hüquqi dövlətin yaranmasında və vətəndaş cəmiyyətinin formalaşmasında mühüm alətlərdən biri olduğundan onun

tətbiqinin reallığı; digərləri isə «bütün hakimiyyət sovetlərə» tezisinə uyğun gəlmədiyinə görə qəbuledilməzliyi üzərində dayanırdı.

Çirkin yazır ki, bu ziddiyyətli baxışlar çoxəsrlik mübahisə ilə qırmızı xətlə "bölücülər" və "vahid hakimiyyətçilər" arasında kəskin mübarizədən keçir [13, s.10].

1991-ci ildə Rusiyada Xalq deputatları soveti müstəqillik elan etdikdən sonra Azərbaycan Respublikasında 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında qəbul olunmuş Konstitutsiya aktında, Azərbaycan Respublikası Konstitutsiyasında hakimiyyət bölgüsü prinsipi təsbit edilmişdir. Qanunvericilik hakimiyyətinin Azərbaycan Respublikasının Milli Məclisinə, ali icra hakimiyyətinin Azərbaycan dövlətinin başçısına – Azərbaycan Respublikasının Prezidentinə, məhkəmə hakimiyyətinin müstəqil məhkəmələrə məxsus olduğu göstərilmişdir. Dövlət hakimiyyəti bölgüsü hər bir hakimiyyət qoluna verilmiş səlahiyyət çərçivəsində fəaliyyət göstərir və nəzarət funksiyasını həyatı keçirir (13, s.18; 14, s.9-16).

Axırıncı illərdə hüquq ədəbiyyatında dövlət hakimiyyətinin dördüncü qolu kimi **nəzarət hakimiyyətinin** ayrılması təklifləri irəli sürülür.[19] Ədəbiyyatda ilk dəfə bu ideyanı irəli sürən V.Çirkin yazır: "Hakimiyyətin yeni budağı göyərir". O, nəzarət hakimiyyətini xarakterizə edərək göstərir ki, bunu kompleks, birləşmiş və ümumi məqsədləri eyni profilli orqanlar həyata keçirir. Nəzarət hakimiyyəti orqanlarının fəaliyyətini səciyyələndirən əlamətlərində görürlər ki, o, qanunvericilik hakimiyyəti kimi ümumi davranış qaydaları müəyyən etmir, icra hakimiyyətinə xas olan təşkilati işlə məşğul olmur, məhkəmə hakimiyyətinin fəaliyyət dairəsini təşkil edən konkret cinayət işlərinə, mülki, əmək və digər münaqişələrə baxmır. Nəzarət orqanları yalnız işlərin vəziyyətini təhqiq etmək, yoxlamaq və öyrənməklə məşğul olur və idarə, müəssisə, təşkilatların əməli fəaliyyətinə qarışmırlar. Adətən onlar yoxlamanın nəticələri haqqında günahkarlara müvafiq tədbirlər tətbiq edə bilən başqa dövlət orqanlarına məruzə edirlər. Nəzarət orqanlarının, normativ aktları konkret, fərdi xarakter daşımaqla müəyyən orqanlara, idarələrə, vəzifəli şəxslərə ünvanlanır.

Müstəqil nəzarət hakimiyyətinin yaradılması ideyasının əsasını bir tərəfdən bəzi ölkə konstitutsiyalarında (məsələn, Əlcəzair konstitutsiyasında ayrıca fəsil kimi nəzarət hakimiyyəti təsbit olunub) nəzarət hakimiyyətinin dövlət hakimiyyəti triadasından ayrıca baxılması, digər tərəfdən bəzi ölkələrin aksioner qanunvericiliyində nəzarətin təşkili nümunəsi təşkil etmişdir. Söhbət aksioner cəmiyyətlərinin yığıncağında seçilən və yığıncaq qarşısında məsuliyyət daşıyan və başqalarından asılı olmayan təftiş komissiyasına (təftişçilər) oxşar bir dövlət nəzarət hakimiyyəti orqanı yaratmaqdan gedir. Aksioner cəmiyyətini dövlət hakimiyyəti ilə müqayisə etdikdə, direktorlar şurası – parlament, onu idarə edənə prezident və ya hökumət sədri uyğun gəldiyi halda, təftiş komissiyasının analoqu yoxdur.

Azərbaycan Respublikasında müstəqillik əldə edildikdən sonra qəbul olunmuş yeni Konstitutsiyada (1985) dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkili: Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikası Milli Məclisinin həyata keçirməsi, İcra hakimiyyətinin Azərbaycan Respublikasının Prezidentinə məxsusluğu, məhkəmə hakimiyyətinin Azərbaycan Respublikası məhkəmələrinin həyata keçirməsi (7-ci maddə) ilk dəfə olaraq hüquqi təsbitini tapmışdır.

Dövlət hakimiyyətinin hər bir qolunun fəaliyyəti, ümumiyyətlə, dövlət mexanizminin hərəkəti dövlət qulluğu vasitəsilə təmin edilir.

Dövlət mexanizmi dövlətin vəzifə və funksiyalarını həyata keçirmək üçün dövlət aparatını dəyişməyə, inkişafa, təkmilləşməyə yönəlmiş hərəkət sistemidir. Dövlət mexanizmi dövlət – dövlət aparatı (qanunvericilik icra və məhkəmə orqanlar sisteminin

məcmusu) – dövlət orqanı – dövlət vəzifəsi, dövlət qulluğu – dövlət qulluqçusu seçimi üzrə fəaliyyət göstərib. Göründüyü kimi, vəzifə dövlət aparatını dövlət qulluğu ilə əlaqələndirici rolunu oynayır.

Dövlət qulluğu, dövlət orqanlarında təsis edilmiş dövlət vəzifələrinin bilavasitə icrası ilə dövlətin məqsəd və funksiyalarını həyata keçirilməsində vətəndaşların praktiki və peşəkar fəaliyyəti kimi baxılır [15, s.113]. Odur ki, dövlət qulluğunun əsas elementi olan dövlət vəzifəsi tutulandan sonra (təyinolunma, seçilmə, müsabiqə yolu ilə) dövlət mexanizmi, göstərilən sxem üzrə hərəkətə gəlir. Dövlət aparatı sükunətdən hərəkətə, yəni statik vəziyyətdən dinamik vəziyyətə keçir (analoq kimi təyyarədə ekipaj üzvləri yerlərində oturub təyyarəni idarə etməyə başlayandan sonra təyyarənin necə hərəkətə gəlməsini göstərmək olar).

Hüquqi ədəbiyyatda hakimiyyətlərin bölgüsü prinsiplərinə uyğun olaraq Prezident dövlət qulluğunu, parlament dövlət qulluğuna və hökumət dövlət qulluğuna bölürlər [16, s.34]. Dövlət qulluğu dövlət idarəetməsi ilə qarşılıqlı təsirdə olar. Dövlət idarəetməsinin effektivliyi dövlət qulluğunun təşkili ilə birbaşa əlaqəlidir.

Hazırda inzibati hüquq elmində paradoksal hal, alimlər arasında ziddiyyətlər yaradan "İdarəetmə" anlayışıdır. Məlumdur ki, 70 ildən artıq bir müddətdə keçmiş Sovet İttifaqında "İdarəetmə" termini dövlət fəaliyyəti kimi konstitutsiyalarda və digər qanunvericilik aktlarında təsbit olunmuş, milli ədəbiyyatda geniş istifadə edilmişdir.

Hakimiyyətin bölünmə ideyasının hakimliyi 1991-ci ildən sonra MDB respublikalarında, o cümlədən Azərbaycanda qəbul olunmuş yeni konstitutsiyalarda dövlət aparatının aparıcı bölməsi olan "dövlət idarəetməsi" anlayışından imtina olunmuş və o, icra hakimiyyəti anlayışı ilə əvəz edilmişdir. Beləliklə, dövlət idarəetmə orqanları, icra hakimiyyəti subyektlərinə dəyişdirilərək "əmək bölgüsü" "hakimiyyət bölgüsü" ilə əvəzlənmişdir.

İnzibati hüquq elmi üçün prinsipal əhəmiyyət daşıyan, dövlət-hakimiyyət mexanizminin işlək olması üçün reallıq olan və onun metodoloji əsasını təşkil edən idarəetmənin qanunvericilikdən çıxarılması, ona sinonim təklif olunmaması bu sahədə boşluq yaratmışdır.

Təhlil göstərir ki, dövlət idarəetməsi öz təyinatına görə icra hakimiyyətinin reallaşmasında dövlət fəaliyyətinin bir növüdür – idarəetmə qeyri-dövlət xarakterlidir, çünki o, dövlətdən, icra hakimiyyətindən əvvəl yaranmışdır.

Beləliklə, dövlət hakimiyyətlərinin düzgün bölgüsü dövlət qulluğunun səmərəli fəaliyyət göstərməsini şərtləndirir və dövlət mexanizminin normal hərəkətini təmin edir.

İstifadə olunmuş ədəbiyyat

1. Чанышев А.М. Аристотель. "Мысль", 1981.

2. Аристотель. Политика. Сочинение в 4-х томах, М., "Мысль", 1983, том 4.

3. Хрестоматия по истории государства и права зарубежных стран. М., «Юридическая литература», 1984.

4. Локк Д. Избранные философские произведения в 2-х томах. М.,1960, т. 2.

5. Касумов З.М, Касумов Ф.З. Принцип разреления властей и его реализация в конституционном механизме. Баку, 1994.

6. Монтескье Ш. О духе законов. Избранные произведения. Москва, «Политическая литература», 1955.

7. Кудряченко А.И. Институт президентства на Украине: реалии конституционно-правового института. Государство и право, 1998, № 3.

8. Горнер Д. Великобритания: центральное и местное управление. М, «Прогресс», 1984.

9. Джеферсон Т. Заметка о штате Вирджиния – В кн: Шелок Т. Политическая философия Джеферсона.

10. Ибаков В.В. Принцип разделение властей в конституции США 1787 г. и конституции Франции 1791 г: сравнительный анализ. Государство и право, 2000, № 12.

11. Лузин В.В. Президентский модель разделения властей (на примере США): Государство и право, 1999, № 3.

12. Руссо Ж.Ж. Об общественном договоре или принципы политического права. М., «Политическая литература», 1938.

13. Чиркин В.Е. Контрольная власть. Государство и право. 1993, № 4.

14. Денисов С.А. Формирование контрольной ветви государственной власти и ограничение коррупции. Государство и право, 2002, № 3.

15. Атаманчук Г.В. Сущность государственной службы. Москва, 2003.

16. Казбаненко В.А. Структуро-видовые особенности государственной службы РФ. Государство и право, 1998, № 12.

Али РЗАЕВ

РАЗДЕЛЕНИЕ ВЛАСТЕЙ: ГЕНЕЗИС И ЕГО РОЛЬ В ОРГАНИЗАЦИИ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ

Резюме

В стаье рассматриваются вопросы об истоках и содержании теории разделения властей, ее роль в становлении и развитии государственной службы. Особое внимание уделяется анализу ее реализации в конституционном механизме Азербайджанской Республики и Соединенных Штатов Америки, выделении четвертой ветви – контрольной власти, а также анализируется судьба понятия “управления” в законодательстве.

Ali RZAYEV

DİVİSİON OF THE POWERS: GENESİS AND İTS PART İN ORGANİZATİON OF STATE SERVİCE

Summary

In the article the issues of the sources and content of a theory of power division, its part in stading and development of a stste service are considered. A particular attention is paid to the analysis of its realization in the constitutional machinery of Azerbaijan Republic and USA, distinguishing aut the fourth branch-control power, as well, the fate of the notion goverment in the legislation is analysed.

Miraferim СЕЙИДОВ
АМЕА-нын Фялсяфя вя Сийаси-Щцгуги Тядгигатлар Институтунун «Дювлят вя щцгуг нязяриййяси. Конститусийа щцгугу» шюбясининин бюйцк елми ишчиси, щ.е.н.

XI – XII ƏSRLƏRDƏ AZƏRBAYCANDA DÜNYƏVİ QANUNVERİCİLİYİN İNKİŞAFI MƏSƏLƏLƏRİ*

ХЫ ясрин орталары цчцн Азярбайжан яразисиндя цч мцстягил дювлят – Ширваншащлар, Шяддадиляр вя Ряввадиляр дювляти мювжуд иди. Лакин Азярбайжан яразисиндя фяалиййят эюстярян бу цч дювлят арасында игтисади, сийаси ялагяляр зяиф иди. Бу да Азярбайжан яразисиндя феодал даьыныглыьыны шяртляндирян ясас жящятлярдян бири олмагла, мяркязляшмиш дювлят, ващид щцгуг системи, ганунверижилик базасы йарадылмасына бюйцк манеяляр йарадырды.

ХЫ-ХЫЫ ясрлярдя Азярбайжан яразисиндя мювжуд олмуш дювлятлярин идаряетмя системи, щцгуг институтлары, ганунверижилик мясяляляри щаггында мцяййян фикир сюйлямяк, щяр щансы бир елми нятижяляря эялмяк цчцн илк нювбядя бу дюврцн сийаси мянзярясиня нязяр йетирмяк, баш верян сийаси просеслярин эедишини излямяк вя йалныз ижтимаи-сийаси щадисяляр фонунда тяфсир вермяк даща мягсядяуйьун олар.

Сийаси щадисяляр бурульанына варид олмаздан яввял гейд едилмялидир ки, ХЫ-ХЫЫ ясрляр Азярбайжанын елм вя мядянийяти тарихиндя дя бюйцк тябяддцлат вя инкишаф дюврц олмушдур. Тясадцфи дейилдир ки, мящз бу дювр елми даирялярдя интибащ дюврц кими гиймятляндирилир, ейни заманда феодал ижтимаи мцнасибятляринин вя мящсулдар гцввялярин сцрятли инкишафы, феодал зцлмцня гаршы чыхышларла мцшайят олунан азадлыг щярякатынын йцксялиши иля дя сяжийялянир. [19, с.116].

Мящз беля бир мцряккяб тарихи шяраитдя Азярбайжанын вя гоншу юлкялярин тарихиндя мцщцм щадисяляр баш вермяйя башлады. Яввялжя Орта Асийада йашайан оьузлар, сонра ися сялжуглар Жянуби Гафгаза щцжум етдиляр. Бящс олунан дюврдя Ряввадиляр дювляти инкишаф етмиш феодал дювляти иди. Вящсудан оьузлара жидди мцгавимят эюстярмяк игтидарында олмадыьындан онлардан щярби гцввя кими юз мягсядляри цчцн истифадя етмяк гярарына эялди [23, с.246-247].

1040-жы илдя Дяндянякан дюйцшцндя гязнявиляри дармадаьын едян сялжуглар Хорасаны тутдугдан сонра билаваситя Азярбайжан яразиляриня йахынлашдылар. Бу дюврдя айры – айры феодал дювлятляриня парчаланмыш Азярбайжан яразиси мцхтялиф йаделли ишьалчыларын щужумларына мяруз галмышды. Бир – биринин ардынжа бизанслылар, руслар, аланлар, сярирляр вя диэярляринин Азярбайжана гарятчи йцрцшляри, йерли феодал чякишмяляри, халг чыхышлары иля тамамланырды. Беля вязиййят щакимийятдя олан бцтцн сцлалялярин – Ряввадилярин, Шяддадилярин, Ширваншащлар – Мязйядилярин зяифлямясиня сябяб олду вя ХЫ ясрин 40-жы илляриндян башланан сялжуг щцжумларына йетярли мцгавимят эюстяря билмямякля нятижялянди. Ряввадилярин яразисиндя мющкямлянян сялжуглар Азярбайжанын диэяр дювлятляри цзяриня щцжум етдиляр [14, с.210]. 1054-1055-жи иллярдя сялжуг щюкмдары Тоьрул бяй Тябризя йахынлашды. Ряввади Вящсудан онун щакимийятини

* Məqalə hüquq elmləri doktoru M.Əliyev tərəfindən çapa məsləhət bilinib.

гябул едяряк адына хцтбя охутдурду вя чохлу щядиййялярля йанашы, оьлуну да эиров верди [13, с.117).

Сялжугларын щцжуму Юн Асийада бцтцн мцнасибятлярин кюкцндян дяйишмясиня, йени игтисади, сийаси мцнасибятлярин йаранмасына, йени дювлят тясисатынын, щцгуг системинин мейдана чыхмасына сябяб олду. Академик А.Й.Крымскинин фикринжя, «сялжуг ордусу юзцнцн ишьаллары заманы сонрадан монголларын тюрятдикляри гяддарлыгдан – йоллары цзяриндя раст эялдикляри щяр шейи вандалжасына мящв етмяк, йашайыш йерлярини йандырмаг вя даьытмаг, ящалини кцтляви шякилдя мящв етмяк кими щярякятлярдян узаг идиляр. Имканлы, верэиляри юдямяйя гадир олан тябяяляря малик олмаг сялжуглара даща сярфяли иди…» [17, с.114-115]. Сялжуглара верилян бу хасиййятнамянин онларын гурдуглары дювлятин щцгуги ясасынын, тятбиг етдикляри ганунверижилийин юйрянилмясиндя бюйцк ящямиййяти вардыр.

60-70-жи илляр щцдудунда сялжуг щюкмдары Мяликшащ Ширваны табе етди. Ширван щюкмдары Фярибцрз щяр ил дювлят хязинясиня 70 мин динар юдямяк цчцн илтизам верди [2, с.146]. Мяликшащын щакимиййяти дюврцндя «Азярбайжан сялжугларын игтисади базасы олараг галырды. Иран вя Анадолу тцркмянляри арасында ялагя мящз Азярбайжан васитясиля сахланылырды» [18, с.102]. Гейд едилмялидир ки, мящз Мяликшащын сифариши иля вязири Низамцлмцлк дювлятин идаря едилмяси мясяляляринин якс олундуьу «Сийасятнамя» китабы тяртиб олунмушду [17, с.117).

Сялжуглар дювлятинин щяйата кечирдийи сосиал-игтисади вя щярби – сийаси тядбирляр феодал мцнасибятлярини даща да мющкямляндирди. Тижарятин вя мядяниййятин инкишафы цчцн мцяййян зямин йаранды. 119 ил фяалиййят эюстярян Сялжуглар дювляти тцркдилли халгларын инкишафына эцжлц тясир эюстярся дя, щярби – феодал хцсусиййятли дювлят олдуьундан, бурада щярби – сийаси бирлик игтисади бирлийя нисбятян даща эцжлц иди [4, с. 292].

Международное право предусматривает также возможность обращения государств к индивидуальному принуждению с целью обеспечения их субъективных прав. В числе их можно перечислить реторсии, репрессалии, непризнание, неустановление дипломатических и консульских отношений, самооборона. Так, Азербайджан фактически установил режим экономических санкций против агрессора, коим является Армения. Армения фактически изолирована от многих экономических проектов в регионе Южного Кавказа. Армения осталась в стороне от нефтепровода Баку-Тбилиси-Джейхан имеющее огромное значение для развития всего региона Южного Кавказа. Армения также остается за пределами проекта по строительству транскавказского газопровода, а также от такого значимого транспортного проекта, как строительство железной дороги пролегающей по территории Азербайджана, Грузии и Турции. Азербайджан использует институт непризнания, т.е. отказывается признавать ситуацию, созданную противоправными действиями Армении, в том числе используя непризнание территориальных изменений в результате агрессивной войны, непризнание марионеточного сепаратистского режима так называемой «Нагорно-Карабахской Республики» и т.д. Азербайджан также использует и такой вид индивидуальных санкций как отказ от установления дипломатических и консульских отношений с Арменией. Существенно повышает значение данного фактора также отказ Турции от установления дипломатический отношений с Арменией до тех пор, пока не будут освобождены оккупированные азербайджанские земли.

На наш взгляд, к неправовым факторам, тем не менее, оказывающим существенное влияние на геополитическую ситуацию в регионе, а значит и на агрессора, относится растущая экономическая и военная мощь Азербайджана, укрепление и возрастание его политического веса и значения в мировой политике. Так, темпы роста национальной экономики за 2005 -2008 гг. являются одним из самых высоких в мире. Как отметил президент Азербайджана И.Алиев, уровень экономики Азербайджана в 6 раз превышает армянский, а в будущем превысит в 10 раз. Размер государственного бюджета Азербайджана в 7 раз превышает армянский, а военный бюджет Азербайджана равен всему бюджету Армении [26].

Следует отметить также, что в соответствии с Уставом ООН Азербайджан вправе использовать свое неотъемлемое право на самооборону как страна, подвергнувшееся вооруженному нападению со стороны Армении (ст.51 Устава). Президент Азербайджана И.Алиев неоднократно заявлял, что мы выступаем за мирное решение армяно-азербайджанского, нагорно-карабахского конфликта. Однако наше терпение небезгРанично. И если азербайджанские земли не будут освобождены от оккупации, мы в соответствии с международным правом прибегнем к другим средствам для освобождения оккупированных земель.

Наряду с международными санкциями другим, средством обеспечения гарантированности принципов международных права является охрана прав потерпевших государ-

ств и реализация ответственности в отношении государств-нарушителей. Международные санкции должны дополняться процессуальным механизмом урегулирования, который, будучи зафиксированным, в правовой форме, даст возможность заинтересоВанному государству предпринимать соответствующие меры для защиты своих нарушеенных прав[18, 74]. В случаях когда процессуальный порядок обеспечения или соблюдения обязательств и защиты нарушенных прав нормативно не закреплен, потерпевшему государству очень трудно, часто, даже невозможно заставить государство-нарушителя нести надлежащую международно-правовую ответственность. Особенно это наглядно проявляется при совершении агрессии и нарушении принципа территориальной целостности государств. В силу данного обстоятельства как отмечают Б.Ференц, Т.Флейнер-Герстер, М.Мейер, Ж.Дезу, серьезно подрывается эффективность норм таких отраслей и институтов международного права, как право вооруженных конфликтов, международное уголовное право, нормы о наказании за преступления против мира и человечности [27, 74-76].

Появление таких новых факторов в системе международных отношений как глобализация, интернационализация, экологические проблемы планетарного масштаба и др. порождают сложные проблемы, для эффективного решения которых уже недостаточно наличие лишь исключительно координационных связей между государствами. Жизнь диктует в определенных случаях необходимость принятия квалифицированных мер со стороны межгосударственных международных органов, имеющих полномочия на основании заключения соответствующих международных договоров действовать от имени мирового сообщества в целом. В связи с этим для системы современных международных отношений характерно наряду с сохранением преимущественно координационных связей, усиление определенных субординационных элементов, призванных обеспечить эффективное функционирование механизма международно-правового регулирования [28, 31]. Но об этом в следующей статье.

Список использованной литературы:

1. Фельдман Д.И., Лазарев В.В., Лихачев В.Н. О понятии пробелов в современном международном праве //Советский ежегодник международного права 1980. М., Издательство «Наука», 1981.- с.127-139.
2. Лукашук И.И. Международное право. Общая часть. М.: Волтерс Клувер, 2005. - 432 с.
3. Марочкин С.Ю. Проблема эффективности норм международного права. Иркутск, Издательство Иркутского университета, 1988.- 148 с.
4. Мингазов Л.Х. Эффективность норм международного права. Казань, Издательство Казанского университета, 1990.- 207 с.
5. Мингазов Л.Х. Эффективность норм международного права: теоретические проблемы. Казань, Издательство Казанского университета, 1999. – 376 с.
6. Мингазов Л.Х. Эффективность норм международного права: теоретические проблемы. Диссертация на соискание ученой степени доктора юридических наук.- Казань, 2000.- 465 с.
7. Черниченко С.В. Теория международного права. В 2-х томах. Том 1: Современные теоретические проблемы.- М.: Издательство «НИМП», 1999.- 336 с.
8. Frank T.M. The Power of Legitimacy among Nations. N.Y. 1990. - 421p
9. Brownly J. The Rule of Law in International Affairs. The Hague, 1998. - 534 p.

10. Мовчан А.П. Кодификация и прогрессивное развитие международного права. М.: «Юридическая литература», 1972.- 289 с.

11. Василенко В.А. Международно-правовые санкции. Киев: Вища шк.,1982. 324 с.

12. Курис П.М. Международные правонарушения и ответственность государства. Вильнюс, 1973.- 322с.

13. Левин Д.Б. Проблема ответственности в науке международного права. М.,1946. -215 с.

14. Левин Д.Б. Ответственность государств в современном международном праве. М., 1966.- 265 с.

15. Тункин Г.И. Теория международного права. М.: Издательство "Зерцало", 2000.- 416 с.

16. Международное право: Учебник. Отв.ред. Ю.М. Колосов, В.И.Кузнецов.- М.: «Междунар. отношения», 1999.- 624с.

17. Международное право: Учебник для вузов /Отв.ред. д.ю.н., проф. О.И. Тиунов.- 4-ое изд., перераб. и доп.- М.: «Норма», 2006.- 720 с.

18. Марочкин С.Ю. Обеспечение реализации норм международного права // Советский ежегодник международного права 1987 г. М.: Издательство « Наука», 1988.- с. 64-79.

19. Резолюция Совета Безопасности ООН 1718 (2006) от 14 октября 2006 г.//http:www.un/org/russian/document/scresol/res 2006/res 1718.htm.

20. Резолюция Совета Безопасности ООН 678 (1990) от 29 ноября 1990 г.//http://www.un.org/russian/documen/scresol/1990/res 678.pdf.

21. Резолюция Совета Безопасности ООН 955 (1994) от 8 ноября 1994 г.// Действующее международное право. В 3-х томах. Составители Ю.М. Колосов и Э.С. Кривчикова. Том 1. М.: Издательство Московского независимого института международного права. 1996.- с.759-772.

22. Резолюция Совета Безопасности ООН 1031 (1995) от 15 декабря 1995 г.//http://www.un.org/russian/documen/scresol/res 1995/scres 1031.htm.

23. Цыганков П.А. Теория международных отношений: учеб.пособие.- М.: Гардарики, 2006, 509 с.

24. Броунли Я. Международное право. В двух книгах. Книга первая. М.: Издательство «Прогресс», 1977, 536с.

25. Резолюция Совета Безопасности ООН 527 (1982) от 13 декабря 1982 г.//http://www.un.org/russian/document/scresol/1982/res.527.pdf.

26. Газ. «Зеркало», 22 декабря 2006 г.

27. Международные суды и международное право: сб. обзоров. М.: ИНИОН АН СССР, 1986.- с.74-76.

28. Mosler H. The international society as a legal community// Acad. Droit. Intern. Rec. Cours. 1976. T.140. p.29-52.

Rauf QARAYEV

BEYNƏLXALQ HÜQUQDA DÖVLƏTLƏRIN ƏRAZI BÜTÖVLÜYÜ PRINSIPININ EFFEKTLIYININ ARTIRILMASI PROBLEMI

Məqalə 1. Beynəlxalq-hüquq nizamlanması sistemində dövlətlərin ərazi bütövlüyü prinsipinin effektliyi

Xülasə

Beynəlxalq hüquq sisteminin effektliyi problemi hüquq elmində ən az araşdırılmış problemlərdən biridir. Çox guman kı bu, problemin həddindən artıq ağır olduğundan irəli gəlir. Hətta hüquq elmində beynəlxalq hüququn effektliyi problemini beynəlxalq əlaqələrin hüquqi tənzimlənməsində olan boşluqlara aid edirdilər.

Son zamanlar bu problemi işıqlandırmaq məqsədilə bir neçə əsər işıq üzü görmüşdür. Bununla bərabər, onu da xüsusilə qeyd etmək lazımdır ki, hüquq elmində həm bütövlükdə beynəlxalq hüququn əsas prinsiplərinin, həm da ayrıca olaraq,

dövlətlərin əraz bütövlüyü prinsipinin effektliyi problemi və belə effektliyin təsir dairəsinin artırılması yolları müstəqil araşdırma mövzusu olmamışdır və bu sahədə hər hansı bir əhəmiyyata malik olan elmi əsər yoxdur.

Məqalədə dövlətlərin ərazi bütövlüyü prinsipinin effektlıyının artırılmasının əsas istiqamətləri müəyyən edilir və göstərilir ki, bu prinsipin effektliyinin artırılması, son nəticə olaraq, beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə və dövlətlər arasında əməkdaşlığın inkişafına xidmət edir.

Rauf GARAYEV

THE PROBLEM OF INCREASING OF EFFECTIVENESS OF THE PRINCIPLE OF TERRITORIAL ENTEGRITY OF STATES IN INTERNATIONAL LAW

Article 1.The effectiveness of the principle of territorial entegrity of states in the system of international leqal regulation

Summary

The problem of effectiveness of the international law system is one of scantily explored problems in the science of law. Highly probably, it is connected with the difficulty of the scientific researches in this sphere. Even in the doctrine of the

law this problem was related to gaps (lacunae) in the international law regulation of international relations.

Last times, there were published a few scientific works in this field. At the same time it is important to note, that the problem of effectiveness of the principle of territorial entegrity of states in contemporary international law was not the subject of original research and in this sphere there is not some significant works.

In this article is investigated main ways of increasing of effectiveness of the principle of territorial entegrity of states with the aim of strengthening of international peace and further developing of cooperation between states.

Anar MƏHƏRRƏMOV
H.e.n., Bakı Dövlət Universiteti Beynəlxalq ümumi hüquq kafedrasının dos. əvəzi,
Daşqın QƏNBƏROV
Bakı Dövlət Universiteti Beynəlxalq ümumi hüquq kafedrasının aspirantı

BEYNƏLXALQ EKOLOJİ STANDARTLARIN POZULMASINA GÖRƏ HÜQUQİ MƏSULİYYƏT*

Beynəlxalq ekoloji standartlara əməl olunması və beynəlxalq ekoloji təhlükəsizliyin təmin olunması üçün beynəlxalq hüquqda məsuliyyət olduqca vacibdir. Aşağıdaki rəqəmlər də bunu önəmli edir. Belə ki, İtaliyanın qeyri-hökümət təşkilatı olan Leqambyentenin verdiyi məlumata görə, bu gün dünyada ekoloji cinayətlər törədən 60-a yaxın mafiya və klanlar mövcuddur. Bunların içərisindən 18-i tullantıların qanunsuz daşınması ilə, 11-i isə nəsli kəsilməkdə olan vəhşi heyvanların satışı ilə məşğul olur. Təşkilat həmçinin qeyd edir ki, ozon qatını məhv edən maddələrin satışı ilə məşğul olan Meksika mafiyası ilə bərabər, Kanadada belə bir qrup fəaliyyət göstərir və onlar ABŞ-a təhlükəli maddələr ixrac edirlər. Belə hallara qarşı ən irimiqyaslı əməliyyat "Soyuq briz əməliyyatı" olub və bu əməliyyat nəticəsində 1 000 000 yaxın Britaniya funtu dəyərində olan dağıdıcı ozon maddəsi saxlanılıb.

İnterpolun verdiyi məlumata görə, hər il qanuni və qanunsuz vəhşi heyvanların (ölü və ya diri), bitkilərin və onlardan alınan məhsulların, fil sümüyünün, heyvan dərilərinin, tibb dərmanlarının və s. dövriyyəsi 6 mlrd ABŞ dollarından artıq təşkil edir. Ümumdünya Vəhşi Təbiət Fondunun göstəricilərinə görə bu rəqəm üç dəfə çoxdur: ±20 mlrd. Interpolun məlumatı ilə Britaniyanın Ətraf mühit, nəqliyyat və regionlar nazirliyi də razılaşır.**(1)** Rəsmi məlumatlarda qeyd olunur ki, itməkdə olan növlərin, pələnglərin, fil sümüyünün, ozon qatını məhv edən maddələri də daxil etməklə ümumi illik gəlir 20 mlrd. ABŞ dollarından artıq təşkil edir ki, bunun isə böyük hussəsi cinayətkar qruplar tərəfindən qanunsuz həyata keçirilir və ətraf mühitə böyük ziyan vururlur.

Hər il dünyada 350 mln. heyvan və bitki satılır. Hesab olunur ki, bu satışın 25% qanunsuzdur. Heç kimə sirr deyil ki, bu günlər müəssisələr tərəfindən atmosferə, torpağa, su hövzələrinə, meşələrə, yer təkinə böyük miqdarda təhlükəli maddələr tullanır və bu, ətraf mühitdə balansın pozulmasına səbəb olur, ancaq bu əməllərə görə işbazlar çox nadir hallarda cinayət məsuliyyətinə cəlb olunur. Ona görə də bu cür statistikanın obyektivliyindən danışmağa dəyməz.**(2)**

Bioloji növlər üçün ən təhlükəli amillər brakonyerlik və qaçaqmalçılıqdır. Yaponiyada şəxsi xanko möhürlərin hazırlanması üçün fil sümüyündən istifadə edirlər. Yəməndə kərgədan buynuzundan kişi xəncərlərinin əl tutacaqlarını hazırlayırlar. Ənənəvi Çin təbabəti üçün isə pələng sümükləri və ayı ödü tələb olunur. Qara kürü, nadir tutuquşu növləri və səhləb çiçəyi də böyük tələbatla istifadə olunur.

Bütün bunlar dünya ictimaiyyətinin gözü qarşısında baş verir, amma buna baxmayaraq, cinayətlərin qarşısını almaq mümkün olmur və beynəlxalq məsuliyyət heç kimi narahat etmir. Nümunə üçün: Çində pandaların ovlanmasına görə ölüm hökmü qüvvədə olsa da, cinayətlərin qarşısını almaq hüquq mühafizə orqanlarının imkanları çərçivəsində deyil. Düşünürəm ki, bir

---

* Məqalə redaksiya heyətinin üzvü, tarix elmləri doktoru, professor H.Əlibəyli tərəfindən çapa məsləhət bilinib.

məqamı da qeyd etməyim hamı üçün maraqlı olardı. Təcrübə göstərir ki, hər hansı bir malın (əmtəənin) alqı – satqısına qoyulan qadağa nə qadər sərtləşdirilirsə, həmin malın (əmtəənin) dəyəri də buna düz mütanasib olaraq qalxır. Digər bir məqam da ondan ibarətdir ki, hər bir malın əldə olunmasından pərakəndə satışına qədər qiymətlər 25-50 dəfə artır.

Qanunsuz, nəzarət edilməyən və nəzərə alınmayan ən böyük problem – balıqçılıqdır. Ümumdünya balıq ovlanması Dünya okeanının, ekosisteminin məhsuldarlığını qat-qat üstələyir. Hal-hazırda dünya balıq ehtiyatının 2/3 hissəsi istismar olunur. Bu problem ətraf mühitin ən ciddi sahəsidir.**(3)**

Sularda balıq ovu birbaşa olaraq bir dövlətin nəzarətində olur və dövlətin bayrağı altında üzən gəmi baliqçılıqla məşğul ola bilər. Ancaq neqativ hallar ondan ibarətdir ki, bir sıra gəmilər bayraqlarını dəyişərək, bir necə ərazi sularında balıqçılıqla məşğul olur. Bunun qarşısını almaq üçün BMT dəniz hüququ haqda 1982-ci ildə Konvensiya tərtib etdi və buna əsasən hər bir gəmi bir bayraq altında üzə bilər.

1980-ci ildə Nəqliyyat fəhlələrinin Beynəlxalq Federasiyası qeyd etdi ki, 11 yaxın dövlətin gəmiləri "rahat bayraq" kimi xarakterizə oluna bilər. 1990-cı ildə bu gəmilərin sayı 27-yə çatdı, təxmini olaraq bu sıraya 1400 yaxın balıq ovu ilə məşğul olan sənaye gəmiləri aid idi.**(4)**

Bu gəmilərin 404 - Belizdə, 393 – Qondurasda, 214 – Panamada, 108 – Sen Visentedə və Qrenadində qeydə alınmışdır. Balıqçılıqda ən çox vəsait qazanan Tayvan kompaniyaları və Avropa Birliyinin dövlətləridirlər. Avropa gəmiçiliyindən isə 116 gəmi İspaniyaya aiddir.

Mavrika və Nambiya BMT 1982-ci il konvensiyasına qoşulmayaraq qanunsuz balıq ovu ilə məşğul olurdu.

Böyük həcmdə qanunsuz, nəzarətsiz və nəzərə alınmayan tunes balıq ovu Atlantik okeanında da rast gəlinir, baxmayaraq ki, 1969-cu ildə Atlantik okeanında tunes balığının qorunması haqda beynəlxalq konvensiya imzalanmışdır.

1980-ci illərin məlumatına görə, eksport ticarəti böyük templərlə irəlləyir və bunun nəticəsində təhlükəli maddələrin məhvi böyük sürətlə davam edir. Belə ki, verilən məlumatlara görə, bu hal ən çox Afrikada baş verir, çünki bu bölgədə təhlükəli maddənin basırılması üçün hər tona 2,5-50,17 ABŞ dolları təklif edilir, digər regionlarda isə bu qiymət qat-qat çoxdur.**(5)**

Misal üçün qeyd etmək lazımdır ki, 1998-ci ildə Tayvan sənaye müəssisəsi "Formoza Plastic Corporation" 3000 tona yaxın civə ilə çirklənmiş külü Sianukvil şəhərinə yandırmaq üçün aparmışdır, ancaq gecə ilə tullantı tarlaya atılmışdır. Vətəndaşlar tullatını anlamayaraq, külü gübrə şəkilində, plastik qabları isə təsərrüfatda işlətməyə başladı. Bunun nəticəsində çoxlu sayda insanlar xəstələndi, 10 000 adam şəhəri tərk etdi, 8 nəfər isə həlak oldu.**(6)**

Bu sırada qeyd etmək lazımdır ki, meşə istehsalı ilə məşğul olan müəssisələrin bir çoxu öz gəlirini qanunsuz, razılaşmamış ərazilərdən meşə ağaclarının emalı nəticəsində artırır. Misal üçün, Kampuçidə 1997-ci il üçün 450 000m^3 ağac emalına icazə verilmişdirsə, faktiki bu emalın həcmi 4 300 000m^3 təşkil etmişdir.

Belə hallara qarşı cərimələrin tətbiqi effektsiz olur. Çünki cərimələr iş adamlarının qarşısını almır, onlar hesab edirlər ki, müəyyən miqdarda pulun ödənilməsi ilə böyük qazanc əldə etmək olar.

Bütün yuxarıda qeyd olunanlar onu göstərir ki, beynəlxalq ekoloji təhlükəsizlik hüququnda beynəlxalq hüquqi məsuliyyət anlamı tam formalaşmayıb. Bu məsuliyyətin formalaşması üçün isə ilk növbədə insanlarda ətraf mühitin qarşısında mənəvi borc yaranmalıdır. Ancaq bu sahə ilə bağlı bir sıra aktlar, normalar və elmi məqalələr yaradılıb.

Koreyanın Çeonqus universitetinin professoru Biunq-Sun Ço "Beynəlxalq ekoloji cinayət hüququnun yaranması" adlı məqaləsində sanksiya nəzərdə tutan ətraf mühitin mühafizəsinə dair beynəlxalq hüquqi aktları dörd növə böldü. Bura beynəlxalq məsuliyyət anlamı da daxil oldu.**(7)**

Birinci növə tərəflərin mütləq ekoloji razılaşmaların pozulması nəticəsində nəzərdə tutulan sanksiyaların tətbiqi nəzərdə tutulur.

Ikinci növə müxtəlif ekoloji razılaşmalarda nəzərdə tutulan sanksiyaların tətbiqi üçün lazım olan qanunvericilik bazasını tərəflər tərəfindən qəbulu nəzərdə tutulur.

Üçüncü növə ekoloji cinayəti törədən tərəfin, dövlətin milli qanunvericliyi ilə nəzərdə tutulan sanksiyası nəzərdə tutulur.

Dördüncü növə isə ekoloji cinayəti törədən tərəflərin birgə qanunvericilik və digər tədbirlərin yerinə yetirilməsi nəzərdə tutulur.

Beynəlxalq ekoloji cinayətin əsas mahiyyəti hər hansısa bir zərərin ödənilməsindən ibarət deyil, bu cür cinayətlərin qarşısını almaqdan ibarətdir.(8)

Beynəlxalq ekoloji qanun pozuntuların qarşısını almaq üçün bəşəriyyət bu işə adekvat cavab verməlidir. Bir sıra mütəxəsislər hesab edirlər ki, bu cinayətlərin qarşısını almaq üçün BMT ordusunun intervensiyası lazımdır.**(9)**

Bir qayda olaraq, cinayət məcəllələri ətraf mühit pozulmasına görə törədilmiş hərəkətləri əhatə edir və bu əməllərə görə ciddi məsuliyyət tədbirləri müəyyən edir. Bir sıra dövlətlərdə cinayət məsuliyyətini təkcə cinayət məcəlləsi deyil, həmçinin təsərrüfat və ekoloji cinayət qanunvericiliyi müəyyən edir. Misal üçün, Polşada cinayət məsuliyyəti təkcə "Ətraf mühitə qarşı cinayət" 22 maddəyə görə yox, həmçinin cinayət xətalarına görə müəyyən olunur. Inzibati məsuliyyət isə Xətalar məcəlləsinə və ekoloji xarakterli xətalara görə müəyyən olunur. Bir sıra dövlətlərdə Avropa Şurasının Ətraf mühitin mühafizəsinə dair qəbul etdiyi konvensiyanın müddəaları, öz milli ekoloji cinayət qanunvericiliyində əksini tapıb. Bir sıra dövlətlərdə isə hüquqi şəxslərə ekoloji cinayətlərə görə məsuliyyət təyin olunub.

Sosial-ekoloji vəziyyətin mürəkkkəbləşməsi, ətraf mühitə yeni zərərli maddələrin yayılması, ekoloji zərərlərin miqyasının artması, cinayət-ekoloji qanunvericiliyin təkmilləşməsini tələb edir. Avropa Şurasının qəbul etdiyi Ətraf mühitə dair Konvensiya bir sıra dövlətlərə də yardımçı oldu. Konvensiyanın hazırlanmasında bir sıra dövlətlərin ekoloji-cinayət sahəsində olan mütəxəssislər iştirak ediblər və onların birgə işinin nəticəsi olaraq, aşağıdakı tövsiyələri veriblər: a) cinayət məsuliyyətinə məruz qalan hərəkətlərin dairəsini genişləndirmək; b) sahibkarlıq, istehsalat və digər fəaliyyətlə məşğul olan hüquqi şəxslərin ekoloji cinayətlərə görə məsuliyyətini ciddiləşdirmək; c) ətraf mühitin mühafizə olunan obyektlərini və ekoloji dəyərlərin mühafizəsini daha effektiv etmək; d) cinayət-hüquqi qadağaların profilaktikası üçün və effektivliyi üçün təhlükəli konstruksiyaların tərkibini öyrənmək lazımdır.

Cinayət məcəlləsində ekoloji cinayətlərə görə məsuliyyətin normaları. Bir sıra dövlətlərdə cinayət məcəlləsinin təkmilləşməsi zamanı və ya yeni qanun hissələrin yaradılmasında ekoloji cinayətlərlə bir yerə yığılıb (RF CK bənd 26, Polşa Resp. CK hissə XXII, İspaniya CK bənd III və IV, bölmə XVI, Almaniyanı CK bölmə 29, Latviyanın CK bənd XI, Belarusiyanın CK hissə IX).

Kriminal və dekriminal hərəkətlər. Qanunvericiliyin təkmilləşməsi zamanı bir sıra dövlətlər ətraf mühitə qarşı mənfi xarakterli hərəkətləri kriminallaşdıraraq ciddiləşdiriblər, ancaq bəzi dövlətlərdə, əksinə, dekriminallaşma prosesi baş verdi. Bir sıra cinayət kodekslərinə ekoloji cinayətlər də daxil oldu. Misal üçün, İspaniyanın Cinayət kodeksinin 325-ci maddəsində təbii sistemlərin tarazlığına zərər vurmağa görə məsuliyyət müəyyən olunur, 333-cü maddəsi isə bioloji pozuntuya gətirə biləcək bitki və heyvanın ətraf mühitə buraxılmasına görə

məsuliyyət təyin etdi. Latviyada isə cinayət kodeksinin 98-ci maddəsi ilə radioaktiv və kimyəvi maddələrin təhlükəsizlik qaydalarını pozaraq dövriyyəsinə görə məsuliyyət təyin olunur, 99-cu maddə ilə isə icazə verilməyən yerlərdə, yer təkində, suda təhlükəli maddələrin basırılmasına görə məsuliyyət müəyyən olunur. Belarusiyanın isə cinayət kodeksinin 265-ci maddəsi ilə ekoloji təhlükəsizliyin tələblərinin pozulmasına görə məsuliyyət təyin olunur.

Hal-hazırda nəzərəçarpaçaq şəkildə cinayət məsuliyyətini təyin edən hərəkətlərin dairəsi genişlənib. Bir sıra mətnlərdə «ətraf mühit», «ekosistem», «populyasiya», «nadir və itməkdə olan bitkinin və heyvanlar» anlamı istifadə olunub. Hal-hazırda isə ətraf mühitə zərər vuran alətlərin siyahısı qeyd olunur, bunlar müxtəlif növdə olan təhlükəli maddələr və tullantılardır və s.

Anlaşma apparatı. Bir qayda olaraq ekoloji cinayət məfhumu, cinayət hüquq mətnində açıqlanmır. Ancaq digər həll yolları da var. Misal üçün, Belarusiya Resp. qanunvericiliyinin 26 bəndinin əvvəlində ekoloji təhlükəsizliyə və ətraf mühitə qarşı cinayətlərin tərifi verilib. Bura bilmədən və ya qəsdən ətraf mühitə, suya, torpağa, yerin təkinə, meşələrə, heyvanlara və bitkilərə, atmosferə qarşı hərəkətlər nəzərdə tutulur.

Almaniyanın cinayət məcəlləsində ekoloji cinayətin tərifi verilməsə də, 330d paraqrafında su mənbələrinin, nüvə-texnoloji qurğuların, təhlükəli maddələrin, inzibati-hüquqi vəzifələrin təyini verilib.

Cinayətlərin konstruktiv tərkibi. Xarici qanunvericilikdə təhlükəli hərəkətlərin tam izahı verilib. Kvalifikasiya olunmuş əlamətlər isə daha müxtəlifdir. Bura həm hərəkətlərin nəticəsi, həm də hansı məqsədlərlə törədildiyi daxildir.

Günah. Əksər cinayət kodekslərində günahların miqdarı və səviyyəsi müəyyən olunur: qəsdən ətraf mühitə qarşı olan cinayətlərin məsuliyyəti çox ciddidir, ancaq diqqətsizlikdən törədilən cinayətlərə qarşı yumşaldıcı hallar var. Polşa qanunvericiliyinə görə, diqqətsizlikdən törədilən ekoloji cinayətlərə görə yalnız cərimə tətbiq olunur.

Sanksiyaların islahatları. Cinayət kodekslərində mövcud olan sanksiyalar müxtəlifidir. Ən sərt sanksiyalar Avstriyada və Almaniyada mövcuddur. Misal üçün, Avstriyanın CK 171 maddəsinə əsasən "Qəsdən nüvə enerjisinin və ionlaşmış şüalanma ilə ətraf mühitə zərər" və (hissə 2) maddə 177a – kütləvi qırğın silahının yayılmasına görə ömürlük həbs cəzası müəyyən olunur. Almaniyanın CK 330 maddəsinə əsasən (suların, bataqlıqların, havanın çirklənməsinə görə, icazə olunmayan təhlükəli maddələrlə davranışa görə, heyvanlara və bitkilərə mənfi təsir göstərən hərəkətlərə görə, insan sağlamlığına mənfi təsir göstərən hərəkətlərə görə) günahkar altı aydan on ilə qədər cəza ilə məsuliyyət daşıyır, bəzi hallarda isə qanun ən azı üç il cəza müəyyənləşdirir. 330a maddəsinə əsasən "Zəhərli maddələrin tullanması ilə ciddi təhlükənin yaranması"na görə bir ildən on ilə qədər həbs cəzası müəyyənləşib. Latviyanın CK əsasən dövlətin ərazisinə gətirilən və ya tranzit şəkildə keçirilən təhlükəli maddələrin nəticəsində ətraf mühitə dəyən ziyana görə 6 il həbs cəzası, meşə yanğınına görə isə 15 il həbs cəzası gözlənilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də ekoloji cinayətlərlə bağlı maddələr mövcuddur. **(10)** Ekoloji cinayətkarlıq və bu cinayətlərlə əlaqədar olan cəzaların tətbiq olunması Azərbaycan respublikasının Cinayət Məcəlləsinin 28-ci fəslində (247-261-ci maddələr) təsbit olunmuşdur. Bu Cinayət Məcəlləsi 1999-cu il 30 dekabr tarixli qanunla təsdiq edilmiş və 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir. Cinayət Məcəlləsinin 247-ci maddəsində - İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozmağa görə 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılması göstərilir. Cinayət Məcəlləsində əsas ekoloji cinayətkarlıq halları kimi – Suyu (su mənbələrini) çirkləndirmə (maddə 250), Atmosferi (havani) çirkləndirmə (maddə 251), Dəniz mühitini çirkləndirmə (maddə 252), Torpaqları korlama (maddə 254), Yerin təkinin qorunması və istifadəsi qay-

dalarını pozma (maddə 255), Qanunsuz ov etmə (maddə 258), Qanunsuz ağac kəsmə (maddə 259), Meşələri məhv etmə və korlama (maddə 260), Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma (maddə 261) maddələri əsas yer tutur. Qanunvericiliyin 248-ci maddəsində Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozmağa görə, cinayətin təhlükəlilik dərəcəsilə əlaqədar müxtəlif cərimələrdən – 8 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəza göstərilmişdir. Cinayət Məcəlləsinin 249-cu maddəsində - Baytarlıq qaydalarına, bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma əməlinə görə müxtəlif dərəcəli cərimələrdən 2 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası göstərilmişdir.

Ümumilikdə belə bir qərara qəlmək olar ki, ekoloji fikirlər cinayət hüququna tam şəkildə daxil olub. Ekoloji cinayətlərlə bağlı müddəalar çox müasirdir, bu, təkcə problemin indiki aktuallığı ilə deyil, həmçinin hüquqi baxımdan yeni texnikaların yaradılması ilə bağlıdır. Ancaq onu da qeyd etmək lazımdır ki, ekoloji cinayətlərlə bağlı olan normalar çox mürrəkkəbdir. Bir alman alimi doğru olaraq qeyd etmişdir ki, ekoloji cinayətlərin normaları mütəxəssislər tərəfindən mütəxəssislər üçün yazılmışdır.

Belə qərara gəlmək olar ki, ekoloji standartların pozulmasına görə hüquq məsuliyyəti ayrı-ayrı dövlətlər üzrə kifayət qədər formalaşmayıb. Bunun isə səbəbi ekoloji qanunvericiliyin tam hazır olmamasıdır. Beynəlxalq münasibətlərdə isə ekoloji hüquq məsuliyyətinin bir sıra çatışmayan cəhətləri var. Belə ki, beynəlxalq münasibətlərdə əsas təsir prinsipi dövlətlərin üzərinə götürdüyü öhdəliyin könüllü yerinə yetirilməsi prinsipidir, buna görə burada əsas problem bu amildən irəli gəlir.

İstifadə olunmuş ədəbiyyat

1. UK Moves to Tackle International Environmental Crime DETR november 14th 1999.
2. Mənbə: http://sci.aha.ru/ATL/ra44c.htm Мартынов А. С., Виноградов В. Г. 1998.
3. FAO. World Review of Fisheries and Aquaculture. Fisheries Resources: Trends in Production, Utilization and Trade. Rome: FAO, 1999.
4. International Confederation of Free Trade Unions and Greenpeace International. Troubled Waters: Fishing, Pollution and FOCs. Major Group Submission for the 1999 CSD Thematic Review: Oceans and Seas. 1999.
5. Hayman Gavin, and Brack Duncan. International Environmental Crime the Nature and Control of Environmental Black Markets Workshop Report. London. Royal Institute of international affairs 2002.
6. Taiwan's Formosa apologises for Cambodia waste. Reuters, 30 December 1998.
7. Byung-Sun Cho. The emergence of international environmental Criminal law? The third generation of international environmental law phase I Irvine conference, 1999.
8. Фисенко И.В. Ответственность государства за международные преступления. 1998.
9. Tinker C. "Environmental security" in the United Nations: Not a Matter for the Security Council//Tenessy Law Review. 1992. vol. 59. P. 793 stat. Нурмухаметова Э.Ф. с.83
10. Azərbavcan Respublikasının Cinayət Məcəlləsi. 30 dekabr 1999-cu il.

Анар МАГЕРРАМОВ,
Дашгын ГАНБЕРОВ

ЮРИДИЧЕСКАЯ ОТВЕТСТВЕННОСТЬ ЗА НАРУШЕНИЯ МЕЖДУНАРОДНЫХ ЭКОЛОГИЧЕСКИХ СТАНДАРТОВ

Резюме

В статье были исследованы экологические стандарты, которые занимают важное место в современном международном праве, отмечена важность их применения, а также исследованы ущербы, нанесенные окружающей среде за нарушения принципов и норм, основанные на эти стандарты, и изучены пути предотвращения этих ущербов. Были показаны конкретные факты нарушений в указанном направлении, и высказаны мнения о сохранении некоторых нерешенных вопросов как окрытой проблемы.

В статье одновременно были отмечены потребность усовершенствования законодательства, связанная с экологическими преступлениями, связи с тем, что социально-экологическая обстановка обостряется, в окружающей среде создаются новые негативные вещества, увеличивается объем экологических ущербов.

Anar MAHARRRAMOV,
Dashgin GAMBAROV

LOW RESPONSIBILITY ACRODING TO DESTROY OF INTERNATIONAL ECOLOGICAL STANDARDS

Summary

Great important ecological standards, the necessary of the researches of them the line to this standards principe and constantan to the environment and safety way of the constant in the result of this norms in the article in the international low. In the signed directly which happened some destroys were showed with concretely facts, solve of some problems in opened, this was stressed still. It is pointed in the article, the differing of the social-ecological position, making of new negative members to the environment, added of the scale of the ecological constant lowness provided of crimes.

Qabil ZAMANOV
Polis Akademiyasının rəis müavini, AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitunun dissertantı, polis polkovniki

BEYNƏLXALQ CINAYƏTLƏRLƏ (SÜLH VƏ INSANLIQ ƏLEYHINƏ OLAN CINAYƏTLƏRLƏ) MÜBARIZƏDƏ BEYNƏLXALQ HÜQUQI ƏMƏKDAŞLIQ*

Dövlətlər arasında əlaqələrin genişlənməsi, Avropa və bütün dünyada inteqrasiya prosesləri, ölkə və xalqların qarşılıqlı əlaqələrinin və qarşılıqlı asılılığının artması, beynəlxalq münasibətlərdə əhəmiyyətli dəyişiklərə səbəb olmuşdur.

Beynəlxalq cinayətlərlə mübarizədə beynəlxalq əməkdaşlıq möhkəm hüquqi əsasda qurulmalıdır. Uyğun təşkilati- hüquqi təminat – bu cür əməkdaşlığın effektliliyinin əsas yönəldicilərindən biridir.

Yalnız beynəlxalq əməkdaşlıq beynəlxalq cinayətlərin yayılmasının və qarşısının alınmasında effektiv qarşıdurmaya imkan verər.

Beynəlxalq cinayətlərin qarşısının alınması və onun artım səviyyəsinin azaldılması məqsədi ilə dövlətlər və onların uyğun idarələri tərəfindən edilən elmi–nəzəri tədqiqatlar, praktiki addımlar, birgə səyləri tənzimləməyə gətirən ümumi hüquqi mexanizmlərin yaradılmasına çalışmaq müasir reallığın nümunəsidir.

Beynəlxalq cinayətlərlə mübarizə sahəsində dövlətlər tərəfindən aparılan birgə səylərin keyfiyyətinin nəticəsi bir çox faktorlardan asılıdır. Əsas onu qeyd etmək lazımdır ki, dövlətlərin bu sahədə qarşılıqlı münasibətlərinin və əməkdaşlığların əsasını beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri təşkil edir, bunlar da beynəlxalq cinayətlərlə mübarizə sahəsində dövlətlərin bərabərliyinin və maraqlarının ümumiliyini təşkil edir.

Beynəlxalq cinayətlərlə mübarizədə dövlətlərin əməkdaşlığının hüquqi formalarının hərtərəfli tədqiqi vacib nəzəri və praktiki əhəmiyyətə malikdir.

Beynəlxalq cinayətlərlə mübarizədə beynəlxalq təşkilatların rolunun artması – dövlətlərin bu sahədə əməkdaşlığının inkişafının vacib istiqamətidir.

Beynəlxalq cinayətlərlə səmərəli mübarizə üçün dövlətlərin ümumi iştirakı əsasında çoxtərəfli sazişlər sisteminin yaradılması zəruridir.

AR-in xarici dövlətlərlə, beynəlxalq cinayətlərə qarşı mübarizədə əməkdaşlığının daha da möhkəmləndirilməsi və inkişafı istiqamətində bir sıra işlər görülmüşdür və görülür.

Hər bir dövlət öz vətəndaşlarını beynəlxalq cinayətlərin törədilməsinə görə məsuliyyətə cəlb edə bilər və etməlidir.

Bu cinayətlərin xəbərdar edilməsi və qarşısının alınması məqsədi ilə dövlətlər bir–biri ilə əməkdaşlıq etmək və bu məqsədlə daxili və beynəlxalq tədbirlər görülməsi barədə öhdəlik götürürlər (xüsusi istintaq və məhkəmə orqanlarının fəaliyyəti və bu cinayətlərin qarşısının alınması və xəbərdar edilməsi barədə əməkdaşlıq haqqında beynəlxalq müqavilələrin bağlanması).

Dövlətlər bir-birinə bu cür cinayətlərin törədilməsində şübhəli bilinən şəxslərin tapılmasında, həbsində və məhkəməyə cəlb olunmasında və onlar cinayətkar kimi tanındıqda cəzalandırılmasında köməklik göstərməlidirlər.

Dövlətlər beynəlxalq cinayətlər törətmiş şəxslərin bir – birinə təhvil verilməsində əməkdaşlıq etməyə öhdəlik götürürlər və bir qayda olaraq, onları cinayət törətdikləri ölkəyə təhvil verilirlər.

---

* Məqalə hüquq elmləri doktoru B.Zahidov tərəfindən çapa məsləhət bilinib.

Dövlətlər baxılan kateqoriyalı cinayət işlərində cinayətkarların məhkəmə məsuliyyətinə cəlb olunması məqsədi ilə informasiya mübadiləsinin toplanması və istintaq materiallarının bir-birinə ötürülməsi sahəsində əməkdaşlıq etməlidirlər.

Dövlətlərə hərbi cinayətkarlara siyasi və ərazi sığınacağı vermək qadağan olunmuşdur.

Dövlətlər bu cinayətlərə mübarizədə üzərlərinə götürdükləri beynəlxalq öhdəliklərlə ziddiyyət təşkil edən qanunvericilik aktları və ya digər tədbirlər qəbul edə bilməzlər.

Bu cinayət əməllərində təqsirkar şəxslərin tapılması, həbsə verilməsi və cəzalandırılması məqsədi ilə dövlətlərin əməkdaşlığı BMT Nizamnaməsi əsasında həyata keçirilməlidir [1, s.138].

P.M. Kurisin fikrinə görə, «insanlığa qarşı cinayət adlandırılan xüsusi ictimai təhlükəli əməllər elə bir özünəməxsus hüquqi vəziyyətin əmələ gəlməsinə gətirmişdir ki, eyni bir faktiki hərəkət həm dövlətin beynəlxalq cinayəti qismində beynəlxalq hüquqi məsuliyyətini yaradır, həm də göstərilən cinayətləri təşkil etmiş və həyata keç irmiş fiziki şəxslər insanlığa qarşı cinayəti qismində cinayət məsuliyyətinə gətirir» [2, s.188].

Tədqşiqatçı İ.A. Uşakovun fikirinə görə, «fərdin heç bir xüsusi beynəlxalq (beynəlxalq - hüquqi) məsuliyyəti yoxdur və aydındır ki, ola da bilməz». Fərdlər baxılan əməllərə istinadən töərtdikləri cinayətlərə görə məsuliyyət daşımırlar, daşıyırlar və aydındır ki, daşıyacaqlar. Məsələn, cinayət işlərinə görə heç bir «xüsusi növ cinayət məsuliyyəti» yoxdur, belə ki, milli sistemlərin cinayət hüququnda cinayət məsuliyyətinin kifayət qədər formaları var [3, s.71].

Müəllif hesab edir ki, beynəlxalq cinayət anlayışı ümumiləşmiş xarakter daşıyır və konkretləşməyə ehtiyac var və doğrudan da fərd qüvvədə olan Milli cinayət hüququna uyğun olaraq törətdiyi beynəlxalq cinayət əməllərinə görə məsuliyyət daşımalıdır.

Konkret dövlətin cinayətkar əməlləri ilə birbaşa əlaqələri olmayan beynəlxalq xarakterli cinayətlər eyni zamanda beynəlxalq və milli hüquq qaydalarına, iqtisadi, mədəni, ticarət, eyni zamanda insan hüquqları və azadlıqları sahəsində, hüquqi şəxslərin maraqlarının gözlənilməsinə toxunurlar və bir çox ölkələr üçün ictimai təhlükə yaradırlar. Bu cür cinayətlərlə mübarizə, onların qarşısının alınması bir ölkə miqyasında müsbət nəticəyə gəlmir və müxtəlif dövlətlərin fəaliyyətlərinin uzlaşdırmasını tələb edir.

Regional və qlobal əməkdaşlığa bir–birini tamamlayan strategiyalar qismində baxmaq olar. Belə yaxınlaşma yaxşı təsir göstərir, xüsusilə o hallarda ki, birgə əməliyyatların nəticələri milli səviyyədə hiss olunur və dövlətləri beynəlxalq səviyyədə qəbul edilmiş öhədliklərə uyğun olaraq daxili hüququn işlənməsinə həvəsləndirir.

Belə proses planlı xarakter daşıyır və əməkdaşlığın norma, mexanizminin dəqiq möhkəmləndirilməsini nəzərdə tutur. Son məqsəd heç də istisna edilmir, lakin anlaşılır ki, onun əldə edilməsi üçün çox vaxt və qüvvə lazımdır. İkitərəfli yanaşmanın tərəfdarları hesab edirlər ki, uyğun problemlərlə toqquşan və bu problemləri həll etməyə hazır olan iki ölkənin maraqlarının üst – üstə düşməsi əməkdaşlığın inkişafı üçün ən yaxşı əsasdır. Səmərəlilik kifayət qədər dövlətlərin iradəsindən asılıdır və bu o zaman ən yaxşı şəkildə müəyyən olmur ki, ayrı-ayrı dövlətlər ümumi məqsədlərə çatmaq üçün fəal və sabit əməkdaşlığı artırırlar.

Bu zaman qarşılıqlı yardım və verilmə haqqında fəaliyyətdə olan ikitərəfli müqavilələr, həmçinin köməkliyin müxtəlif digər formaları daha yüksək səviyyəli əməkdaşlıq üçün model təmin edə bilər.

Problem qlobal xarakter daşıdığından, beynəlxalq əməkdaşlığa kompleks yanaşma ondan ibarətdir ki, miqyasına görə geniş , formasına görə çoxtərəfli, əhatə dairəsinə görə qlobal fəaliyyət göstərilsin. Vəziyyətin nizamlanma zərurəti qəbul olunur, çünki əks halda bu kifayət qədər nizamsız qlobal, regional və ikitərəfli mexanizmlərin yığımından ibarət ola bilər. Çoxtərəfli yanaşmaların tətbiqi yaranmış vəziyyəti düzəltməyə imkan verərdi, əməkdaşlıq

tədricən, hər hansı ümumi strategiyasız inkişaf edərdi, lakin müasir mərhələdə proses planlaşdırma və tənzimlənmənin olmasını tələb edir.

Dövlətlər öz səylərini birləşdirməli, daha sonra isə öz fəaliyyətlərini göstərməli və konvensiyaya uyğun olaraq öz öhdəliklərini yerinə yetirmə lidirlər.

Dövlətlərarası əməkdaşlığın inkişafı gedişində kifayət qədər tez aydın oldu ki, yalnız əməkdaşlıqda ikitərəfli və regional sazişlərlə məhdudlaşmaq olmaz. Aydın oldu ki, cinayətkarlığın beynəlxalq cinayətlərin bütün növləri bütün dünya ictimayətinin maraqlarına toxunur, bu da dövlətlərin bu sahədə əməkdaşlığının universal səviyyəyə çıxması üçün şərait yaratmışdır.

Çoxtərəfli müqavilələrin bağlanma prosesi başladı və əgər Millətlər Liqası vaxtlarında bu prosesdə tək-tək dövlət iştirak edirdisə, BMT fəaliyyəti zamanı onların sayı onlarladır.

Tədqiqatçı L.N.Qalenskayanın fikrinə görə, beynəlxalq cinayətkarlıqla mübarizə kimi spesifik sahədə beynəlaxlq əməkdaşlıq hər şeydən əvvəl, dövlətlərin suverenliyinə hörmət, onların daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməklə, ümumiyyətlə beynəlxalq hüququn ümumtanınmış prinsiplərini dəqiq və sözsüz gözlənilməsi ilə həyata keçirilməlidir. Tədqiqatçı həmçinin, cinayətkarlıqla mübarizədə dövlətlərin əməkdaşlığının xüsusi prinsiplərini də ayırır: məsuliyyətin qaçılmaz olduğu; humanizm; dövlətin öz vətəndaşlarının xaricdə hüquqlarının müdafiəsi, siyasi xarakterli cinayət işləri üzrə köməklik göstərilməsini də irəli sürür [4, s.24].

Sülh və insanlıq əlehinə cinayətlər törətmiş şəxslərin effektiv beynəlxalq cinayət təqibi II Dünya müharibəsindən sonra 8 avqust 1945-ci ildə Londonda Böyük Britaniya, SSRİ, ABŞ və Fransa arasında "Avropa ölkələrinin əsas hərbi cinayətkarlarının məhkəmə təqibi haqqında" imzalanmış razılaşmanın nəticəsində başladı [5, s.44].

Bu razılaşmaya əsasən sülh və insanlıq əlehinə cinayətlər törətməkdə təqsirli bilinən şəxslərin cəzalandırılması ideyasının öz əksini tapdığı bir çox sənədlər qəbul olundu.

Razılaşmanın özü və Nürnberq Tribunalının Nizmnaməsi isə müəyyən coğrafi regionla bağlı olmayan cinayətlər törətmiş ciddi hərbi cinayətkarların məsuliyyəti məsələsinin həll edilməsi üçün yaradılmış London beynəlxalq komissiyasının fəaliyyətinin nəticəsi idi.

Onu da, qeyd etmək lazımdır ki, Alamniyanın məğlubiyyəti və Almaniyaya münasibətdə yüksək hakimiyyəti SSRİ, Böyük Britaniya, ABŞ və Fransanın hakimiyyəti ələ keçirməsi haqqında Bəyannaməyə əsasən Almaniya və onun müttəfiqlərinin hərbi cinayətləri törətmələri, onun törədilməsinə təşviq etməyə və birbaşa olaraq cinayətkar əməllərin həyata keçirilməsi üçün əmrlərin verilməsinə münasibətdə müttəfiqlərin nümayəndəsi kimi qəbul edilən şəxslərin əsas nasist liderlərini yaxalayıb təhvil verməli idi.

Nizamnaməsinə əsasən Nürnberq tribunalı London müqaviləsini imzalamış üzv dövlətlər tərəfindən bilavasitə olaraq təyin edilmiş üzv və onların müavinlərindən ibarət idi.

Nə bütövlükdə Tribunal, nə onun ayrı-ayrı üzvləri, nə də onların müavinləri ittihamçı, təqsirləndirilən və ya müdafiəçilər tərəfindən rədd edilə bilməzdilər. Onalar yalnız təyin edən üzv dövlətlərin öz qərarları ilə dəyişdirilə və ya ləğv edilə bilərdi.

Tribunalın üzvləri məhkəmə prosesinə növbə ilə sədrlik edirdilər. Tribunalın qərarları səs çoxluğu ilə qəbul olunurdu, səslər bölünərkən isə sədrlik edənin səsi həlledici olurdu (təqsirin etiraf edilməsi və cəzanın zəruriliyinin müəyyən edildiyi halda isə səs çoxluğu tələb olunurdu və Tribunalın ən az üç üzvünün səsi gərəkli idi).

Qeyd olunduğu kimi, tribunal 2 noyabr 1943-cü il tarixli Moskva Bəyannaməsinə əsasən göstərilən "yalnız müəyyən coğrafi regiona, ayrı-ayrı fiziki şəxslərə və ya bir qrup şəxsə qarşı deyil, bütün azadlıqsevər xalqlara və millətlərə, eləcə də bütün bəşəriyyətə" qarşı yönəlmiş

cinayətləri ən təhlükəli cinayətləri törətmiş ən mühüm hərbi cinayətkarlara qarşı təsis edilmişdi [6, s.121].

Materialların hazırlanması və ittihamın irəli sürülməsi, başlıca ittihamçı qismində London razılaşmasını imzalamış dörd dövlətin nümayəndələrinin daxil olduğu, əsas hərbi cinayətkarların işlərinin araşdırılması və ittihamı üzrə Komitənin üzərinə qoyulmuşdu.

Tribunalın fəaliyyətinin prosessual tərəfini müəyyən edən sənəd, məhkəmə heyəti, ittihamçı, vəkil və təqsirləndirilən şəxslərin etməli olduqları qaydalar toplusunu özündə əks etdirən reqlament idi.

Onu da qeyd etmək zəruridir ki, Nürnberq tribunalının Nizamnaməsinin və Reqlamentinin özündə həm anqlo-sakson, həm də kontinental hüquq sisteminin əlamətləri var idi.

Belə ki, Tribunal hakimlərin prosesdə aktiv iştirakı və işə baxması (kontinental hüquq sistemi) prinsipinə əsaslanır və eyni zamanda çarpaz dindirmə imkanını (anqlo-sakson hüquq sistemi) yaradırdı.

Tribunal eyni zamanda anqlo-sakson hüquq sisteminə əsasən cinayətin törədilməsinə görə təşkilatların məsuliyyəti prinsipini də qəbul etdi. Məhkəmə iclasının qaydaları Nizamnaməyə görə aşağıdakı kimi müəyyən edildi:

- ittiham aktının elan edilməsi;
- təqsirləndirilən şəxslərdən, onların özlərini bu əməldə təqsirli bilib-bilməmələrini soruşulması;
- ittihamçı tərəfin giriş nitqi;
- ifadə verən istənilən şahid və ya təqsirləndirilən şəxslə bağlı ittihamedici və ya müdafiəedici çarpaz dindirmənin aparılması;
- müdafiəçinin nitqi;
- təqsirləndirilən şəxsin son sözü;
- hökmün oxunması.

Hökm qəti olurdu və müzakirə obyekti ola bilməzdi.

1945-ci ilin 20 Noyabrından 1946-cı ilin 1 Oktyabrınadək davam edən Nürnberq Tribunalı 24 mühüm alman hərbi cinayətkarına qarşı qaldırılmış iddiaya baxdı. Ümumilikdə 403 açıq məhkəmə prosesi keçirildi, 3000-dən çox sənədə baxıldı və 200-ə qədər şahid dinlənildi.

Tribunal 12 mühüm hərbi cinayətkarı ölüm cəzasına, 3-ünü ömürlük həbs, 4-ünüisə 10 ildən 20 ilədək azadlıqdan məhrumetmə cəzasına məhkum etdi.

Bununla yanaşı, ittiham aktında Nasist Almaniyasının bir sıra təşkilatlarının cinayətkar kimi tanınması tələbi də var idi. Tribunal öz hökmündə bu cinayətkar təşkilatlar sırasında aşağıdakıları sadaladı: Faşist partiyasının müdafiə qüvvələri (SS), Təhlükəsizlik Xidməti (SD), Dövlət Gizli Polisini (Gestapo) və Nasist partiyasının rəhbər tərkibini.

Nürnberq hərbi tribunalının işi bu cür tamamlandı [7, s.586].

Onu da qeyd etməliyik ki, Nürnberq Tribunalını xarakterizə edərkən bəzən bəzi hüquqşünaslar ondan, daim məğlub olanlar üzərində qalib gələnlərin prosesi kimi qeyd edirlər. Eyni zamanda onu da vurğulamaq lazımdır ki, nə sovet hüquq ədəbiyyatlarında, nə də hal-hazırki rus hüquq ədəbiyyatlarında bu məhkəmənin əldə etdiyi nəticələr elə də ciddi qiymətləndirilməsi tendensiyası müşahidə edilməyib.

Həqiqətən də, Nürnberq Tribunalı beynəlxalq hüquq normalarının müdafiəsi baxımından çıxış edirdi. Ancaq, artıq adından da göründüyü kimi ("faşist dövlətlərinin" mühüm hərbi cinayətkarlarının cinayət təqibi üzrə tribunal) o, antihitler koalisiyasına daxil olan dövlətlər tərəfindən törədilmiş cinayətlərə hüquqi qiymət verilməsi üçün nəzərdə tutulmamışdı (lakin, açıq aydın idi ki, onların da cinayətləri var idi). Bununla belə yaddan çıxarmaq lazım deyil ki, Tribunalın Nizamnaməsində möhkəmlənmiş və öz əksini onun hökmündə tapmış prinsiplər

beynəlxalq birlik tərəfindən beynəlxalq hüququn ümumtanınmış prinsipləri kimi təsdiq edildi(BMT Təhlükəsizlik Şurasının 11 dekabr 1946-cı il tarixli 095(1) saylı qətnaməsi). Bura aşağıdakı prinsiplər aid edilirdi :

a) beynəlxalq – cinayət törətmiş şəxs həmin cinayətə görə məsuliyyət daşıyır və cəzalandırılmağa məhkumdur;

b) beynəlxalq cinayətlərə görə daxili hüquqda cəza nəzərdə tutulmadığı hallarda, bu cinayət törətmiş şəxsi beynəlxalq hüquqa görə cinayət məsuliyyətindən azad etmir;

c) beynəlxalq cinayəti törətmiş hər hansı bir şəxsin dövlət başçısı və ya hökumətin məsul vəzifəli şəxsi olması vəziyyəti belə şəxsi beynəlxalq hüquqa görə cinayət məsuliyyəti daşımaqdan azad etmir

d) hər hansı bir şəxsin öz hökumətinin və ya rəisinin əmrini yerinə yetirərərək beynəlxalq cinayəti törətməsi halı, əgər onun faktiki şüurlu seçim imkanı olubsa, onu beynəlxalq hüquqa görə cinayət məsuliyyətindən azad etmir;

e) beynəlxalq cinayətdə təqsirləndirilən hər bir şəxs işə faktlar və hüquq əsasında ədalətli baxılması hüququna malikdir;

f) beynəlxalq cinayətlər sülh və insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər kimi təsnif olunur;

g) sülh və insanlıq əleyhinə cinayətlərdə və hərbi cinayətlərdə birgə iştirak beynəlxalq cinayət kimi cəzalandırılır.

Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan prinsiplərin təsdiq olunmasında 3 may 1946-cı il tarixdən 12 noyabr 1948-ci il tarixədək Tokioda Uzaq Şərq üzrə hərbi Tribunalda əsas yapon hərbi cinayətkarları üzərində məhkəmə prosesi az rol oynamadı. Yapon hərbi cinayətkarları üzərində qeyd-şərtsiz təslim olmanın şərtlərindən biri kimi hərbi canilərin cəzalandırılması haqqında məhkəmənin tələbi hələ Podstam konfransının və 1945-ci il Moskva məsləhətləşmələrinin qərarlarında nəzərdə tutulmuşdu [8].

Uzaq Şərq üzrə Beynəlxalq hərbi Tribunalın Nizamnaməsi Böyük Britaniya, SSRİ, ABŞ, Çin, Fransa, Avstraliya, Kanada, Hollandiya və Yeni Zellandiya hökumətləri arasındakı razılaşmaya əsasən 19 yanvar 1946-cı il tarixdə müttəfiq dövlətlərin Baş komandanı tərəfindən təsdiq olundu və həmin dövlətlərin nümayəndələrindən təşkil olundu [9].

- возбуждать уголовные дела; обеспечивать соблюдение правительственными органами и службами прав, гарантированных Конституцией, назначать гражданское расследование и подавать публичные гражданские иски для защиты государственной и общественной собственности, окружающей среды и других индивидуальных и коллективных интересов;

- возбуждать дела по признанию неконституционности и процессы с целью вмешательства Республики или штатов в случаях, установленных в Конституции;

- защищать в суде права и интересы индейского населения; осуществлять внешний контроль за полицейской деятельностью;

- требовать проведения следствия и начала полицейского расследования. При этом прокуратуре запрещается юридически представлять и консультировать государственные органы [3, с.13].

Прокуратура в *Англии* была учреждена только 1879 г. в составе «Директора публичного преследования» и его шести помощников. Отрицательное отношение к учреждению государственной прокуратуры, не покидавшее английские правящие круги на протяжении целых столетий, во многом объясняется особенностями английских традиций, коренящихся в широко развитой системе управления и преобладающем во всей английской жизни, в правах и быту, принципе частной, индивидуальной инициативы над инициативой государственных органов [2, с.514-515].

В соответствии со ст. 2 Конституции *США* Президент назначает Генерального атторнея (прокурора) «по совету и согласию» Сената. Атторнейская служба действует как служба обвинения, управомоченная именем государства возбуждать уголовные дела, расследовать нарушения закона, привлекать правонарушителей к уголовной ответственности, поддерживать обвинение в судах. Атторнейская служба – типичный для США институт государственной власти, не имеющий точного аналога в правовых системах других стран. Полномочия этой службы по уголовному преследованию

аналогичны функциям прокуратур других государств, поэтому в литературе ее обычно называют «прокуратурой», а самих атторнеев «прокурорами» [2, с.515].

Прокурор всегда играл важнейшую роль в вынесении приговора. Эта роль стала еще более значимой после принятия в 1984 г. Акта о реформировании системы назначения приговора, плодом которого стали федеральные инструкции по назначению приговора. Одной из целей инструкций было ограничение усмотрения судьи в вынесении приговора. Это привело к расширению усмотрения прокурора в том, что касается вердиктов обвинения и принуждения граждан к сотрудничеству [2, с.517].

Кроме того, в современном мире наблюдается значительное разнообразие моделей организации и деятельности прокуратуры и аналогичных ей органов. Достаточно отметить, что в США, Эстонии, Киргизии прокуратура относится к исполнительной власти; в Испании, Болгарии, Латвии, Грузии – к судебной; во Франции, Италии, Румынии она занимает промежуточное положение между исполнительной и судебной властью, в России и в ряде бывших социалистических стран вообще не принадлежит ни к одной из ветвей власти [2, с.505-506].

Функциональные модели прокуратуры, закрепляемые в конституциях и законах, цели организации и деятельности прокуратуры дают уже в определенной мере представление о реализуемых ею функциях. Они представляют собой основные виды и направления деятельности прокуратуры, осуществляемые с использованием специифических форм и методов в рамках точно очерченных полномочий (компетенций). Перечень функций прокуратуры в высокой степени зависит от социальных и правовых условий развития общества и государства, а также выбранных в них приоритетов дальнейшего социального и правового развития той или иной страны [2, с.508].

Таким образом, в современном мире нет единой модели прокуратуры, определенной системы уголовного судопроизводства, определенного типа уголовного процесса или определенной системы правоохранительных органов. Нет единообразия и выполняемых прокуратурой задачах и функциях.

Поэтому, одним из приоритетных направлений правовой реформы в нашей стране является обеспечение провозглашенной в Конституции РК независимости всей судебной системы [6, с.172].

Для решения этой задачи главным результатом применения Республикой Казахстан международных стандартов в деятельности органов прокуратуры, на наш взгляд, должны стать законность, справедливость и объективность выносимых судебных решений.

Список использованной литературы

1 Назарбаев Н.А. Казахстан на пути ускоренной экономической, социальной и политической модернизации. Астана: Елорда, 2005, с.30.

2 *Бессарабов В.Г.* Прокурорский надзор: учеб. М., Изд-во «Проспект», 2007, с.510-515.

3 Правовые системы стран мира. Энциклопедический справочник. Отв.ред. – д.ю.н., проф. Я.А. Сухарев. – 2-е изд., изм. и доп. – М.: Издательство «НОРМА» (Издательская группа НОРМА-ИНФРА М), 2001, с.12.

4 *К. Граальманн-Шеерер.* «Задачи прокуратуры по делам, связанным с арестом, по немецкому уголовно-процессуальному праву» //«Предупреждение преступности» Юридический журнал. № 1 (7). 2004, с.82.

5 *Н.Н. Смирнов.* Конституционное право зарубежных стран. Санкт-Петербург, 2000,с.65.

6 *Алиев М.М.* Суд и правоохранительные органы Республики Казахстан: Учебное пособие. Алматы: Жеті жарғы, 2003, с.172.

Mirbəşir ƏLİYEV
Yəhya ƏLİYEV

AVROPA ÖLKƏLƏRİNDƏ VƏ ABŞ-DA PROKURORLUQ FƏALİYYƏTİNİN KONSTİTUSİYA-HÜQUQİ ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə Avropa və ABŞ-ın prokurorluq orqanlarının fəaliyyətinin konstitusiya-hüquqi əsaslarının müqayisəli təhlili verilib. Məqalə müəllifləri göstərirlər ki, müasir dünyada prokurorluğun vahid modeli, cinayət məhkəmə icraatının və yaxud hüquq-mühafizə orqanlarının müəyyən sistemi yoxdur. Müəlliflərin fikrincə Qazaxıstanda hüquqi islahatların prioritet istiqamətlərindən biri ölkənin Konstitusiyasında təsbit edilmiş məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsidir.

Mirbashir ALIYEV
Yahiya ALIYEV

CONSTITUTIONAL AND LEGAL FOUNDATION OF THE BODIES OF THE PUBLIC PROSECUTOR OFFICE IN THE COUNTRIES OF EUROPE AND USA

Summary

This article presents a comparative analysis of the constitutional and legal foundations of the activites of procuracy agencies in Western European countries and the USA. The author of the article points out that in the contemporary world there is no unique pattern of procuracy or certain system of criminal judicial proceeding, or law defending organizations or certain type of criminal at-trial. To the authors mind one of the priorities of the legal reform in the Republic of Kazakhstan is to ensure the independence of the whole court system proclaimed in the Constitution of the country.

Şəfahət İMRANOV
AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı

CİNAYƏT TƏQİBİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ CİNAYƏT PROSESİNİN PRİNSİPLƏRİNİN ƏHƏMİYYƏTİ*

Son illərdə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının nəticəsində cinayət prosesinin prinsipləri öz mahiyyətini xeyli dəyişdirmişdir. Həmin dəyişikliklər təkcə cinayət prosesinin yeni prinsiplərinin meydana gəlməsində deyil, əvvəllər mövcud olmuş prinsiplərin məzmununun yeni tələblər səviyyəsinə çatdırılmasında da təzahür etmişdir. Məhz bunun nəticəsidir ki, hal-hazırda ölkəmizin cinayət-prosessual qanunvericiliyində nəinki cinayət mühakimə icraatının vəzifələrini müvəffəqiyyətlə həll etməyə imkan verən, həm də insan hüquq və azadlıqlarının müasir beynəlxalq standartlar səviyyəsində təminatlı müdafiəsinə şərait yaradan prosessual prinsiplər kompleksi təsbit olunmuşdur. Bu prinsiplərə dönmədən riayət edilməsi cinayət təqibi üzrə fəaliyyəti həyata keçirən orqanların başlıca vəzifələrindən biridir.

Cinayət-prosessual hüquq üzrə elmi ədəbiyyatda cinayət prosesinin prinsiplərinə müxtəlif anlayışlar verilir. Lakin prinsiplərin mahiyyətinə yanaşmada belə bir vahid fikir mövcuddur ki, cinayət prosesinin prinsipi dedikdə, cinayət mühakimə icraatının əsas, ən ümumi və rəhbər başlanğıcları başa düşülməlidir (10, s.27).

Cinayət proessinin prinsipləri ilə bağlı M.Ə.Cəfərquliyevin «Azərbaycan Respublikasının Cinayət Prosesi» dərsliyində çox maraqlı mülahizələr özünə yer alımşdır. O, çox düzgün olaraq qeyd etmişdir ki, cinayət prosesinin prinsipləri cinayət prosesinin demokratik təbiətini və xarakterini, habelə onun vəzifələrini müəyyən edən hüquq normalarında möhkəmləndirilmiş əsas rəhbər müddəalar olmaqla cinayət-prosessual hüququn bütün sistemini, onun institutlarını, habelə istintaq, prokurorluq və məhkəmə orqanlarının fəaliyyətinin siyasi və prosessual istiqamtələrini müəyən edir (1, s.113). Bu fikirlə tam razılaşmaq olar, çünki M.Ə.Cəfərquliyev cinayət prosesinin prinsiplərinin mahiyyətini tam açmağa müvəffəq olmuşdur.

Qeyd etmək lazımdır ki, cinayət prosesinin prinsipləri məzmunca obyektiv xarakter daşıyır, çünki onlar cinayət mühakimə icraatı sahəsində ictimai inkişafın obyektiv qanunauyğunluqlarını əks etdirir və bununla əlaqədar xalqın obyektivləşdirilmiş iradəsini ifadə edir. Lakin həmin prinsiplər formaca subyektivdir, çünki mövcud ictimai münasibətlərin inkişaf səviyyəsini nəzərə alan qanunverici orqanın şüurlu-iradəvi fəaliyyətinin — qanunvericilik fəaliyyətinin məhsuludur (9, s.40).

Sovet hüquq ədəbiyyatında cinayət prosesinin prinsiplərinə sovet cinayət prosesinin sosialist mahiyyətini, onun əsas əlamət və xüsusiyyətlərini əks etdirən rəhbər müddəalar kimi baxış mövcud idi (6, s.124).

Lakin cinayət prosesinin prinsiplərinə müasir yanaşma onların normativ- hüquqi xarakterini, dövlət fəaliyyətinin mühüm bir sahəsi olan cinayət mühakimə icraatında ümumməcburi və dövlət-hakimiyyət xarakterli olmasını ön plana çəkir.

Cinayət prosesinin prinsiplərinin ümumməcburi xarakteri onda ifadə olunmuşdur ki, cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsi-

* Məqalə hüquq elmləri doktoru, professor M.Cəfərquliyev tərəfindən çapa məsləhət bilinib.

nin olmaması qənaətinə gəlməyə səbəb ola bilər. Cinayət təqibi üzrə fəaliyyəti həyata keçirən orqanlar cinayət prosesinin prinsiplərinə hökmən riayət etməlidirlər.

Cinayət prosesinin normativ-hüquqi xarakteri onların müxtəlif hüquq normaları şəklində qanunvericilikdə təsbit olunmasında ifadə olunmuşdur. Bəzi müəlliflərin qeyd etdiyi kimi cinayət prosesinin prinsiplərinin normativ xarakterini inkar etmək (3, s.137) səhv mülahizədir və mahiyyətcə hüquqi münasibətlərin qeyri-normativ vasitələrlə tənzimlənməsi demək olardı.

Cinayət mühakimə icraatının həyata keçirilməsi öz məzmununa görə müxtəlif xarakterli normalarla tənzim olunur. Həmin normalardan bir çoxu cinayət prosesinin yalnız ayrı-ayrı məsələlərini (məsələn, sübutlara qoyulan tələbləri) və ayrı-ayrı prosessual hərəkətləri, yaxud cinayət prosesinin müxtəlif mərhələlərini tənzim edir. Həmin normalardan fərqli olaraq, cinayət prosesinin prinsipləri bütövlükdə cinayət mühakimə icraatına aid tələbləri əks etdirir və ona görə də bu fəaliyyətin rəhbər başlanğıcları hesab edilir. Bu mülahizədən çıxış edən bəzi müəlliflər düzgün olaraq qeyd edirlər ki, cinayət prosesinin prinsipləri bir sıra cinayət-prosessual normaların üstünlüyünü müəyyən edir və onların vasitəsi ilə subyektlərin davranışını tənzim edir (11, s.61).

Cinayət-prosessual hüquq ədəbiyyatında cinayət prosesinin prinsiplərinin sayı və dairəsi barədə məsələ də birmənalı deyildir. Ayrı-ayrı müəlliflər müxtəlif sayda prinsiplərin mövcud olduğunu qeyd edirlər (7, s. 58-70). Cinayət-prosessual qanunvericiliyin özündə də cinayət prosesinin prinsipləri dəqiq sadalanmır. Azərbaycan Respublikası CPM-nin «Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri» adlanan II fəsli cinayət prosesinin prinsiplərini və şərtlərini qarışıq vermişdir. Həmin fəslin təhlili zamanı hətta hansı normaların prinsiplər, hansıların isə şərtlər olduğunu müəyyən etmək çətindir. Lakin cinayət-prosessual hüquq üzrə elmi ədəbiyyatda geniş yayılmış fikirləri və cinayət-prosessual qanunvericiliyi rəhbər tutaraq, Azərbaycan Respublikası CPM-nin 9—36-cı maddələrində təsbit olunmuş bütün normaları cinayət prosesinin prinsipləri sırasına aid etmək olar. Cinayət mühakimə icraatının prinsiplərinin dairəsinin belə geniş müəyyən edilməsini iki səbəbdən əsaslı hesab etmək olar.

Həmin prinsiplərin bir çoxu ölkəmizin cinayət-prosessual qanunvericiliyi üçün yeni olsa da, onların əksəriyyəti çoxdan məlumdur. Lakin cinayət prosesinin əvvəllər mövcud olmuş prinsipləri də məzmunca xeyli yeniləşmişdir. Cinayət mühakimə icraatının prinsipləri cinayət təqibi üzrə fəaliyyəti həyata keçirən orqanların fəaliyyətində rəhbər başlanğıc rolunu oynayır. Bunun sayəsində cinayət təqibi üzrə fəaliyyəti həyata keçirən orqanlar ibtidai istintaq qarşısında duran vəzifələrin vaxtında və lazımi qaydada yerinə yetirilməsinə nail olur. Bizim elmi tədqiqatın məqsəd və vəzifələrini nəzərə alaraq prinsiplərdən bəzilərinin cinayət təqibi üzrə fəaliyyəti həyata keçirən orqanların səlahiyyətləri üçün əhəmiyyətinin nəzərdən keçirilməsini məqsədəmüvafiq hesab edirik.

Cinayət təqibinin həyata keçirilməsində dövlətilik, rəsmilik və dispozitivlik prinsipinin üzərində daha ətraflı dayanmağı məqsədəuyğun sayırıq.

Artıq məlumdur ki, şəxsiyyətin, cəmiyyətin, dövlətin, ictimai qaydanın və digər sosial dəyərlərin cinayətkar qəsdlərdən qorunması, eləcə də cinayət törətmiş şəxslərin müəyyən edilməsi və onların ifşa edilməsi dövlətin mühüm vəzifəsi sayılır. Həmin vəzifə cinayət təqibinin həyata keçirilməsi ilə realizə edilir. Cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittihamın irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi məqsədilə həyata keçirilən cinayət-prosessual fəaliyyət təhqiqatçı, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora həvalə edilmişdir ki, bu da cinayət təqibinin həyata keçirilməsinə dövlətilik və ya rəsmiilik xarakteri vermişdir.

Cinayət təqbibinin həyata keçirilməsində dövlətilik (rəsmilik) prinsipinin mahiyyəti ondan ibarətdir ki, cinayət təqibi üzrə icraatı həyata keçirən orqan (prokuror, müstəntiq, təhqiqatçı) cinayət qanunu ilə nəzərdə tutulmuş əmələin baş verdiyi hal üzrə cinayət işi başlayır, cinayət təqibinin həyata keçirilməsini təmin edir. Cinayət-prosessual qanunvericilik təhqiqatçının, müstəntiqin və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun üzərinə cinayət təqibini həyata keçirmək vəzifəsi qoyaraq onlardan tələb edir ki, hazırlanan və ya törədilmiş cinayətlərin əlamətlərini əks etdirən əməllər barədə məlumatlar aldıqda və yaxud cinayət hadisəsini bilavasitə aşkar etdikdə cinayət-prosessual qanunvericiliklə müəyyən olunmuş qaydada cinayətlərin izlərini qorusun və yaxud ibtidai araşdırma aparsınlar.

Cinayət təqibini dövlət təhqiqatçı, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror vasitəsilə həyata keçirərək şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qoruyur, həqiqi və ya şübhə edilən cinayətin törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qoruyur, cinayətləri tezliklə açmağa cəhd göstərir, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırır, cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb edir, cinayət törətməkdə ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırır, insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından onun müdafiəsini təmin edir, hər bir cinayət təqibinin qanuniliyini və əsaslılığını müəyyən edir.

Cinayət təqibinin həyata keçirilməsində dövlətin mühüm vəzifəsi cinayətlərin açılması, cinayət törətmiş şəxslərin cəzalandırılması ilə məhdudlaşmır, onun vəzifəsi həm də bundan ibarətdir ki, cinayət törətməkdə təqsiri olmayan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə yol verilməsin. Cinayət təqibinin həyata keçirilməsi şəxsin əsassız təqsirləndirməkdən, onun haqqında ədalətsiz hökm çıxarmaqdan, habelə vəzifəli şəxslərin fəaliyyətindəki səhv nəticəsində yaranan neqativ təsirlərdən müdafiəsini təmin edir.

Qeyd etmək lazımdır ki, yalnız müstəsna hallarda, daha dəqiq desək, CPM-in dörd maddəsində cinayət təqibi yalnız və yalnız zərərçəkmiş şəxsin şikayəti əsasında həyata keçirilir və təqsirləndirilən şəxslə barışdıqda cinayət təqibinə xitam verilir.

Burada «yalnız və yalnız» ifadəsinin işlətməyimiz təsadüfi deyil. Ona görə ki, bir sıra hallar vardır ki, hələ hallarda qanunvericilik cinayət təqibiinin həyata keçirilməsini zərərçəkmiş şəxsin şikayəti olmadan da mümkün sayır. Lakin bu bir qayda olaraq belə olur. Belə ki, həmin işlər üzrə cinayət təqibinin həyata keçirilməsi prokurorun təşəbbüsü ilə də ola bilər.

Dövlətilik özünü ictimai və ictimai-xüsusi ittihamlı işlərdə göstərir.

İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi bir qayda olaraq zərər çəkmiş şəxsin şikayəti əsasında həyata keçirilir. CPM-in 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda isə prokurorun təşəbbüsü ilə həyata keçirilir.

İctimai ittihamlı işlərdə cinayət təqibinin həyata keçirilməsində dövlətilik prinsipi özünü bir də onda təzahür etdirir ki, CM-də xeyli maddələrlə cinayət təqibinin həyata keçirilməsi üçün zərərçəkmiş şəxsin şikayətinin olub olmamasının, onun iəqsirləndirilən şəxslə barışıb barışmamasının heç bir əhəmiyyətinin olmamasıdır. Bu cinayətlər isə əksəriyyət təşkil edir. Belə ki, CPM-in 37.2 və 37.3-cü maddələrində göstərilməyən bütün digər cinayətlər üzrə cinayət təqibi ictimai ittiham qaydasında həyata keçirilir.

CPM-in 37.2 və 37.3-cü maddələrində göstərilməyən bütün digər cinayətlər üzrə təhqiqatçı, müstəntiq və ya prokurorin birbaşa vəzifəsidir ki, hazırlanan, yaxud törədilən cinayətlər barədə məlumat alan kimi və yaxud cinayət hadisəsini bilavasitə aşkar edən kimi cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət təqibi üzrə icraata başlayıb onu həyata keçirsinlər.

Bəs dispozitivlik nədir? Ümumiyyətlə cinayət-prosessual hüquqda dispozitivlik mövcuddurmu?

Qeyd etdiyimz kimi cinayət təqibinin növlərindən biri də xüsusi ittihamlı işlərdir və cinayət təqibinin növlərindən biri olan həmin işlərdə cinayət işi başlamanın yalnız zərərçəkmiş şəxsin şikayəti ilə mümkünlüyünün «xüsusi ittihamlı işlər» adı altında öz yerini tapması cinayət təqibinin həyata kesirilməsində dispozitivliyin mövcüdlüğüna bariz nümunədir.

Ümumiyytlə bu məsələ ilə bağlı fikir ayrılıqları mövcüddür. Sovet cinayət prosesində dispozitivliyin olmadığını bildirən müəlliflər də vardır (8, s.123, 134).

Qeyd etmək lazımdır ki, yalnız zərərçəkmiş şəxsin şikayəti ilə cinayət təqibinin həyata keçirilməsini nəzərdə tutan maddələri əvvəlki CM-ə nisbətən artırılsa da cinayət təqibinin bu növünün dairəsi xeyli məhduddur. Fikrimizcə, bu maddələrin dairəsini genişləndirmək olar, bu həm də cinayətkarlıqla mübarizə siyasəti baxımından və bu siyasətin uğurla həyata keçirilməsi baxımından da məqsədəuyğundur.

Nəzərə alsaq ki, cinayətkarlqla mübarizə sisteminin, eləcə də cinayət, cinayət-prosessual və cəza-icra qanunvericiliyinin, onların tətbiqinin, ədliyyə orqanlarının fəaliyyətinin demokratikləşdirilməsi, cinayətkarlıqla mübarizə üzrə qanunvericiliyinin, ədliyyə orqanlarının fəaliyyətinin humanistləşdirilməsi də hüquq ədəbiyatında cinayətkarlıqla mübarizə siyasətinin istiqamətləri kimi qəbul edilir. Cinayətkarlıqla mübarizə siyasətinin əsas istiqamətlərində belə bir mövqe də vardır ki, az əhəmiyyətli, təhlükəli olmayan əməllərin inzibati və mülki hüquq pozuntuları kimi dəyəndirməklə onlar dekriminallaşdırılır. Bu mənada hesab edirik ki, döymə (CM-in 132-ci maddəsi), təhqir (148-ci maddə), əmlaknı ehtiyatsızlıqdan məhv edilməsi və ya zədələnməsi (187-ci maddə) kimi cinayətlərin CM-dən çıxarılması daha məqsədəuyğun olardı. Belə əməllərin inzibati və ya mülki-hüquqi məsuliyyət yaratması və müvafiq qaydada təsir tədbirlərinin görülməsi ilə kifayətlənmək tamamilə mümkündür və ədalətlidir. Bundan başqa, «minimum repressiya» prinsipinin həyata keçirilməsi, cəzanın labüdlüyü prinsipinin daha ardıcıl reallaşdırılması, liberal demokratik məhkəmə islahatıları, zərərçəkmişlərin cinayət mühakimə icraatından kənar hüquq və mənafelərinin müdafiəsini təmin edən alternativ «bərpaedici» ədliyyənin formalaşdırılması, əhalidə liberal demokratik hüquq düşüncəsinin formAlaşdırılması, çox mürəkkəb, zəruri, uzunmuddətli və son dərəcə zəruri vəzifədir. DemokRatik, hüquqi dövlətin qurulması məhz bu islahatlardan keçir (2, s.5). Cinayət təqibinin həyata keçirilməsində dispozitivlik prinsipi cinayətkarlqla mübarizə siyasəti baxımından əhəmiyyətli prinsip sayılmalıdır.

Görkəmli rus hüquqşünas alimi A.A.Melnikovun və digər bir sıra müəlliflərin fikirlərini ümumiləşdirməklə belə bir qənaətə gəlmək olar ki, ümumiyyətlə pozulmuş hüquqların məhkəmə müdafiəsi, bununla bağlı məhkəməyə müraciət etmək hüququ, tələbin həcmi və əsaslarının müəyyənləşdirilməsi, eləcə də onları dəyişdirmək əsasları, mübahisəli maddi hüquqlara və onların müdafiəsinin prosessual vasitələrinə dair sərəncam verilməsi prosesin gedişatına təsir edən prosessual hüquqlara sərəncam veriməsi cinayət təqibinin həyata keçirilməsində dispozitivliyi xarakterizə edən əsas meyarlardır (4, s.176).

Cinayətkarlıqla mübarizənin əsas istiqamətlərinin mühüm yer aldığı hüquq ədəbiyyatında belə bir mövqe geniş müəlliflər dairsəi tərəfindən müdafiə olunur ki, cinayətkarlıqla mübarizə sahəsində uğur əldə edilməsi üçün cinayət qanunlarının sərtləşdirilməsi yox, əksinə yumşaldılması daha məqsədəuyğundur. Fikrimizcə, cinayət təqibinin həyata keçirilməsində dispozitivlik prinsipinə geniş yer ayrılması cinayətkarlıqla mübarizə siyasətində uğur əldə edilməsinə əhəmiyyətli təsir göstərən amillərdən biridir. Nəzərə alsaq ki, əvvəlki cinayət-prosessual qanunvericiliyiə nisbətən indiki CPM-də dispozitiv normaların

dairəsi xeyli genişləndlirlmişdir, onda belə bir nəticəyə gəlmək olar ki, həyata keçirilən bu tədbirlər ölkəmizdə cinayətkarlıqla mübarizə sahəsində əlverişli vasitəyə çevriləcəkdir.

CPM-in 37.2-ci maddəsinə görə xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında həyata keçirilir və məhkəmə müşavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir.

Bu cinayətlər üzrə cinayət təqibi hər hansı istisnalar olmadan yalnız zərərçəkmiş şəxsin şikayəti əsasında həyata keçirilir.

Xüsusi ittihamlı işlər üzrə cinayət təqibinin başlanmasının və sonrakı inkişafının bu cür qaydası onunla şərtlənir ki, göstərilən bu cinayətlər xarakterinə görə zərərçəkmiş şəxs özü müəyyən etməlidir ki, həmin əməl zərərçəkmişin mənafelərinə toxunmuşdurmu, əgər toxunmuşdursa, o nə dərəcədə ciddidir və buna görə məhkəməyə müraciət etmək lazımdırmı və yaxud buna dəyərmi. Əgər zərərçəkmiş şəxs buna ehtiyac bilmirsə, məhkəməyə müraciət etməyə lüzum görmürsə, dövlət orqanlarının bu işə qarışmasına əsas yoxdur, o cümlədən dövlət orqanlarının bu işə qarışması məsələni mürəkkəbləşdirə bilər, yəni zərərçəkmişlə təqsirləndirilən şəxs arasında münasibətləri kəskinləşdirə və dərinləşdirə bilər (6, s.27).

Burada bir məsələni də qeyd etmək lazımdır ki, xüsusi ittihamlı işlər üzrə cinayət təqibinin həyata keçirilməsini tənzim edən köhnə Cinayət-Prosessual qanunvericilik müəyyən hallar nəzərdə tuturdu ki, həmin vaxt prokuror öz təşəbbüsü ilə cinayət işi başlayırdı və bu zaman zərərçəkmiş şəxsin təqsirləndirilən şəxslə barışması icraata xitam verilməsinə səbəb olmurdu. Lakin yeni cinayət-prosessual qanunvericilikdə cinayət təqibi üzrə icraatın başlanması təşəbbüsü istisnasız olaraq zərərçəkmiş şəxsin üzərinə qoyulmuşdur. Bu hüquq zərərçəkmiş şəxsin öz ixtiyarına buraxmışdır ki, bu da cinayət təqibinin həyata keçirilməsində dispozitivliyin xarakterik göstəricisidir.

CPM-də cinayət təqibini istisna edən hallar sırasında bəraət verici əsaslar olmadan cinayət təqibi üzrə icraata xitam verilməsit də vardır. Bu hala diqqət yetirməkdə məqsədimiz ondan ibarətdir ki, əslində cinayət təqibinin həyata keçirilməsində dispozitivlik özünü yalnız zərərçəkmiş şəxsin hüquqlarını deyil, həm də təqsirləndirilən şəxslərin müstəqil sərəncam vermək imkanlarını da nəzərdə tutur. Belə ki, bəraətverici əsaslar olmadan cinayət təqibini istisna edən hallar olduqda məhkəməyədək icraat zamanı cinayət təqibinə xitam verilməsi üçün şübhəli və ya təqsirəlndirilən şəxsin razılığının olmasını cinayət prosessual qanunvericilik zəruri sayır. Belə bir razılıq olmazsa hazırda qüvvədə olan cinayət prosessual qanunvericilikdə həmin şəxs barəsində cinayət təqibi faktiki başa çatmış sayılır. Lakin şübhəli və ya təqsirlənldirilən şəxsin hüququna hörmətlə yanaşılaraq iş üzrə icraatı həyata keçirən orqandan cinayət işi üzrə icraatı adi qaydada davam etdirməsinə, lakin bu icraatın həmin şəxsin ifşa edilməsinə və ya cəza təyin edilməsinə yönəlməməsini tələb edir. Bu zaman baxmayaraq ki, şübhəli və ya təqsirləndirilən şəxs özünü bəraət alacağını güman edir və buna görə də cinayət təqibinə xitam verilməsinə etiraz edir.

Cinayət qanununda nəzərdə tutulmuş cinayət məsuliyyətindən azad etmə halları mövcud olduqda artıq başlanmış cinayət təqibinə xitam verilərkən təqsirləndirilən şəxsin etiraz etməsi CPM-in 41.2-ci maddəsinə əsasən icraatın adi qadada davam etdirilərək məhkəmənin müvafiq qərarının çıxarılmasınadək çatdırılmasına səbəb olur. Lakin bu halda cinayət təqibini həyata keçirən orqan şəxsin ifşa edilməsinə yönələn, ona cəza təyin edilməsini müəyyən edən hərəkətlər etmir.

Qüvvədə olan cinayət-prosessual qanunvericilik cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar nəzərdə tutur. Bu cinayət məsuliyyətindən və cəzadan azad etmə hallarından ibarətdir ki, bu zaman təhqiqatçının və müstəntiqin prokurorla

razılaşdırılmış qərarına əsasən cinayət işi başlanmaya və ya başlanmışsa da ona xitam verə bilər.

Cinayət prosesinin prinsipləri sırasında, bir qayda olaraq, qanunçuluq prinsipi birinci yerdə durur. Hüququn universal prinsipi olan qanunçuluğun anlayışı Azərbaycan Respublikası CPM-nin 10-cu maddəsində verilmişdir. Ümumi şəkildə qanunçuluq prinsipi cinayət prosesinin bütün subyektləri tərəfindən qanunun bütün tələblərinə - Azərbaycan Respublikasının Konstitusiyasına, CPM-nə, Azərbaycan Respublikasının digər qanunlarına, habelə onun tərəfdar çıxdığı beynəlxalq müqavilələrə ciddi riayət edilməsi deməkdir.

Qanunçuluq prinsipi öz mahiyyəti etibarilə cinayət prosesinin digər prinsipləri üçün ümumi baza rolunu oynayır, çünki istənilən başqa prinsip yalnız qanunun yol verdiyi çərçivədə tətbiq edilə bilər. Məhz bu səbəbdən bəzi müəlliflər qanunçuluq prinsipini cinayət mühakimə icraatının prinsipləri sırasına daxil etmirlər (6, s.124-126).

Cinayət mühakimə icraatının mühüm prinsipləri sırasında Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasının da adını çəkmək olar. Azərbaycan Respublikası CPM-nin 12-ci maddəsində təsbit olunmuş bu prinsipə əsasən, cinayət təqibini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin konstitusion hüquq və azadlıqlarını təmin etmək üçün tədbir görməlidirlər.

Adı çəkilən prinsipdən çıxış edərək qeyd etmək olar ki, cinayət təqibini həyata keçirən orqan öz prosessual fəaliyyətini həyata keçirərkən cinayətdən zərərçəkmiş şəxsə dəymiş mənəvi, fiziki və maddi ziyanın kompensasiya edilməsi, habelə vətəndaşların digər hüquq və azadlıqlarının təmin edilməsi üçün bütün mümkün üsul və vasitələrdən istifadə etməyə borcludur.

Cinayət təqibi gedişində insanların həyat və səhhətini, ətraf mühiti təhlükə altına alan prosessual hərəkətlərə yol verilə bilməz, belə təhlükənin yarandığı hallar mövcud olduqda isə bu barədə əhaliyə məlumat verilməlidir.

Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması prinsipinin xüsusi bir tərkib hissəsi də CPM-nin 18-ci maddəsində ayrıca nəzərdə tutulmuş mülkiyyət hüququnun təmin edilməsidir. Mülkiyyət hüququ insanın ayrılmaz və təbii hüquqlarından biri olduğundan cinyaət təqibini həyata keçirən orqan həmin hüququn, başlıcası isə xüsusi mülkiyyət hüququnun toxunulmazlığına riayət etməli, cinayət təqibi gedişində əmlakla bağlı prosessual hərəkətləri həyata keçirərkən xüsusilə diqqətli olmalıdır. Burada nəzərə alınmalıdır ki, pul cərimələrinin tətbiqi, habelə əmlak üzərinə həbs qoyulması yalnız məhkəmənin qərarı ilə həyata keçirilir.

Cinayət mühakimə icraatının həyata keçirilməsi zamanı xüsusi əhəmiyyət kəsb edən şəxsiyyətin şərəf və ləyaqətinə hörmət edilməsi prinsipi və onun tərkibinə daxil olan qalan humanist dəyərlər Azərbaycan Respublikasının Konstitusiyasında bir başa təsbit edilmiş (32-ci, 33-cü, 46-cı maddələr) və Azərbaycan Respublikası CPM-də öz ifadəsini tapmışdır. Cinayət təqibi zamanı hər hansı bir prosessual hərəkəti həyata keçirərkən nəzərə alınmalıdır ki, insanın ləyaqətini alçaldan heç bir hərəkətə yol verilə bilməz. Cinayət təqibi gedişində işgəncələr vermək, fiziki və ya psixi zorakılıq tətbiq etmək, ümumiyyətlə, qəddar, qeyri-insani rəftar etmək, şəxsi fiziki iztirablara məruz qoyan, yaxud onun səhhətinin pozulması ilə müşayiət olunan eksperimentlər və başqa istintaq hərəkətlərini həyata keçirmək, zorakılıq və hədə-qorxu ilə ifadə almaq qəti qadağandır.

CPM-nin 16-cı və 17-ci maddələri Konstitusiyanın 32-ci və 33-cü maddələrinin göstəricilərini inkişaf etdirərək şəxsi həyatın sirrinin, yazışma vasitələri ilə ötürülən məlumatların sirrinin saxlanılması hüququnun, mənzil toxunulmazlığı, habelə xidməti və istehsalat binalarının toxunulmazlığı hüququnun məhdudlaşdırılmasının yalnız məhkəmə qərarı əsasında mümkünlüyünü nəzərdə tutur. Ona görə də cinayət tiqibini həyata keçirən şəxs

qeyd olunan hüquq və azadlıqların məhdudlaşdırılması zərurəti ilə üzləşdikdə (məsələn, mənzildə axtarış aparmaq zərurəti yarandıqda) əsaslandırılmış vəsatətlə ibtidai istintaqa rəhbərlik edən prokurora, o isə müvafiq təqdimatla məhkəməyə müraciət etməlidir.

Vətəndaşların şəxsi hüquq və azadlıqları ən yüksək əhəmiyyətli sosial dəyərlərdən olduğundan onların məhdudlaşdırılması barədə qərar qəbul edərkən xüsusilə diqqətli olmaq tələb olunur. Həmin dəyərlərə qəsd edilməsi cinyaət təqibini həyata keçirən orqanın və səlahiyyətli subyektin hüquqi məsuliyyətinə, o cümlədən cinayət məsuliyyətinə səbəb ola bilər.

Cinayət təqibi gedişində ciddi riayət edilməli olan prinsiplərdən biri də cinayət prosesinin bir sıra iştirakçılarının hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi prinsipidir. Bu prinsip də Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş (61-ci maddə) şəxsiyyətin hüquq və azadlıqlarının mühüm təminatlarından biridir. Həmin konstitusion norma Azərbaycan Respublikası CPM-nin 19-cu və bir sıra başqa maddələrində inkişaf etdirilərək cinayət mühakimə icraatının əsas prinsiplərindən birini təşkil etmişdir. Hüquqi yardım almaq və müdafiə hüququ təkcə şübhəli və ya təqsirləndirilən şəxsə deyil, zərərçəkmiş şəxsə, mülki iddiaçıya və cavabdehə, yaxud onların qanuni nümayəndəsinə, habelə şahidə məxsusdur. Ona görə də müstəntiq bu şəxslərdən istənilən birinin keyfiyyətli hüquqi yardım almaq, o cümlədən bilavasitə ibtidai istintaq gedişində vəkillə birgə iştirak etmək hüququnu təmin etməyə borcludur.

Şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi onların tutulduğu, həbsə alındığı andan və ya şübhəli şəxs qismində birinci dindirməyədək, yaxud təqsirləndirilən şəxsə ittiham elan edildiyi andan müdafiəçinin yardımından istifadə etmək hüququnda, cinayət təqibini həyata keçirən orqan tərəfindən onların hüquqlarının izah edilməsində, öz müdafiəsini hazırlamaq üçün onlara kifayət qədər vaxt verilməsində, zərurət olduqda dövlət hesabına hüquqi yardım almaq, əleyhinə ifadə vermiş şahidləri dindirmək hüququnda ifadə olunmuşdur. Şübhəli və ya təqsirləndirilən şəxs özünü müdafiə edərkən, yaxud müdafiəçinin köməyi ilə müdafiə olunarkən qanunvericilik yol verdiyi istənilən vasitələrdən istifadə etmək hüququna malikdir və bunun üçün lazımi şərait yaradılmalıdır. Lakin həmin şəxslər qeyd olunan vasitələrdən sui-istifadə etdikdə müəyyən məhdudlaşdırıcı tədbirlər görilə bilər. Məsələn, CPM-nin 285.4-cü maddəsinə əsasən, proses iştirakçıları cinayət işinin materialları ilə tanış olmaq vaxtını süni surətdə uzatdıqda, müstəntiq cinayət işinin həcmini və onunla tanış olmaq üçün kifayət olan vaxtı nəzərə almaqla cinayət işinin materialları ilə tanış olmaq üçün cədvəl müəyyən edə bilər.

Hüquqi yardım almaq və müdafiə hüququ kifayət dərəcədə təmin edildikdə proses iştirakçılarının fəallığı artmış olur ki, bu da cinayət təqibi gedişində mühüm prosessual vəzifələrindən birinin — işin hərtərəfli, obyektiv və tam araşdırılması vəzifəsinin müvəffəqiyyətlə yerinə yetirilməsinə xidmət edir.

Cinayət mühakimə icraatının daha bir konstitusiya prinsipi təqsirsizlik prezumpsiyasıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 63-cü maddəsində təsbit olunmuş bu prinsipin təfsilatı CPM-nin 21-ci maddəsində verilmişdir.

Təqsirsizlik prezumpsiyası dedikdə, hər bir şəxsin, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyincə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmayınca təqsirsiz sayılması başa düşülür (6, s. 351-352). Lakin hüquq ədəbiyyatında bu prinsipin başqa cür ifadə olunmasına da rast gəlinir. Məsələn, qeyd olunur ki, şəxsin təqsiri qanunla müəyyən edilmiş qaydada sübuta yetirilməyincə və bu, müvafiq prosessual aktda — məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmündə ifadə olunmayınca o, təqsirli hesab edilə bilməz (5, s.130-131). Lakin bu fikir bir qədər qüsurludur. Çünki təqsirsizlik prezumpsiyası prinsipi tələb edir ki, şəxsin təqsiri qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə təsdiqlənməyincə o təqsirsiz hesab edilməlidir. Lakin yuxarıda

qeyd olunan fikirdən belə bir nəticə çıxır ki, şəxs onun barəsində məhkəmənin ittiham hökmü qüvvəyə mindiyi andan təqsirli hesab edilməlidir və həmin anadək onun təqsirsiz olması məsələsi açıq qalır. Təqsirsizlik prezumpsiyasının belə başa düşülməsi şəxsin ittiham hökmü qüvvəyə minənədək də təqsirli olmasını düşünməyə yol verir, lakin o, yalnız belə hökm qüvvəyə mindikdən sonra rəsmi olaraq təqsirli hesab edilir.

Ölkəmizin Konstitusiyasının qeyd olunan norması, habelə Azərbaycan Respublikası CPM-nin 21-ci maddəsi isə şəxsi ittiham hökmü qanuni qüvvəyə minənədək təqsirsiz hesab etməyi tələb edir. Lakin cinayət-prosessual qanunvericiliyin təhlili imkan verir ki, təqsirsizlik prezumpsiyası bundan da geniş mənada təfsir edilsin. Belə ki, məsələn, məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü Azərbaycan Respublikası CPM-nin 49-cu fəslinə müvafiq olaraq əlavə kassasiya qaydasında ləğv edilə bilər və şəxs bu halda təqsirsiz hesab edilməlidir.

Respublikamızın yeni Cinayət Prosessual Məcəlləsi təqsirsizlik prezumpsiyasını bir sıra prinsipial şərtlərlə tamamlamışdır. Belə ki, CPM-nin 21-ci maddəsinə əsasən şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir. Aradan qaldırılması mümkün olmayan istənilən şübhələr təqsirləndirilən və ya şübhəli şəxsin xeyrinə həll edilməlidir. Ona görə də cinayət təqibi gedişində bütün şübhələr yalnız möhtəbər sübutlarla həll edildikdən sonra onlara istinad edilə bilər.

Təqsirsizlik prezumpsiyasının digər bir mühüm elementi ondan ibarətdir ki, şəxsin təqsirliliyini sübut etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür. Təqsirləndirilən və ya şübhəli şəxs özünün təqsirsiz olduğunu sübuta yetirməyə borclu deyildir. Cinyaət təqibini həyata keçirən orqan tərəfindən bu müddəanın pozulması, yəni təqsirləndirilən və şübhəli şəxsdən özünün təqsirsizliyinin sübut edilməsinin tələb edilməsi təqsirsizlik prezumpsiyası prinsipinə tam ziddir, çünki belə tələbin irəli sürülməsi, həmin şəxslərin təqsirli hesab edilməsi demək olardı.

Cinayət təqibi gedişində bu fəaliyyəti həyata keçirən orqan tərəfindən öz vəzifələrinin yerinə yetirilməsində mühüm əhəmiyyət kəsb edən prinsiplərdən biri də cinayət prosesində tərəflərin çəkişməsi prinsipidir. Azərbaycan Respublikası CPM-nin 32-ci maddəsində təsbit edilmiş bu prinsip daha çox məhkəmə araşdırması mərhələsinə aid olsa da, ibtidai istintaq mərhələsində də ona riayət edilməsi vacibdir. Adı çəkilən prinsipə əsasən, cinayət mühakimə icraatı ittiham və müdafiə tərəflərinin çəkişməsi əsasında həyata keçirilir. Çəkişmə prinsipi hər bir tərəfin məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malik olmasını nəzərdə tutur. Cinayət prosesinin hər bir tərəfi heç kimdən asılı olmayaraq müstəqil surətdə öz mövqeyini seçir və onu müdafiə etmək üçün öz vasitə və üsullarını müəyyən edir.

Azərbaycan Respublikası CPM-si cinyaət təqibini həyata keçirən şəxsi də ittiham tərəfinə aid etmişdir. Lakin artıq qeyd edildiyi kimi, cinyaət təqibini həyata keçirən şəxs işin həll edilməsi üzrə də geniş səlahiyyətləri vardır və o, yalnız təqsirləndirilən şəxsi ittiham edən sübutları deyil, ona bəraət verən və ya onun vəziyyətini yüngülləşdirən sübutları da toplamağa borcludur. Bu səbəbdən tərəflərin çəkişməsi prinsipinin təmin edilməsində cinyaət təqibini həyata keçirən şəxsin də rolu böyükdür. O, müdafiəçiyə və ya təqsirləndirilən (şübhəli) şəxsə öz xeyrinə sübutlar toplamaqda kömək etməyə, onların vəsatətlərinə və başqa müraciətlərinə lazımi qaydada reaksiya verməyə, ayrı-ayrı istintaq hərəkətlərinin gedişində onların lazımi qaydada iştirakını təmin etməyə, ortaya çıxmış bəraətverici sübutları da öz təşəbbüsü ilə toplamağa və cinayət işinə əlavə etməyə borcludur.

Respublikamızın yeni cinayət-prosessual qanunvericiliyində cinayət mühakimə icraatının ayrıca prinsipləri təsbit olunmasa da, bir sıra başqa müddəalar da cinyaət təqibini həyata keçirən orqan tərəfindən öz prosessual vəzifələrini həyata keçirərkən mühüm əhəmiyyətə malikdir. Bunlara aid edilə bilər: ibtidai istintaqın tam, hərtərəfli və vaxtında

aparılması; ibtidai istintaqın təkbaşına həyata keçirilməsi; cinyaət təqibini həyata keçirən şəxsin zəruri prosessual müstəqilliyə malik olması; ibtidai istintaq məlumatlarının yayılmasına yol verilməməsi; ibtidai istintaqın obyektiv, qərəzsiz və ədalətli aparılması. Qeyd edilən müddəalar cinayət-prosessual qanunvericiliyin müxtəlif normalarında, dolayısı ilə də olsa, təsbit edilmişdir. Lakin cinayət mühakimə icraatının prinsiplərindən fərqli olaraq onların pozulması müvafiq prosessual qərarın və ya prosessual hərəkətin nəticəsinin birmənalı şəkildə etibarsız hesab edilməsinə səbəb olmur. Buna baxmayaraq, həmin müddəalara ciddi riayət edilməsi cinayət mühakimə icraatının vəzifələrinin, o cümlədən cinayət təqibinin müvəffəqiyyətlə yerinə yetirilməsində çox vacib əhəmiyyətə malikdir.

Cinayət təqibinin həyata keçirilməsində cinayət prosesinin prinsiplərinin əhəmiyyəti haqqında yuxarıda qeyd edilənləri ümumiləşdirərək göstərmək olar ki, həmin prinsiplər sadəcə bəyannamə xarakterli müddəalar deyildir. Onların hər biri konkret hüquqi məsələlərin həlli zamanı tətbiqi məcburi olan rəhbər müddəaları özündə əks etdirən xüsusi növ hüquq normalarıdır. Həmin normalar dövlətin məcburetmə qüvvəsi, prosessual-hüquqi və başqa hüquqi təminatlarla həyata keçirilir. Lakin nəzərə almaq lazımdır ki, bəzi hallarda qanun və prisiplərin müəyyən qədər məhdudlaşdırılmasına yol verilir. Məsələn, Azərbaycan Respublikası CPM-nin 14-cü maddəsi azadlıq hüququnun təmin edilməsi prinsipini təsbit etməklə eyni zamanda qanunla yol verilən qaydada və əsaslarla həmin hüququn məhdudlaşdırılmasını da nəzərdə tutmuşdur. Bu baxımdan cinyaət təqibini həyata keçirən şəxs cinayət təqibi üzrə öz vəzifələrini yerinə yetirərəkən bu və ya başqa prinsipdən kənara çıxmaların da mövcud olduğunu nəzərə almalı, lakin belə kənaraçıxmalara yalnız qanunun müəyyən etdiyi qaydada və əsaslarla, obyektiv zərurətdən çıxış edərək yol verməlidir.

İstifadə olunmuş ədəbiyyat

1. Cəfərquliyev M. Ə. Cinayət prosesi. Dərslik. B., «Qanun», 2005.
2. Бородин С.В. Борьба с преступностью: теоритическая модель комплексной программы М., «Наука», 1990.
3. Курс советского уголовного процесса /Под ред. А.Д.Бойкова и И.И.Карпеца. М., 1989.
4. Мельников А.А. О публичности и диспозитивности как принципах судебного права. М., «Наука», 1983.
5. Советский уголовный процесс /Под редакцией М.И.Бажанова. Киев, 1983.
6. Строгович М.С. Курс советского уголовного процесса. Том I. М., 1968.
7. Уголовный процесс России: лекции-очерки /Под ред. А. М.Ларина. М., 1997.
8. Чельцов М.А. Система основных принципов советского уголовного процесса. Москва, Ученые записки ВИЮН, 1946, выпуск 6.
9. Чувилев А.А., Добровольская Г.Н. Особенности преподавания курса уголовного процесса в вузах МВД СССР. М., 1985.
10. Якупов Р.Х. Принципы уголовного процесса. Лекция. М., 1997.
11. Якупов Р.Х. Уголовный процесс. М., 1999.

Шяфаят ИМРАНОВ

ВАЖНОСТЬ ПРИНЦИПОВ УГОЛОВНОГО ПРОЦЕССА В ПРОВЕДЕНИИ В ЖИЗНЬ РАССЛЕДОВАНИЯ ПРЕСТУПЛЕНИЯ

Резюме

Проведение в жизнь расследования преступления наряду с том, что является важной процессуальной деятельностью, имеет исключительное значение в борьбе с преступностью и её предотвращении. В условиях, когда высшей целью Азербайджанского Государства провозглашается осуществление прав и свобод человека в строгом следовании принципам и условиям, установленным законодательством.

Игнорирования или не следование процессуальным принципам, определенным при расследования преступления считается нарушением главного закона и ставит под сомнение собранные доказательства. Поэтому, в данной статье обосновывается важность и значение придерживание процессуальных принципов во время расследования преступления.

Shafahat IMRANOV

AN IMPORTANCE OF THE CRIMINAL PRODUCT PRINCIPLES IN CARRYING OUT THE INVESTIGATION OF A CRIME

Summary

Carrying out the investigation of a crime being an important procedure activity is also of exceptional significance in the struggle against criminality and its prevention.

In the conditions when as a high objective of Azerbaijan state exercising his rights and freedoms of a man in strict conformity with the principles and conditions determined by the legislation is proclaimed.

Not following or attaching the procedure principles determined for investigation of a crime is considered to be a violation of law and calling the evidences collected in question. Therefore, in the present article the importance and significance of following the procedure principles at investigating the crime are substantiated.

ELMİ ƏSƏRLƏR

elmi-nəzəri jurnal

№ 2-3(13)

KOMPÜTER DİZAYNERİ VƏ OPERATORU:

Mehriban ƏLİYEVA

Yığılmağa verilmişdir: 05.03.2008.
Çapa imzalanmışdır: 16.04.2008.
Kağız formatı: 70x100 4/1.
Çap vərəqi: 13. Tirajı 200.

Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur.
Ünvan: H.Cavid pr-ti 31.
Tel.: 403-15-11, 510-28-41